AXUNDLAR ÜÇÜN

# MÜXTƏLİF MÖVZULARDA MOİZƏLƏR

*Bismillahir-rəhmanir-rəhim*

AXUNDLAR ÜÇÜN

# MÜXTƏLİF MÖVZULARDA MOİZƏLƏR

Tbilisi 2019

***Axundlar üçün  müxtəlif mövzularda moizə nümunələri***


Toplayan və tərcümə edən:

**Hacı Elçin Əliyev**

Redaktor:

**Hacı Elvin Bayramov**

Kompüter Dizaynı:

**Məşədi Elmar Mamedov**



© *Gürcüstan Müsəlmanları İdarəsi*

# 1-ci Fəsil

# ƏQİDƏVİ MÖVZULAR

## ALLAHI TANIMAĞIN YOLLARI

### Quran ayələrinə əsasən Allahı tanımağın yolları

Ümumiyyətlə insan üç yol vasitəsi ilə Allahı tanıya bilər.

A- Fitri yol
B- Hiss, elm və təbiət yolu
C- Əqli sübut yolu

### 1- Fitri yol

Fitrət dedikdə nəzərdə tutulan həqiqət ondan ibarətdir ki, hər bir insan dünyaya göz açdığı vaxtdan, qəlbinin dərinliyində Xaliqin olmasını hiss edir. Bu elə bir hissdir ki, onu inkar etmək mümkün deyil. Allah-taala onun varlığını inkar edənlərə cavab olaraq, eləcə də uca Xaliqin varlığının hər kəsin fitrətində olduğunu bildirmək üçün buyurur:

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَتَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ
ذَٰلِكَ الدِّينُ الْقَيِّمُ وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

(Ya Rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini (Onun yaratdığı tövhid dini olan islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti (haqq dininin islam olduğunu) bilməz. (Allah bütün insanları xilqətcə müsəlman – təkallahlı yaratmışdır, lakin ata-anaları onları başqa dinlərə sövq etmiş, yaxud onlar yaşa dolduqda öz nadanlıqları üzündən batil dinlərə - bütpərəstliyə uymuşlar).[1]

---

[1] (Rum, 30).

## 2- Hiss, elm və ya təbiət yolu

Hiss və elm dedikdə məqsəd budur ki, insan yaradılış barədə mütaliə edib, əqli təfəkkür vasitəsi ilə, bu yaradılmışların sahibsiz olmadığına yəqin edir.

Allah-taala buyurur:

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاخْتِلَافِ اللَّيْلِ وَالنَّهَارِ لَآيَاتٍ لِأُولِي الْأَلْبَابِ الَّذِينَ يَذْكُرُونَ اللَّهَ قِيَامًا وَقُعُودًا وَعَلَىٰ جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِي خَلْقِ السَّمَاوَاتِ وَالْأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَٰذَا بَاطِلًا سُبْحَانَكَ فَقِنَا عَذَابَ النَّارِ

Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru![1]

## 3- Əqli sübut yolu

Biz dünyadakı və səmada olan bütün varlıqların asılı olduğunu bilirik. Misal üçün insanın öz həyatına davam etməsi üçün bir çox şeyə, o cümlədən nəfəs almağa ehtiyacı var. Bu, insanın yaşaması üçün lazım olan vasitələrdən biridir. Kainatdakı bütün planetlər və ulduzlar da məhv olmamaq üçün hər hansı bir gücə ehtiyacları var. Əql bunu qəbul edir ki, bu bağlılıq və aslı olmaq, hardasa dayanmalı, heç kəsdən və heç bir şeydən aslı olmayan bir varlıq olmalıdır.

Rəhman Allahımız buyurur:

يَا أَيُّهَا النَّاسُ أَنْتُمُ الْفُقَرَاءُ إِلَى اللَّهِ ۖ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir. O (hər cür) şükrə (tərifə) layiqdir! (Onun bütün işləri bəyənilləndir!)[2]

[1] (Ali-İmran 190-191).
[2] (Fatir, 15).

Həzrət İbrahim (ə) bütlərin Xaliq olmadığını inkar etdikdən sonra, ulduz, ay və günəşin də Xaliq olmadığını dilə gətirərək belə deyir:

فَلَمَّا جَنَّ عَلَيْهِ اللَّيْلُ رَأَىٰ كَوْكَبًا قَالَ هَٰذَا رَبِّي فَلَمَّا أَفَلَ قَالَ لَا أُحِبُّ الْآفِلِينَ فَلَمَّا رَأَى
الْقَمَرَ بَازِغًا قَالَ هَٰذَا رَبِّي فَلَمَّا أَفَلَ قَالَ لَئِنْ لَمْ يَهْدِنِي رَبِّي لَأَكُونَنَّ مِنَ الْقَوْمِ الضَّالِّينَ فَلَمَّا
رَأَى الشَّمْسَ بَازِغَةً قَالَ هَٰذَا رَبِّي هَٰذَا أَكْبَرُ فَلَمَّا أَفَلَتْ قَالَ يَا قَوْمِ إِنِّي بَرِيءٌ مِمَّا تُشْرِكُونَ

Gecə qaranlığı (onu) bürüdükdə o, bir ulduz görüb: “Bu mənim Rəbbimdir!” dedi. (Ulduz) batdıqda isə: “Mən batanları sevmirəm”, söylədi. (Sonra) doğan ayı görüb: “Bu mənim Rəbbimdir!” – dedi. (Ay) batdıqda isə: “Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən zəlalətə düşənlərdən olardım”, - söylədi. (Daha sonra) doğan günəşi görüb: “Bu mənim Rəbbimdir, bu, daha böyükdür! ” – dedi. (Günəş) batdıqda isə dedi: “Ey camaatım, mən, həqiqətən, sizin Allaha şərik qoşduqlarınızdan (bütlərdən, səma cisimlərindən) uzağam![1]

## Hədislərə görə Allahı tanımağın yolları

Qeyd olunan mövzu barədə çox sayda hədis və rəvayətlər var. Yazının uzanmaması üçün, nümunə olaraq aşağıdakı başlıq və onlara aid olan bəzi rəvayətləri qeyd edirik.

### Allahın təkliyini sübut edən dəlil

سئل زنديق عن الصادق (ع) ما الدليل على صانع العالم فقال: وجود الافاعيل التى دلت على ان
صانعها. الا ترى انک اذا نظرت الى بناء مشيد علمت ان له بانيا و ان کنت لم تر البانى و لم تشاهده

Bir nəfər İmam Sadiqdən (ə) soruşur: Dünyanın Xaliqi olduğunu necə sübut edə bilərsən? İmam (ə) buyurur: Bu aydındır ki, hər bir yaranmışın bir yaradanı var. (Misal üçün) Əgər hər hansı bir binanı görsək, o binanın ustasını görməsək belə, onun usta tərəfindən inşa edildiyinə yəqin edərik. [2]

### Yaradılış aləminin yaranmış olduğu, Allahın varlığına bir sübutdur

[1] (Ənam, 76-78).
[2] (Tövhid kitabı, hədis 244).

قد سئل عن الرضا (ع) عن الدليل على حدوث العالم فقال انت لم تكن ثم كنت و قد علمت انّک لم تکوّن نفسک و لا كوّنک من هو مثلك

İmam Rzadan (ə) dünyanın yaranmasına dəlil gətirməsini istədilər. O cənab dedi: Bir vaxt var idi ki, sən yox idin. Zaman keçdi və sən dünyaya gəldin. Sən yaxşı bilirsən ki, özün, özünün yaradanı deyilsən və səni kimisi də, səni yaratmağa güc və qüdrəti yox idi.[1]

Hədisdə imam (ə) sual verən şəxsə başa salmaq istəyir ki, yaradılanların hər biri yaranmışdır və yaranmışların özü, varlıq aləminin yaradanı ola bilməzlər.

**Gözlənilməyən və həyata keçməsinə inanmadığımız hadisələrin gerçəkləşməsi, Allahın varlığına bir dəlildir**

قال على (ع): عرفت الله بفسخ العزائم و حلّ العقود و نقض الهمم

İmam Əli bu barədə buyurur: Ciddi qərarların dəyişməsi, açılmayan düyünlərin açılması və iradələrin dəyişməsi ilə Allahı tanıdım.[2]

**Allahı qəlbin gözü ilə görmək olar**

سئل رجل عن الباقر (ع) عن رؤية الله فقال: لم تره العيون بمشاهدة الابصار و لكن رأته القلوب بحقائق الايمان

Bir nəfər imam Baqirə (ə) Allahı görmək barədə sual verdi. O cənab şəxsin cavabında buyurdu: Heç kəs Allahı zahirdəki gözü ilə görməyib, lakin insanlar onu iman gücü sayəsində qəlbləri ilə dərk edirlər.[3]

**Allahın bizə verdiyi çox sayda nemətlər, onun varlığının isbatıdır**

قال الصادق (ع): ما اقبح بالرجل يأتى عليه سبعون سنة او ثمانون سنة يعيش فى ملك الله و يأكل من نعمه ثم لا يعرف الله حق معرفته

İmam Sadiq (ə) buyurur: Həqiqətən də insan övladına yaraşmayan bir xüsusiyyətdir ki, 70-80 il ömür yaşayır, Allahın yaratdığı yer kürəsində həyat

---

[1] ( Tövhid kitabı, səh.52).
[2] (Nəhcül-Bəlağə, Hikmətli sözlər,250).
[3] (Biharul-Ənvar,cild 4, səh.26).

qurur, onun verdiyi nemətlərdən bəhrələnir, amma lazım olduğu kimi Allahı tanımır. [1]

### Allahın sifətlərinin məhdud olmaması, Onun yeganə və misilsiz varlıq olduğunu bildirir

قال على (ع): الحمد لله الذى لا يبلغ مدحته القائلون و لا يحصى نعمائه العادون و لا يؤدى حقه المجتهدون الذى لا يدركه بعد الهمم و لا يناله غوض الفطن الذى ليس لصفته حد محدود و لا نعت موجود...

İmam Əli (ə) buyurur: Bütün danışanların mədh etməkdə və öyməkdə aciz qaldığı Allaha həmd olsun! Onun nemət və bəxşişlərini saymaq istəyənlər, sayıb qurtara bilməzlər.Çalışanlar Onun nemətlərinin haqqını qaytara bilməzlər.O, elə bir mə'buddur ki, dərin düşüncəlilər belə Onu dərk edə bilməzlər. Əql və fikir dəryasına dalanlar (düşüncə dənizinə baş vuranlar) Onun zatının əslinə vara bilməzlər. (Vücudu mümkün olan Onun zatının həqiqətlərini necə dərk edə bilər?) O, elə bir mə'buddur ki, sifətlərini əhatə edə bilən hüdud yoxdur. (Onun heç bir sifəti zatına əlavə deyil ki, məhdud olsun.)...[2]

[1] ( Biharul-Ənvar, cild,4.səh.54).
[2] (Nəhcül-Bəlağə, xütbə 1).

# TÖVHİDİN QİSMLƏRİ

Tövhid, Allahın tək bir varlıq olması mənasını daşıyır. Tövhidin dörd qismi var.

**A- Zati tövhid**
**B- Tövhid atrebutları**
**C- İbadətdə tövhid**
**D- Əfali tövhid**

## Zati tövhid

Yəni Allahın zatı birdir və o əzəli olaraq tək və vahid olub. İxlas surəsi zati tövhidin tam mənasını ifadə edir.

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ قُلْ هُوَ اللَّهُ أَحَدٌ اللَّهُ الصَّمَدُ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ

De: "O Allah Təkdir! Allah möhtac deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur".[1]

### Tövhid atributları

Allahda olan bütün sifət və xüsusiyyətlər, o cümlədən onun qüdrəti, elmi, xaliq olması və digər xüsusiyyətləri, onun zatına aiddir və zatından ayrı deyil.

Buna dəlil olaraq çox sayda Quran ayələri var. Allah-mütəal buyurur:

لَيْسَ كَمِثْلِهِ شَيْءٌ ۖ وَهُوَ السَّمِيعُ الْبَصِيرُ

... Onun heç bir bənzəri yoxdur. O, eşidəndir, görəndir.[2]

### İbadətdə tövhid

İbadətdə tövhidin mənası budur ki, yalnız Allahı ibadətə layiq bilib və ondan başqa heç kəsə bunu layiq bilməsin. Allah Peyğəmbərə (s) xitab edərək, buyurur:

وَمَا أَرْسَلْنَا مِنْ قَبْلِكَ مِنْ رَسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدُونِ

Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir ilah yoxdur, Mənə ibadət edin! "– deyə vəhy etməyək.[3]

---

[1] (İxlas,1-4).
[2] (Şura,11).
[3] (Ənbiya 25).

## Əfali tövhid

Yəni varlıq aləmindəki bütün işlər yalnız Allahın izni ilə baş verir. Bu növ tövhid iki hissəyə bölünür:

**A) Xaliqiyyət tövhidi** Məqsəd budur ki, bütün varlıqların xaliqi Allahdır.

يَا أَيُّهَا النَّاسُ اذْكُرُوا نِعْمَتَ اللَّهِ عَلَيْكُمْ ۚ هَلْ مِنْ خَالِقٍ غَيْرُ اللَّهِ يَرْزُقُكُمْ مِنَ السَّمَاءِ وَالْأَرْضِ ۚ لَا إِلَٰهَ إِلَّا هُوَ ۖ فَأَنَّىٰ تُؤْفَكُونَ

Ey insanlar! Allahın sizə verdiyi lütfünü bir xatırlayın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı? Ondan başqa heç bir məbud yoxdur. Necə də (haqdan) döndərilirsiniz![1]

**B) Rübubiyyətdə tövhid.** Yəni varlıq aləminin tədbir və idarə edəni Allahdır.

قُلْ أَغَيْرَ اللَّهِ أَبْغِي رَبًّا وَهُوَ رَبُّ كُلِّ شَيْءٍ ۚ وَلَا تَكْسِبُ كُلُّ نَفْسٍ إِلَّا عَلَيْهَا ۚ وَلَا تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَىٰ ۚ ثُمَّ إِلَىٰ رَبِّكُمْ مَرْجِعُكُمْ فَيُنَبِّئُكُمْ بِمَا كُنْتُمْ فِيهِ تَخْتَلِفُونَ

De: "Allah hər şeyin Rəbbi olduğu halda, mən Ondan başqa tanrımı axtaracağam? " Hər kəsin qazandığı (günah) yalnız öz əleyhinədir. Heç bir günahkar başqasının günahını daşımaz. Sonra isə dönüşünüz Rəbbinizə olacaq və O, ziddiyyətə düşüb çəkişdiyiniz məsələlər barədə sizə xəbər verəcəkdir.[2]

### Hədislərdə Tövhid

**Özünü tanımaqla, Allahı tanıya bilərsən**

قال على (ع): من عرف نفسه عرف ربه

İmam Əli (ə) buyurur: Hər kim özünü tanısa, şübhəsiz ki, Allahını da tanıyar.[3]

**Ən üstün mərifət**

قال على (ع): معرفة الله سبحانه اعلى المعارف

İmam Əli (ə) buyurur: Allahı tanımaq, ən uca və üstün mərifətdir.[4]

**Allahı tanımağın həqiqəti**

---

[1] ( Fatir,3).
[2] ( Ənam,164).
[3] (Ğurərul-Hikəm, hədis.7946).
[4] (Ğurərul-Hikəm, hədis.9864).

قال الحسين (ع): جاء رجل إلى رسول الله (ص) و قال: ما رأس العلم؟ قال معرفة الله حق معرفته. قال: و ما حق معرفته؟ قال: أن تعرفه بلا مثال و لا شبيه و تعرفه الهاً واحداً خالقاً قادراً اوّلاً و آخراً ظاهرا و باطنا لا كفو له و لا مثل له

İmam Hüseyn (ə) buyurur: Bir nəfər Allah rəsulunun (s) yanına gəlib, ondan soruşdu: Elmin kökü nədir? Peyğəmbər (s) buyurdu: Allahı layiq olduğu kimi tanımaq, elmin əsası və köküdür. Həmin şəxs dedi: Bəs tanımağın haqqı nədir? Peyğəmbər (s) buyurdu: Allahı, ona heç bir kəsin və heç bir şeyin oxşar olmadığını, onun tək, bacarıqlı və qüdrətli yaradan, əzəli və əbədi, zahirdə və batində olduğunu tanıyaraq, tanımağın haqqını əda etmiş olarsan. [1]

## Allahı tanımağın insana olan təsirləri

### a) Allahı tanımaqla, insanın qəlbində Allah qorxusu yaranar

Peyğəmbər (s) buyurur: Hər kəs Allahı daha çox tanısa, onun Allahdan qorxusu da çox olar.[2]

### b) Allahı tanısaq, Allah ilə çox ünsiyyət qurar və dualarımız çoxalar

İmam Əli (ə) buyurur: İnsanların ən ağıllısı o şəxsdir ki, Allahdan hamıdan çox tələb etsin. (Çoxlu dua etsin).[3]

### c) Axirət üçün daha çox çalışarıq

Əli (ə) buyurur: Təəccüb edirəm o şəxsə ki, Allahı tanıyıb, amma əbədi qalacağı axirəti üçün çalışmır.[4]

### d) Allahın bizə bəxş etdiklərinə razı olarıq

İmam Sadiq (ə) buyurur: Allahı ən yaxşı tanıyan o şəxslərdir ki, Allahın onlara bəxş etdiyi şeylərə razı olsunlar.[5]

---

[1] (Camiul-Əxbar, səh.36).
[2] ( Biharul-Ənvar, cild.70. səh,393).
[3] ( Ğurərul-Hikəm, hədis 3260).
[4] (Ğurərul-Hikəm, hədis.6265).
[5] (Tənbihul-Xəvatir, cild.2.Səh,184).

# ALLAHIN ƏDALƏTİ

Çox əhəmiyyət kəsb edən əqidə mövzularından biri də, Allahın ədaləti mövzusudur. Qurani-kərimdə Allaha nisbət verilən “Ədalət” sözü yoxdur. Ancaq Quranın bir çox ayələrində Allahın “zalim” olmaması kimi cümlələrə çox rast gəlmək olar. Bu da Rəhman olan Xaliqin ədalətli olmasına bir sübutdur.

Misal üçün, Allah-taala buyurur:

إِنَّ اللَّهَ لَا يَظْلِمُ النَّاسَ شَيْئًا وَلَٰكِنَّ النَّاسَ أَنْفُسَهُمْ يَظْلِمُونَ

Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər.[1]

Həmçinin Həzrət Rəsulullah (s) buyurur: Ey insanlar! Allahdan qorxun. Allaha and olsun ki, əgər hər hansı bir mömin, digər bir mömin şəxsə zülm etsə, Allah onun intiqamını Qiyamət günündə mütləq alacaq.[2]

Ola bilər ki, bəzi insanlar başlarına gələn bəlalara görə, Allahın ədalətli olmasını qəbul etməyələr. Onlar deyə bilər ki, Allahın izni olmadan bu bəla bizim başımıza gəlməzdi. Deməli bu çətinliyi Allah bizə verib. Nəticə də bu olur ki, Allah ədalətsizdir. (Allaha pənah aparırıq).

Təbii ki, dünya həyatı insanın doğulduğu gündən qəbrə gedənə kimi sınaq və çətinliklər ilə doludur. Əgər hər şey biz istədiyimiz kimi olsa, bura dünya yox, cənnət olardı.

Dünyadakı bəlaların Allahın ədaləti ilə uyğunluğu olub-olmaması barədə bunu demək olar ki, insanlar başa düşməlidir ki, çətinlik, bəla və sınaqlar iki növdür.

**a)** Bəzi bəlalar insanların pis əməlləri nəticəsində yaranır. Necə ki, Allah-mütəal buyurur:

وَمَا أَصَابَكُمْ مِنْ مُصِيبَةٍ فَبِمَا كَسَبَتْ أَيْدِيكُمْ وَيَعْفُو عَنْ كَثِيرٍ

Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların (etdiyiniz əməllərin) ucbatındandır! (Bütün bunlara baxmayaraq) Allah (günahlarınızın) çoxunu əfv edər.[3]

---

[1] (Yunus, 44).
[2] (Əlmizan,cild.3, səh.53).
[3] (Şura,30).

Həmçinin aşağıda zikr olunan digər bir Quran ayəsinə nəzər salsaq, görərik ki, Allah bəzən insanların əməllərinə görə quruda və suda belə onlara bəla nazil edir.

ظَهَرَ الْفَسَادُ فِي الْبَرِّ وَالْبَحْرِ بِمَا كَسَبَتْ أَيْدِي النَّاسِ لِيُذِيقَهُمْ بَعْضَ الَّذِي عَمِلُوا لَعَلَّهُمْ يَرْجِعُونَ

İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki, (Allah) onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar (haqqa) qayıdalar. (Rum, 41).

**b)** Bəzi bəlalar isə Allah tərəfindən nazil olur. Bu növ bəlalar, üç hissəyə bölünür:

***1- Bəzən zalim və günahkar insanların günah və zülmlərinə görə, Allah-taala onları tənbeh etmək məqsədi ilə onlara əzab nazil edir.***

وَاسْأَلْهُمْ عَنِ الْقَرْيَةِ الَّتِي كَانَتْ حَاضِرَةَ الْبَحْرِ إِذْ يَعْدُونَ فِي السَّبْتِ إِذْ تَأْتِيهِمْ حِيتَانُهُمْ يَوْمَ سَبْتِهِمْ
شُرَّعًا وَيَوْمَ لَا يَسْبِتُونَ لَا تَأْتِيهِمْ كَذَٰلِكَ نَبْلُوهُمْ بِمَا كَانُوا يَفْسُقُونَ

(Ey Peyğəmbərim!) Onlardan (yəhudilərdən) dəniz kənarında yerləşən qəsəbə haqqında xəbər al. O zaman onlar şənbə günü (balıq ovlamaqla Allahın əmrini pozub) həddi aşırdılar. O vaxt şənbə günü (işləmək, ov etmək qadağan edildiyi, ibadətlə məşğul olmaq buyurulduğu üçün) balıqlar (hər tərəfdən suyun üzərində görünüb) dəstə-dəstə onlara tərəf axışır, şənbədən başqa günlərdə isə gəlmirdi. İtaətdən çıxdıqları (günah işlədikləri) üçün Biz onları belə imtahana çəkirdik.[1]

***2- Bəzən isə Allah möminlərə bəla nazil edər. Allahın bu işdən məqsədi, möminləri sınağa çəkməkdir.***

فَلَمْ تَقْتُلُوهُمْ وَلَٰكِنَّ اللَّهَ قَتَلَهُمْ وَمَا رَمَيْتَ إِذْ رَمَيْتَ وَلَٰكِنَّ اللَّهَ رَمَىٰ وَلِيُبْلِيَ الْمُؤْمِنِينَ مِنْهُ
بَلَاءً حَسَنًا إِنَّ اللَّهَ سَمِيعٌ عَلِيمٌ

(Ey möminlər Bədrdə) onları (kafirləri) siz öldürmədiniz, Allah öldürdü. (Ya Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən

[1] (Əraf, 163).

atmadın, Allah atdı. Allah bununla möminləri (qənimət əldə etmək və zəfər çalmaq üçün) yaxşı bir imtahandan keçirtdi. Allah (hər şeyi) eşidəndir, biləndir![1]

***3- Bəzi vaxtlar isə hikmət sahibi olan Rəbbimiz, Allah övliyalarına bəla nazil edər. Övliyalara bəla nazil olunması, onların mənəvi məqamının yüksəlməsi üçündür. Bu çətin sınaqdan üzü ağ çıxanlardan biri də, İbrahim Peyğəmbər (ə) olub.***

وَإِذِ ابْتَلَىٰ إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ ۖ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا ۖ قَالَ وَمِنْ ذُرِّيَّتِي ۖ قَالَ لَا يَنَالُ عَهْدِي الظَّالِمِينَ

(Ya Rəsulum!) Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə (bəzi əmrləri ilə) imtahana çəkdiyi zaman o, (Allahın əmrlərini) tamamilə yerinə yetirdi. (Belə olduqda Allah ona:) "Səni insanlara imam (dini rəhbər, başçı) təyin edəcəyəm", -dedi. (İbrahim isə:) "Nəslimdən necə? " – deyə soruşdu. (Allah onun cavabında:) "(Sənin nəslindən olan) zalımlar mənim əhdimə (imamlığıma) nail olmazlar", -buyurdu. [2]

Qeyd olunan mövzuya aid, imam Əli (ə) buyurur:

البلاء للظالم ادب و للمؤمن امتحان و للانبياء درجة

Bəla zalim şəxs üçün, onun tərbiyəsi, mömin üçün sınaq və peyğəmbərlər (ə) üçün dərəcə yüksəlişidir.[3]

## Hədislərdə İlahi Ədalət

### Ədalət Allahın haqq tərəzisidir

İmam Əli (ə) buyurur: Doğurdan da ədalət, Allahın haqq tərəzisidir və o, ədaləti insanlar içərisində ona görə təyin edib ki,onun vasitəsi ilə haqqı icra etsinlər. Ona görə də, Allah ilə onun haqq tərəzisi yolunda müxalifətçilik etmə və onun hökümətində düzgünlüyü qoru.[4]

[1] (Ənfal,17).
[2] (Bəqərə,124).
[3] (Biharul-Ənvar, cild.67, səh.235).
[4] (Ğurərul-Hikəm, cild 2. Səh,508).

قال على (ع): إنّ العدل ميزان الله سبحانه الذى وضعه فى الخلق و نصبه لإقامة الحق فلا تخالفه فى ميزانه و لا تعارضه فى سلطانه

# Allah ədalət əsasında hökm edəcək

İmam Əli (ə) buyurur: ...Allah-taala öz vədələrinə qarşı dürüstdür. O, bəndələrinə zülm etməz və yaratdıqları arasında ədalətlə rəftar edər... [1]

قال على (ع): الَّذِي صَدَقَ فِي مِيعَادِهِ وَ ارْتَفَعَ عَنْ ظُلْمِ عِبَادِهِ وَ قَامَ بِالْقِسْطِ فِي خَلْقِهِ وَ عَدَلَ عَلَيْهِمْ فِي حُكْمِهِ

## Qiyamətdə intiqam almaq, Allahın ədalətli olmasına bir dəlildir

Peyğəmbər (s) buyurur: Ey insanlar! Allahdan qorxun. And olsun Allaha ki, əgər bir mömin, başqa bir möminə zülm etsə, Allah-taala qiyamətdə onun intiqamını alacaq. [2]

قال رسول الله (ص): يا ايها الناس اتقوا الله فو الله لا يظلم مؤمن مؤمنا الّا انتقم الله منه يوم القيامة

---

[1] (Nəhcül-Bəlağə,xütbə 185).

[2] (Əl-mizan, cild.3, səh,53).

# PEYĞƏMBƏRLƏRİ (Ə) TANIMAQ

Bildiyimiz kimi Allah tərəfindən göndərilmiş peyğəmbərlər, 124 000 nəfər olmuşdur.

Bu barədə Həzrət Muhəmməd (s) buyurur: Peyğəmbərlər yüz iyirmi dörd min nəfər olub, Mursəllər 313 nəfər olub, Adəm (ə) də o peyğəmbər (ə) olub ki, onunla söhbət olunub. (Yəni Allah ilk dəfə Adəmlə (ə) danışıb).[1]

(Yəni Adəm ilk peyğəmbər olub ki, Allah-taala dünya aləmində onunla vəhy vasitəsi ilə əlaqə qurub. Bəzi alimlərin fikrinə əsasən, Mursəl, Allah tərəfindən yeni din gətirən peyğəmbərlərə deyilir.)

Qurani-kərimdə 27 peyğəmbərin (s) adı zikr olunub. Bəzi peyğəmbərlərin adı isə birbaşa zikr olmasa da, onların varlığına işarə edilib.

## *Quranda adları çəkilən peyğəmbərlər (s) aşağıdakılardır.*

Adəm, Nuh, İdris, Saleh, Hud, İbrahim, İsmail (İbrahimin oğlu), İsmail-Sadiqul-vəd (İsmail ibni Həzqil) İshaq, Yusif, Lut, Yəqub, Musa, Harun, Şuəyb, Zəkəriyya, Yəhya, İsa, Davud, Suleyman, İlyas, Əl-Yəsə, Zul-Kəfl, Əyyub, Yunus, Uzeyr (ə) və Muhəmməd (s).

Quran ayələrində varlıqlarına işarə olunan peyğəmbərlər isə aşağıda qeyd olunan peyğəmbərlərdir.

Şəmuil (Bəqərə 248), İrmiya (Bəqərə 259), Yuşə (Kəhf 60), Xızr (Kəhf 65).

İlahi peyğəmbərlər (ə) adi insan olub, eyni halda da mənəvi məqamlara malik olublar. Bəzi insanlar peyğəmbərlərin (ə) İlahi şəxsiyyət olduğuna görə, onların barəsində yanlış düşünməsinlər deyə gərək peyğəmbərləri olduqları kimi tanıtdıraq. Aşağıda onların bəzi xüsusiyyətlərini qeyd edirik.

### Peyğəmbərlər (ə) adi insan olublar

Peyğəmbərlər (ə) barədə səhv düşünənlərə Allah-taala belə cavab verir:

[1] (Kənzul-Ümmal, cild.11,səh.482).

وَمَا جَعَلْنَاهُمْ جَسَدًا لَا يَأْكُلُونَ الطَّعَامَ وَمَا كَانُوا خَالِدِينَ

Biz onları (peyğəmbərləri) yeməz-içməz (yemək yeməz) bir bədən yaratmadıq. Onlar (dünyada) əbədi də deyillər.[1]

Həmçinin başqa bir ayədə buyurur:

قُلْ إِنَّمَا أَنَا بَشَرٌ مِثْلُكُمْ يُوحَىٰ إِلَيَّ أَنَّمَا إِلَٰهُكُمْ إِلَٰهٌ وَاحِدٌ

De: “Mən də sizin kimi ancaq bir insanam. Mənə vəhy olunur ki, sizin Tanrınız yalnız bir olan Allahdır.[2]

Ayələrdən açıq-aşkar məlumdur ki, Allah-taala insanlara bildirmək istəyir ki, peyğəmbərlər (ə) digər insanlar kimi adi insandır və qeyri adi bir varlıq deyillər.

## Peyğəmbərlərin (ə) vəhy vasitəsi ilə Allahla olan rabitələri

İlahi peyğəmbərlər (ə) adi insan olsalar da, onların Allah-taala ilə xüsusi rabitələri olub. Onlar vəhy adlanan vasitə ilə Allah-taala ilə əlaqə yaradır və İlahi hökmləri insanlara söyləyirdilər.

Aşağıdakı ayəyə diqqət yetirsək, məlum olar ki, Allah vəhy vasitəsi ilə bütün Peyğəmbərlər (ə) ilə əlaqə qurub.

وَمَا أَرْسَلْنَا قَبْلَكَ إِلَّا رِجَالًا نُوحِي إِلَيْهِمْ فَاسْأَلُوا أَهْلَ الذِّكْرِ إِنْ كُنْتُمْ لَا تَعْلَمُونَ

(Ya Rəsulum! Biz səndən əvvəl də hər bir ümmətə mələk deyil) ancaq kişilər (kişi peyğəmbərlər) göndərdik ki, onlara vəhy edirdik. Əgər bilmirsinizsə, zikr (kitab) əhlindən soruşun![3]

## Peyğəmbərlər (ə) də digər insanlar kimi ailə qurub, övlad sahibi olublar

[1] (Ənbiya, 8).
[2] (Kəhf,110).
[3] (Ənbiya, 7).

وَلَقَدْ أَرْسَلْنَا رُسُلًا مِنْ قَبْلِكَ وَجَعَلْنَا لَهُمْ أَزْوَاجًا وَذُرِّيَّةً

Ya Rəsulum!) Biz səndən əvvəl də Peyğəmbərlər göndərdik, onlara zövcələr, ) (övladlar verdik.)[1]

Zikr olunan ayədən məlum olur ki, peyğəmbərlər (ə) də digər adi insanlar kimi evlənib, ailə sahibi olublar.

## Peyğəmbərlər (ə) və onların möcüzəsi

Hər bir peyğəmbər (ə) öz peyğəmbərliyini sübut etmək üçün, yaşadığı zamana uyğun olaraq möcüzə gətirib. Möcüzə "aciz etmək" anlamındadır. Belə ki, Peyğəmbər (ə) haqq olduğunu sübut etmək üçün, Allahın izni ilə qeyri adi bir iş görür ki, insanlar heyrətdə qalır və ondan başqa heç kim bu işi etməyə qadir olmur. Misal üçün "Hz. İsanın (ə) ölümcül vəziyyətdə olan insanı diriltməsi" və ya "Həzrət Muhəmmədin (s) ayı ikiyə ayırması" kimi.

Allah-taala buyurur:

وَمَا كَانَ لِرَسُولٍ أَنْ يَأْتِيَ بِآيَةٍ إِلَّا بِإِذْنِ اللَّهِ ۗ لِكُلِّ أَجَلٍ كِتَابٌ

Allahın izni olmadıqca heç bir peyğəmbər heç bir möcüzə gətirə bilməz. Hər dövrün bir kitabı (lövhi-məhfuzda yazılmış hökmü) var. (İlahi kitablardan hər birinin öz nazil olma vaxtı var. Bunlar zamanın, dövrün tələbinə və ehtiyacına görədir).[2]

### Peyğəmbərlərin (ə) qeyb aləmindən xəbərdar olmaları

وَمَا كَانَ اللَّهُ لِيُطْلِعَكُمْ عَلَى الْغَيْبِ وَلَٰكِنَّ اللَّهَ يَجْتَبِي مِنْ رُسُلِهِ مَنْ يَشَاءُ ۖ فَآمِنُوا بِاللَّهِ وَرُسُلِهِ ۚ وَإِنْ تُؤْمِنُوا وَتَتَّقُوا فَلَكُمْ أَجْرٌ عَظِيمٌ

[1] (Rəd,38

[2] (Rəd 38).

Allah pisi yaxşıdan (münafiqi mömindən) ayırmaq üçün möminləri sizin (indi) olduğunuz vəziyyətdə qoyan deyildir. Allah sizə qeybi də bildirən deyildir. Lakin, Allah öz peyğəmbərlərindən istədiyi şəxsi seçər (ona qeybdən bəzi şeylər bildirər). Buna görə də Allaha və Onun peyğəmbərlərinə inanın. Əgər inanıb Allahdan qorxsanız, sizi böyük bir mükafat gözləyir![1]

عَالِمُ الْغَيْبِ فَلَا يُظْهِرُ عَلَىٰ غَيْبِهِ أَحَدًا إِلَّا مَنِ ارْتَضَىٰ مِنْ رَسُولٍ

Qeybi bilən ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz; Bəyənib seçdiyi peyğəmbərdən başqa! (Qeybi nə bir mələk, nə də bir peyğəmbər bilər. Onun açarları ancaq Allahın əlindədir. Lakin Allah istədiyi peyğəmbərə bir möcüzə olaraq vəhy yolu ilə qeybdən bəzi xəbərlər bildirər).[2]

Ayələrdən məlum olur ki, Allah-taala peyğəmbərləri (ə) digər insanların bilmədiyi sirlərdən, qeyb aləmindəki bəzi həqiqətlərdən agah edib.

---

[1] (Ali imran, 179).

[2] (Cin, 26-27).

# PEYĞƏMBƏRLƏRİN (Ə) HƏDƏFİ

Peyğəmbərlərin (ə) bir çox məqsədi olub ki, onları bir araya toplasaq, aşağıdakı bir neçə mövzuda ixtisarla açıqlamaq olar.

## İlahi vəhyin insanlara çatdırılması

وَمَا عَلَى الرَّسُولِ إِلَّا الْبَلَاغُ الْمُبِينُ

Peyğəmbərin öhdəsinə düşən isə yalnız (dini, Allahın hökmlərini, risalətini) açıq-aşkar təbliğ etməkdir.[1]

فَهَلْ عَلَى الرُّسُلِ إِلَّا الْبَلَاغُ الْمُبِينُ

Peyğəmbərlərin vəzifəsi isə yalnız açıq-aşkar bir təbliğdir.[2]

## İnsanları Allah yoluna hidayət etmək

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاءَ الزَّكَاةِ وَكَانُوا لَنَا عَابِدِينَ

Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik. Biz onları xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.[3]

## Zalımlar ilə mübarizə

Peyğəmbərlər (ə) İlahi şəxsiyyət olublar. Onlar insanların dini çatışmazlıqları yolunda zəhmət çəkib, onları düz yola hidayət etmək üçün çox çalışıblar. Amma Peyğəmbərlər (ə) yalnız dini işlərlə deyil, bəzən insanların ictimai müşküllərinin həlli üçün də çalışıblar. Onlar, insanlara zülm edən zalımlar ilə daim mübarizə ediblər.

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَسُولًا أَنِ اعْبُدُوا اللَّهَ وَاجْتَنِبُوا الطَّاغُوتَ فَمِنْهُمْ مَنْ هَدَى اللَّهُ وَمِنْهُمْ مَنْ حَقَّتْ عَلَيْهِ الضَّلَالَةُ فَسِيرُوا فِي الْأَرْضِ فَانْظُرُوا كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ

---

[1] (Nur, 54).
[2] (Nəhl, 35).
[3] (Ənbiya, 73).

Biz hər ümmətə: “Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə peyğəmbər göndərmişdik. Onlardan bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə (Allahın əzəli elmi ilə) haqq yoldan azmalı olmuşdur. (Ey müşriklər!) Yer üzündə dolaşıb görün ki, (peyğəmbərləri) yalançı hesab edənlərin axırı necə oldu![1]

## İnsanları ibadət və töhidə dəvət etmək

Bir çox Quran ayələrinə, eləcə də rəvayətlərə diqqət yetirsək məlum olur ki, bütün Peyğəmbərlər (ə) və İlahi şəxsiyyətlər tək Allahın varlığını söyləyib və ibadətin yalnız ona məxsus olduğunu bildiriblər.

وَمَا أَرْسَلْنَا مِنْ قَبْلِكَ مِنْ رَسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدُونِ

(Ya Rəsulum!) Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: “Məndən başqa heç bir Tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin! ” – deyə vəhy etməyək.[2] Düşünürəm ki, oxuduğumuz ayə bunu sübut etmək üçün kifayətdir.

## İnsanları İlahi təqvaya dəvət etmək

Qeyd etdiyimiz kimi Peyğəmbərlər (ə) qeyb aləmindən xəbərdar idilər. Onlar, həm bu dünyada və həm də axirət aləmində nə baş verdiyini çox yaxşı bilirdilər. Bu baxımdan insanların günah nəticəsində cəhənnəmdəki halından da xəbərsiz deyildilər. Onlar daim çalışırdılar ki, hər kəs Allahın qayda-qanunlarına riayət edib, onun əzabından çəkinsinlər. Ona görə də insanları Allahın əzabından çəkinməyə dəvət edirdilər.

إِذْ قَالَ لَهُمْ أَخُوهُمْ نُوحٌ أَلَا تَتَّقُونَ إِنِّي لَكُمْ رَسُولٌ أَمِينٌ فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ

O zaman ki, qardaşları Nuh onlara dedi: “Məgər (küfr etməyinizə görə) qorxmursunuz? Şübhəsiz ki, mən sizin üçün etibar olunası (bel bağlanılası) bir peyğəmbərəm! (Vədimə xilaf çıxmaz, əmanətə xəyanət etmərəm!) Artıq Allahdan qorxun və mənə itaət edin![3]

---

[1] (Nəhl, 36).
[2] (Ənbiya 25).
[3] (Şüəra, 106, 107, 108).

Bütün Peyğəmbərlər (ə) kamil əxlaqa malik olub, insanlar üçün kamil insan nümunəsi olublar. Aşağıda bəzi peyğəmbərlərin (ə) Qurani-kərim baxışında əxlaqi xüsusiyyətlərinə işarə edirik.

## Nuhun (ə) səbri

قَالَ الْمَلَأُ مِنْ قَوْمِهِ إِنَّا لَنَرَاكَ فِي ضَلَالٍ مُبِينٍقَالَ يَا قَوْمِ لَيْسَ بِي ضَلَالَةٌ وَلَٰكِنِّي رَسُولٌ مِنْ رَبِّ الْعَالَمِينَ

Tayfasının başçıları ona! "Biz səni (haqq yoldan) açıq-aydın azmış görürük! , - deyə cavab verdilər. (Nuh) dedi: "Mən (haqq yoldan) heç azmamışam, lakin mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm![1]

## İbrahimin (ə) ədəbi

الَّذِي خَلَقَنِي فَهُوَ يَهْدِينِ وَالَّذِي هُوَ يُطْعِمُنِي وَيَسْقِينِ وَإِذَا مَرِضْتُ فَهُوَ يَشْفِينِ

Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də, içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir.[2]

İbrahim (ə) bütpərəstlərə Allahı tanıtdıranda, zikr olunan cümləni dedi. O, Allahda olan sifətləri bəyan etdi, Allahın xəstələnməməsini onlara başa salmaq istəyəndə, Xaliqimizə qarşı ədəbini bildirmək üçün, "Mən xəstələnəndə, Allahdır mənə şəfaət verən" cümləsindən istifadə etdi.

## İsmailin (ə) Allah əmri qarşısında təslim olub, səbr göstərməsi

Bildiyimiz kimi, İbrahim (ə) yuxuda görür ki, Allah ona İsmaili (ə) qurban kəsməsini istəyir. İbrahim (ə) öz yuxusunu oğlu İsmailə danışandan sonra, oğlu İsmaildən (ə) soruşdu ki, oğlum nə düşünürsən? ! İsmail isə "Ata, sənə nə əmr olunub, onu yerinə yetir" deyərək cavab verdi.

---

[1] (Əraf, 60, 61).

[2] (Şüəra, 78, 79. 80).

فَلَمَّا بَلَغَ مَعَهُ السَّعْيَ قَالَ يَا بُنَيَّ إِنِّي أَرَىٰ فِي الْمَنَامِ أَنِّي أَذْبَحُكَ فَانْظُرْ مَاذَا تَرَىٰ ۚ قَالَ يَا أَبَتِ افْعَلْ مَا تُؤْمَرُ ۖ سَتَجِدُنِي إِنْ شَاءَ اللَّهُ مِنَ الصَّابِرِينَ

O, yüyürüb qaçmaq (atasına kömək edə bilmək) çağına (on üç yaşına) çatdıqda (İbrahim) dedi: “Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör (bu barədə) nə fikirləşirsən! ” O dedi: “Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah, mənim səbrlilərdən olduğumu görəcəksən! ”[1]

## Hudun (ə) səbr və müqaviməti

وَإِلَىٰ عَادٍ أَخَاهُمْ هُودًا ۗ قَالَ يَا قَوْمِ اعْبُدُوا اللَّهَ مَا لَكُمْ مِنْ إِلَٰهٍ غَيْرُهُ ۚ أَفَلَا تَتَّقُونَ قَالَ الْمَلَأُ الَّذِينَ كَفَرُوا مِنْ قَوْمِهِ إِنَّا لَنَرَاكَ فِي سَفَاهَةٍ وَإِنَّا لَنَظُنُّكَ مِنَ الْكَاذِبِينَ

Ad tayfasına da qardaşları Hudu (peyğəmbər göndərdik). O dedi: “Ey camaatım! Allaha ibadət edin. Sizin ondan başqa heç bir tanrınız yoxdur. Məgər (Allahın əzabından) qorxmursunuz? ” (Hud) tayfasının kafir başçıları ona: “Biz səni səfehlik içində görür və yalançılardan (biri) hesab edirik! ” – deyə cavab verdilər.[2]

Hud isə onlara belə cavab verdi:

قَالَ يَا قَوْمِ لَيْسَ بِي سَفَاهَةٌ وَلَٰكِنِّي رَسُولٌ مِنْ رَبِّ الْعَالَمِينَ

(Hud) dedi: “Ey camaatım! Mən heç də səfeh deyiləm, lakin mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm![3]

## Yusifin (ə) əfvi

Yusifin qardaşları onu quyuya atdı. İllər keçdi, Yusif (ə) Misirdə padşah oldu. Qardaşları eşitmişdi ki, Misirdə bolluqdur və oraya gedib ərzaq əldə edə bilərlər. Misirə gedəndən sonra, başa düşdülər ki, qardaşları Yusif sağdı və o, Misir

---

[1] (Saffat, 102).
[2] (Əraf, 65, 66).
[3] (Əraf, 67).

başçısıdır. Onlar Yusifi (ə) tanıyandan sonra, Yusifə (ə) qarşı etdikləri xəyanətlərini başa düşüb, ondan üzr istədilər. Yusif (ə) isə onları əfv etdi.

قَالُوا تَاللَّهِ لَقَدْ آثَرَكَ اللَّهُ عَلَيْنَا وَإِنْ كُنَّا لَخَاطِئِينَ قَالَ لَا تَثْرِيبَ عَلَيْكُمُ الْيَوْمَ يَغْفِرُ اللَّهُ لَكُمْ وَهُوَ أَرْحَمُ الرَّاحِمِينَ

Onlar: "Allaha and olsun ki, Allah səni bizdən üstün etmişdir. Biz isə (sənin barəndə), sözsüz ki, günah etmişik! " – dedilər. (Yusif) dedi: "Bu gün sizə (etdiklərinizə görə) heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir! (Mən Allahdan sizin bağışlanmanızı diləyərəm. O da sizi bağışlayar!)[1]

## Musanın (ə) şükrü

Allah-taala Musanı (ə) dəfələrlə düşmən əlindən, o cümlədən Fironun zülmlərindən xilas edəndən sonra Musa (ə) Allaha üz tutaraq bu cümləni buyurdu:

قَالَ رَبِّ بِمَا أَنْعَمْتَ عَلَيَّ فَلَنْ أَكُونَ ظَهِيرًا لِلْمُجْرِمِينَ

(Musa) dedi: "Ey Rəbbim! Mənə bəxş etdiyin nemət haqqı (günahımı bağışlamağına and içirəm ki) mən əsla günahkarlara arxa olmayacağam!"[2]

## Süleyman və Davudun (ə) təvazökarlığı

وَلَقَدْ آتَيْنَا دَاوُودَ وَسُلَيْمَانَ عِلْمًا وَقَالَا الْحَمْدُ لِلَّهِ الَّذِي فَضَّلَنَا عَلَىٰ كَثِيرٍ مِنْ عِبَادِهِ الْمُؤْمِنِينَ

Biz Davuda və Süleymana elm (insanlar arasında mübahisəli məsələləri həll edib ədalətli hökm çıxartmaq, quşların dilini bilmək və i. a.) verdik. Onlar dedilər: "Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun! "[3]

---

[1] (Yusif, 91, 92).
[2] (Qəsəs, 17).
[3] (Nəml, 15).

## Yəqubun (ə) ədəbi

Yəqubun (ə) digər oğulları atalarının Yusifə (ə) qarşı sevgisinə qısqandıqları üçün, ona etiraz edəndə, Yəqub (ə) ədəbə riayət edərək onlara cavab verdi.

قَالُوا تَاللَّهِ تَفْتَأُ تَذْكُرُ يُوسُفَ حَتَّىٰ تَكُونَ حَرَضًا أَوْ تَكُونَ مِنَ الْهَالِكِينَ قَالَ إِنَّمَا أَشْكُو بَثِّي وَحُزْنِي إِلَى اللَّهِ وَأَعْلَمُ مِنَ اللَّهِ مَا لَا تَعْلَمُونَ

(Oğlanları Yəquba) dedilər: "Allaha and olsun ki, sən Yusif deyə-deyə xəstələnib əldən düşəcək, ya da öləcəksən! " (Yəqub) belə cavab verdi: "Mən dərd-sərimi yalnız Allaha ərz edirəm və Allahdan (gələn vəhy ilə) sizin bilmədiklərinizi (Yusifin vaxtilə gördüyü yuxunun çin çıxacağını, sizin və mənim ona təzim edəcəyimizi) bilirəm![1]

## İsanın (ə) zöhdü

İsanın (ə) zahidliyi haqda bir çox rəvayətlər mövcuddur. Misal üçün Həzrət Əlidən (ə) nəql olunan hədislərin birində, Əli (ə) İsanın (ə) üstün xüsusiyyətlərini sadalayaraq buyurur:

وَ إِنْ شِئْتَ قلت فی عیسی بن مریم (ع) فلقد كان يتوسد الحجر و يلبس الخشن و ياكل الجشب و كان ادامه الجوع و سراجه بالليل القمر

Əgər Məryəm oğlu İsanın (ə) haqqında danışmaq istəsən, kifayətdir ki, biləsən onun yastığı daşlar idi. O, kobud paltar geyinir (sadə və ucuz paltar), sadə yemək yeyirdi. . . Gecə vaxtlarında onun çırağı nurlu ay idi...[2]

## Məhəmmədin (s) əxlaqı

Həzrət Peyğəmbər (s) bir çox əxlaqi xüsusiyyətlərə malikdir. Amma o cənabın ən əsas xüsusiyyətlərindən biri də, onun əxlaqi davranışlarıdır. Bu xüsusiyyət Peyğəmbərdə (s) o həddə kamilləşib ki, Quranda Allah-taala onu təsdiqləyərək buyurur:

---

[1] (Yusif, 85, 86).

[2] (Nəhcül-Bəlağə, Xütbə 160).

وَإِنَّكَ لَعَلَىٰ خُلُقٍ عَظِيمٍ

Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən![1]

Həmçinin digər bir ayədə, Allah-taala Peyğəmbərə xitabən buyurur:

فَبِمَا رَحْمَةٍ مِنَ اللَّهِ لِنْتَ لَهُمْ ۖ وَلَوْ كُنْتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانْفَضُّوا مِنْ حَوْلِكَ ۖ فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِي الْأَمْرِ ۖ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللَّهِ ۚ إِنَّ اللَّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ

(Ya Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah (Ona) təvəkkül edənləri sevər![2]

## Hədislərdə peyğəmbərlərin bəzi xüsusiyyətləri

### Peyğəmbərlərin elmi

İmam Sadiq (ə) buyurur: Alimlər peyğəmbərlərin varisidir. Peyğəmbərlər özlərindən mal-dövləti irs qoymazlar. Onlar öz sözlərini irs qoyub gedərlər. Hər kim onların kəlamlarından istifadə etsə, onların (qoyduğu irsdən) kamil şəkildə bəhrələnmiş olar.[3]

### Peyğəmbərlərin əxlaqi dəyərləri

İmam Sadiq (ə) buyurur: Allah-taala peyğəmbərləri üstün əxlaqi dəyərlər ilə bəzəyib. Hər kimdə bu əxlaqi dəyərlər varsa, Allaha şükr etsin. Kimdə bü xüsusiyyətlər olmasa, Allaha dua etsin ki, həmin dəyərlərə yiyələnsin. Bu vaxt ravi imama üz tutub, soruşdu: Bu hansı xüsusiyyətlərdir? İmam (ə) buyurdu: O xüsusiyyətlər, Pərhizkarlıq, Razılıq, Səbr, Şükr, Həya,Səxavət,Qeyrət,Yaxşılıq etmək,danışanda Düz danışmaq və Əmanətə xəyanət etməmək.[4]

### Peyğəmbərlərin düşmənlər ilə davranışı

[1] (Qələm, 4).
[2] (Ali-İmran 159).
[3] (Üsuli-Kafi,cild,1.Səh,60).
[4] (Əmali, səh,192).

Peyğəmbər (s) buyurur: Allah-taalanın peyğəmbərlərə üstün məqam verməsinin səbəbi budur ki, onlar çətinliklərlə olsa belə, Allahın dininin düşmənləri ilə uyğun tərzdə davranmağı bacardılar.[1]

### Peyğəmbərlərin insanlar üzərindəki rəhbərliyi

İmam Sadiq (ə) buyurur: Allah tərəfindən seçilmiş hər bir peyğəmbər, peyğəmbər olmadan öncə, çoban olub. Onlar çobanlığı ona görə ediblər ki, Allah çobanlıq vasitəsi ilə insanlara təlim vermək yolunu onlara öyrətsin.[2]

### İnsanlar ilə başa düşdükləri dil ilə danışmaları

Peyğəmbər (s) buyurur: Allah-taala biz peyğəmbərlərə əmr edib ki, insanlar ilə əql və düşüncələri miqdarda danışaq.[3]

---

[1] (Biharul-Ənvar,cild 75.Səh,401).
[2] (Biharul-Ənvar, cild 11, səh.64).
[3] (Biharul-Ənvar, cild 2, səh.69).

# ALLAH ÖVLİYALARINA NİSBƏT VERİLƏN İFTİRALAR

Tarixi yazıları mütaliə etsək, məlum olur ki, qəlblərində iman olmayanlar, bütün İlahi şəxsiyyətlərə qarşı hər zaman etiraz edib, onlara nalayiq sözlər deyib və böhtan atıblar. Amma Peyğəmbər (ə) və imamlar (ə) səbr edib, onları nəsihət etməyə çalışıblar.

## Nuha (ə) nisbət verilən nalayiq sözlər

فَقَالَ الْمَلَأُ الَّذِينَ كَفَرُوا مِنْ قَوْمِهِ مَا هَٰذَا إِلَّا بَشَرٌ مِثْلُكُمْ يُرِيدُ أَنْ يَتَفَضَّلَ عَلَيْكُمْ وَلَوْ شَاءَ اللَّهُ لَأَنْزَلَ مَلَائِكَةً مَا سَمِعْنَا بِهَٰذَا فِي آبَائِنَا الْأَوَّلِينَ إِنْ هُوَ إِلَّا رَجُلٌ بِهِ جِنَّةٌ فَتَرَبَّصُوا بِهِ حَتَّىٰ حِينٍ

(Nuh) qövmünün kafir başçıları dedilər: “Bu sizin kimi yalnız adi bir insandır. Sizə böyüklük etmək istəyir. Əgər Allah istəsəydi, mələklər göndərərdi. Biz bunu ulu babalarımızdan eşitməmişik. Bu adamda, sadəcə olaraq, bir dəlilik var. Hələ bir müddət gözləyin!” (Ya sağalıb xəstəlikdən xilas olar, bir də belə şeylər danışmaz; ya da ölüb gedər, canımız qurtarar).[1]

Ayənin mənasına diqqət yetirsək, görərik ki, Nuha (ə) təkəbbürlük və dəlilik xüsusiyyəti nisbət verilir.

## Hud peyğəmbərə (ə) nisbət verilən nalayiq sözlər

قَالَ الْمَلَأُ الَّذِينَ كَفَرُوا مِنْ قَوْمِهِ إِنَّا لَنَرَاكَ فِي سَفَاهَةٍ وَإِنَّا لَنَظُنُّكَ مِنَ الْكَاذِبِينَقَالَ يَا قَوْمِ لَيْسَ بِي سَفَاهَةٌ وَلَٰكِنِّي رَسُولٌ مِنْ رَبِّ الْعَالَمِينَ

(Hud) tayfasının kafir başçıları ona: “Biz səni səfehlik içində görür və yalançılardan (biri) hesab edirik! ” – deyə cavab verdilər. (Hud) dedi: “Ey camaatım! Mən heç də səfeh deyiləm, lakin mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm![2]

[1] (Muminun, 24-25).
[2] (Əraf, 66-67).

## Saleh peyğəmbərə (ə) nisbət yalançı və yekəxanalıq böhtanı

أَأُلْقِيَ الذِّكْرُ عَلَيْهِ مِنْ بَيْنِنَا بَلْ هُوَ كَذَّابٌ أَشِرٌ سَيَعْلَمُونَ غَدًا مَنِ الْكَذَّابُ الْأَشِرُ

Məgər içərimizdən vəhy yalnız onamı nazil olmuşdur? ! Xeyr, o, yalançının, lovğanın biridir! ” (Biz Saleh peyğəmbərə təsəlli verib dedik:) “Onlar kimin yalançı, kimin lovğa olduğunu sabah mütləq biləcəklər![1]

## Musanın (ə) möcüzəsi qarşısında aciz qalıb, onu sehirbaz adlandırdılar

فَلَمَّا جَاءَتْهُمْ آيَاتُنَا مُبْصِرَةً قَالُوا هَٰذَا سِحْرٌ مُبِينٌ

Möcüzələrimiz aşkar şəkildə gəlib onlara çatdıqda: “Bu, açıq-aydın bir sehrdir! ” – dedilər.[2]

قَالَ لِلْمَلَإِ حَوْلَهُ إِنَّ هَٰذَا لَسَاحِرٌ عَلِيمٌ

(Firon) ətrafındakılara dedi: “Şübhəsiz ki, bu, çox bilikli bir sehirbazdır![3]

## Həzrət Məhəmmədi (s) sehirbaz və məcnun adlandırdılar

أَكَانَ لِلنَّاسِ عَجَبًا أَنْ أَوْحَيْنَا إِلَىٰ رَجُلٍ مِنْهُمْ أَنْ أَنْذِرِ النَّاسَ وَبَشِّرِ الَّذِينَ آمَنُوا أَنَّ لَهُمْ قَدَمَ صِدْقٍ عِنْدَ رَبِّهِمْ ۗ قَالَ الْكَافِرُونَ إِنَّ هَٰذَا لَسَاحِرٌ مُبِينٌ

İçərilərindən bir adama: “İnsanları (Allahın əzabı ilə) qorxut, iman gətirənləri (yaxşı əməllərinə görə) Rəbbi yanında gözəl mükafat gözlədiyi ilə müjdələ! ” – deyə vəhy etməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: “Bu, həqiqətən, açıq-aşkar bir sehirbazdır! ” dedilər.[4]

وَقَالُوا يَا أَيُّهَا الَّذِي نُزِّلَ عَلَيْهِ الذِّكْرُ إِنَّكَ لَمَجْنُونٌ

---

1 (Qəmər, 25-26).
2 (Nəml, 13).
3 (Şüəra, 34).
4 (Yunus, 2).

(Müşriklər Peyğəmbərə) belə dedilər: "Ey özünə Kitab nazil edilən kəs! Axı sən divanəsən![1]

## Hədislərdə İlahi rəhbərlərə qarşı nisbət verilən iftira və nalayiq sözlər

Çox sayda hədis və rəvayətlər var ki, bəzi nadan insanlar, peyğəmbər və imamlara nalayiq sözlər deyiblər amma imamlar və ilahi peyğəmbərlər onlar ilə pis davranmayıb və onlara eyni tərzdə cavab verməyiblər. Bu mövzuda olan hədislər içərisindən, yalnız iki hədisi gətirərək, bu həqiqəti canlandırmaq istəyirəm.

### İmam Səccada (ə) nalayiq söz deyən şəxs və imamın davranışı

Rəvayət olunub ki, bir gün bir nəfər imam Səccada (ə) söyüş edir. İmam (ə) sanki onun sözünü eşitməmiş kimi rəftar edir. Həmin şəxs imama yaxınlaşıb deyir: Mənim bu sözüm sizə idi. İmam buyurur: Mən də sizi əfv etdim və günahınızdan keçdim.[2]

### İmam Əliyə (ə) cəsarət edən şəxs və imamın onunla davranışı

Bir nəfər imam Əliyə (ə) hörmətsizlik və kobudluq etdi. İmam (ə) bunu eşidib, camaatı məscidə topladı və dedi: Məni pisləyən və nalayiq söz deyən kim idi? Bu vaxt bir nəfər ayağa durub, dedi: Mən idim. İmam (ə) buyurdu: Mən həmin sözləri sənə deyə bilərəm, amma bu işi etmirəm. Şəxs dedi: Əgər məni əfv edib, bu işin üstündən keçsən, daha yaxşı olar. Çünki sən bu xüsusiyyətə daha layiqsən. İmam (ə) buyurdu: Mən sənin səhvindən keçdim və səni bağışlayıram.[3]

[1] (Hicr, 6).
[2] (Biharul-Ənvar, cild,46. Səh,62).
[3] (Biharul-Ənvar,cild.41, səh.132).

# DİN

Dinin mənası: Din insanların yaşamaq və fəaliyyət göstərməsini tənzimləyən İlahi qayda-qanunlardan ibarətdir.

## Dinin fitri olması

Əlbəttə ki, Allah tərəfindən tərtib olunmuş dini qaydalar, insanın daxili fitrəti ilə uyğun olmalıdır. Bu barədə bir çox ayə və hədislər mövcuddur. O, cümlədən:

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا ۚ فِطْرَتَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا ۚ لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ ۚ ذَٰلِكَ الدِّينُ الْقَيِّمُ وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

(Ya Rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini (Onun yaratdığı tövhid dini olan islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti (haqq dininin islam olduğunu) bilməz. (Allah bütün insanları xilqətcə müsəlman – təkallahlı yaratmışdır, lakin ata-anaları onları başqa dinlərə sövq etmiş, yaxud onlar yaşa dolduqda öz nadanlıqları üzündən batil dinlərə - bütpərəstliyə uymuşlar).[1]

### Din yalnız Allaha ibadət etmək yolu ilə mümkündür

إِنِ الْحُكْمُ إِلَّا لِلَّهِ ۚ أَمَرَ أَلَّا تَعْبُدُوا إِلَّا إِيَّاهُ ۚ ذَٰلِكَ الدِّينُ الْقَيِّمُ وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

Hökm ancaq Allahındır. O sizə yalnız Onun Özünə ibadət etmənizi buyurmuşdur. Doğru (həqiqi) din budur, lakin insanların çoxu (bu həqiqəti) bilməz![2]

### Allah dərgahında yalnız xalis din qəbul olar

أَلَا لِلَّهِ الدِّينُ الْخَالِصُ ۚ وَالَّذِينَ اتَّخَذُوا مِنْ دُونِهِ أَوْلِيَاءَ مَا نَعْبُدُهُمْ إِلَّا لِيُقَرِّبُونَا إِلَى اللَّهِ زُلْفَىٰ إِنَّ اللَّهَ يَحْكُمُ بَيْنَهُمْ فِي مَا هُمْ فِيهِ يَخْتَلِفُونَ ۗ إِنَّ اللَّهَ لَا يَهْدِي مَنْ هُوَ كَاذِبٌ كَفَّارٌ

Bil ki, xalis din (sırf ibadət, təmiz itaət) ancaq Allaha məxsusdur. Allahı qoyub (bütləri) özlərinə dost tutanlar: "Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün

---

[1] (Rum, 30).
[2] (Yusif, 40).

ibadət edirik! ” (deyirlər). Şübhəsiz ki, Allah ixtilafda olduqları məsələlər barəsində (qiyamət günü) onların arasında hökm edəcəkdir. Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz![1]

### Dini axtarıb, onun düzgün qanunlarını əldə etməyin vacib olması

وَمَا كَانَ الْمُؤْمِنُونَ لِيَنْفِرُوا كَافَّةً ۚ فَلَوْلَا نَفَرَ مِنْ كُلِّ فِرْقَةٍ مِنْهُمْ طَائِفَةٌ لِيَتَفَقَّهُوا فِي الدِّينِ وَلِيُنْذِرُوا قَوْمَهُمْ إِذَا رَجَعُوا إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ

(Ehtiyac olmadıqda) möminlərin hamısı birdən (cihada, döyüşə) çıxmamalıdır. Barı, hər tayfadan bir dəstə (elm öyrənmək, sonra da onu dindaşlarına öyrətmək üçün) qalsın ki, camaatı (döyüşdən) qayıtdığı zaman onları (Allahın əzabı ilə) qorxutsun. Bəlkə, onlar (əldə etdikləri biliklər sayəsində yaramaz işlərdən, nalayiq hərəkətlərdən) çəkinsinlər![2]

### Dindən çıxan şəxsin aqibəti

وَمَنْ يَرْتَدِدْ مِنْكُمْ عَنْ دِينِهِ فَيَمُتْ وَهُوَ كَافِرٌ فَأُولَٰئِكَ حَبِطَتْ أَعْمَالُهُمْ فِي الدُّنْيَا وَالْآخِرَةِ ۖ وَأُولَٰئِكَ أَصْحَابُ النَّارِ ۖ هُمْ فِيهَا خَالِدُونَ

Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə kimsələrin bütün əməlləri (vaxtilə gördüyü yaxşı işləri) dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar![3]

### İmamət, dinin kamilləşməsi üçün əsas sütunlardan biridir

الْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُوا مِنْ دِينِكُمْ فَلَا تَخْشَوْهُمْ وَاخْشَوْنِ ۚ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الْإِسْلَامَ دِينًا

Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, cahiliyyət dövrünün bir sıra zərərli

[1] (Zümər, 3).
[2] (Tövbə, 122).
[3] (Bəqərə, 217).

adətlərinin aradan qaldırılması və i. a.) tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim.[1]

# Hədislərdə din

## Dini tanımaq

Əli (ə) buyurur: Dinin əsası - Allahı tanımaq, Allahı tanımağın kökü - Allaha inanmaq, Allaha inanmağın sütunu - tövhid (onun təkliyinə inanmaq), tövhidin kamilliyi - ixlas, ixlasın əsası isə, Allahı bütün məxluqlarda olan sifətlərdən münəzzəh bilməkdən ibarətdir. (Nəhcül-Bəlağə, Xütbə 1).

## Dinin əsas hissəsi

İmam Baqir (ə) buyurur: Biz Əhli-beyti sevmək, dinin əsasıdır.[2]

## Dinin sütunu

Peyğəmbər (s) buyurur: Hər bir şeyin sütunu var. Dinin sütunu isə, onu düzgün və dərin mənada tanımaqdır.[3]

## Dini tanımağın yolları

İmam Sadiq (ə) buyurur: Hər kim insanlara xatir dinə daxil olsa, başqa insanlar onu dindən çıxarar. Hər kim kitab və sünnə yolu ilə dinə gəlsə, dağlar məhv olmayan kimi, dinini əldən verməz.[4]

## Dindarlığın əlaməti

İmam Əli (ə) buyurur: Dindarların bəzi xüsusiyyətləri var ki, onlar həmin xasiyyətlər ilə tanınar. (Həmin xüsusiyyətlər aşağıdakılardır): Düz danışmaq, Əmanətə qarşı sadiq olmaq, Əhdə vəfalı olmaq, Qohumları ziyarət etmək, Zəif insanlara qarşı rəhmli olmaq, Yaxşılıq etmək, Yaxşı davranış, Elm arxasınca getmək, Allaha yaxınlaşdıran bütün vasitələrin dalınca gedib, onlardan istifadə etmək. Xoş onların halına ki, aqibətləri xeyir ilə qurtarır.[5]

---

[1] (Maidə, 3).
[2] (Əmali, səh.296).
[3] (Biharul-Ənvar,cild 1, səh.216).
[4] (Biharul-Ənvar, cild 2,səh 105).
[5] (Əmali, səh.183).

# HİDAYƏT

Hidayət sözü, ərəbköklü bir sözdür və mənası, düz və doğru yola yönəltmək deməkdir. Hidayət kəlməsinə Quranın müxtəlif yerlərində tez-tez təsadüf olunur. Bu söz əsasən, iki mənada işlənmişdir:

## 1. Təkvini hidayət

Təkvini hidayət dedikdə, bütün varlıq aləminin tabe olunduğu nizam nəzərdə tutulur. Allah-təala öz xilqətini, canlı və cansız aləmi yaranış qanunlarına uyğun olaraq hidayət edir. Canlı aləmin təbii artımı, ulduz və planetlərin nizamlı hərəkəti, təkvini hidayətin nümunələrindəndir. Bu növ hidayət barədə Qurani kərimdə çox ayələr mövcuddur. Misal üçün Musa (ə) buyurur:

قَالَ رَبُّنَا الَّذِي أَعْطَىٰ كُلَّ شَيْءٍ خَلْقَهُ ثُمَّ هَدَىٰ

(Musa) belə cavab verdi: “Rəbbimiz hər şeyə Öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir! ”[1]

Quranın digər ayəsini də, heyvanların təkvini hidayəti üçün misal gətirmək olar. Necə ki, Allah-taala bal arısı barədə buyurur:

وَأَوْحَىٰ رَبُّكَ إِلَى النَّحْلِ أَنِ اتَّخِذِي مِنَ الْجِبَالِ بُيُوتًا وَمِنَ الشَّجَرِ وَمِمَّا يَعْرِشُونَثُمَّ كُلِي مِنْ كُلِّ الثَّمَرَاتِ فَاسْلُكِي سُبُلَ رَبِّكِ ذُلُلًا ۚ يَخْرُجُ مِنْ بُطُونِهَا شَرَابٌ مُخْتَلِفٌ أَلْوَانُهُ فِيهِ شِفَاءٌ لِلنَّاسِ ۗ إِنَّ فِي ذَٰلِكَ لَآيَةً لِقَوْمٍ يَتَفَكَّرُونَ

Rəbbin bal arısına belə vəhy (təlqin) etdi: “Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda (evlərin damında, üzümlüklərdə) özünə evlər tik (pətəklər sal); Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat (asanlıqla) get! (Və ya: “Rəbbinin yollarını itaətlə tut! ”) (O arıların) qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli (ağ, sarı, qırmızı) bal çıxar. Şübhəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır![2]

---

[1] (Taha, 50).

[2] (Nəhl, 68-69).

## 2. Təşrii hidayət

Təşrii hidayət peyğəmbərlər, asimani kitablar vasitəsi ilə həyata keçir. İnsanlar peyğəmbərlər və kitablardan təlim-tərbiyə almaqla, təkamül yolunda irəliləyirlər. Allah-taala buyurur:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاءَ الزَّكَاةِ وَكَانُوا لَنَا عَابِدِينَ

Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik. Biz onları xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.[1]

Bunu da qeyd etmək lazımdır ki, təşrii hidayət iki növ olur.

**A) İbtidai hidayət.** Məqsəd budur ki, uca Tanrı əvvəldən insana düz yolu göstərir və bu yolgöstərmə, hər kəsə şamil olur. İstər insan günahkar olsun, istərsə də günahsız.

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

Biz ona haqq yolu göstərdik. İstər (nemətlərimizə) minnətdar olsun, istər nankor (bu onun öz işidir). (İnsan, 3).

**B) Şəxsi seçim vasitəsi ilə hidayət.** Bəzi insanlar İlahi çağırışı eşidib, dərhal ona səs verir və Allah yolunda qulluq etməyə tələsirlər. Bu insanlar, Quranın müxtəlif ayələrində bir çox xüsusiyyətlə vəsf olunublar. O cümlədən:

**1- Qəlbdə imanı olanlar**

مَا أَصَابَ مِنْ مُصِيبَةٍ إِلَّا بِإِذْنِ اللَّهِ وَمَنْ يُؤْمِنْ بِاللَّهِ يَهْدِ قَلْبَهُ وَاللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

Allahın izni olmadıqca (heç kəsə) heç bir müsibət üz verməz. Kim Allaha iman gətirsə, (Allah) onun qəlbini haqqa doğru yönəldər. (O, dünyada baş verən hər şeyin Allahın əzəli hökmü və izni ilə olduğunu bilər). Allah hər şeyi (keçmişi, indini və gələcəyi) biləndir![2]

**2- Allahın razılığına razı olanlar**

[1] (Ənbiya,73).
[2] (Təğabun, 11).

يَهْدِي بِهِ اللَّهُ مَنِ اتَّبَعَ رِضْوَانَهُ سُبُلَ السَّلَامِ

Allah Öz lütfünə sığınanları onunla (Peyğəmbər və Quran vasitəsilə) əmin-amanlıq (sülh) yollarına yönəldər.[1]

**3- Allahdan itaət edənlər**

وَإِنْ تُطِيعُوهُ تَهْتَدُوا

Əgər ona itaət etsəniz, doğru yolu tapmış olarsınız.[2]

**4- Allah yolunda çalışanlar**

وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا وَإِنَّ اللَّهَ لَمَعَ الْمُحْسِنِينَ

Bizim uğrumuzda cihad edənləri öz yollarımıza (Bizə tərəf gətirib çıxardan behişt yollarına) qovuşduracağıq. Şübhəsiz ki, Allah yaxşı əməllər edənlərlədir! (Allah həmişə savab işlər görüb cihad edən möminlərin tərəfində durar!)[3]

**Öz istəkləri ilə Allah hidayətindən uzaqlaşıb, şeytan yoluna əməl edənlər, aşağıdakı xüsusiyyətlərə malik olan insanlardır**:

**1- Kafirlər**

وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

Allah kafirləri haqq yoluna yönəltməz![4]

**2- Zalimlər**

وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

Allah (özünə) zülm edənləri düz yola yönəltməz![5]

---

[1] (Maidə, 16).
[2] (Nur, 54).
[3] (Ənkəbut, 69).
[4] (Bəqərə, 264).
[5] (Bəqərə, 258).

### 3- Fasiq insanlar

يُضِلُّ بِهِ كَثِيرًا وَيَهْدِي بِهِ كَثِيرًا  وَمَا يُضِلُّ بِهِ إِلَّا الْفَاسِقِينَ

Allah bununla (bu məsəllə) bir çoxlarını zəlalətə salır, bir çoxlarını isə doğru yola yönəldir. Allah yalnız fasiqləri zəlalətə düçar edir.[1]

### 4- Yalançı və israfkar insanlar

إِنَّ اللَّهَ لَا يَهْدِي مَنْ هُوَ مُسْرِفٌ كَذَّابٌ

Şübhəsiz ki, Allah (Ona şərik qoşmaqla, böhtan atmaqla) həddi aşanı, yalançını doğru yola müvəffəq etməz.[2]

## Hədislərdə Hidayət mövzusu

### İnsanların düz yola gəlməsinin dəyəri

İmam Əli (ə) buyurur: Peyğəmbər (s) məni Yəmənə yollayarkən buyurdu: Ey Əli! Dinə dəvət etmədən öncə, heç kəs ilə müharibə etmə. Allaha and olsun ki, əgər Allah sənin vasitənlə bir nəfəri hidayət etsə, bu sənin üçün günəşin saçdığı bütün şeylərdən daha xeyirlidir.[3]

### Həqiqi hidayət yolu, Quranın haqq kəlamına itaət etməklə ələ gələr

Peyğəmbər (s) buyurur: Hər kim Allahın kitabına tabe olsa, Allah onu dünya azğınlıqlarından xilas edər və qiyamət gününün ağır olan hesab-kitabından qoruyar.[4]

---

[1] (Bəqərə, 26).
[2] (Ğafir, 28).
[3] (Usuli-Kafi, cild.5, səh 36).
[4] (Əl-mizan, cild.14, səh.249).

## Hidayətin əlamətləri

### A) Allaha itaət etmək

Əgər hidayət olub-olmadığımızı bilmək istəsək, baxaq ki, Allahın buyurduqlarına əməl edirik, ya yox. Əgər Allah əmrlərini yerinə yetirir, çəkindirdikləri şeylərdən çəkiniriksə, deməli hidayət olmuşuq.

Əli (ə) buyurur: Allahın əmrinə itaət edib, öz günahlarından qorxan şəxs, hidayət tapıb.[1]

### B) İmanın saflaşması

Hidayətə nail olmuşuqsa, gərək qəlbimizdəki iman sırf Allaha xatir olsun və özümüzü insanlara görə imanlı göstərməyək.

Əli (ə) buyurur: İmanını saflaşdıran kəs, hidayət tapmış şəxsdir. (Həmin mənbə).

### C) Səbr və yəqin

Hidayətə malik olanların əlamətlərindən biri də, səbr və yəqindir. Əgər şəxs səbirli olub, yəqinə yetişsə, deməli o, hidayət olub.

Əli (ə) buyurur: Səbr və yəqinə pənah aparan hər kəs, hidayət tapar.[2]

---

[1] (Ğurərul-Hikəm, Cild.6.səh.193).
[2] (Ğurərul-Hikəm, Cild.6.səh.192).

# ALLAH NURU

“Nur” kəlməsi, işıqlandıran anlamındadır. Qurani kərimin bəzi ayələrində nur sözü işlənib. Bəzən bu söz, Allaha nisbət verilir. Misal üçün:

اللَّهُ نُورُ السَّمَاوَاتِ وَالْأَرْضِ مَثَلُ نُورِهِ كَمِشْكَاةٍ فِيهَا مِصْبَاحٌ الْمِصْبَاحُ فِي زُجَاجَةٍ...

Allah göylərin və yerin nurudur. (Kainatı yaradıb ona nur verən, yer və göy əhlinə haqq yolu göstərən Xaliqdir). Onun (Peyğəmbərimizin və möminlərin qəlbində olan) nuru, içində çıraq olan bir taxçaya (çıraqdana) bənzər; taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə, sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə (aləmin ortasında) olan mübarək bir zeytun ağacından yandırılır. (Şərqdə deyildir ki, günəş batdıqda, qərbdə də deyildir ki, günəş doğduqda qaranlıqda qalsın). Onun (zeytun ağacının) yağı özünə od toxunmasa da, sanki (haradasa) işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini öz nuruna qovuşdurur (istədiyinə öz nurunu bəxş edib cənnət yolu olan islam dininə yönəldir). Allah (həqiqəti anlaya bilsinlər deyə) insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir![1]

Ayənin mənasından başa düşürük ki, “Allah göylərin və yerin nurudur» cümləsindən məqsəd budur ki, Allah bütün kainatı nəzmli bir qayda üzrə hidayət edir, məhv olmaqdan qoruyur və insanlara düz yolu göstərir. Bəli o Allahdır ki, kainatı yaradıb, ona nur verir, yer və göy əhlinə haqq yolu göstərir.

Quran ayələri və məsumların (ə) kəlamlarında, “Nur” kəlməsinin müxtəlif misdaqları olduğu bildirilir. O cümlədən:

### 1) Quran

يَا أَهْلَ الْكِتَابِ قَدْ جَاءَكُمْ رَسُولُنَا يُبَيِّنُ لَكُمْ كَثِيرًا مِمَّا كُنْتُمْ تُخْفُونَ مِنَ الْكِتَابِ وَيَعْفُو عَنْ كَثِيرٍ قَدْ جَاءَكُمْ مِنَ اللَّهِ نُورٌ وَكِتَابٌ مُبِينٌ

Ey kitab əhli! Sizə kitabda (Tövratda və İncildə) gizlətdiyiniz şeylərin bir çoxunu bildirən, bir çoxunu da sizə bağışlayıb üstünü vurmayan (və ya sizdən bir çoxunu bağışlayan) Peyğəmbərimiz gəldi. Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab (Quran) gəldi.[2]

### 2) Həzrət Muhəmməd (s)

---

[1] (Nur, 35).

[2] (Maidə, 15).

يَا أَيُّهَا النَّبِيُّ إِنَّا أَرْسَلْنَاكَ شَاهِدًا وَمُبَشِّرًا وَنَذِيرًا وَدَاعِيًا إِلَى اللهِّ بِإِذْنِهِ وَسِرَاجًا مُنِيرًا

Ya Peyğəmbər! Həqiqətən, Biz səni (ümmətinə) bir şahid, bir müjdəçi və bir qorxudan kimi göndərdik! (Biz səni) Allahın izni ilə Ona tərəf çağıran və nurlu bir çıraq olaraq göndərdik![1]

**3) Məsum İmamlar (ə)**

قال الصادق (ع): النور آل محمد و الظلمات عدوهم

İmam Sadiq (ə) buyurur: (Ayədəki) Nur Muhəmmədin (s) ailəsi və zulumat onların düşmənləridir.[2]

Həmçinin “Camiə Kəbirə” ziyarətnaməsində, məsumlara (ə) müraciət edərək onlar nur adlandırılır. Ziyarətnamənin həmin hissəsinin tərcüməsini gətiririk:

Allah siz məsum imamları nurdan yaratdı və sizi öz ərşinin ətrafına yüksəltdi. Siz yaxşıların nuru və hidayət edənlərisiniz. (Camiə Kəbirə ziyarətnaməsindən).

**4) Namaz Allah nurudur**

قال النبى (ص): الصلاة نور المومن و الصلاة نور من الله

Həzrət Muhəmməd (s) buyurur: Namaz möminin nuru və Allah nurundan olan bir nurdur.[3]

**5) Gecə namazı**

سئل على بن الحسين (ع): ما بال المجتهدين با اليل من احسن الناس وجها قال لانهم خلوا با لله فكساهم الله من نوره

İmam Səccaddan (ə) soruşdular ki, nə üçün gecə namazını qılan insanların üzləri digər insanların üzündən gözəl görsənir? İmam (ə) buyurdu: Çünki, onlar xəlvətlik zamanı Allahla ünsiyyət yaradıblar və Allah da onları nur libasına bürüyüb.[4]

---

[1] (Əhzab, 45-46).
[2] (Safi kitabı, cild 1, səh, 99).
[3] (Mustədrək, cild 1, səh 183).
[4] (İləluş-şərai, 366).

### 6) Elm

قال الصادق (ع): ليس العلم با التعلم انما هو نور يقع فى قلب من يريد الله تبارک و تعالى ان يهديه

İmam Sadiq (ə) buyurur: Elm öyrənməklə ələ gəlmir. Elm (həqiqi elm) bir nurdur ki, Allah onu istədiyi bəndəsinin qəlbində yerləşdirər.[1]

### 7) Mömінin qəlbi

قال الصادق (ع): ما من مومن الا و فى قلبه نوران نور خيفة و نور رجاء لو وزن هذا لم يزد على هذا و لو وزن هذا لم يزد على هذا

İmam Sadiq (ə) buyurur: Elə bir mömin yoxdur ki, qəlbində iki nur olmasın. Onlardan biri qorxu, digəri ümid nurudur. Belə ki, onları bir-biri ilə müqayisə etdiyimiz zaman, heç biri digərindən çox olmaz. (Yəni həqiqi mömin şəxsdə olan qorxu və ümid nuru, eyni səviyyədə olmalıdır)[2]

İmam Muhəmməd Baqir (ə) buyurur: Mömin şəxsin gərək giriş, çıxış, elm, danışıq və qiyamət günündə cənnətə qayıtması nur olsun.

### Allah nuru heç vaxt sönməz

Tarix boyu bir çoxları çalışıb ki, Allahın haqq olan nurlu hidayət yolunun qabağını tutsunlar. Amma onlar bu işə heç vaxt nail ola bilməyiblər. Çünki, uca Rəbbimiz hər şeydən və hər kəsdən qüdrətlidir. Bu xüsusiyyətə malik olan insanlar, hələ də başa düşməyiblər ki, onlar Allah qarşısında çox acizdilər. Allahın şəriəti əleyhinə gedib, onu yer üzündən yox etmək istəyən kafirlərə, Allah-taala belə cavab verir:

يُرِيدُونَ أَنْ يُطْفِئُوا نُورَ اللهِ بِأَفْوَاهِهِمْ وَيَأْبَى اللهُ إِلَّا أَنْ يُتِمَّ نُورَهُ وَلَوْ كَرِهَ الْكَافِرُونَ

Onlar Allahın nurunu (dəlillərini, islam dinini, Quranı) ağızları (batil sözləri) ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu (dinini) tamamlamaq istər.[3]

[1] (Bihar, cild 1, səh. 225).
[2] (Kafi, cild 2, səh, 67).
[3] (Tövbə, 32).

# QURAN MÖCÜZƏLƏRİ

Qurani-kərim, bir çox sahədə möcüzələrə malik olan İlahi bir kitabdır. O cümlədən:

Quranın elmi möcüzələri, Quranın riyazi möcüzələri, Quranın gələcəklə bağlı xəbərləri,

Quranda diqqət çəkilən qidalar, Quranın keçmiş dövrlərlə bağlı xəbərləri, Quranın ədəbi yöndən mükəmməl olması və s.

Allah-taala Quranın möcüzəvi bir kitab olduğunu bildirir və bunu sübut etmək üçün bütün məxluqatı dəvət edir ki, əgər bacarsalar, Quran kimi bir kitab gətirsinlər. Quranda bu çağırış dörd yerdə zikr olunub. Həmin ayələr İsra 88, Hud 13, Bəqərə 23 və Tur 33-34-cü ayələrdə mövcuddur.

## Quranın bəzi möcüzəvi cəhətləri

### 1) Quranı gətirənin şəxsiyyəti

Bütün tarixçilər təsdiq edirlər ki, Məhəmməd (s) elm öyrənmək üçün müəllim yanına getməyib. Qurandakı cümlələri diqqətlə oxusaq, onun müəllim yanında dərs oxumayan insan tərəfindən yazılmadığına yəqin edərik. Həzrət Muhəmmədə (s) elm, Allah tərəfindən verilib. Bunu Quran da təsdiq edir.

قُلْ لَوْ شَاءَ اللَّهُ مَا تَلَوْتُهُ عَلَيْكُمْ وَلَا أَدْرَاكُمْ بِهِ ۖ فَقَدْ لَبِثْتُ فِيكُمْ عُمُرًا مِنْ قَبْلِهِ ۚ أَفَلَا تَعْقِلُونَ

De: "Əgər Allah istəsəydi, mən onu sizə oxutmazdım və Allah da onu sizə bildirməzdi. Mən ondan (Quran nazil ediləndən) qabaq sizin aranızda (qırx il) ömür sürmüşəm. (Bu müddət ərzində məni doğru danışan bir adam kimi tanıyırsınız. Qırx yaşından sonra mən sizə necə yalan deyə bilərəm?) Məgər (Quranın mənim sözlərim deyil, məhz Allah kəlamı olduğunu) dərk etmirsinizmi? "[1]

### 2) Quranda fərqliliyin olmaması

Quranın bütün ayələrini diqqətlə mütaliə etsək, görərik ki, həmin ayələr vahid bir hədəfi təqib edir və bu ayələr arasında heç bir ziddiyyət yoxdur.

[1] (Yunus, 16).

أَفَلَا يَتَدَبَّرُونَ الْقُرْآنَ ۚ وَلَوْ كَانَ مِنْ عِنْدِ غَيْرِ اللَّهِ لَوَجَدُوا فِيهِ اخْتِلَافًا كَثِيرًا

Onlar Quran barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar.[1]

## 3) Quranın elmi möcüzəsi

20-ci əsrdə texnologiyanın köməyi ilə kəşf edilən bəzi elmi həqiqətlər haqda, Quranda 1400 il bundan əvvəl xəbər verilmişdir. Quran ayələrində bir çox elmi möcüzələrə işarə olunub, amma biz, onlardan birini gətirməklə kifayətlənirik. Ana bətnində körpənin yaranma mərhələsi barədə, Quranda belə açıqlama verilir:

أَلَمْ يَكُ نُطْفَةً مِنْ مَنِيٍّ يُمْنَىٰ ثُمَّ كَانَ عَلَقَةً فَخَلَقَ فَسَوَّىٰ فَجَعَلَ مِنْهُ الزَّوْجَيْنِ الذَّكَرَ وَالْأُنْثَىٰ

Məgər o, tökülən bir qətrə nütfə deyildimi? ! Sonra laxtalanmış qan (ələq) oldu və (Allah) onu yaradıb surət verdi. Sonra da ondan biri kişi, biri qadın olmaqla iki cüt yaratdı".[2]

قال رسول الله (ص): من اراد علم الاولين و الآخرين فليقرأ القرآن

Həzrət Peyğəmbər (s) buyurur: Hər kəs ilk və son biliyi əldə etmək istəsə, Quranı oxusun.[3]

## 4) Quranın gizli xəbərləri

### a- Rum imperiyasının İran imperiyasına qalib gəlməsinin xəbəri

غُلِبَتِ الرُّومُ فِي أَدْنَى الْأَرْضِ وَهُمْ مِنْ بَعْدِ غَلَبِهِمْ سَيَغْلِبُونَ فِي بِضْعِ سِنِينَ

Rumlular (bizanslılar iranlılara) məğlub oldular. (Ərəbistana) ən yaxın bir yerdə (Şamda və ya Urdunda). Lakin onlar (bu) məğlubiyyətlərindən sonra qalib gələcəklər. Bir neçə ilin içində.[4]

### b- Peyğəmbərin (s) Mədinəyə hicrətindən sonra, yenidən Məkkəyə qayıtma xəbəri

---
[1] (Nisa, 82).
[2] (Qiyamət, 37-39).
[3] (Kənzul-Ummal, hədis 2454).
[4] (Rum, 2-4).

إِنَّ الَّذِي فَرَضَ عَلَيْكَ الْقُرْآنَ لَرَادُّكَ إِلَىٰ مَعَادٍ

(Ya Rəsulum!) Quranı (oxumağı və təbliğ etməyi, yaxud hökmlərinə əməl etməyi) sənə vacib buyuran (Allah) qayıdacağın yerə (hicrət edərək çıxdığın Məkkəyə) səni yenə də qaytaracaqdır.[1]

**c- Quranın təhrifdən qorunması**

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq! ”[2]

## Rəvayətlərdə Quran

### Quranın üstünlüyü

قال رسول الله (ص): فضْل الْقرآن على سائر الكلام كفضل الله على خلقه

Peyğəmbər (s) buyurur: Quranın digər kəlamlardan olan fərqi və üstünlüyü, Allahın öz yaratdıqları ilə olan fərqi və üstünlüyü kimidir.[3]

### Quran hər kəs üçün həqiqi liderdir

قال رسول الله (ص): عليكم بالقرآن فاتخذوه اماماً و قائداً

Peyğəmbər (s) buyurur: Quranı unutmayın və onu özünüz üçün rəhbər seçin.[4]

### Quran ən yaxşı kəlamdır

قال على (ع) تعلموا كتاب الله تبارک و تعالى فانه احسن الحديث و ابلغ الموعظة و تفقهوا فيه

فانه ربيع القلوب و استشفوا بنوره فانه شفاء لما فى الصدور

Əli (ə) buyurur: Allahın kitabını öyrənin ki, həqiqətən o, ən yaxşı kəlam, ən düzgün nəsihətdir. Çalışın Quranın dərin mənaları barədə düşünün ki, Quran

[1] (Qəsəs, 85).
[2] (Hicr 9).
[3] (Biharul-Ənvar,cild,92,səh,19).
[4] (Kənzul-ummal, hədis 4029).

qəlblərin baharıdır. Quran qəlblərin şəfa mənbəyidir və ona görə də çalışın onun nurundan şəfa tapın.[1]

## Quran Allahın hazır süfrəsidir

قال رسول الله (ص): القرآن مأدبة الله فتعلموا مأدبته ما استطعتم

Peyğəmbər (s) buyurur: Quran Allahın qonaqlıq süfrəsidir. Çalışın bu süfrədən çoxlu istifadə edin.[2]

## Ramazan ayında Quran oxumağın savabı

قال رسول الله (ص): من تلا فيه آية من القرآن كان له مثل اجر من ختم القرآن فى غيره من الشهور

Peyğəmbər (s): Hər kim ramazan ayında Qurandan bir ayə oxusa, ona, ramazan aylarından başqa aylarda Quranı xətm etmiş şəxsin savabı verilər.[3]

## Qurana əməl etməyin dəyəri

قال الصادق (ع): الحافظ للقرآن العامل به مع السفرة الكرام البررة

İmam Sadiq (ə) buyurur: Hər kim Quranı əzbərləyib, onun hökmlərinə əməl etsə, (Allah yanına) səfər etmiş əziz və yaxşı insanlardan sayılar.[4]

## Quran oxumağın bəzi əxlaqi qaydaları

### 1- Quran oxuyan şəxs dilini qorumalıdır

قال رسول الله (ع): طيبوا أفواهكم فإن لفوافكم طريق القرآن

Peyğəmbər (s) buyurur: Dilinizi pak saxlayın ki, Quranı onunla oxuyursunuz.[5]

### 2- Allaha pənah aparmaq

[1] (Tuhfəl-uqul,səh.150).
[2] (Biharul-ənvar, cild 92,səh,19).
[3] (Biharul-ənvar,cild.93, səh.357).
[4] (Usuli-Kafi,cild.2, səh.603).
[5] (Kənzul-Ummal, hədis,2752).

لما سئل الصادق (ع) عن التعوذ عند افتتاح كل سورة قال : نعم فتعوذ بالله من الشيطان الرجيم

İmam Sadiqdən (ə) Quranın hər bir surəsini oxumağa başlayanda Allaha pənah aparmaq barədə soruşanda, o həzrət buyurdu: Bəli, (Quran oxumağa başlayanda) qovulmuş şeytanın şərrindən Allaha pənah aparın.[1]

### 3- Ayələrin mənaları haqda düşünmək

قال على (ع): ألا لا خير فى قرائة ليس فيها تدبر الا لا خير فى عبادة ليس فيها تفقه

İmam Əli (ə) buyurur: Agah olun ki, mənaları haqda düşünülməyən oxunan Quranın faydası olmaz. Eləcə də düşünülməyən ibadətin də insana xeyri olmaz.[2]

### 4- Quranı hüzn və qüssə ilə oxumaq

قال رسول الله (ص): إقرأوا القرآن بالحزن فإنه نزل بالحزن

Peyğəmbər (s) buyurur: Quranı hüzn və qəmli halda oxuyun ki, o qəm-qüssə ilə nazil olub.[3]

---

[1] (Təfsir Əyyaşi, cild.2, səh,270).
[2] (Biharul-Ənvar, cild.92, səh. 211).
[3] (Kənzul-Ummal, hədis, 2777).

# İMAMƏT

İslam maariflərində İmamət məqamı dedikdə, sırf on iki imam (ə) nəzərdə tutulmur. Quran və hədislərə müraciət etsək, görərik ki, Allah-mütəal bəzi peyğəmbərlərə imamət məqamı verib. Ümumiyyətlə imamət və rəhbərlik təkcə dini məsələ deyil, bütün yaradılış aləmində böyük əhəmiyyət kəsb edir. Allah-təala Özü varlıq aləminin həqiqi imam və rəhbəridir. Qurani-kərimdə bu məsələyə xüsusi əhəmiyyət vermiş, insanın təkamülünün son mərhələsi sayılmışdır. Yalnız "ulul-əzm" peyğəmbərlər (s) ona çatmışlar.

Belə ki, Allah-taala buyurur:

وَإِذِ ابْتَلَىٰ إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ ۖ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا ۖ قَالَ وَمِنْ ذُرِّيَّتِي ۖ قَالَ لَا يَنَالُ عَهْدِي الظَّالِمِينَ

«Xatırla o zaman ki, İbrahimi öz Rəbbi kəlamələrlə (müxtəlif vasitələrlə) imtahana çəkdi və o, imtahanları tamamladı (onların öhdəsindən layiqincə gəldi). Bu zaman Allah ona buyurdu: " Səni insanlara imam təyin etdim! " İbrahim: " Nəslimdən necə? " (onları da imam qərar verəcəksənmi) – soruş-duqda, Allah buyurdu: " Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz! (Və bu məqama, yalnız sənin pak və məsum övladların layiqdir! "[1]

Ayənin əvvəlində həzrət İbrahim (ə) bildiyimiz çoxlu sayda çətin sınaqlardan çıxaraq Allah-təala tərəfindən İmamət məqamına layıq görülür. Nəzərə alsaq ki, həzrət İbrahim (ə) peyğəmbər idi, ona veriləcək dərəcə və ya rütbə peyğəmbərlikdən yüksək olmalı idi. Elə bu səbəbdən o imam məqamına layiq görüldü. Buradan belə nəticəyə gəlmək olar ki, öz-özlüyündə imamət məqamı peyğəmbərlikdən üstündür.

[1] (Bəqərə, 124).

## İmamlıq məqamına aid olan bir neçə mühüm məsələlər

### 1- İmamlıq Allah tərəfindən verilir və insanların seçimi ilə olmur

وَإِذِ ابْتَلَىٰ إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ  قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا  قَالَ وَمِنْ ذُرِّيَّتِي قَالَ لَا يَنَالُ عَهْدِي الظَّالِمِينَ

“ Xatırla o zaman ki, İbrahimi öz Rəbbi kələmələrlə imtahana çəkdi və o, imtahanları tamamladı. Bu zaman Allah ona buyurdu: “ Səni insanlara imam təyin etdim! ” İbrahim: “ Nəslimdən necə? “– soruşduqda, Allah buyurdu: “ Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz![1]

### 2- İmam olan şəxs günahsız olmalıdır

قَالَ وَمِنْ ذُرِّيَّتِي  قَالَ لَا يَنَالُ عَهْدِي الظَّالِمِينَ

Nəslimdən necə? “– soruşduqda, Allah buyurdu: “ Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz![2]

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər![3]

### 3- İmam olan şəxsdən itaət etmək vacibdir

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ

Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin![4]

### 4- İmamlıq məqamı, peyğəmbərlik yolunun davamıdır

[1] (Bəqərə 124).
[2] (Bəqərə 124).
[3] (Əhzab 33).
[4] (Nisa 59).

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ ۖ وَإِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ ۚ وَاللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ ۗ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et. Əgər etməsən, (Allahın) risalətini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz![1]

**5- İmamlıq, dinin kamilliyi üçün əsas vasitədir**

الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الْإِسْلَامَ دِينًا

Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim.[2]

**6- İmamların əsas proqramı, insanları Allahın yoluna hidayət etməkdir**

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاءَ الزَّكَاةِ وَكَانُوا لَنَا عَابِدِينَ

Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.[3]

## Hədislərdə İmamət mövzusu

**İmamlıq, dinin kamil olma səbəbidir**

İmam Rza (ə) imamlıq məqamı barədə buyurur: İmamlıq məqamı dinin təkamülü üçün əsas məsələlərdən biridir. Peyğəmbər (s) dünyadan köçmədən öncə, öz ümməti üçün dinin əsas şüarlarını açıqladı, insanlara lazım olan yolları başa saldı, ümmətinə səadət yolunu göstərdi və Əlini (ə) onlar üçün düz yolgöstərən və imam olaraq təyin etdi.[4]

---

[1] (Maidə 67).
[2] (Maidə 3).
[3] (Ənbiya 73).
[4] (Töhfəl-Uqul ən Alirrasul, səh.443).

قال الرضاء (ع): ... و أمر الا إمامة من كمال الدين و لم يمض (ص) حتى بين لامته معالم دينه و أوضح لهم سبلهم و تركهم على قصد الحق و اقام لهم عليا (ع) علما و اماما

Həzrət Peyğəmbərimizdən (s) də imamlıq haqda bir çox rəvayət nəql olunur. Zikr etdiyimiz hədis, həmin hədislərdən sadəcə biridir. Belə ki, Həzrət buyurur: Hər kəs zamanının imamını tanımadan ölsə, cahiliyyət dövründəki ölənlər kimi ölmüş sayılar.[1]

من مات و لم يعرف امام زمانه مات ميتة الجاهلية

Cahiliyyət dövrü dedikdə, məqsəd islam peyğəmbəri (s) zühur etmədən öncə, ərəblərin xurafi və batil inanclar içərisində yaşamaqlarıdır. O dövrdə insanlar o həddə qəddarlaşmışdı ki, yeni dünyaya gəlmiş qız uşağını diri-diri basdırırdılar. Səbəbi də bu idi ki, o, qız uşağı idi. Hədisdən məqsəd budur ki, zamanın imamını tanımayan şəxs, peyğəmbərliyin davamçısı olan imam xəttindən kənara çıxar və nəticədə islam maarifini olduğu kimi yox, öz düşündüyü kimi dərk edib, ona əməl edər. Bu da, islama yox, cahilcəsinə öz istəyinə qulluq etməklə nəticələnər.

## Yalnız İmamlar (ə) Quranın həqiqi mənasını bilirlər

İmam Sadiq (ə) buyurur:

İmamlardan başqa heç kəs iddia edə bilməz ki, o, Quranın hamısını, yaxud da onun zahir və batinini bilir.[2]

عن أبى جعفر (ع): ما يستطيع أحدان يدّعى أنّ عنده جميع القرآن كلّه ظاهره و باطنه غير الا وصياء

(Yəni imamlardan (ə) başqa Quranın zahiri və batini mənasının hamısını heç kim bilmir).

## İmamlar, Allahın insanlara bəxş etdiyi ən böyük nemətdir

İmam Sadiq (ə) Əraf surəsinin 69-cu ayəsində zikr olunan " Alaullah" kəlməsinin izahında belə buyurur: Allahın öz yaratdıqları üçün verdiyi ən böyük nemət, biz imamların rəhbərliyidir.[3]

---

[1] (Səhihi-Müslim, Kitabul-imarət, 835/1851).

[2] (Biharul-Ənvar, cild.92, səh,88).

[3] (Kafi, cild.1, səh.169).

قال الصادق (ع) فى قوله تعالى (... و اذكروا الاء الله...) : أعظم نعم الله على خلقه هى ولايتنا

## İmamı tanımağın əhəmiyyəti

Peyğəmbər (s) buyurur: Hər kim zamanının imamını tanımadan ölsə, cahiliyyət dövründə (dinsiz) ölmüş kimi hesab olar.[1]

قال النبى (ص): من مات و لا يعرف امام زمانه مات ميتة الجاهلية

## İmamlar İlahi qüdrətin nişanələridir

İmam Baqir (ə) buyurur: Allah biz imamlara elə bir güc verib ki, iradə etdiyimiz şeyi bacarmağa qadirik.[2]

قال الباقر (ع): ...إن الله أقدرنا على ما نريد

## İmam olan şəxsin xüsusiyyətləri

İmam Rza (ə) buyurur: İmamların bəzi xüsusiyyətləri var. (Belə ki, imamlar) insanlar içərisində ən alim, ən hikmətli, ən təqvalı, ən səbirli, ən şücaətli, ən səxavətli və ən abid insanlardır.[3]

قال الرضا (ع): للإمام علامات (أن) يكون أعلم الناس و أحكم الناس و أتقى الناس و أحلم الناس و أشجع الناس و أسخى الناس و أعبد الناس

[1] (Biharul-Ənvar, cild.23,səh.89).
[2] (Biharul-Ənvar, cild. 46.səh.240).
[3] (Məanil-Əxbar, səh.102).

# ƏHLİ-BEYT

Əhli-beyt ərəbköklü bir sözdür. Bu söz “ Ev əhli” mənasındadır. İslam maarifində bu söz, xüsusi anlam daşıyır və “ Ev əhli” dedikdə, islam peyğəmbəri, həzrət Muhəmmədin (s) ən yaxın və hörmət bəslədiyi şəxslərdir. Bir çox rəvayət və Quran ayələrinə diqqət yetirsək, görərik ki, “Əhli-beyt” dedikdə, əsasən İmam Əli, Fatimə, İmam Hüseyn və imam Həsən (ə) nəzərdə tutulur. Cəfəri məzhəbinin davamçıları, xüsusi dəlillərə söykənən inanclara əsasən, Əhli-beyt sözünün həm də digər məsum imamlara (ə) şamil olmasına inanırlar. Əhli-beytə (ə) aid olan ayələr çoxdur və o ayələrin bəzisi xüsusi ayələr, bəziləri də ümumi ayələrdir. Biz burada onların bir qismini gətirməklə kifayətlənirik.

## Əhli-beytə aid olan xüsusi ayələr

### 1- Vilayət ayəsi

إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

وَمَنْ يَتَوَلَّ اللَّهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُوا فَإِنَّ حِزْبَ اللَّهِ هُمُ الْغَالِبُونَ

Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər. Hər kəs Allahı, Onun Peyğəmbərlərini və iman gətirənləri özünə dost tutarsa, (hər iki dünyada işləri yaxşı gedər). Şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir (Allahı özünə hami və dost seçən şəxslərdir).[1]

### 2- Təbliğ və İkmal ayələri

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ وَإِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ

رِسَالَتَهُ وَاللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Quranı) təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə edilən elçilik, peyğəmbərlik

[1] (Maidə, 55-56).

vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz![1]

### 3- Hidayətçi ayəsi

وَيَقُولُ الَّذِينَ كَفَرُوا لَوْلَا أُنْزِلَ عَلَيْهِ آيَةٌ مِنْ رَبِّهِ ۗ إِنَّمَا أَنْتَ مُنْذِرٌ ۖ وَلِكُلِّ قَوْمٍ هَادٍ

Kafir olanlar: “Məgər ona Rəbbindən bir möcüzə endirilməli deyildimi? ” – deyirlər. Sən ancaq (insanları Allahın əzabı ilə) qorxudansan. Hər tayfanın (doğru yol göstərən) bir rəhbəri (peyğəmbəri) vardır![2]

### 4- Mömin ayəsi

أَفَمَنْ كَانَ مُؤْمِنًا كَمَنْ كَانَ فَاسِقًا ۚ لَا يَسْتَوُونَ

Məgər mömin kimsə ilə (Allahın itaətindən çıxmış) fasiq eynidirmi? ! Əlbəttə, onlar eyni ola bilməzlər![3]

### 5- Şahid ayəsi

أَفَمَنْ كَانَ عَلَىٰ بَيِّنَةٍ مِنْ رَبِّهِ وَيَتْلُوهُ شَاهِدٌ مِنْهُ وَمِنْ قَبْلِهِ كِتَابُ مُوسَىٰ إِمَامًا وَرَحْمَةً ۚ أُولَٰئِكَ يُؤْمِنُونَ بِهِ ۚ وَمَنْ يَكْفُرْ بِهِ مِنَ الْأَحْزَابِ فَالنَّارُ مَوْعِدُهُ ۚ فَلَا تَكُ فِي مِرْيَةٍ مِنْهُ ۚ إِنَّهُ الْحَقُّ مِنْ رَبِّكَ وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يُؤْمِنُونَ

Məgər Rəbbindən açıq-aydın bir dəlilə (Qurana) istinad edən, ardınca Allahdan bir şahid (Cəbrail) gələn, ondan da əvvəl Musanın (öz ümməti üçün) bir rəhbər və mərhəmət olan kitabının (Tövratın) təsdiq etdiyi kimsə (dünyaya meyl edənlər, ona bel bağlayanlar kimi ola bilərmi)? ! Bunlar (bu dəlilləri təsdiq edən müsəlmanlar) Qurana inanırlar. (Ya Rəsulum!) Quranı inkar edən zümrənin (bütün müşriklərin və kafirlərin) vəd olunduğu yer Cəhənnəmdir. Artıq sən də onun barəsində şübhəyə düşmə. O sənin Rəbbindən (gələn) haqdır, lakin insanların (Məkkə əhlinin) əksəriyyəti (buna) inanmaz![4]

---

[1] (Maidə, 67).
[2] (Rəd, 7).
[3] (Səcdə, 18).
[4] (Hud, 17).

### 6- Salihul-muminin ayəsi

إِنْ تَتُوبَا إِلَى اللهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا وَإِنْ تَظَاهَرَا عَلَيْهِ فَإِنَّ اللهَ هُوَ مَوْلَاهُ وَجِبْرِيلُ وَصَالِحُ الْمُؤْمِنِينَ وَالْمَلَائِكَةُ بَعْدَ ذَٰلِكَ ظَهِيرٌ

(Ey Həfsə, ey Aişə!) Əgər ikiniz də (bu hərəkətinizə görə) Allaha tövbə etsəniz (çox yaxşı olar). Çünki (Peyğəmbərə əziyyət verməklə, ona xoş getməyən bir hərəkət etməklə) qəlbləriniz (onun barəsində bir qədər qeyri-səmimiliyə, günaha) meyl etdi. Əgər ona (Peyğəmbərə) qarşı bir-birinizə kömək etsəniz, (bilin ki, sizə qələbə çalmaqda) onun mövlası (dostu, hamisi) Allah, yardım göstərənləri isə Cəbrail, əməlisaleh möminlər və bundan sonra da (bütün) mələklərdir. (Yaxud onun dostu və yardımçıları Allah, Cəbrail, əməlisaleh möminlərdir. Bunlardan sonra da mələklər onun yardımçısıdır).[1]

### 7- Məhəbbət ayəsi

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ سَيَجْعَلُ لَهُمُ الرَّحْمَٰنُ وُدًّا

Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman (ürəklərdə) bir sevgi yaradacaq. (Allah həm özü onları dost tutacaq, həm də onların məhəbbətini hamının, o cümlədən möminlərin qəlbinə salacaqdır).[2]

### 8- Xəyrul-bəriyyə ayəsi

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُولَٰئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ

İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır.[3]

### 9- Siqayə ayəsi

---

[1] (Təhrim, 4).
[2] (Məryəm, 96).
[3] (Bəyyinə, 7).

أَجَعَلْتُمْ سِقَايَةَ الْحَاجِّ وَعِمَارَةَ الْمَسْجِدِ الْحَرَامِ كَمَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَجَاهَدَ فِي سَبِيلِ اللَّهِ ۚ لَا يَسْتَوُونَ عِنْدَ اللَّهِ ۗ وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

(Ey müşriklər!) Məgər siz hacılara su verməyi və Məscidül-həramı təmir etməyi Allaha və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Onlar Allah yanında eyni olmazlar. Allah zalım tayfanı doğru yola yönəltməz![1]

Ümumi ayələr

1-Təthir ayəsi

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər![2]

2- Ulul-əmr ayəsi

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ ۖ فَإِنْ تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللَّهِ وَالرَّسُولِ إِنْ كُنْتُمْ تُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ ۚ ذَٰلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلًا

Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.[3]

3- Məvəddət ayəsi

قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ ۗ وَمَنْ يَقْتَرِفْ حَسَنَةً نَزِدْ لَهُ فِيهَا حُسْنًا ۚ إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ

---

[1] (Tövbə, 19).
[2] (Əhzab, 33).
[3] (Nisa, 59).

(Ya Peyğəmbər!) De: “Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını) artırarıq! ” Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir![1]

### 4- Mübahilə ayəsi

فَمَنْ حَاجَّكَ فِيهِ مِنْ بَعْدِ مَا جَاءَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَأَبْنَاءَكُمْ وَنِسَاءَنَا وَنِسَاءَكُمْ وَأَنْفُسَنَا وَأَنْفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَلْ لَعْنَتَ اللَّهِ عَلَى الْكَاذِبِينَ

(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən elmdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair səninlə mübahisə edənlərə de: “Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) dua edib yalançılara Allahın lənət etməsini diləyək! ”[2]

### 5- Salavat ayəsi

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər (xeyir-dua verirlər). Ey iman gətirənlər! Siz də ona salavat göndərib (onun üçün salavat deyib) layiqincə salamlayın![3]

## Rəvayətlərdə Əhli-beyt (ə)

Əhli-beytin (ə) şənində, müxtəlif islam məzhəblərinin mənbə kitablarında çox sayda hədis və rəvayətlər mövcuddur. Yazının həcmini nəzərə alaraq, həmin rəvayət və hədislərin bəzisini gətirməklə kifayətlənirik.

[1] (Şura, 23).
[2] (Ali-İmran, 61).
[3] (Əhzab, 56).

## Əhli-beyt (ə) nicat gəmisidir

قال رسول الله (ص): مثل أهل بيتى مثل سفينة نوح من ركبها نجى فمن تخلّف عنها غرق

Həzrət Məhəmməd Peyğəmbər (s): «Mənim Əhli-beytim Nuhun gəmisi kimidir. Hər kim ona minsə, nicat tapar və hər kim ondan üz döndərsə, qərq olar![1]

## Əhli-beytə (ə) olan sevginin insana faydası

قال رسول الله (ص): حبّ و حب اهل بيتى نافع فى سبعة مواطن اهون الهنّ عظيمة عند الوفاة و فى القبر و عند النشور و عند الكتاب و عند الحساب و عند الميزان و عند الصراط

Allah Rəsulu (s) buyurur: Mən və Əhli-beytimə (ə) olan sevgi, yeddi dəhşətli yerdə insan üçün faydalı olacaq. Ölüm anı, qəbrdə, qiyamət günü, qiyamətdə əməl dəftəri təqdim olunanda, qiyamətdə əməllər hesab olanda, əməllər ölçüləndə və sirat körpüsünü keçəndə.[2]

## Həqiqi Əhli-beyt (ə) aşiqi

قال الباقر (ع): يا جابر بلغ شيعتى عنى السلام و اعلمهم انه لا قرابة بيننا و بين الله عز و جل و لا يتقرب الا با الطاعة يا جابر من اطاع الله و احبنا فهو ولينا و من عصى الله لم ينفعه حبنا

İmam Muhəmməd Baqir (ə) buyurur: Ey Cabir! Mənim salamımı şiələrimə çatdır və onlara de ki, bizimlə (Əhli-beyt) Allah arasında qohumluq yoxdur. Allaha yaxın olmaq üçün, gərək ona itaət oluna. Ey Cabir! Hər kəs Allaha itaət edib, bizi (Əhli-beyt) də sevsə, bizim dostumuz hesab olar. Hər kim də Allahın haram buyurduqlarını yerinə yetirsə, bizə olan sevgisi ona bir fayda verməz.[3]

---

[1] (Müstədrək əl-Hakim c. 2, səh. 343)
[2] (Bihar, cild 7, səh. 247).
[3] (Bihar, cild 71, səh, 179).

## Əhli-beyt (ə), həzrət Muhəmmədin (s) bizə tapşırdığı bir əmanətdir

قال رسول الله (ص): انی تارک فیکم الثقلین کتاب الله وعترتی ما ان تمسکتم بهما لن تضلوا بعدی:

کتاب الله فیه‌الهدی والنور حبل ممدود من السماء الی الارض وعترتی اهل بیتی وان اللطیف الخبیر قد

اخبرنی‌انهما لن یفترقا حتی یردا علی الحوض وانظروا کیف تخلفونی فیهما

Mən sizin aranızda iki ağır, qiymətli əmanət qoyub gedirəm: Allahın Kitabı və mənim itrətim. Əgər onlara sarılsanız, məndən sonra heç vaxt yolunuzu azmayacaqsınız. O, zamana kimi ki, siz bunlara qol atırsız yoldan çıxmayacaqsınız və bu iki yadigarım heç bir zaman bir-birlərindən ayrılmayacaqlar. (Səhih Tirmizi, c5, s663-662, 30 nəfərdən çox əshabdan nəql etmişdir).

## Kisa hədisi

Bir gün Peyğəmbər (s), qızı Fatimənin evinə gəlir. O Həzrət (s) qızından bir örtük istəyir. Fatimə örtüyü ona verir... Peyğəmbər (s) Əli, Fatimə, Həsən və Hüseyni (ə) örtük ilə örtdü və belə dedi: "Allahım, bunlar mənim Əhli-beytim və yaxınlarımdır. Onlardan çirkinliyi təmizlə və pak et. " Bu zaman Ümmü Sələmə dedi : "Ey Allahın Rəsulu! Mən də onlarla bərabərəm? "Peyğəmbər (s): "Sən xeyir üzərindəsən»- buyurdu.[1]

## Əhli-beytdən (ə) olan Həsən və Hüseyn (ə) cənnət cavanlarının başçısıdır

قال رسول الله (ص): الحسن والحسین سیّدا شباب أهل الجنّة

Peyğəmbər (s) buyurur: Həsən və Hüseyn cənnət cavanlarının ağasıdır.[2]

[1] (Səhih Müslim, c. 4, s. 1883, hədis. 2424).

[2] (Sünəni Tirmizi, cild 5, səh, 614, hədis 3768).

# ALLAH Və DİN RƏHBƏRLƏRİNƏ İTAƏT

Özünü həqiqi Allah bəndəsi hesab edən hər bir şəxs, gərək Allah və onun təyin etdiyi dini rəhbərlərə itaət etsin. Heç kəs dini rəhbərlər və Allaha itaət etmədən, onların davamçısı hesab olmaz.

**Allah və Peyğəmbərə (s) itaət etmək, imanın əlamətlərindən biridir**

وَأَطِيعُوا اللَّهَ وَرَسُولَهُ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ

Allaha və Onun Peyğəmbərinə itaət edin![1]

**Allah və onun Peyğəmbərinə (s) itaət etmək, insanın xoşbəxtliyinə səbəb olar**

وَمَنْ يُطِعِ اللَّهَ وَرَسُولَهُ وَيَخْشَ اللَّهَ وَيَتَّقْهِ فَأُولَٰئِكَ هُمُ الْفَائِزُونَ

Allaha və Onun Peyğəmbərinə itaət edənlər, Allahdan qorxub çəkinənlər – məhz belələri uğura çatanlardır[2]

**Allah və onun Peyğəmbərinə (s) itaət edənlər, qiyamətdə dini rəhbərlər ilə məhşur olacaqlar**

وَمَنْ يُطِعِ اللَّهَ وَالرَّسُولَ فَأُولَٰئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللَّهُ عَلَيْهِمْ مِنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَدَاءِ وَالصَّالِحِينَ

وَحَسُنَ أُولَٰئِكَ رَفِيقًا

Allaha və Peyğəmbərə itaət edənlər (axirətdə) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər (tamamilə doğru danışanlar, etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər), şəhidlər və salehlərlə (yaxşı əməl sahibləriylə) bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır![3]

**İslam Peyğəmbərinə (s) itaət etmək, Allaha itaət etməklə eynidir**

مَنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللَّهَ ۖ وَمَنْ تَوَلَّىٰ فَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ حَفِيظًا

[1] (Ənfal, 1).
[2] (Nur, 52).
[3] (Nisa, 69).

Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik.[1]

## Hədislərdə İmamət

### İmamlara (ə) itaət etmək, Allaha itaət etmək kimidir

Həzrət Muhəmməd (s) buyurur: Məsum imamlar Hüseynin (ə) övladlarındandır. Hər kim onlara itaət etsə, Allahdan itaət etmiş olar. Onlara qarşı günah işlədənlər isə, Allahın əmrindən üz döndərənlərdir. Onlar (İmamlar) ən etibarlı şəxslər və Allaha yaxınlaşmaq üçün ən yaxşı vasitədir.[2]

قال رسول الله (ص): الأ ئمة من ولد الحسين (ع) من اطاعهم فقد اطاع الله و من عصاهم فقد عصى الله هم العروة الوثقى و هم الوسيلة الى الله تعالى

### Allah və dini rəhbərlərin davamçısının xüsusiyyəti

İmam Sadiq (ə) buyurur: Bizim davamçılarımız təqvalı, çalışqan, əhdlərinə vəfalı, əmanətdar, zöhd və ibadət əhlidir. Onlar 51 rükət vacib və müstəhəb namaz qılır, Allahla razu-niyaz etmək üçün gecə yuxudan durur, gündüzlər isə oruc tutarlar. Əllərindəki maddi imkanlardan zəkat verər və həcci ziyarət edərlər.[3]

قال الصادق (ع): شيعتنا اهل الورع و الاجتهاد و اهل الوفاء و الامانة و اهل الزهد و العبادة اصحاب احدى و خمسين ركعة فى اليوم و اليلة القائمون با اليل الصائمون با النهار يزكّون اموالهم و يحجّون البيت و يجتنبون كلّ محرّم

### Ən üstün davamçı və şiə

İmam Rza (ə) buyurur: İmam Əlinin (ə) davamçıları, imam Həsən, Hüseyn, Səlman, Əbuzər, Miqdad, Əmmar və Məhəmməd ibni Əbu-bəkrdir. Bu şəxslər heç vaxt Əlinin (ə) əmri ilə müxalifətçilik etmədilər.[4]

---

[1] (Nisa, 80).
[2] (Əlburhan təfsiri, cild.1. səh.243).
[3] (Biharul-Ənvar, cild.68.səh.167).
[4] (Biharul-Ənvar, cild.22.səh.330).

قال الرضا (ع): . . . إنّما شيعة امير المؤمنين الحسن و الحسين و سلمان و ابوذر و المقداد و عمار و محمد بن ابی بکر الذین لا یخالفوا شئاً من اوامره

## İmam davamçılarının vəzifələri

İmam Sadiq (ə) buyurur: Ey bizim davamçılarımız! Bizim üçün zinət olun və bizi utandıran işlərdən uzaq olun. İnsanlar ilə danışanda, yaxşı danışın, öz dilinizi çox danışmaq və bəyənilməyən sözlərdən qoruyun.[1]

قال الصادق (ع): معاشر الشیعه کونوا لنا زینا و لا تکونوا علینا شینا قولوا للناس حسنا احفظوا السنتکم و کفّوها عن الفضول و قبیح القول

[1] (Əmali, səh.327).

# ÖVLİYALAR Və QEYB ELMİ

İnsan müxtəlif yollarla məlumat əldə edir. Bu yollardan biri, qeyblə əlaqədir ki, bunun özünün müxtəlif formaları var. Bu məlumatlar, insanın əqli və ruhi böyüklüyünə uyğun olaraq fərqlənir.

İnsanlar adətən özlərini elm təhsilinin adi və təbii yolları çərçivəsində məhdudlaşdırırlar. Ona görə də, onların məlumatı da, adətən "indiki" məlumatlarla məhdud olur. Onların keçmiş barəsindəki elmləri tarixi və arxeoloji qazıntılara bağlı olur. Onların gələcək barəsindəki elmləri, yalnız indiki zamanla əlaqəli olan proqnozlardır.

Amma təbiət və maddə zəncirlərindən azad olan və vücudlarını genişləndirib, təbiət aləmindən yuxarı aləmdə əlaqə yaradan insanlar, keçmiş, indiki və gələcəkdə olan məlumatlardan da geniş məlumatları, özü də dəqiq və səhv olmadan əldə edə bilərlər.

İlahi övliyalar bu dəstədəndirlər. Onların məlumatları müxtəlif formada, vəhy, qəlbə ilham, doğru yuxular, kəşf və müşahidə və yuxarı aləmlərə səfər etməklə, onlara çatdırılırmış. Qurani-kərimdə "Qeyb elmi" haqqında iki növ ayələr mövcuddur:

**a) Bəzi ayələr qeyb elminin yalnız Allaha məxsus olduğunu bildirir**

وَعِنْدَهُ مَفَاتِحُ الْغَيْبِ لَا يَعْلَمُهَا إِلَّا هُوَ وَيَعْلَمُ مَا فِي الْبَرِّ وَالْبَحْرِ وَمَا تَسْقُطُ مِنْ وَرَقَةٍ إِلَّا يَعْلَمُهَا وَلَا حَبَّةٍ فِي ظُلُمَاتِ الْأَرْضِ وَلَا رَطْبٍ وَلَا يَابِسٍ إِلَّا فِي كِتَابٍ مُبِينٍ

Qeybin açarları (Allahın) yanındadır. Onları ancaq O (Allah) bilir. (Allah) suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, (kainatda) yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın![1]

**b) Bəzi ayələri mütaliə etdikdə, məlum olur ki, qeyb elminə Allahdan başqaları da yiyələnə bilər**

مَا كَانَ اللَّهُ لِيَذَرَ الْمُؤْمِنِينَ عَلَىٰ مَا أَنْتُمْ عَلَيْهِ حَتَّىٰ يَمِيزَ الْخَبِيثَ مِنَ الطَّيِّبِ وَمَا كَانَ اللَّهُ لِيُطْلِعَكُمْ عَلَى الْغَيْبِ وَلَٰكِنَّ اللَّهَ يَجْتَبِي مِنْ رُسُلِهِ مَنْ يَشَاءُ

[1] (Ənam,59).

Allah pisi yaxşıdan (münafiqi mömindən) ayırmaq üçün möminləri sizin (indi) olduğunuz vəziyyətdə qoyan deyildir. Allah sizə qeybi də bildirən deyildir. Lakin, Allah öz peyğəmbərlərindən istədiyi şəxsi seçər (ona qeybdən bəzi şeylər bildirər). Ali İmran, 179).

تِلْكَ مِنْ أَنْبَاءِ الْغَيْبِ نُوحِيهَا إِلَيْكَ  مَا كُنْتَ تَعْلَمُهَا أَنْتَ وَلَا قَوْمُكَ مِنْ قَبْلِ هَٰذَا

Bunlar (bu əhvalatlar) sənə vəhy etdiyimiz (vəhylə bildirdiyimiz) qeyb xəbərlərindəndir. Bundan qabaq onları nə sən, nə də ümmətin bilirdi.[1]

عَالِمُ الْغَيْبِ فَلَا يُظْهِرُ عَلَىٰ غَيْبِهِ أَحَدًا إِلَّا مَنِ ارْتَضَىٰ مِنْ رَسُولٍ فَإِنَّهُ يَسْلُكُ مِنْ بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ رَصَدًا

Qeybi bilən ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz; Bəyənib seçdiyi peyğəmbərdən başqa! (Qeybi nə bir mələk, nə də bir peyğəmbər bilər. Onun açarları ancaq Allahın əlindədir. Lakin Allah istədiyi peyğəmbərə bir möcüzə olaraq vəhy yolu ilə qeybdən bəzi xəbərlər bildirər). Allah onların önündə və arxasında (mələklərdən ibarət) gözətçilər qoyar...[2]

**Qeyd:** Bəziləri zikr olunan iki növ ayənin bir-biri ilə zidd olduğunu düşünə bilər. Onun üçün qısa olaraq hər iki ayənin bir-biri ilə necə uyğun olmasını açıqlayırıq.

Təfsir alimləri yuxarıdakı ayələrin bir-biri ilə uyğunluğunu belə açıqlayıblar:

**1**-Birinci ayədəki qeyb elmindən məqsəd, Allaha xas olan qeyb elmidir. Yəni Allah-taala qeyb elmini başqasından öyrənməyib və qeyb elmi onun zati elmində var. Başqaları bu elmdən agah olsalar belə, Allahın vasitəsi ilə agah olurlar. Deməli Allahın qeyb elmi ilə başqalarının qeyb elmi arasındakı fərq budur ki, bu elm Allahın zatında var amma başqaları bu elmi Allahın vasitəsi ilə əldə ediblər.

2- Qeybdən xəbərdar olmaq iki növdür:

**a)** Bəzi qeybi elmlər yalnız Allaha məxsusdur və Allahdan başqa onu heç kim və heç vaxt bilən deyil. Misal üçün qiyamətin baş verəcəyi zaman kimi elmlər.

**b)** Bəzi qeyb elmləri var ki, Allah o elmi bəzi övliyalarına da öyrədir. Demək birinci ayədəki qeyb elminin bir mənası da, Allaha xas olan elmdir. İkinci ayədə zikr olunan qeyb elmi isə, Allahın övliyalara öyrətdiyi elmdir.

**3**- Allah və övliyaların qeyb elmi arasındakı digər fərqi isə bundan ibarətdir ki, Allahın qeyb elmi heç bir vaxt, zaman, məkan və digər səbəblərdən asılı deyil.

[1] (Hud, 49).
[2] (Cin, 26-27).

Yəni Allah-taala hər vaxt qeyb elminə malik olub. Amma övliyaların qeyb elmi fərqlidir. Belə ki, övliyalar hər an qeyb elmindən bəhrələnə bilmirlər. Hədislərdə var ki, imamlar nə vaxt bir məlumata malik olmaq istəsələr, onlara bu elm verilir.

Deməli övliyaların qeyb elmi, onlarda sonradan yaranır və Allahda olan qeyb elmi kimi deyil.

Bütün Peyğəmbər (s), İmam (ə) və onların bəzi davamçıları qeyb elminə malik idi. Yazının həcmini nəzərə alaraq, qeyb elmi haqqında yalnız bir rəvayət zikr edirəm.

Bir gün Peyğəmbərin (s) dəvəsi itir. Münafiqlər bu xəbəri eşidib, Peyğəmbəri (s) lağa tutub dedilər: Muhəmməd (s) bizə qeyb elmindən danışır, amma dəvəsinin harda olduğundan xəbərsizdir. Münafiqlərin danışdıqları Peyğəmbərin qulağına çatanda, o Həzrət (s) buyurdu: Qeyb aləmindən mənə verilən xəbərlərin hamısı Allah tərəfindəndir. Allah bütün sirlərdən məni agah edib. Həzrət bu cümlələri dedikdən sonra, dəvənin yerini onlara dedi və buyurdu: Dəvənin hörüyü bir ağaca ilişib qalıb. Peyğəmbər (s) bu sözləri dedikdən sonra, dəvə elə doğurdan da hörüyü bir ağaca bağlı vəziyyətdə tapıldı.

### Qurani-kərimdə bəzi Peyğəmbərlərin (ə) qeyb elmindən agah olması

### Nuhun (ə) qeyb elminə malik olması

وَقَالَ نُوحٌ رَبِّ لَا تَذَرْ عَلَى الْأَرْضِ مِنَ الْكَافِرِينَ دَيَّارًا إِنَّكَ إِنْ تَذَرْهُمْ يُضِلُّوا عِبَادَكَ وَلَا يَلِدُوا إِلَّا فَاجِرًا كَفَّارًا

Nuh dedi: “Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma! Çünki sən onları (sağ) buraxsan, onlar Sənin bəndələrini yoldan çıxardacaq, ancaq pozğun və kafir (oğul-uşaq) doğub-törədəcəklər.[1]

### Yəqubun (ə) qeyb elmindən agahlığı

قَالَ يَا بُنَيَّ لَا تَقْصُصْ رُؤْيَاكَ عَلَىٰ إِخْوَتِكَ فَيَكِيدُوا لَكَ كَيْدًا ۖ إِنَّ الشَّيْطَانَ لِلْإِنْسَانِ عَدُوٌّ مُبِينٌ وَكَذَٰلِكَ يَجْتَبِيكَ رَبُّكَ وَيُعَلِّمُكَ مِنْ تَأْوِيلِ الْأَحَادِيثِ وَيُتِمُّ نِعْمَتَهُ عَلَيْكَ وَعَلَىٰ آلِ يَعْقُوبَ كَمَا أَتَمَّهَا عَلَىٰ أَبَوَيْكَ مِنْ قَبْلُ إِبْرَاهِيمَ وَإِسْحَاقَ

[1] (Nuh, 26-27).

(Atası Yəqub) dedi: “Can oğul! Yuxunu qardaşlarına danışma, yoxsa sənə bir hiylə qurarlar. Çünki şeytan insanların açıq-aşkar düşmənidir. (Yuxuda gördüyü kimi) Rəbbin səni (başqalarından) seçib üstün tutacaq, sənə yuxu yozmağı öyrədəcək, bundan əvvəl babaların İbrahimə və İshaqa nemətini tamamlayıb (peyğəmbərlik) verdiyi kimi, sənə və Yəqub nəslinə də tamamlayıb verəcək.[1]

## Həzrət İsanın (ə) qeyb elmi

وَأُنَبِّئُكُمْ بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ فِي بُيُوتِكُمْ ۚ إِنَّ فِي ذَٰلِكَ لَآيَةً لَكُمْ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ

...Mən evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri də sizə xəbər verərəm. Əgər möminsinizsə, bunda (söylədiklərimdə peyğəmbər olduğuna) bir dəlil vardır.[2]

وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُمْ مُصَدِّقًا لِمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّرًا بِرَسُولٍ يَأْتِي مِنْ بَعْدِي اسْمُهُ أَحْمَدُ ۖ فَلَمَّا جَاءَهُمْ بِالْبَيِّنَاتِ قَالُوا هَٰذَا سِحْرٌ مُبِينٌ

Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: “Ey İsrail oğulları! Həqiqətən, mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə (sizə) müjdə verən Allahın elçisiyəm! ” Sonra (İsa, yaxud Muhəmməd əleyhissəlam) onlara açıq-aşkar möcüzələr gətirdikdə onlar: “Bu, açıq-aydın sehrdir! ” – dedilər.[3]

[1] (Yusuf, 5-6).
[2] (Ali İmran, 49).
[3] (Saff, 6).

# YAŞADIĞIMIZ DÜNYA VƏ ÖLÜMDƏN SONRAKI ƏBƏDİ HƏYAT

***Axirət aləminə inanmaq təkcə müsəlmanlar arasında deyil, bütün İlahi dinlərdə əsas mövzulardan biri sayılır. Həqiqətdə Axirət aləminə inanmağın əsası hər bir insan varlığının ruh və cisimdən yaranmasından qaynaqlanır. İnsanın cismi öləndən sonra torpaqlar altında çürüyüb, aradan getsə də ruhu dəyişməz qalır. İnsanı sair varlıqlardan ayıran əsas amil isə onun ağıl və şüura malik olmasıdır.***

İnsan bu dünyaya təkcə yemək-içmək və bir sıra ləzzətlərin ardınca düşmək üçün gəlməmiş və heç də belə bir hədəf üçün yaranmamışdır. Elə buna görə də hər bir insanın zehnində aşağıdakı suallar yarana bilər:

1-Haradan gəlmişik?
2-Hansı hədəf üçün yaranmışıq?
3-Bu həyatın sonu haradır?

Bu suallara düzgün cavab tapmaq üçün «Məad» barəsində və başqa sözlə axirət aləmi haqda danışmaq zəruri və lazımi məsələlərdən biri sayılır. Qeyd etdiyimiz kimi, axirət aləminə inanmaq təkcə müsəlmanlara məxsus deyil, həm də bədəvi insanlar, atəşpərəstlər, yəhudilər, məsihilər və s... insanların da əqidə bağladığı əsaslı etiqadlardan biridir.

### Ölümü, insanı heçdən xəlq edib, ona ruh və cisim verən Allah yaradıb

الَّذِي خَلَقَ الْمَوْتَ وَالْحَيَاةَ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا ۚ وَهُوَ الْعَزِيزُ الْغَفُورُ

Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, (çox) bağışlayandır.[1]

### Nə üçün insanlar ölümdən qorxur?

قُلْ إِنْ كَانَتْ لَكُمُ الدَّارُ الْآخِرَةُ عِنْدَ اللَّهِ خَالِصَةً مِنْ دُونِ النَّاسِ فَتَمَنَّوُا الْمَوْتَ إِنْ كُنْتُمْ صَادِقِينَ وَلَنْ يَتَمَنَّوْهُ أَبَدًا بِمَا قَدَّمَتْ أَيْدِيهِمْ ۗ وَاللَّهُ عَلِيمٌ بِالظَّالِمِينَ

(Ya Rəsulum!) Sən onlara (yəhudilərə) de. ”Əgər (sizin iddianıza görə) Allah yanında axirət evi (Cənnət) başqa insanlara deyil, yalnız sizə məxsusdursa və

[1] (Mülk, 2).

əgər siz (bunu) doğru deyirsinizsə, onda (Allahdan) ölüm istəyin! ” (Çünki Cənnətin yalnız özünə aid olduğunu iddia edən kimsə ona qovuşmağa səbəb olan ölümü mütləq arzulayar). (Əlbəttə) onlar öz əməllərini bildiklərinə görə ölümü əsla istəməzlər. Allah zalımları tanıyandır![1]

### Ən şərəfli ölüm

وَلَا تَقُولُوا لِمَنْ يُقْتَلُ فِي سَبِيلِ اللَّهِ أَمْوَاتٌ ۚ بَلْ أَحْيَاءٌ وَلَٰكِنْ لَا تَشْعُرُونَ

Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz.[2]

### Ölüm anında tövbə qəbul olmaz

وَلَيْسَتِ التَّوْبَةُ لِلَّذِينَ يَعْمَلُونَ السَّيِّئَاتِ حَتَّىٰ إِذَا حَضَرَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ إِنِّي تُبْتُ الْآنَ وَلَا الَّذِينَ يَمُوتُونَ وَهُمْ كُفَّارٌ ۚ أُولَٰئِكَ أَعْتَدْنَا لَهُمْ عَذَابًا أَلِيمًا

Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: "Mən indi tövbə etdim"–deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq![3]

### Həqiqi iman əhlinə ölüm vaxtı verilən müjdə

الَّذِينَ تَتَوَفَّاهُمُ الْمَلَائِكَةُ طَيِّبِينَ ۙ يَقُولُونَ سَلَامٌ عَلَيْكُمُ ادْخُلُوا الْجَنَّةَ بِمَا كُنْتُمْ تَعْمَلُونَ

O kəslər ki, mələklər onların canlarını pak olduqları halda alıb: "Sizə salam olsun! Etdiyiniz (gözəl) əməllərə görə Cənnətə daxil olun! " – deyərlər.[4]

### İmanı olmayanların ölüm anındakı çətinlikləri

[1] (Bəqərə, 94-95).
[2] (Bəqərə, 154).
[3] (Nisa, 18).
[4] (Nəhl, 32).

فَكَيْفَ إِذَا تَوَفَّتْهُمُ الْمَلَائِكَةُ يَضْرِبُونَ وُجُوهَهُمْ وَأَدْبَارَهُمْ

Bəs mələklər onların üzlərinə, arxalarına vura-vura canlarını alanda halları necə olacaq?[1]

## Hədislərdə ölüm

### Ölümü yada salmağın insana təsiri

İmam Sadiq (ə) buyurur: Ölümü xatırlamaq nəfsi istəkləri aradan qaldırır, qəflətin kökünü kəsir, qəlbi Allah verdiyi vədələrə qarşı möhkəmləndirir, insanın təbiətini yumşaldır, həvayi-nəfsi sındırır və hərislik atəşini söndürür.[2]

قال الصادق (ع): ذكر الموت يميت الشهوات فى النفس و يقلع منابت الغفلة و يقوّى القلب بمواعد الله و يرّق الطبع و يكسر اعلام الهوى و يطفىء نار الحرص

### Ölüm üçün hazır olmağın mənası

İmam Əlidən (ə) ölümə hazırlıq barədə soruşanda, o həzrət (ə) buyurdu: Ölümə hazır olmağın əlaməti budur ki, gərək insan vacib işləri yerinə yetirsin, haramlardan çəkinsin və bəyənilmiş xüsusiyyətləri özündə toplasın. Hər kim bunlara əməl etsə, onun üçün qorxulu deyil ki, ölüm ona yaxınlaşır, yoxsa o ölümə doğru addımlayır. And olsun Allaha ki, Əbu-Talibin oğlu eynilə bu cürdür.[3]

سئل عن على (ع) عن الاستعداد للموت فقال: أداء الفرائض و إجتناب المحارم و الاشتمال على المكارم ثمّ لا يبالى اوقع عليه الموت ام وقع الموت عليه واللهِ ما يبالى ابن ابى طالب اوقع على الموت ام وقع الموت عليه

### Niyə insan ölümdən qorxur?

İnsanların ölümdən qorxmasının ən önəmli səbəbləri, aşağıdakı iki amildir.

#### a) İnsanlar ölümün həqiqətini olduğu kimi dərk etmirlər

Bu barədə imam Məhdi (ə.f) buyurur: ... Ölümdən qorxmağın səbəbi, onu düzgün tanımamağından qaynaqlanır.[4]

[1] (Muhəmməd, 27).
[2] (Biharul-Ənvar, cild.6.səh.133).
[3] (Əmali. səh.97).
[4] (Məanil-Əxbar, səh.290).

## b) İnsanların dünyaya olan bağlılığı

İmam Baqir (ə) buyurur: Bir nəfər Əbuzərin yanına gəlib, ondan soruşdu: Biz niyə ölümdən qorxuruq? Əbuzər dedi: Çünki dünyanızı abad edib, axirətinizi isə xarab etmisiniz. Ona görə də, abad etdiyiniz yerdən, xarab etdiyiniz yerə getməkdən qorxursunuz.[1]

## Ölüm üçün hazır olmağın əhəmiyyəti

İmam Səccad Cinadə adlı bir şəxsə üz tutub, buyurur: Ey Cinadə! Ölüm səfəri üçün hazırlaş. Əcəlin yetişmədən öncə, axirət üçün lazım olan azuqələrini topla.[2]

[1] (Nurus-Səqələyn, cild.1.səh.424).
[2] (Biharul-Ənvar, cild.44.səh.139).

# BƏRZƏX ALƏMİ

## Bərzəx aləmi nədir?

İslam dini, insan ölsə də, ruhunun ölmədiyini, sadəcə fani dünya həyatının sona çatdığını, ruhunun isə xüsusi yerdə yaşadığını bildirir. İnsanın böyük Din və Qiyamət günü yenidən dirilənədək "Bərzəx həyatı" adlanan gözləmə mərhələsində gözləyəcəyini bildirir. Bu müddət ərzində ruhun yaşamasından və bu aləmə aid bəzi xüsusiyyətlərdən bəhs edir. İslamda bu aləmə axirət həyatının ilk mərhələsi olan "qəbir-bərzəx» deyilir. Qurani-Kərimdə buyurulur: "Axirəti inkar edənlərdən birinin ölümü gəlib çatanda o, belə deyər: "Ey Rəbbim! Nə olar məni dünyaya geri qaytar! Bəlkə, hədər etdiyim ömrümü faydalı işlərə sərf etdim. Xeyr! Bu, onun dediyi boş (faydasız) bir sözdür. Çünki dünyadan ayrılanların qarşısında yenidən dirilişə qədər bir bərzəx aləmi vardır".[1]

Allah Rəsulu (s) isə: "Qəbir axirət mənzillərinin birincisidir", – buyuraraq böyük Din günündən əvvəl qəbir həyatının gəldiyini xəbər vermişdir. O, dualarında qəbir fitnəsindən və əzabından Allah-taalaya sığındığı kimi, bunu əshabına və ümmətinə də tövsiyə etmişdir.

### Hədislərdə Bərzəx aləmi

#### Bərzəx aləmindəki insanların məskəni

İmam Zeynul-abidin (ə) buyurur: Bərzəx aləmində bəzi insanların ruhu cənnət bağlarının birində olacaq. Bəzi insanların ruhu isə, cəhənnəmin atəşli yerlərinin birində olacaq.[2]

قال زين العابدين (ع): القبر امّا روضة من رياض الجنّة او حِفرة من حِفَر النّيران

#### Bərzəx aləmində insan üçün ən faydalı əməl

İmam Əli (ə) Siffeyn müharibəsindən qayıdarkən, Kufə şəhərindəki qəbristanlığa yetişəndə, üzünü məzarlığa tərəf tutub, ölülərə xitab edib buyurdu: ...Ey vəhşətli və qaranlıq evlərin sakinləri... Ey tənha qalmışlar... siz bizdən qabaq gedibsiniz, biz də sizin arxanızdayıq, tezliklə sizə yetişəcəyik... Evlərinizdə başqaları yaşayır, qadınlarınız başqaları ilə evlənib, var-dövlətiniz insanlar arasında bölünüb... Bunlar mənim sizə olan xəbərlərimdir. İndi sıra sizdədir. Siz

[1] (Muminun, 99-100).
[2] (Biharul-Ənvar.cild,6.səh.214).

hansı xəbərləri mənə deyə bilərsiniz? ! Bilin ki, əgər onların danışmağa icazələri olsaydı, ən faydalı əməlin təqva olduğunu deyərdilər.[1]

## Bərzəx aləmində Əhli-beyt (ə) davamçılarının vəziyyəti

İmam Sadiq (ə) buyurur: Qiyamətdə siz ya peyğəmbərin (s), ya da Peyğəmbərin (s) canişininin şəfaəti ilə behiştə daxil olacaqsınız. Amma sizin üçün bərzəx aləmindən çox qorxuram.[2]

قال الصادق (ع): اما فى القيامة فكلكم فى الجنة بشفاعة النبى المطاع او وصى النبى و لكنى والله اتخوف عليكم فى البرزخ

### Qəbirdə insana hansı suallar veriləcək

İmam Səccad (ə) buyurur: Agah ol ki, qəbirdə sənə: İbadət etdiyin Allah barədə, sənin üçün göndərilmiş peyğəmbər barədə, əqidə bəslədiyin din barədə, oxuduğun kitab barədə, yolunu getdiyin imam barədə, ömrünü hansı yolda xərclədiyin barədə, əlində olan maddi imkanları hansı vasitə ilə ələ gətirdiyin barədə və onu hansı yolda xərclədiyin barədə sorğular olacaqdır.[3]

### Qəbr əzabını çoxaldan əməllər

Hədis və rəvayətləri mütaliə etdikdə, məlum olur ki, qəbr əzabının çoxalmasına aşağıdakı əməllər səbəb olar:

1- Söz gəzdirmək. 2-Cismi paklığa riayət etməmək. 3-Kobud davranış. 4- Əldə olan nemətləri zay edib, onlardan düzgün istifadə etməmək. 5- Namazı dəstəmazsız qılmaq. 6- Məzlumu köməksiz qoymaq.[4]

[1] (Nəhcül-Bəlağə, Hikmətli sözlər,130).
[2] (Furu-Kafi,cild.3.səh.242).
[3] (Kafi,cild.8.səh.72).
[4] (Biharul-Ənvar,cild.6.səh.221. Bihar, cild 80,səh 176).

## Qəbr əzabını yüngülləşdirən amillər

Peyğəmbər (s) və məsum İmamların (ə) hədislərinə əsasən, əgər insan dünyada bu işləri yerinə yetirsə, qəbr aləmində onun əzabı yüngülləşər.

1- Hər kim Allah uğrunda şəhid olsa. 2- Hər kim daim gecə namazı qılsa. 3- Namazlarında rükunu düzgün şəkildə yerinə yetirsə. 4- Sədəqə versə. 5- Vəhşət namazı qılsa. 6- Həccə getsə. 7- Cümə günü və ya cümə gecəsi dünyasını dəyişsə. 8- Qəbirlərin üzərinə su səpələsə. 9- Yasin, Qələm, Mülk surəsini və bəzi duaları oxusa.[1]

[1] (Bərzəx aləmi kitabı, səh.116-125).

# DÜNYA HƏYATININ AXİRƏT İLƏ FƏRQİ

Bildiyimiz kimi, yaşadığımız dünya həyatı bir müddətdən sonra sona çatacaq. Ölümdən dərhal sonra, yeni bir həyata başlanacaq. Ölümdən sonrakı həyatın keyfiyyətindən tam agah olmaq üçün gərək insanın özü oranı görmüş olsun. Amma Quran ayələri və məsumların (ə) kəlamlarında, axirət aləminin bəzi xüsusiyyətləri açıqlanıb.

### Quran ayələrində axirət ilə dünyanın fərqləri

**1- Dünyada istədiyimiz sözü, həqiqətləri gizlətmək olar, amma axirətdə bu iş mümkün deyil**

يَوْمَئِذٍ يَوَدُّ الَّذِينَ كَفَرُوا وَعَصَوُا الرَّسُولَ لَوْ تُسَوَّىٰ بِهِمُ الْأَرْضُ وَلَا يَكْتُمُونَ اللَّهَ حَدِيثًا

O gün Allahı dananlar və Peyğəmbərə asi olanlar yerlə yeksan olmağı arzu edərlər və heç bir sözü Allahdan gizlədə bilməzlər![1]

يَوْمَ تُبْلَى السَّرَائِرُ

Bütün sirlərin aşkar olacağı o qiyamət günü;[2]

**2- Dünyada insan özünü müdafiə etməyə qadirdir, amma qiyamətdə heç kim özünü müdafiə edə bilməyəcək**

هَٰذَا يَوْمُ لَا يَنْطِقُونَ

Bu elə bir gündür ki, (qiyaməti yalan sayanlar) danışa bilməzlər. [3]

**3- Dünyada, etdiyimiz bəyənilməmiş işlər qarşısında üzr istəməyə qadirik, amma axirətdə üzrxahlıq qəbul olunan deyil**

وَلَا يُؤْذَنُ لَهُمْ فَيَعْتَذِرُونَ

Onlara üzr istəməyə izin də verilməz.[4]

**4- İnsan bu dünyada işkəncədən qaça bilər, amma insan axirətdə heç bir yerə qaça bilməyəcək və etdiyi günahlar qarşısında layiqli cəzasını alacaq**

---

[1] (Nisa, 42).
[2] (Tariq, 9).
[3] (Mursəlat, 35).
[4] (Mursəlat, 36).

يَقُولُ الْإِنْسَانُ يَوْمَئِذٍ أَيْنَ الْمَفَرُّ كَلَّا لَا وَزَرَ

Məhz o gün insan: “Qaçıb can qurtarmağa yer haradadır? ” – deyəcəkdir. Xeyr, (o gün) heç bir sığınacaq olmayacaqdır![1]

**5- Dünyada insan öz günahını başqasının boynuna ata bilər, amma axirətdə bu iş mümkün deyil**

وَلَا تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَىٰ وَإِنْ تَدْعُ مُثْقَلَةٌ إِلَىٰ حِمْلِهَا لَا يُحْمَلْ مِنْهُ شَيْءٌ وَلَوْ كَانَ ذَا قُرْبَىٰ

Heç bir günahkar başqasının günahını daşımaz. Günah yükü ağır olan kimsə yükünü daşımaq üçün (başqa birisini köməyə) çağırsa və (çağırılan adam onun) yaxın qohumu olsa belə, o yükdən bir şey daşınmaz.[2]

**6- Dünyadakı çətinliklərdə, başqalarından kömək ala bilərik, amma axirətdə heç kəs heç kəsə kömək edə bilməyəcək**

لَا تَجْأَرُوا الْيَوْمَ إِنَّكُمْ مِنَّا لَا تُنْصَرُونَ

(Onlara belə deyirlər:) “Yalvarıb-yaxarmayın, bu gün Bizdən sizə heç bir kömək yetişməz! ”[3]

**7- Dünyada etdiyimiz cinayətlərdən azad olmaq üçün, lazımi miqdarda cəzanı ödəyib azad ola bilərik. Axirətdə isə bu iş mümkün deyil və hər kəs öz əməlinin cəzasını görəcək**

كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ

Hər kəs öz əməlinin girovudur! (Hərə öz əməlinin əvəzini alacaqdır!)[4]

**8- Dünyadakı nemət və əzablar qısa, axirətin nemət və əzabları isə həmişəlikdir**

مَثَلُ الْجَنَّةِ الَّتِي وُعِدَ الْمُتَّقُونَ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ أُكُلُهَا دَائِمٌ وَظِلُّهَا تِلْكَ عُقْبَى الَّذِينَ اتَّقَوْا وَعُقْبَى الْكَافِرِينَ النَّارُ

[1] (Qiyamət, 10-11).
[2] (Fatir, 18).
[3] (Muminun, 65).
[4] (Muddəssir, 38).

Allahdan qorxub pis əməllərdən çəkinənlərə (möminlərə) vəd edilən Cənnətin vəsfi belədir: (ağacları) altından çaylar axar, yeməkləri də, kölgələri də daimidir. Bu, Allahdan qorxub pis əməllərdən çəkinənlərin aqibətidir. Kafirlərin aqibəti isə Cəhənnəmdir![1]

لَا مَقْطُوعَةٍ وَلَا مَمْنُوعَةٍ

(Cənnət əhli)Tükənməz və qadağan edilməyən (meyvələr) içində[2]

فَادْخُلُوا أَبْوَابَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا فَلَبِئْسَ مَثْوَى الْمُتَكَبِّرِينَ

Haydı, girin əbədi qalacağınız Cəhənnəmin qapılarına (təbəqələrinə). Təkəbbürlülərin (Allaha iman gətirməyi özlərinə ar bilənlərin) məskəni necə də pisdir! ”[3]

**9- Dünyadakı cəzalar bəzən yüngül tutulur, axirətdə isə insanın etdiyi pis əməllər qarşısında tam şəkildə cəza veriləcək.**

أُولَٰئِكَ الَّذِينَ اشْتَرَوُا الْحَيَاةَ الدُّنْيَا بِالْآخِرَةِ فَلَا يُخَفَّفُ عَنْهُمُ الْعَذَابُ وَلَا هُمْ يُنْصَرُونَ

Onlar (yəhudilər) axirəti dünya həyatına satan kimsələrdir. Buna görə də onların nə əzabı yüngülləşər, nə də onlara kömək olunar.[4]

## Rəvayətlərdə axirət ilə dünyanın fərqləri

Yaşadığımız fani dünyanın əbədi olan axirət aləmi ilə çox fərqi var. Məsumların (ə) rəvayətlərində bu barədə çox sayda cümlələri qeyd olunub. Aşağıda bu mövzu barədə bir neçə hədis və rəvayəti gətirməklə kifayətlənirik.

### 1- Dünya əziyyət , axirət isə rahatçılıq evidir

Əli (ə) buyurur: Mən dünyanı necə tərifləyim, bir halda ki, onun əvvəli əziyyət, sonu ölümdür. Dünyanın halalı qarşısında Allaha cavab verməli, haramı qarşısında isə əzab olunacağıq.[5]

---

[1] (Rəd, 35).
[2] (Vaqiə, 33).
[3] (Nəhl, 29).
[4] (Bəqərə, 86).
[5] (Səfinətul-Bihar,cild.1.səh.466).

قال علی (ع): ما أصفُ من دارٍ اولها عناءٌ و آخرها فناء فی حلالها حساب و فی حرامها عقاب

## 2- Dünya yuxu, axirət isə yuxudan ayılmaq kimidir

İmam Səccad (ə) buyurur: Dünya həyatı yuxudan başqa bir şey deyil və axirət həyatı, həmin yuxudan ayılmağa bənzəyir.[1]

قال السجاد (ع): الدنیا نومةٌ و الآخرة یقظةٌ

## 3- Dünya hiylə, axirət isə həqiqət aləmidir

Əli (ə) buyurur: Dünya, qəm-qüssəyə bürünmüş, hiylə və xəbisliklə məşhurlaşmış bir evdir. O, həmişə bir halda qalmır. Ona gələnlər salamat qalmazlar. Onun halları müxtəlifdir və növbələri dəyişməkdədir. Onda kef çəkmək məzəmmət edilib və onda rahatlıq tapılmır.[2]

قال علی (ع): دار باالبلاء محفوفة و بالغدر معروفة لا تدوم احوالها و لا تسلم نزّالها احوال مختلفة و تارات متصرّفة العیش فیها مذموم و الامان منها معدوم

## 4- Dünya keçid, axirət isə əbədi həyat yeridir

İmam Əli (ə) buyurur: Dünya keçid evidir və insanların əbədi yaşaması üçün nəzərdə tutulan yer deyil. Dünyada yaşayan insanlar iki dəstədir. Onlardan bəzisi özünü (dünyanın bər-bəzəklərinə) satıb məhv oldu, bəziləri isə özlərini alıb (dünyanın bəlalarından) azad oldular.[3]

قال علی (ع): الدنیا دار ممرّ لا دار مقرّ و الناس فیها رجلان رجلٌ باع فیها نفسه فاوبقها و رجل ابتاع نفسه فاعتقها

[1] (Məcmuə Vəram,cild.2.səh.24).
[2] (Nəhcül-Bəlağə, Xütbə.217).
[3] (Nəhcül-Bəlağə, Hikmətli sözlər.130).

# MƏAD (ÖLƏNDƏN SONRA DİRİLMƏK) VƏ ONUN VARLIĞININ İSBATI

Qiyamət günü baş verdikdən sonra Adəmdən (ə) həmin günə qədər yaranmış insanlar dirilib, etdikləri bütün əməllər qarşısında cavab verəcəklər. Həmin gündə insana onun sərvət, qohum-əqrəba və ailəsi deyil, bəlkə onun yaxşı əməlləri fayda verəcək. Necə ki, Allah-taala buyurur:

إِنَّ الَّذِينَ كَفَرُوا لَنْ تُغْنِيَ عَنْهُمْ أَمْوَالُهُمْ وَلَا أَوْلَادُهُمْ مِنَ اللَّهِ شَيْئًا وَأُولَٰئِكَ هُمْ وَقُودُ النَّارِ

Haqqı inkar edənlərin nə malları, nə də övladları onları Allah yanında (axirətdə) heç bir şeydən qurtara bilməz. Əlbəttə, onlar cəhənnəm odunun yanacağıdırlar![1]

Qurani-kərimdə qiyamətin baş verəcəyinə dair bir çox sübutlar qeyd olunub. Aşağıda o dəlillərin bəzilərinə işarə edirik.

**1- İlk insanın yaradılışı**

وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ قَالَ مَنْ يُحْيِي الْعِظَامَ وَهِيَ رَمِيمٌ قُلْ يُحْيِيهَا الَّذِي أَنْشَأَهَا أَوَّلَ مَرَّةٍ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ

Öz yaradılışını unudub: “Çürümüş sümükləri kim dirildə bilər? ! ” – deyə, hələ Bizə bir məsəl də çəkdi. (Ya Peyğəmbər!) De: “Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da) çox gözəl tanıyandır![2]

**2- Allahın qüdrəti**

أَوَلَمْ يَرَوْا أَنَّ اللَّهَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَلَمْ يَعْيَ بِخَلْقِهِنَّ بِقَادِرٍ عَلَىٰ أَنْ يُحْيِيَ الْمَوْتَىٰ بَلَىٰ إِنَّهُ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

Məgər onlar göyləri və yeri yaratmış və onları yaratmaqdan yorulmamış Allahın ölüləri də diriltməyə qadir olduğunu görüb anlamırlarmı? Bəli, O, hər şeyə qadirdir![3]

---

[1] (Ali-İmran, 10).
[2] (Yasin, 78-79).
[3] (Əhqaf, 33).

3- Yaz fəslində torpağın canlanması

فَانْظُرْ إِلَىٰ آثَارِ رَحْمَتِ اللَّهِ كَيْفَ يُحْيِي الْأَرْضَ بَعْدَ مَوْتِهَا ۚ إِنَّ ذَٰلِكَ لَمُحْيِي الْمَوْتَىٰ ۖ وَهُوَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

(Ya Rəsulum!) Sən Allahın rəhmətinin (yağışının) əsər-əlamətinə bax ki, torpağı öldükdən sonra necə dirildir. Doğrudan da, O, ölüləri diriləndir. O (Allah) hər şeyə qadirdir![1]

4- Allah-taala tərəfindən ölüləri diriltmək nümunələrini yada salmaq

a) İbrahimin (ə) istəyi ilə ölü quşların dirilməsi

وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ أَرِنِي كَيْفَ تُحْيِي الْمَوْتَىٰ ۖ قَالَ أَوَلَمْ تُؤْمِنْ ۖ قَالَ بَلَىٰ وَلَٰكِنْ لِيَطْمَئِنَّ قَلْبِي ۖ قَالَ فَخُذْ أَرْبَعَةً مِنَ الطَّيْرِ فَصُرْهُنَّ إِلَيْكَ ثُمَّ اجْعَلْ عَلَىٰ كُلِّ جَبَلٍ مِنْهُنَّ جُزْءًا ثُمَّ ادْعُهُنَّ يَأْتِينَكَ سَعْيًا ۚ وَاعْلَمْ أَنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ

(Ya Rəsulum!) Xatırla ki, İbrahim: “Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər! ” – dedikdə (Allah) : “Məgər (ölüləri diriltməyimə) inanmırsan? ” – buyurmuşdu. (İbrahim:) “Bəli, inanıram, lakin ürəyim sakit (xatircəm) olmaq üçün (soruşdum)”, - deyə cavab vermişdi. (Bu zaman Allah ona) buyurmuşdu: “Dörd cür (cins) quş götürüb (səhv salmamaq üçün) onlara diqqətlə bax, (onları parçalayaraq bir-birinə qatandan) sonra hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət, hikmət sahibidir! ”[2]

b) Mağara əhlinin dirilməsi

وَلَبِثُوا فِي كَهْفِهِمْ ثَلَاثَ مِائَةٍ سِنِينَ وَازْدَادُوا تِسْعًا

Onlar mağarada üç yüz doqquz il qaldılar. (Üç yüz il qaldılar, üstünə bir doqquz il də artırdılar).[3]

وَكَذَٰلِكَ أَعْثَرْنَا عَلَيْهِمْ لِيَعْلَمُوا أَنَّ وَعْدَ اللَّهِ حَقٌّ وَأَنَّ السَّاعَةَ لَا رَيْبَ فِيهَا

[1] (Rum, 50).
[2] (Bəqərə, 260).
[3] (Kəhf, 25).

(İnsanları–Tərsusun əhalisini) onların halı ilə beləcə tanış etdik ki, Allahın (məxluqatın öləndən sonra diriləcəyi haqqındakı) vədinin doğru olduğunu və qiyamətin qopacağına əsla şübhə olmadığını bilsinlər.[1]

### c) Uzeyr Peyğəmbərin (ə) dirilməsi

فَأَمَاتَهُ اللهُ مِائَةَ عَامٍ ثُمَّ بَعَثَهُ قَالَ كَمْ لَبِثْتَ قَالَ لَبِثْتُ يَوْمًا أَوْ بَعْضَ يَوْمٍ قَالَ بَلْ لَبِثْتَ مِائَةَ عَامٍ فَانْظُرْ إِلَىٰ طَعَامِكَ وَشَرَابِكَ لَمْ يَتَسَنَّهْ وَانْظُرْ إِلَىٰ حِمَارِكَ وَلِنَجْعَلَكَ آيَةً لِلنَّاسِ

Belə olduqda, Allah onu yüz il ölü halında saxladı, sonra dirildərək ondan: “Nə qədər yatmısan? ” – deyə soruşdu. O da: “Bir gün, bəlkə, bir gündən daha az” – deyə cavab verdi. Allah ona: “Bəlkə, yüz il yatmısan, yediyin yeməyə, içdiyin suya bax, hələ də xarab olmayıb. Bir də uzunqulağına bax! Səni insanlar üçün bir ibrət dərsi olmaqdan ötrü belə etdik.[2]

### d) Bəni-İsraildən olan ölmüş şəxsin dirilməsi

فَقُلْنَا اضْرِبُوهُ بِبَعْضِهَا كَذَٰلِكَ يُحْيِي اللهُ الْمَوْتَىٰ وَيُرِيكُمْ آيَاتِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ

Belə olduqda Biz: “(Kəsilmiş inəyin) bir parçasını ona (qatili bilinməyən ölüyə) vurun!” – dedik. (Onlar da vurdular və ölü dirildi). Allah (bütün) ölüləri bu qaydada dirildər və sizə Öz möcüzələrini göstərər ki, ağla gəlib (bunu) dərk edəsiniz.[3]

### e) Ölülərin həzrət İsanın (ə) vasitəsi ilə dirilməsi

وَتُبْرِئُ الْأَكْمَهَ وَالْأَبْرَصَ بِإِذْنِي وَإِذْ تُخْرِجُ الْمَوْتَىٰ بِإِذْنِي

Sən Mənim iznimlə anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verir və Mənim iznimlə ölüləri (qəbirdən çıxardıb) dirildirdin.[4]

### f) Həzrət Musanın qövmündən olan yetmiş ölünün dirilməsi

وَإِذْ قُلْتُمْ يَا مُوسَىٰ لَنْ نُؤْمِنَ لَكَ حَتَّىٰ نَرَى اللهَ جَهْرَةً فَأَخَذَتْكُمُ الصَّاعِقَةُ وَأَنْتُمْ تَنْظُرُونَ ثُمَّ بَعَثْنَاكُمْ مِنْ بَعْدِ مَوْتِكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ

---

[1] (Kəhf, 21).
[2] (Bəqərə, 259).
[3] (Bəqərə, 73).
[4] (Maidə, 110).

(Və yadınıza salın ki) siz: “Ya Musa, Allahı aşkar surətdə görməyincə, heç vaxt sənə inanmayacağıq”, - dediyiniz zaman gözünüz görə-görə sizi ildırım vurmuşdu. Bəlkə, şükür edəsiniz deyə, biz sizi ölümünüzdən sonra yenidən diriltdik.[1]

### 5- İnsanın fitrətində olan Allahı tanıma dəlili

Qiyamətin varlığına digər bir sübut, hər bir insanın Allaha olan fitri inamıdır. Allah-taala hər bir insanı pak yaradıb, onun ruhunda Allaha inanmağı yerləşdirib. İnsanlar nə qədər günah atəşini ruhlarında çoxaltsa, bir o qədər də, Allahı tanımaqdan uzaq düşəcəklər.

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا ۚ فِطْرَتَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا ۚ لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ ۚ ذَٰلِكَ الدِّينُ الْقَيِّمُ وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

(Ya Rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti bilməz.[2]

### 6- Allahın hikmət və ədalət sahibi olması, qiyamət gününün varlığına digər bir sübutdur

İnsanlar dünyaya gəlir, əzab-əziyyətlə ömür sürür və nəhayət bu dünyadan köçür. Bəzisi qısa, bəzisi uzun ömür yaşayır. Bəziləri xoşbəxt, xeyirli ailə sahibi və ruzi bərəkət sahibi olur. Bəziləri isə əsl mənada bədbəxt olur. Bu xoşbəxtlərin bəziləri zalim, başqalarının haqqını tapdalayan və kafir şəxslərdir. Dünya səadətindən məhrum olanların bəziləri isə, məzlum insanlardı. Bəli, Allah-taala hər şeyi görən, eşidəndir. O, kimsənin haqqını zay etməz. Kimsənin haqqını heç kimdə qoymaz. Bu Allahın qüdrət, hikmət və ədaləti ilə uyğun gəlməz ki, dünyada güclü, qüdrətli və zalim insanlar istədikləri kimi yaşasın və etdikləri zülm qarşısında cavabsız qalsınlar.

أَفَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَأَنَّكُمْ إِلَيْنَا لَا تُرْجَعُونَ

Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz? ”[3]

---

[1] (Bəqərə, 55-56).
[2] (Rum, 30).
[3] (Muminun, 115).

أَمْ نَجْعَلُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ كَالْمُفْسِدِينَ فِي الْأَرْضِ أَمْ نَجْعَلُ الْمُتَّقِينَ كَالْفُجَّارِ

Yoxsa Biz iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərlə eyni tutacağıq? ! Yaxud Allahdan qorxub pis əməllərdən çəkinənləri günahkarlara tay edəcəyik? ![1]

أَمْ حَسِبَ الَّذِينَ اجْتَرَحُوا السَّيِّئَاتِ أَنْ نَجْعَلَهُمْ كَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ سَوَاءً مَحْيَاهُمْ وَمَمَاتُهُمْ سَاءَ مَا يَحْكُمُونَ

Yoxsa dünyada pis əməllər edənlər (axirətdə) onları iman gətirib yaxşı işlər görənlərlə bir tutacağımızı, onların həyatlarının və ölümlərinin eyni olacağını güman edirlər? ! Onlar nə pis mühakimə yürüdürlər![2]

## Rəvayətlərdə qiyamət günü

### Qiyamət günü insanların şüarı

Həzrət Muhəmməd (s) buyurur: Qiyamət gününün qaranlıqlığında insanların şüarı “ La ilahə illəllah” olacaq.[3]

قال رسول الله (ص): شعارالناس فى ظلمة يوم القامة لا اله الا الله

### Qiyamətdə insanlar susuz olacaq

Peyğəmbər (s) buyurur: Qiyamət günündəki bütün insanlar susuz olacaqlar.[4]

قال رسول الله (ص): كل من ورد فى القيامة عطشان

---

[1] (Sad, 28).
[2] (Casiyə, 21).
[3] (Kənzül-Ümmal, hədis.39938).
[4] (Həmin mənbə).

### İnsanlar qiyamət günündə, etdikləri bütün işləri yada salacaqlar

İmam Sadiq (ə) buyurur: (Qiyamət günündə) İnsanlar etdiyi bütün əməlləri yada salacaq və sanki o əməlləri elə qiyamət günündə yerinə yetirmiş kimi hiss edəcəklər. Elə ona görə də, belə deyəcəklər: " Ey vay bizim halımıza, bu necə bir əməl dəftəridir ki, heç bir pis və yaxşı əməli gözdən qaçırmayıb".[1]

قال الصادق (ع): يذكر العبد جميع ما عمل و ما كتب عليه حتى كانّه فعله تلك الساعة فلذلک قالو (يا ويلتنا ما لهذا الكتاب لا يغادر صغيرة و لا كبيرة الّا احصيها).

### Qiyamət günündə peşmançılıq

İmam Sadiq (ə) buyurur: Ey Məsudun oğlu! Çoxlu xeyir işləri yerinə yetir. Çünki, qiyamətdə həm günah əhli və həm də mömin şəxs peşman olacaq. Mömin şəxs deyər: Ey kaş bundan daha çox yaxşı işlər yerinə yetirərdim. Günahkar isə deyər: Çox təəssüf ki, tənbəllik etdim. Günahkar və möminin qiyamətdəki bu halına dəlil, Allahın Qurandakı buyurduğu cümlədir: And içirəm (günah etdiyi üçün, yaxud yaxşı əməli azdır deyə) özünü qınayan nəfsə![2]

قال الصادق (ع): يا بن مسعود اكثر من الصالحات و البرّ فانّ المحسن و المسیء يندمان يقول المحسن يا ليتنى ازددت من الحسنات و يقول المسیء قصّرت و تصديق ذلک قوله تعالى و لا اقسم با النّفس اللّوّامة

## Qiyamət günün, insanların həqiqi mənada olan kasıbçılıq və möhtaclığı aşkar olacaq

İmam Əli (ə) buyurur: Qiyamət günü insanların həqiqi kasıbçılıq və möhtac olmaları, onların Allah-taalaya hesab-kitab verdiklərindən sonra müəyyən olacaq.[3]

قال على (ع): الفقر و الغنى بعد الارض على الله

### Qiyamətdəki dayanacaqlar

---

[1] (Safi təfsiri, səh.281).
[2] (Məkarimul-Əxlaq, səh.353).
[3] (Nəhcül-Bəlağə, hikmət 252).

İmam Sadiq (ə) buyurur: Hesaba çəkilmədən öncə, özünüzü hesaba çəkin. Həqiqətən də qiyamətdə 50 dayanacaq var ki, hər bir dayanacaq min il çəkir. (Biharul-Ənvar,cild,7. səh.126

قال الصادق (ع): الا فحاسبوا انفسكم قبل ان تحاسبوا فان فى القيامة خمسين موقفا كل موقف مثل الف ستة مما تعدون...

## Qiyamət günündə möminin hesab-kitabı asan tutulacaq

Bir gün Peyğəmbərdən (s) soruşdular: Qiyamət günü neçə il davam edəcək? O həzrət buyurdu: Canım ixtiyarında olan Allaha and olsun ki, qiyamət günü mömin üçün, dünyada qıldığı bir vacib namazdan da asan olacaq[1].

قيل يا رسول الله ... ما اطول هذا اليوم فقال و الذى نفس محمد بيده انه ليستخف على المومن حتى يكون اخف عليه من صلاة مكتوبة يصليها فى الدنيا

[1] (Biharul-Ənvar, cild.7, səh. 123).

# QİYAMƏT GÜNÜNDƏ İNSANLARA VERİLƏCƏK SUALLAR

**Qiyamət günü hər kəs sorğuya çəkiləcək**

فَلَنَسْأَلَنَّ الَّذِينَ أُرْسِلَ إِلَيْهِمْ وَلَنَسْأَلَنَّ الْمُرْسَلِينَ

(Özlərinə) peyğəmbər göndərilən ümmətləri (peyğəmbərlərə tabe olub-olmadıqları barədə) sorğu-suala çəkəcək, göndərilən peyğəmbərləri də (dinimizi onlara təbliğ edib-etməmələri haqqında) sorğu-sual edəcəyik.[1]

**İnsanlar, etdikləri bütün işlər qarşısında sorğu-sual olunacaqlar**

وَلَوْ شَاءَ اللَّهُ لَجَعَلَكُمْ أُمَّةً وَاحِدَةً وَلَٰكِنْ يُضِلُّ مَنْ يَشَاءُ وَيَهْدِي مَنْ يَشَاءُ ۚ وَلَتُسْأَلُنَّ عَمَّا كُنْتُمْ تَعْمَلُونَ

Əgər Allah istəsəydi, sizi (eynilə dində olan) tək bir ümmət edərdi. (Allah) dilədiyini zəlalətə salar, dilədiyini isə doğru yola yönəldər. Sözsüz ki, etdiyiniz əməllərə görə sorğu-sual olunacaqsınız![2]

**Allah tərəfindən insanlara bəxş olunmuş nemətlər qarşısında da sorğu olacaq**

ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ

Sonra da həmin gün (Allahın dünyada sizə əta etdiyi) nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız![3]

**Kafirlər, söylədikləri yalan və atdıqları böhtan qarşısında sorğu-suala çəkiləcəklər**

وَلَيَحْمِلُنَّ أَثْقَالَهُمْ وَأَثْقَالًا مَعَ أَثْقَالِهِمْ ۖ وَلَيُسْأَلُنَّ يَوْمَ الْقِيَامَةِ عَمَّا كَانُوا يَفْتَرُونَ

---

[1] (Əraf, 6).
[2] (Nəhl, 93).
[3] (Təkasur, 8).

Şübhəsiz ki, onlar həm öz günahlarına, həm də öz günahları ilə yanaşı, daha neçə-neçə günahlarla (yoldan çıxartdıqları kimsələrin günahlarına) yüklənəcəklər. Qiyamət günü onlar uydurduqları yalanlara görə mütləq sorğu-sual olunacaqlar![1]

## Rəvayətlərdə qiyamət günü veriləcək bəzi suallar

Qiyamətdə veriləcək suallar çoxdur. Bu barədə çox sayda hədis-rəvayətlər mövcuddur. Aşağıda bir neçə rəvayəti qeyd edirik.

### Qiyamət günü insan dörd suala cavab vermədən yerindən tərpənə bilməyəcək

Rəsulullah (s) buyurur: Qiyamət günündə dörd suala cavab vermədən, heç kim yerindən tərpənə bilməyəcək. (O dörd sual bunlardır) Ömrünü necə keçirdiyini, cavanlığını hansı yolda xərclədiyini, sərvətini hansı yol ilə əldə edib, hansı yolda xərclədiyini və biz Əhli-beytin dostluğundan.[2]

قال رسول الله (ص): لا تزول قدما عبد يسئل من اربع عن عمره فيما افناه و من شبابه فيما ابلاه و من ماله عما اكتسب و فيما انفق و عن حبنا اهل البيت

### Allah insana bəxş etdiyi üzvlər qarşısında da, qiyamət günü sorğuya çəkiləcək

İmam Sadiq (ə) “Bilmədiyin bir şeyin ardınca getmə. Çünki qulaq, göz və ürək bunların hamısı sorğu-sual olunacaqdır” (İsra, 36) ayəsinin təfsirində buyurur: Qulaq eşitdikləri, göz gördükləri və ürək inandığı və meyil bəslədiyi şeylər qarşısında cavab verməli olacaq.[3]

قال الصادق (ع): ان السمع و البصر والفؤاد كلّ الئک كان عنه مسؤولاً – قال يسال السمع عمّا سمع والبصر عمّا نظر اليه و الفؤاد عمّا عقد عليه

### Torpaq və heyvanlara görə də sorğuya çəkiləcəyik

İmam Əli (ə) buyurur: Allahdan qorxun! Çünki qiyamət günündə Allah dərgahında siz Allah bəndələri, şəhərlər, evlər və heyvanlara görə də sorğuya çəkiləcəksiniz.[4] قال على (ع): اتّقوا الله فى عباده و بلاده فإنّكم مسئولون حتى عن البقاع و البهائم

[1] (Ənkəbut, 13).
[2] (Biharul-Ənvar,cild.7.səh,278).
[3] (Usulu-Kafi,cild.3.səh,65).
[4] (Nəhcül-Bəlağə, Xütbə 168).

# QİYAMƏT GÜNÜNDƏ HESAB-KİTAB

Qiyamət Allah-taalanın ədaləti bərpa etdiyi bir gündür. Həmin gündə insanların əməlləri dəqiq şəkildə hesablanacaq. Heç kəsin zərrə qədər belə etdiyi əməl gözdən qaçan deyil. Necə ki, Allah-taala buyurur: Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir).[1]

**Qiyamətdə insanların əməlini Allah-taala hesablayıb qiymət verəcək**

ثُمَّ إِنَّ عَلَيْنَا حِسَابَهُمْ

Onlarla haqq-hesab çəkmək də Bizə aiddir![2]

وَإِنْ مَا نُرِيَنَّكَ بَعْضَ الَّذِي نَعِدُهُمْ أَوْ نَتَوَفَّيَنَّكَ فَإِنَّمَا عَلَيْكَ الْبَلَاغُ وَعَلَيْنَا الْحِسَابُ

Onlara vəd etdiyimizin (əzabın) bir qismini sənə göstərsək də və ya (ondan qabaq) səni öldürsək də (Öz dərgahımıza götürsək də, fərq etməz). Sənin vəzifən ancaq (dini) təbliğ etməkdir. Haqq-hesab çəkmək isə Bizə aiddir![3]

**Allah-taala qiyamətdə bütün insanların əməllərini tez bir vaxtda hesablamağa qadirdir**

ثُمَّ رُدُّوا إِلَى اللَّهِ مَوْلَاهُمُ الْحَقِّ أَلَا لَهُ الْحُكْمُ وَهُوَ أَسْرَعُ الْحَاسِبِينَ

Sonra insanlar Allahın – özlərinin həqiqi ixtiyar sahibinin hüzuruna qaytarılar. Bilin ki, hökm Onundur (Allahındır) və O, ən tez haqq-hesab çəkəndir![4]

**Qiyamət günü insanın aşkarda və gizlində etdiyi bütün işlər hesaba çəkiləcək.**

لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ وَإِنْ تُبْدُوا مَا فِي أَنْفُسِكُمْ أَوْ تُخْفُوهُ يُحَاسِبْكُمْ بِهِ اللَّهُ فَيَغْفِرُ لِمَنْ يَشَاءُ وَيُعَذِّبُ مَنْ يَشَاءُ وَاللَّهُ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

[1] (Zəlzələ 7-8).
[2] (Ğaşiyə, 26).
[3] (Rəd, 40).
[4] (Ənam, 62).

Göylərdə və yerdə nə varsa, (hamısı) Allaha məxsusdur. Siz ürəyinizdə olanı zahirə çıxarsanız da, çıxarmasanız da, Allah ona müvafiq sizinlə haqq-hesab çəkər. (Allah) istədiyini bağışlar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir![1]

## Qiyamətdə kafirlər üçün hesab-kitab çox ağır olacaq

وَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِشِمَالِهِ فَيَقُولُ يَا لَيْتَنِي لَمْ أُوتَ كِتَابِيَهْ وَلَمْ أَدْرِ مَا حِسَابِيَهْ

Əməl dəftəri sol əlinə verilən isə deyəcəkdir: “Kaş əməl dəftərim mənə verilməyəydi! Hesabımın nə olduğunu bilməyəydim![2]

## Hədislərdə hesab-kitab

### İnsanın bu dünyada öz əməllərini hesaba çəkməsinin əhəmiyyəti

İslam Peyğəmbəri (s) buyurur: Ey Əbazər! Səni hesaba çəkmədən öncə, özünü hesaba çək ki, bu iş qiyamət gününün hesabını yüngülləşdirər. Əməllərin ölçülmədən, öz əməllərini ölç. Allahın hüzurunda əməllərin təqdim olunduğu böyük gün üçün özünü hazırla. Bil ki, o gündə heç bir şey gizli qalan deyil.[3]

قال رسول الله (ص): یا اباذر حاسب نفسک قبل ان تحاسب فانه اهون لحسابک غدا وزن نفسک قبل ان توزن و تجهّز للعرض الا کبر یوم تعرض لا تخفی علی الله خافیة

### Etdiyimiz əməllərə görə özümüzü hesaba çəkməyin faydaları

İmam Əli (ə) buyurur: Hər kim öz əməllərini hesaba çəksə xeyir, hər kim də bu işdən qafil olsa, ziyan görər. (Allahın əzabından) qorxan şəxs isə (əzabdan) amanda qalar.[4]

قال علی (ع): من حاسب نفسه ربح و من غفل عنها خسر و من خاف امن

---

[1] (Bəqərə, 284).
[2] (Haqqə, 25-26).
[3] (Biharul-Ənvar, cild.77. səh,83).
[4] (Biharul-Ənvar,cild.70.səh.73).

## Özümüzü hesab-kitaba çəkməyin faydaları

### a) Hesab-kitabın insana saysız faydaları var

İmam Əli (ə) buyurur: Hər kim özünü hesab-kitaba çəksə faydalanar və hər kim də özünü hesab-kitaba çəkməkdən qafil olsa, ziyanda qalar.[1]

### b) İnsan özünü hesab-kitaba çəksə, eyblərinə agah olar

İmam Əli (ə) buyurur: Özünü hesaba çəkən şəxs eyblərini aşkar edər və günahlarından xəbərdar olar. Bu yol ilə insan günahlarını təkrarlamamağa və eyblərini islah etməyə qadir olar.[2]

---

[1] (Biharul-Ənvar, cild.70.səh.73).
[2] (Ğurərul-Hikəm, hədis.8927).

# QİYAMƏTDƏ ŞƏFAƏT

Ayə və hədislərdən aydın olur ki, şəfaət İslamın qəti əqidə prinsiplərindən biridir. Şəfaətin nəticəsi barəsində müxtəlif nəzərlər olmasına baxmayaraq, bütün İslam məzhəbləri şəfaəti qəbul edirlər. Şəfaətin əsl mənasını, Qiyamət günü, insanların əməlləri hesaba çəkiləndən sonra, peyğəmbər (s), imam (ə), şəhidlər, Allahın saleh bəndələrinin və digər Allaha yaxın olan ucaməqamlı insanlar, öz Pərvərdigarından başqa bir insanın günahlarının bağışlanılması və ya dərəcəsinin qaldırılmasını diləməsindən ibarətdir. Yəni adıçəkilən uca mənəvi məqama sahib olan şəxslər, günahkar möminlərin günahının bağışlanmasına vasitəçi olacaqlar.

## Quran ayələrində şəfaət

Qurani-kərimdə şəfaət mövzusuna aid çox sayda ayələrə rast gəlmək olar. Şəfaət mövzusuna aid olan ən əsas ayələrdən biri də, Yəqub (ə) ilə Yusifin (ə) macərasıdır. Belə ki, Yəqub (ə) oğlu Yusifdən (ə) uzaq düşməsi nəticəsində gözləri kor olur, uzun illər keçdikdən sonra Yusifin (ə) köynəyini gözlərinə çəkərək yenidən işıq üzü görməsini nümunə gətirmək olar.

### 1- Qiyamət günündə şəfaəti mütləq şəkildə inkar edən ayələr

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَنْفِقُوا مِمَّا رَزَقْنَاكُمْ مِنْ قَبْلِ أَنْ يَأْتِيَ يَوْمٌ لَا بَيْعٌ فِيهِ وَلَا خُلَّةٌ وَلَا شَفَاعَةٌ وَالْكَافِرُونَ هُمُ الظَّالِمُونَ

Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin mümkün olmayacağı gün (qiyamət günü) gəlməmişdən əvvəl sizə verdiyimiz ruzidən paylayın! Kafirlər (bunu inkar edənlər) isə (özlərinə) zülm edənlərdir![1]

### 2- Bəzi ayələrdə isə şəfaətin yalnız Allaha məxsus olduğu bildirilir

قُلْ لِلَّهِ الشَّفَاعَةُ جَمِيعًا لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ

De: "Bütün şəfaət yalnız Allaha məxsusdur. Göylərin və yerin hökmü Onun əlindədir. Sonra siz (qiyamət günü) Onun hüzuruna qaytarılacaqsınız! "[2]

---

[1] (Bəqərə, 254).
[2] (Zumər, 44).

**3- Ayələrin bəzilərində isə məlum olur ki, qiyamətdə şəfaət Allahın izni ilə olacaq**

وَلَا تَنْفَعُ الشَّفَاعَةُ عِنْدَهُ إِلَّا لِمَنْ أَذِنَ لَهُ حَتَّىٰ إِذَا فُزِّعَ عَنْ قُلُوبِهِمْ قَالُوا مَاذَا قَالَ رَبُّكُمْ قَالُوا الْحَقَّ وَهُوَ الْعَلِيُّ الْكَبِيرُ

Onun hüzurunda, izin verdiyi kimsələr istisna olmaqla, heç kəsin şəfaəti fayda verməz. Nəhayət, ürəklərindən o (müdhiş) qorxu çıxınca onlar (şəfaət edəcək kəslərdən, yaxud mələklərdən sevinclə): "Rəbbiniz nə buyurdu? " – deyə soruşar, o biriləri də: "Haqqı (buyurdu)! (Şəfaətə izin verdi). O, (hər şeydən) ucadır, (hər şeydən) böyükdür! " – deyə cavab verərlər.[1]

**4- Bəzi ayələrdə isə, şəfaət olunan şəxsə aid xüsusi şərtləri zikr olunur**

لَا يَمْلِكُونَ الشَّفَاعَةَ إِلَّا مَنِ اتَّخَذَ عِنْدَ الرَّحْمَٰنِ عَهْدًا

Rəhmandan əhd almış kəslər istisna olmaqla, qalanları (kafirlər) şəfaət etməyə qadir olmazlar. (Yalnız iman gətirib yaxşı işlər görənlər qiyamət günü Rəhmanın izni ilə şəfaət etməyə layiqdirlər).[2]

يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَىٰ وَهُمْ مِنْ خَشْيَتِهِ مُشْفِقُونَ

(Allah) onların öndəkilərini də, arxalarındakını da (nə etdiklərini və nə edəcəklərini) bilir. Onlar yalnız (Allahın) razı olduğu (izin verdiyi) kəslərdən ötrü şəfaət edə bilər və Onun heybətindən qorxarlar.[3]

**5- Bəzi ayələrdə isə açıq-aşkar bildirilir ki, qiyamətdə bəzi günahkarlara şəfaət qismət olan deyil**

وَأَنْذِرْهُمْ يَوْمَ الْآزِفَةِ إِذِ الْقُلُوبُ لَدَى الْحَنَاجِرِ كَاظِمِينَ

مَا لِلظَّالِمِينَ مِنْ حَمِيمٍ وَلَا شَفِيعٍ يُطَاعُ

---

[1] (Səba, 23).
[2] (Məryəm, 87).
[3] (Ənbiya, 28).

(Ya Peyğəmbər!) Onları (hövldən) ürəklərin ağıza gələcəyi (udquna belə bilməyəcəkləri və ya ürəkləri qəm-qüssə ilə dolacağı) yaxın günlə (qiyamət günü ilə) qorxut. (O gün) zalımların nə bir dostu, nə də sözü keçən bir şəfaətçisi olar![1]

## Rəvayətlərdə şəfaət

Bir çox hədis və rəvayətlərdən məlum olur ki, Allah-taala qiyamət günü insanların şəfaət olunması üçün bəzi şəxsləri vasitə qərar verəcək. Qiyamətdəki şəfaətçilər aşağıdakılardan ibarətdir.

### 1- Peyğəmbərlər

قال رسول الله (ص): يشفع الانبياء فى كلّ منْ كان يشهد انْ لا اله الا الله مخلصا

Allah Rəsulu (s) buyurur: İlahi peyğəmbərlər (ə) Allahın təkliyinə xalis qəlblə inananlar üçün şəfaətçi olacaqlar.[2]

### 2- Məsum imamlar (ə) və həzrət Fatimə (s)

قال على (ع): لنا شفاعة و لاهل مودّتنا شفاعة

İmam Əli (ə) buyurur: Şəfaət, biz imamlar və bizim dostlarımıza aiddir.[3]

### 3- Qurani-kərim də qiyamətdə şəfaətçi olacaq

قال على (ع): اعلموا انّ لقرآن شافع مشفّع

Əli (ə) buyurur: Bilin ki, Quran elə bir şəfaətçidir ki, onun şəfaəti qəbul olunacaq.[4]

### 4- Möminlər

[1] (Ğafir, 18).
[2] (Musnədu Əhməd, cild 1, 12).
[3] (Mənaqib, 2, 15).
[4] (Nəhcül-bəlağə, Xütbə 171).

سئل الصادق عن المؤمن هل يشفع فى اهله؟ قال: نعم المؤمن يشفع فيشفع

İmam Sadiqdən (ə) soruşdular ki, mömin öz yaxınları üçün şəfaət edə biləcəkmi? İmam (ə) buyurdu: Bəli, onun şəfaəti qəbul olunacaq.[1]

**5- (Saleh əməl sahibi olan) Qonşular**

قال الصاق (ع): انَّ الجارَّ يشفع جارَّهُ

İmam Sadiq (ə) buyurur: Həqiqətən qonşu öz qonşusu üçün şəfaət edəcək.[2]

**6- Mələklər**

قال رسول الله (ص): يشفع النبيون والملائكة

Həzrət Muhəmməd (s) buyurur: Peyğəmbər və mələklər şəfaət edəcəklər.[3]

**7-8 Şəhidlər və həqiqi din alimləri**

قال رسول الله (ص): يشفع يوم القيامة الانبياء ثمّ العلماء ثمّ الشّهداء

Peyğəmbər (s) buyurur: Qiyamət günündə ilk öncə peyğəmbərlər, daha sonra alimlər və alimlərdən sonra da şəhidlər şəfaət edəcəklər.[4]

## Qiyamətdə şəfaətə nail olmağın yolları

**1- Səcdəni uzatmaq**

Bir nəfər Peyğəmbərdən (s) onun üçün şəfaətçi olmağını istədi və həzrət (s) buyurdu: Mənə bu işdə, özünün uzun səcdələrin ilə köməkçi ol.[5]

**2- Quran oxumaq**

---

[1] (Məhasin kitabı, səh.184).
[2] (Biharul-Ənvar.cild 8.səh. 43).
[3] (Buxari, c. 1, səh.160).
[4] (Sunən ibni macə, c. 2. hədis. 1443).
[5] (Musnəd əhməd, c. 3. 500).

Peyğəmbər (s) buyurur: Quranı öyrənin ki, qiyamət günündə öz dostlarına şəfaətçi olacaq.[1]

**3- Peyğəmbər (s) övladları ilə dost olub, onların qulluğunda olmaq**

Peyğəmbər (s) buyurur: Mən qiyamət günündə dörd dəstə insanları şəfaət edəcəm. Onlar ki, mənim övladlarıma və nəslimdən olanlara yaxşılıq edə. Onlar ki, mənim övladlarımın ehtiyaclarını aradan qaldıra. Onlar ki, övladlarımın çətinliyə düşdüyü vaxtda, onların həlli üçün zəhmət çəkə və onlar ki, övladlarımı və nəslimdən olanları həm qəlblərində və həm də dillərində sevələr.[2]

## Qiyamət günündə şəfaətin qarşısını alan günahlar

**1- 2 Şirk və zülm**

Peyğəmbər (s) buyurur: Mənim şəfaətim günahkarlar üçün olacaq. Amma şirk və zülm edənlərə şəfaət nəsib olmaz.[3]

قال رسول الله (ص): اما شفاعتی ففی اصحاب الکبائر ما خلا اهل الشرک و الظلم

**3- Şəfaətə inanmamaq**

İmam Rza (ə) buyurur: Hər kim peyğəmbərinin (ə) şəfaətini yalan hesab etsə, şəfaət olunmaz.[4]

قال الرضا (ع): من كذّب بشفاعة رسول الله لم تنله

**4- Namaza qarşı əhəmiyyətsiz yanaşmaq**

İmam Sadiq (ə) buyurur: Namazı yüngül tutan şəxs, bizim şəfaətimizə nail olmaz.[5]

قال الصادق (ع): لا ينال شفاعتنا من استخف بالصلوة

---

[1] (Musnədi əhməd, c. 5. 251).
[2] (Uyunu-Əxbarur-Riza, cild.2.səh.24).
[3] (Xisal, səh.355).
[4] (Uyunu-əxbari Riza, 66).
[5] (Kafi, c. 3. 270).

# İNSANIN YAXŞI ƏMƏLLƏRİ NECƏ MƏHV OLUR

İnsan ölümdən sonrakı əbədi həyatda, cənnətə daxil olmaq üçün gərək bu dünyada bacardığı qədər yaxşı işlər və saleh əməllər yerinə yetirsin. Amma gərək yaddan çıxarmayaq ki, etdiyimiz yaxşı əməlləri gərək qoruyub saxlayaq. Yəni gərək yaxşı əməllərimizi günahlar vasitəsi ilə məhv etməyək. Bu mövzuya Qurani-kərimdə də işarə olunub. Aşağıda, yaxşı əməllərimizin hansı günahlar vasitəsi ilə məhv olmasına işarə edirik.

**1- Allaha şərik qoşmaq**

وَلَقَدْ أُوحِيَ إِلَيْكَ وَإِلَى الَّذِينَ مِنْ قَبْلِكَ لَئِنْ أَشْرَكْتَ لَيَحْبَطَنَّ عَمَلُكَ وَلَتَكُونَنَّ مِنَ الْخَاسِرِينَ

(Ya Rəsulum!) Sənə və səndən əvvəlkilərə (keçmiş peyğəmbərlərə) belə vəhy olunmuşdur: "Əgər (Allaha) şərik qoşsan, bütün əməlin puça çıxacaq və mütləq ziyan çəkənlərdən olacaqsan![1]

**2- İman gətirdikdən sonra küfrə qayıtmaq**

وَمَنْ يَكْفُرْ بِالْإِيمَانِ فَقَدْ حَبِطَ عَمَلُهُ وَهُوَ فِي الْآخِرَةِ مِنَ الْخَاسِرِينَ

İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar![2]

**3- Dindən çıxmaq**

وَمَنْ يَرْتَدِدْ مِنْكُمْ عَنْ دِينِهِ فَيَمُتْ وَهُوَ كَافِرٌ فَأُولَٰئِكَ حَبِطَتْ أَعْمَالُهُمْ فِي الدُّنْيَا وَالْآخِرَةِ وَأُولَٰئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ

Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə kimsələrin bütün əməlləri (vaxtilə gördüyü yaxşı işləri) dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar![3]

---

[1] (Zumər, 65).
[2] (Maidə, 5).
[3] (Bəqərə, 217).

**4- Nifaq**

وَيَقُولُ الَّذِينَ آمَنُوا أَهَٰؤُلَاءِ الَّذِينَ أَقْسَمُوا بِاللَّهِ جَهْدَ أَيْمَانِهِمْ ۙ إِنَّهُمْ لَمَعَكُمْ ۚ حَبِطَتْ أَعْمَالُهُمْ فَأَصْبَحُوا خَاسِرِينَ

İman gətirənlər isə deyəcəklər: "Sizinlə birlikdə olacaqları barədə Allaha (yalandan) möhkəm andlar içən kəslər bunlarmıdır? "Onların (bütün) əməlləri puça çıxdı və (axirətdə) zərərçəkənlərdən oldular.[1]

**5- Allahın ayələrini və qiyamət gününü inkar etmək**

أُولَٰئِكَ الَّذِينَ كَفَرُوا بِآيَاتِ رَبِّهِمْ وَلِقَائِهِ فَحَبِطَتْ أَعْمَالُهُمْ فَلَا نُقِيمُ لَهُمْ يَوْمَ الْقِيَامَةِ وَزْنًا

Onlar o kəslərdir ki, Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını (qiyamət günü dirilib haqq-hesab üçün Onun hüzurunda duracaqlarını) inkar etdilər, bununla da onların bütün əməlləri puça çıxdı. Buna görə də Biz (qiyamət günü) onlar üçün bir daş-tərəzi qurmayacağıq![2]

**6- Həzrət Muhəmmədin (ə) hüzurunda ədəbsizlik etmək**

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَرْفَعُوا أَصْوَاتَكُمْ فَوْقَ صَوْتِ النَّبِيِّ وَلَا تَجْهَرُوا لَهُ بِالْقَوْلِ كَجَهْرِ بَعْضِكُمْ لِبَعْضٍ أَنْ تَحْبَطَ أَعْمَالُكُمْ وَأَنْتُمْ لَا تَشْعُرُونَ

Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar.[3]

## Rəvayətlər baxımından, saleh əməllərin məhv olmasına səbəb olan amillər

**1- Riyakarlıq**

قال رسول الله (ص): ان المرائی ینادی یوم القیامة یا فاجر یا غادر یا مرائی ضلَّ عملک و بطل اجرک اذهب فخذ اجرک ممن کنت تعمل له

[1] (Maidə, 53).
[2] (Kəhf, 105).
[3] (Hucurat, 2).

Peyğəmbər (s) buyurur: Qiyamət günü riyakara xitab olunub deyiləcək: Ey günahkar, ey tülkü xislətli, ey riyakar, sənin əməllərin itib və qazancın məhv olub. Ona görə də, muzdunu kimə görə iş görürdünsə, ondan da istə.[1]

**2- Təkəbbür**

قال على (ع): فاتبروا بما كان من فعل الله با ابليس اذا حبط عمله الطويل و جهده الجهيد و كان قد عبد الله ستة الاف سنة. . . عن كبر ساعة واحدة

İmam Əli (ə) buyurur: Allah şeytana etdiyindən ibrət götürün ki, onun uzun müddətli çalışmağı və ibadəti məhv oldu. Şeytan Allaha altı min il ibadət etdi, amma yalnız bir dəfə təkəbbürlük etdiyinə görə bütün əməlləri puç məhv oldu.[2]

**3- Qısqanclıq**

قال رسول الله (ص): فلا تحسدوا فتحبط اعمالكم

Peyğəmbər (s) buyurur: Bir-birinizə qısqanclıq etməyin ki, əməlləriniz məhv olar.[3]

**4- Fəhlə və işçilərə zülm etmək**

قال رسول الله (ص): من ظلم اجيرا اجره احبط الله عمله

Peyğəmbər (s) buyurur: Hər kim öz işçisinə zülm etsə, Allah onun əməllərini məhv edər.[4]

**5- Yaxşılıq edəndə minnət qoymaq**

قال رسول الله (ص): انّ الله ... يحبط اجر العطى المنّان

Peyğəmbər (s) buyurur: Doğurdan da, yaxşılıq edərkən minnət qoyan şəxsin əcrini, Allah məhv edər.[5]

**6- Haqqı bilən halda, inadkarlıqla mübahisə etmək**

---

[1] (Biharul-Ənvar, c. 72. səh.302).
[2] (Biharul-Ənvar, c. 63.səh. 214).
[3] (Biharul-Ənvar, cild. 37. səh.210).
[4] (Bihar, c. 76. 332).
[5] (Biharul-Ənvar, c. 77. səh.145).

قال الصادق (ص): ايّاک والمراء فانّه يحبط عملک

İmam Sadiq (ə) buyurur: İnadkarlıqdan çəkin ki, əməllərinin məhv olmasına səbəb olar.[1]

7- Ücb və özünü bəyənmə

قال رسول الله (ص): اعجاب المرء بنفسه و هو محبط للعمل

Peyğəmbər (s) buyurur: İnsanın özünü bəyənməsi, əməllərinin məhv olmasına səbəb olar.[2]

8- Namazı tərk etmək

قال رسول الله (ص): من ترک صلاته من غیر عذر فتفوته فقد حبط عمله

Peyğəmbər (s) buyurur: Hər kim səbəbsiz yerə namazı tərk etsə, əməlləri puç olar.[3]

9- İmamın (ə) vilayətini qəbul etməmək

قال رسول الله (ص) لعلی (ع): و من لقی الله عزَّ و جلَّ بغیر ولایتک فقد حبط عمله

Allah Rəsulu (s) Əliyə (ə) üz tutaraq buyurdu: Hər kim səni sevmədən və imamlığını qəbul etmədən dünyadan köçsə, əməlləri məhv olar.[4]

---

[1] (Biharul-Ənvar, c. 78. səh.288).
[2] (Biharul-Ənvar, c. 72. səh.321).
[3] (Biharul-Ənvar, c. 82. Səh.202).
[4] (Biharul-Ənvar, c. 24. Səh.65).

# GÜNAHLARIN BAĞIŞLANMASI ÜÇÜN GÖRÜLƏSİ İŞLƏR

Allah-taala çox mərhəmətlidir. O, insanları, etdikləri günahlar qarşısında dərhal cəzalandırmır və onlara bağışlanmaq üçün fürsət verir. Ayə və hədislərə əsasən günahların bağışlanması üçün müxtəlif vasitələr var. Aşağıda o vasitələrdən bəzilərini gətiririk.

**1- Tövbə**

Tövbə ərəbköklü bir sözdür. Tövbənin mənası günahları etiraf edib, peşman olub Allahdan bağışlanmaq istəməkdir.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللَّهِ تَوْبَةً نَصُوحًا عَسَىٰ رَبُّكُمْ أَنْ يُكَفِّرَ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَيُدْخِلَكُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ

Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən (bir daha günaha qayıtmamaq şərtilə) tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızın üstünü örtsün və sizi (ağacları) altından çaylar axan cənnətlərə daxil etsin.[1]

**2- İman və saleh əməl**

وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَآمَنُوا بِمَا نُزِّلَ عَلَىٰ مُحَمَّدٍ وَهُوَ الْحَقُّ مِنْ رَبِّهِمْ كَفَّرَ عَنْهُمْ سَيِّئَاتِهِمْ وَأَصْلَحَ بَالَهُمْ

İman gətirib yaxşı əməllər edənlərin, Rəbbindən Muhəmmədə haqq olaraq nazil edilənə (Qurana) inananların isə günahlarının üstünü örtəcək, onların əhvalını (dünyada və axirətdə) düzəldəcəkdir (yaxşılaşdıracaqdır).[2]

**3- Təqva**

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تَتَّقُوا اللَّهَ يَجْعَلْ لَكُمْ فُرْقَانًا وَيُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

---

[1] (Təhrim, 8).

[2] (Muhəmməd, 2).

Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqqı ayırd edən (bir nur) verər (dünyada və axirətdə çıxış yolu göstərər), günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf (mərhəmət) sahibidir![1]

**4- Allah yolunda cihad etmək, köç etmək və şəhid olmaq**

فَالَّذِينَ هَاجَرُوا وَأُخْرِجُوا مِنْ دِيَارِهِمْ وَأُوذُوا فِي سَبِيلِي وَقَاتَلُوا وَقُتِلُوا لَأُكَفِّرَنَّ عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلَأُدْخِلَنَّهُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ ثَوَابًا مِنْ عِنْدِ اللَّهِ

Hicrət edənlərin (Məkkədən Mədinəyə öz dinini qorumaq məqsədilə köçənlərin), öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarının üstünü Allahdan bir mükafat olaraq, əlbəttə, örtəcək və onları (ağacları) altından çaylar axan cənnətlərə daxil edəcəyəm.[2]

**5- Gizli şəkildə xeyriyyəçilik**

إِنْ تُبْدُوا الصَّدَقَاتِ فَنِعِمَّا هِيَ وَإِنْ تُخْفُوهَا وَتُؤْتُوهَا الْفُقَرَاءَ فَهُوَ خَيْرٌ لَكُمْ وَيُكَفِّرُ عَنْكُمْ مِنْ سَيِّئَاتِكُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ

Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır, lakin onu gizlində versəniz daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər. Allah tutduğunuz hər bir işdən xəbərdardır![3]

**6- Ehtiyacı olana borc pul vermək**

إِنْ تُقْرِضُوا اللَّهَ قَرْضًا حَسَنًا يُضَاعِفْهُ لَكُمْ وَيَغْفِرْ لَكُمْ

وَاللَّهُ شَكُورٌ حَلِيمٌ

[1] (Ənfal, 29).
[2] (Ali-İmran, 195).
[3] (Bəqərə, 271).

Əgər Allaha (Allah yolunda) gözəl (könül xoşluğu ilə) bir borc versəniz, (Allah) sizin üçün onun əvəzini qat-qat artırar və sizi bağışlayar. Allah qədirbiləndir, həlimdir![1]

**7- Böyük günahlardan çəkinmək**

إِنْ تَجْتَنِبُوا كَبَائِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَنُدْخِلْكُمْ مُدْخَلًا كَرِيمًا

Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinərsinizsə, Biz də sizin qəbahətlərinizin (kiçik günahlarınızın) üstünü örtər və sizi (şərəfli bir mənzilə) çatdırarıq.[2]

## Rəvayətlər baxımından günahların bağışlanmasına səbəb olan şeylər

**1- Xəstəlik**

Peyğəmbər (s) buyurur: (Xəstəlik vaxtındakı) əzab-əziyyət anı, günahı aradan aparır.[3]

قال رسول الله (ص): ساعات الوجع يذهبن ساعات الخطايا

**2- Qəm-qüssə**

Həzrət Muhəmməd (s) buyurur: Möminin günahları çoxalıb, əfv olunmaq üçün münasib bir əməli olmasa, Allah ona qəm-qüssə verər ki, bu qəm-qüssə vasitəsi ilə günahları bağışlansın.[4]

قال رسول الله (ص): اذا كثرت ذنوب المؤمن و لم يكن له من العمل ما يكفّرها ابتلاه الله با الحزن ليكفّرها به عنه

**3- Xeyirxah işlər**

---

[1] (Təğabun, 17).
[2] (Nisa, 31).
[3] (Biharul-Ənvar, c. 68. Səh.244).
[4] (Biharul-Ənvar, c. 73. Səh.157).

Allah Rəsulu (s) buyurur: Bəyənilməmiş bir iş gördüyünüz vaxt, dərhal yaxşı bir iş yerinə yetirin ki, onun vasitəsi ilə etdiyiniz günah aradan getsin.[1]

قال رسول الله (ص): اذا عملت سيئةً فاعمل حسنةً تمحوها

#### 4- Yaxşı əxlaq

İmam Sadiq (ə) buyurur: Günəş buzu əritdiyi kimi, yaxşı əxlaq da günahı aradan aparır.[2]

قال الصادق (ع): ان حسن الخلق يذيب الخطيئة كما تذيب الشمس الجليد

#### 5- Peyğəmbər (s) və onun Əhli-beytinə (ə) salavat və salam söyləmək

İmam Rza (ə) buyurur: Günahlarının bağışlanmasını aradan qaldırmağa gücü yetməyən, Muhəmməd (s) və onun ailəsinə çoxlu salavat söyləsin ki, salavat günahları məhv edib aradan aparır.[3]

قال الرضا (ع): من لم يقدر على ما يكفّر به ذنوبه فليكثر الصلوة على محمد و آله فانّها تهدم الذنوب هدما

#### 6- Həcc və ümrə ziyarəti

Əli (ə) buyurur: Allah evini həcc və ümrə üçün ziyarət etmək, kasıbçılığı aradan aparar və günahların bağışlanmasına səbəb olar.[4]

قال على (ع): حج البيت و اعتماره ينفيان الفقر و يرحضان الذنب

[1] (Biharul-Ənvar, c. 71. Səh.389).
[2] (Biharul-Ənvar, c. 71. Səh.359).
[3] (Biharul-Ənvar, c. 94. Səh.47).
[4] (Nəhcül-Bəlağə, xütbə 110).

# CƏNNƏT NEMƏTLƏRİ

Quran ayələri baxımından cənnətdə müxtəlif nemətlər olacaq. Bu nemətlərin bəziləri yeməli, bəziləri isə içməli nemətlərdir.

## Cənnətdəki yeməli nemətlər

### 1- Cənnətdə hər növ meyvə olacaq

وَلَهُمْ فِيهَا مِنْ كُلِّ الثَّمَرَاتِ وَمَغْفِرَةٌ مِنْ رَبِّهِمْ

Orada onları hər cür meyvə və Rəbbi tərəfindən (günahlardan) bağışlanma gözləyir.[1]

### 2- Cənnət əhli istədikləri meyvələrdən bəhrələnəcək

وَفَاكِهَةٍ مِمَّا يَتَخَيَّرُونَ

... Bəyənib seçdikləri meyvələrdən... [2]

وَفَوَاكِهَ مِمَّا يَشْتَهُونَ

İstədikləri meyvə içində olacaqlar![3]

### 3- Cənnət meyvələri çox sadə yol ilə əldə olunacaq

وَدَانِيَةً عَلَيْهِمْ ظِلَالُهَا وَذُلِّلَتْ قُطُوفُهَا تَذْلِيلًا

(Cənnət ağaclarının) kölgələri üstlərinə düşəcək, meyvələri də onların ixtiyarında olacaqdır (istədikləri yerdə, istədikləri zaman onları dərib yeyə biləcəklər).[4]

---

[1] (Muhəmməd, 15).
[2] (Vaqiə, 20).
[3] (Mursəlat, 42).
[4] (İnsan, 15).

### 4- Cənnət nemətləri həmişəlik olacaq və heç vaxt qadağan olunan deyil

مَثَلُ الْجَنَّةِ الَّتِي وُعِدَ الْمُتَّقُونَ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ أُكُلُهَا دَائِمٌ وَظِلُّهَا

Allahdan qorxub pis əməllərdən çəkinənlərə (möminlərə) vəd edilən Cənnətin vəsfi belədir: (ağacları) altından çaylar axar, yeməkləri də, kölgələri də daimidir.[1]

### 5- Cənnətdə müxtəlif növdə meyvə və ət olacaq

وَأَمْدَدْنَاهُمْ بِفَاكِهَةٍ وَلَحْمٍ مِمَّا يَشْتَهُونَ

Onları istədikləri meyvə və ətlə (bol-bol) təmin edəcəyik.[2]

## Cənnətdəki içməli və digər nemətlər

### 1- Su, şərab və süd çayları

مَثَلُ الْجَنَّةِ الَّتِي وُعِدَ الْمُتَّقُونَ فِيهَا أَنْهَارٌ مِنْ مَاءٍ غَيْرِ آسِنٍ وَأَنْهَارٌ مِنْ لَبَنٍ لَمْ يَتَغَيَّرْ طَعْمُهُ وَأَنْهَارٌ مِنْ خَمْرٍ لَذَّةٍ لِلشَّارِبِينَ وَأَنْهَارٌ مِنْ عَسَلٍ مُصَفًّى وَلَهُمْ فِيهَا مِنْ كُلِّ الثَّمَرَاتِ وَمَغْفِرَةٌ مِنْ رَبِّهِمْ كَمَنْ هُوَ خَالِدٌ فِي النَّارِ وَسُقُوا مَاءً حَمِيمًا فَقَطَّعَ أَمْعَاءَهُمْ

Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir: orada dadı dəyişməyən (qoxumayan) sudan irmaqlar, tamı çönməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan nəhrlər və təmiz baldan irmaqlar vardır. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən (günahlardan) bağışlanma gözləyir. (Məgər bu cənnətdə olanlar) cəhənnəm odunda əbədi qalıb bağırsaqları parça-parça edən qaynar su içirdiləcək kəslər kimi ola bilərlərmi? ![3]

### 2- Cənnətin havası

مُتَّكِئِينَ فِيهَا عَلَى الْأَرَائِكِ لَا يَرَوْنَ فِيهَا شَمْسًا وَلَا زَمْهَرِيرًا

Onlar orada (o cənnətlərdə) taxtlara söykənəcək, orada nə günəş (qızmar isti), nə də sərt soyuq görəcəklər.[4]

---

[1] (Rəd, 35).
[2] (Tur, 22).
[3] (Muhəmməd, 15).
[4] (İnsan, 13).

3- Cənnət qəsrləri

وَعَدَ اللَّهُ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ

Allah mömin kişilərə və qadınlara (ağacları) altından çaylar axan cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd buyurmuşdur. Onlar orada əbədi qalacaqlar.[1]

4- Cənnətdə istifadə edilən qablar

يُطَافُ عَلَيْهِمْ بِصِحَافٍ مِنْ ذَهَبٍ وَأَكْوَابٍ وَفِيهَا مَا تَشْتَهِيهِ الْأَنْفُسُ وَتَلَذُّ الْأَعْيُنُ وَأَنْتُمْ فِيهَا خَالِدُونَ

(Cənnətdə) onlar üçün qızıl teştlər və qədəhlər içində (yemək-içmək) dolandırılacaqdır. Orada onların ürəkləri istəyən və gözlərini oxşayan hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız![2]

5- Cənnət paltarları

وَيَلْبَسُونَ ثِيَابًا خُضْرًا مِنْ سُنْدُسٍ وَإِسْتَبْرَقٍ مُتَّكِئِينَ فِيهَا عَلَى الْأَرَائِكِ

(Altun qolbaqlar taxacaq), nazik və qalın ipəkdən (taftadan və qumaşdan) yaşıl paltarlar geyəcəklər.[3]

6- Cənnətdəki zinətlər

أُولَٰئِكَ لَهُمْ جَنَّاتُ عَدْنٍ تَجْرِي مِنْ تَحْتِهِمُ الْأَنْهَارُ يُحَلَّوْنَ فِيهَا مِنْ أَسَاوِرَ مِنْ ذَهَبٍ

Onları (ağacları) altından çaylar axan Ədn cənnətləri gözləyir. Onlar orada taxtlara söykənərək qızıl bilərziklərlə bəzənəcək (altun qolbaqlar taxacaq). .[4]

7- Cənnət əhli üçün, cənnət qadınları

وَحُورٌ عِينٌ كَأَمْثَالِ اللُّؤْلُؤِ الْمَكْنُونِ

---

[1] (Tövbə, 72).
[2] (Zuxruf, 71).
[3] (Kəhf, 31).
[4] (Kəhf, 31).

(Onlar üçün orada) iri (ahu) gözlü, qəşəng hurilər də vardır. (O hurilər rəng və gözəllikcə) sanki sədəf içində gizlənmiş (qorunub-saxlanmış) incidirlər.[1]

**8- Cənnət əhli hündür taxtlar üzərində oturacaq və ayaqları altında çox gözəl kilimlər olacaq**

Cənnət əhli etdikləri yaxşı əməlləri qarşılığında mükafatlanacaq və bu mükafata görə sevinəcəklər. Cənnətdə onlar heç bir mənasız söz belə eşitməz və onların ayaqları altından bulaq axar, taxtlar üzərində oturar və ayaqları altında çox gözəl kilim sərilər.

وُجُوهٌ يَوْمَئِذٍ نَاعِمَةٌ لِسَعْيِهَا رَاضِيَةٌ فِي جَنَّةٍ عَالِيَةٍ لَا تَسْمَعُ فِيهَا لَاغِيَةً فِيهَا عَيْنٌ جَارِيَةٌ فِيهَا سُرُرٌ مَرْفُوعَةٌ وَأَكْوَابٌ مَوْضُوعَةٌ وَنَمَارِقُ مَصْفُوفَةٌ وَزَرَابِيُّ مَبْثُوثَةٌ

(O gün) bir çox üzlər sevinəcək; (Dünyadakı) zəhmətindən razı qalacaq; (Dərəcəsi, qədir-qiyməti) yüksək Cənnətdə olacaq, Və orada heç bir boş söz (lağlağı) eşitməyəcəkdir. Orada axar bulaq; Orada uca taxtlar; (Çeşmələr kənarında) piyalələr; Bir-birinin yanına düzülmüş (yumşaq) balışlar Və döşənmiş (nəfis) xalılar vardır![2]

## Məsumların (ə) kəlamlarında cənnət

Dünyada həqiqi Allah qulu olan şəxs, əbədi olan cənnətlə mükafatlanacaq. Cənnət barədə bir çox peyğəmbər (ə), imam (ə) və digər saleh şəxslərin kəlamları mövcuddur. Aşağıda, cənnətin barəsində məsumların (ə) kəlamlarını zikr etməklə kifayətlənirik.

## Möminin qiyməti yalnız cənnətdir

İmam Əli (ə) buyurur: Doğurdan da, sizin qiymətiniz yalnız cənnətdir. Elə isə onu cənnətdən başqa bir şeyə satmayın.[3]

قال على (ع): انه ليس لانفسكم ثمن الا الجنة فلا تبيعوها الا بها

**Cənnətə yetişməyin bir yolu da, çətinliklər qarşısında səbr etməkdir**

---

[1] (Vaqiə, 22-23).
[2] (Ğaşiyə, 8-16).
[3] (Biharul-Ənvar, cild.78.səh.13).

Əli (ə) buyurur: İnsan çətinliklər və xoşagəlməz hadisələr qarşısında səbr etməklə cənnəti əldə edir.[1]

قال علی (ع): با المکاره تنال الجنة

### Cənnət əhlinin ən kiçik mənzili

İmam Sadiq (ə) buyurur: Əgər cənnətdə ən aşağı məqama malik olan insanların mənzilinə bütün insan və cinlər qonaq ola, onların hamısı doyana qədər orada yeyib-içsələr, yenə də o mənzildəki nemətlər azalmaz.[2]

قال الصادق (ع): ان ادنی اهل الجنة منزلا لو نزل به الثقلان الجن و الانس لو سعهم طعاما و شرابا و لا ينقض مما عنده شيئ

### Yetim və kimsəsizləri şad etsək, cənnətdə xüsusi bir məkanda qonaq olacağıq

Həzrət Muhəmməd (s) buyurur: Cənnətdə bir mənzil var ki, əyləncə məkanı adlanır. O məkana yalnız yetim və kimsəsiz uşaqları şad edənlər daxil olacaq.[3]

قال رسول الله (ص): ان فی الجنة دارا يقال لها دار الفرح لا يدخلها الا من فرح الصبيان و فی رواية اخری الا من فرح اليتامی

### Quran oxumağın cənnətdəki dərəcələrə təsiri

İmam Zeynul-abidin (ə) buyurur: Çalışdığınız qədər Quranla yaxın olun ki, cənnət dərəcələri, Quranın ayələri ilə ölçüləcək. Cənnətdə Quran oxuyana deyiləcək: “Oxu və yüksəl”.[4]

قال زين العابدين (ع): عليک با القرآن فان الله خلق الجنة. . . و جعل درجتها علی قدر آيات القرآن فمن قرأ القرآن قال له اقرأ وارق

### Cənnət nemətlərinin əzəməti

[1] (Ğurərul-Hikəm,hədis 4204).
[2] (Biharul-Ənvar, cild.8.səh.120).
[3] (Kənzul-Ummal,hədis.6008).
[4] (Biharul-Ənvar, cild.8.səh.133).

Allah Rəsulu (s) buyurur: Allah-taala buyurur: Öz layiqli bəndələrimə elə bir nemətlər hazırlamışam ki, onları kimsənin gözü görməyib, qulağı eşitməyib və heç kimin zehnindən belə keçməyib.[1]

قال رسول الله (ص): قال الله تعالی: اعددت لعبادی الصالحين ما لا عين رأت و لا اذن

سمعت و لا خطر علی قلب بشر

## Cənnətin ilk qonaqları

Peyğəmbər (s) buyurur: Cənnətə daxil olan ilk dəstə, kasıblar olacaq.[2]

قال رسول الله (ص): اول من يدخل الجنة من خلق الله الفقراء

## Cənnəti əldə etməyin şərti

Allah Rəsulu (s) buyurur: Hər kim "La ilahə illəllah" kəlməsini ixlasla desə, cənnətə daxil olar. İxlasın mənası budur ki, insan o cümləni deyə və bu cümlə onu günah etməkdən çəkindirə.[3]

قال رسول الله (ص): من قال لا اله الا الله مخلصا دخل الجنة و اخلاصه ان تحجزه لا اله الا

الله عما حرّم الله عزّ و جلّ

[1] (Biharul-Ənvar, cild.8.səh.92).
[2] (Kənzul-Ummal,hədis.16636).
[3] (Şeyx Səduqun Tövhid kitabı,səh.28).

# CƏHƏNNƏM ƏZABI

*Dünyada etdiyimiz günah işlər qarşısında, ölümdən sonrakı əbədi həyatda mütləq cəzalanacağıq. O dünyada əzaba çəkildiyimiz yer, cəhənnəm adlanır.*

## Quran ayələrinə görə cəhənnəm

Quranda cəhənnəmə aid çox sayda ayələr mövcuddur. Aşağıda həmin ayələrin bəzilərini gətiririk.

### Cəhənnəmin yeddi qapısı olacaq

وَإِنَّ جَهَنَّمَ لَمَوْعِدُهُمْ أَجْمَعِينَلَهَا سَبْعَةُ أَبْوَابٍ لِكُلِّ بَابٍ مِنْهُمْ جُزْءٌ مَقْسُومٌ

Şübhəsiz ki, Cəhənnəm onların hamısına vəd olunmuş (onları gözləyən) yerdir! (Cəhənnəmin) yeddi qapısı (təbəqəsi) var. Hər qapıdan müəyyən bir dəstə girər.[1]

### Cəhənnəmin qəzəbli səsi

إِذَا رَأَتْهُمْ مِنْ مَكَانٍ بَعِيدٍ سَمِعُوا لَهَا تَغَيُّظًا وَزَفِيرًا

O (atəş) onları uzaqdan görüncə (kafirlər) onun qəzəblə qaynamasını və uğultusunu eşidərlər.[2]

### Cəhənnəm kafirləri bürüyəcək

وَمِنْهُمْ مَنْ يَقُولُ ائْذَنْ لِي وَلَا تَفْتِنِّي أَلَا فِي الْفِتْنَةِ سَقَطُوا وَإِنَّ جَهَنَّمَ لَمُحِيطَةٌ بِالْكَافِرِينَ

Onlardan (münafiqlərdən): “Mənə (döyüşə getməməyə) izin ver, məni fitnəyə salma! ” – deyənlər də var. Bilin ki, onlar (özləri) fitnəyə düşmüşlər. Şübhəsiz ki, Cəhənnəm kafirləri bürüyəcəkdir![3]

### Cəhənnəmdə gözətçi və onların sayı

وَقَالَ لَهُمْ خَزَنَتُهَا أَلَمْ يَأْتِكُمْ رُسُلٌ مِنْكُمْ يَتْلُونَ عَلَيْكُمْ آيَاتِ رَبِّكُمْ

[1] (Hicr, 43-44).
[2] (Furqan, 12).
[3] (Tövbə, 49).

... və cəhənnəm gözətçiləri onlara deyəcəklər: “Məgər sizə öz içərinizdən Rəbbinizin ayələrini oxuyan, sizi bu gününüzə qovuşacağınızla qorxudan peyğəmbərlər gəlməmişdi? ”.[1]

عَلَيْهَا تِسْعَةَ عَشَرَ وَمَا جَعَلْنَا أَصْحَابَ النَّارِ إِلَّا مَلَائِكَةً

Onun üstündə on doqquz (nəfər gözətçi mələk) vardır. Biz cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik.[2]

**Cəhənnəm əhli qandallanmış şəkildə**

وَتَرَى الْمُجْرِمِينَ يَوْمَئِذٍ مُقَرَّنِينَ فِي الْأَصْفَادِ

O gün günahkarları qandallanmış (zəncirlə bir-birinə bağlanmış) görəcəksən![3]

**Cəhənnəm odu, heç vaxt sönmür**

وَمَنْ يَهْدِ اللَّهُ فَهُوَ الْمُهْتَدِ وَمَنْ يُضْلِلْ فَلَنْ تَجِدَ لَهُمْ أَوْلِيَاءَ مِنْ دُونِهِ وَنَحْشُرُهُمْ يَوْمَ الْقِيَامَةِ عَلَىٰ وُجُوهِهِمْ عُمْيًا وَبُكْمًا وَصُمًّا مَأْوَاهُمْ جَهَنَّمُ كُلَّمَا خَبَتْ زِدْنَاهُمْ سَعِيرًا

Allahın doğru yola saldığı kəs doğru yoldadır. Allahın yoldan çıxartdığı kəs üçünsə (Allahdan) başqa dostlar tapa bilməzsən. Biz qiyamət günü onları üzü üstə sürünə-sürünə, kor, lal və kar kimi məhşər ayağına çəkəcəyik. Onların düşəcəkləri yer Cəhənnəmdir. Cəhənnəm odu azaldıqca onların (bədənlərinin) alovunu artıracağıq![4]

**Cəhənnəm atəşi, insanın bətninə də nüfuz edər**

الَّتِي تَطَّلِعُ عَلَى الْأَفْئِدَةِ

Elə bir od ki, ürəkləri yandırıb-yaxar.[5]

**Cəhənnəmdə ölüm yoxdur**

[1] (Zümər, 71).
[2] (Muddəssir, 30-31).
[3] (İbrahim, 49).
[4] (İsra, 97).
[5] (Huməzə, 7).

وَالَّذِينَ كَفَرُوا لَهُمْ نَارُ جَهَنَّمَ لَا يُقْضَىٰ عَلَيْهِمْ فَيَمُوتُوا وَلَا يُخَفَّفُ عَنْهُم مِّنْ عَذَابِهَا كَذَٰلِكَ نَجْزِي كُلَّ كَفُورٍ

Kafir olanları cəhənnəm odu gözləyir. Orada nə onların ölümünə hökm olunar ki, ölüb canlarını qurtarsın, nə də əzabları yüngülləşər. Biz hər bir kafiri belə cəzalandırırıq![1]

### Cəhənnəm əhlinin paltarı

يُصْهَرُ بِهِ مَا فِي بُطُونِهِمْ وَالْجُلُودُ

O su ilə qarınlarında olanlar (bağırsaqları, ciyərləri) və dəriləri əridiləcəkdir.[2]

### Cəhənnəm əhlinin yeməyi

لَيْسَ لَهُمْ طَعَامٌ إِلَّا مِنْ ضَرِيعٍ لَا يُسْمِنُ وَلَا يُغْنِي مِنْ جُوعٍ

Onların yeməyi (zəhərdən və acı) zəridən başqa bir şey olmayacaqdır. (O yemək onlara) nə qüvvət verər, nə də aclıqdan qurtarar.[3]

### Cəhənnəmin kölgələri

وَظِلٍّ مِنْ يَحْمُومٍ لَا بَارِدٍ وَلَا كَرِيمٍ

Qapqara duman kölgəsində olacaqlar! (O kölgə başqa kölgələrdən fərqli olaraq) nə sərin, nə də xoşagələndir.[4]

[1] (Fatir, 36).
[2] (Həcc, 20).
[3] (Ğaşiyə, 6-7).
[4] (Vaqiə, 43-44).

## Məsumların (ə) hədislərində cəhənnəm

### Cəhənnəmdə heç kimə mərhəmət olunan deyil.

İmam Əli (ə) buyurur: Əzabı hər an yeni, dərinliyi çox uzaqda və istiliyi hədsiz çox olan atəşdən çəkinin. Cəhənnəm bir mənzildir ki, orda heç kimə mərhəmət göstərilməz, heç kimin sözü eşidilməz və heç kəsin də, çətinlik və sıxıntısı aradan getməz.[1]

قال على (ع): حذروا نارا قعرها بعيد و حرّها شديد و عذابها جديد دار ليس فيها رحمة و لا تسمع فيها دعوة و لا تفرج فيها كربة

### Cəhənnəm, öz əhlinə çox dar bir mənzil olacaq

İslam peyğəmbəri (s) “Onlar əlləri boyunlarına bağlı vəziyyətdə o atəşdən dar bir yerə atıldıqları zaman ölüm diləyərlər” (Furqan, 13) ayəsinin izahında buyurur: Canım əlində olan Allaha and olsun ki, cəhənnəm əhli, divardakı mıxın sıxılması kimi, cəhənnəmdə sıxıntıda olacaqlar.[2]

قال رسول الله (ص) فى قوله تعالى: «وَإِذَا أُلْقُوا مِنْهَا مَكَانًا ضَيِّقًا»قال و الذى نفسى بيده انّهم يستكرهون فى النار كما يستكره الوتد فى الحائط

### Cəhənnəm əhli, onun əzabı qarşısında dözümsüz olacaq

İmam Əli (ə) buyurur: Agah olun ki, sizin nazik dəriniz cəhənnəm atəşinə tab gətirməz. Elə isə, özünüzə yazığınız gəlsin. Siz dünyada bir çox müsibətlər ilə qarşılaşdınız. Görməmisinizmi ki, (Yaşadığımız həyatda) yaxınlarınızın bədənindəki hər hansısa xəstəlik və ya yerə yıxılmaq nəticəsində xəsarət almasını müşahidə edib, səbr etmək necə də çətindir?![3]

قال على (ع): اعلموا انه ليس لهذا الجلد الرقيق الصبر على النار فارحموا نفوسكم فانكم قد جربتموها فى مصائب الدنيا افرأيتم جزع احدكم من الشوكة تصيبه و العثرة تدميه

---

[1] (Nəhcül-bəlağənin şərhi, cild.15.səh,164).
[2] (Nurus-səqələyn, cild.4.səh.8).
[3] (Nəhcül-Bəlağə,Xütbə 183).

## Tövhid əhli, cəhənnəm əzabından amanda qalar

İmam Sadiq (ə) buyurur: Allah-taala öz izzət və cəlalına and içib ki, tək Allaha inananları cəhənnəm odunda yandıran deyil.[1]

قال الصادق (ع): إن الله تبارک و تعالی اقسم بعزّته و جلاله ان لا یعذب اهل توحیده باالنار أبدا

## Cəhənnəmin mərtəbələri

İmam Sadiqdən (ə) belə bir rəvayət nəql olunub ki, həzrət buyurur: Cəhənnəmin yeddi qatı var ki, hər biri bir-birinin üstündə yerləşir. (O həzrət cəhənnəmin qatlarının necə olduğunu başa salmaq üçün, mübarək əlini digər əlinin üstünə aparıb dedi: Bax belədir cəhənnəmin qatları) və Allah-taala cənnəti yerin üzərində qərar verib. Allah cəhənnəm atəşinin bəzilərini, bəzisinin üstündə yerləşdirib ki, onlardan ən aşağıdakı cəhənnəm adlanır. Cəhənnəmin üstündə Ləzi, ondan yuxarıda Hutəmə, Hutəmədən yuxarıda Səqər, ondan yuxarıda Cəhim və Səir, ən yüksəkdə yerləşən isə Haviyədir.[2]

قال الصادق (ع): إنّ جهنم لها سبعة أبواب اطباق بعضها فوق بعض وضع احدی یدیه علی الاخری فقال هکذا و انّ الله وضع الجنان علی الارض و وضع المیزان بعضها فوق بعض فاسفلها جهنم و فوقها لظی و فوقها الحطمة و فوقها سقر و فوقها الجحیم و فوقها السعیر و فوقها الهاویة

---

[1] (Tövhid kitabı,səh.20).
[2] (Safi təfsiri,səh.266).

# 2-ci Fəsil

# İBADƏTƏ AİD MÖVZULAR

## İbadət və bəndəçilik

Bəndəçilik dedikdə məqsəd, Allaha ibadət və onun əmrlərini yerinə yetirmək, qadağan etdiklərindən çəkinməkdir. Allaha inanan hər kəs, gərək onun buyurduqlarına kamil şəkildə inanıb, onlara əməl etsin.

### Quran ayələrində ibadət və bəndəçilik

### Yalnız tək olan Allaha ibadət etmək və valideynə hörmət bəsləmək

وَقَضَىٰ رَبُّكَ أَلَّا تَعْبُدُوا إِلَّا إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا \ إِمَّا يَبْلُغَنَّ عِنْدَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلَاهُمَا فَلَا تَقُلْ لَهُمَا أُفٍّ وَلَا تَنْهَرْهُمَا وَقُلْ لَهُمَا قَوْلًا كَرِيمًا

Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: “Uf!” belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış![1]

## İbadət, bütün Peyğəmbərlərin (ə) dəvətinin təməli idi

وَإِلَىٰ عَادٍ أَخَاهُمْ هُودًا قَالَ يَا قَوْمِ اعْبُدُوا اللَّهَ مَا لَكُمْ مِنْ إِلَٰهٍ غَيْرُهُ أَفَلَا تَتَّقُونَ

[1] (İsra, 23).

Ad tayfasına da qardaşları Hudu (peyğəmbər göndərdik). O dedi: “Ey camaatım! Allaha ibadət edin. Sizin ondan başqa heç bir tanrınız yoxdur. Məgər (Allahın əzabından) qorxmursunuz?”[1]

وَإِلَىٰ ثَمُودَ أَخَاهُمْ صَالِحًا قَالَ يَا قَوْمِ اعْبُدُوا اللَّهَ مَا لَكُمْ مِنْ إِلَٰهٍ غَيْرُهُ

Səmud tayfasına da qardaşları Salehi (peyğəmbər göndərdik). O dedi: “Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur.[2]

وَإِلَىٰ مَدْيَنَ أَخَاهُمْ شُعَيْبًا قَالَ يَا قَوْمِ اعْبُدُوا اللَّهَ مَا لَكُمْ مِنْ إِلَٰهٍ غَيْرُهُ قَدْ جَاءَتْكُمْ بَيِّنَةٌ مِنْ رَبِّكُمْ

Mədyən tayfasına da qardaşları Şüeybi (peyğəmbər) göndərdik. (Şüeyb) onlara belə dedi: “Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. Artıq sizə Rəbbinizdən aşkar bir dəlil (möcüzə) gəldi.[3]

## Doğru yola, yalnız Allaha ibadət etməklə yetişmək olar

إِنَّ اللَّهَ هُوَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَٰذَا صِرَاطٌ مُسْتَقِيمٌ

Şübhəsiz ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Yalnız Ona ibadət edin. Bu, doğru yoldur!”[4]

## Təkəbbür edib, Allaha ibadət etməyənlər, cəhənnəmə daxil olar

وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ إِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ دَاخِرِينَ

Rəbbiniz buyurdu: “Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! (Məni çağırın, harayınıza yetişərəm, yaxud yalnız Mənə ibadət edin, sizi mükafatlandıraram!) Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər![5]

---

[1] (Əraf, 65).
[2] (Əraf, 73).
[3] (Əraf, 85).
[4] (Zuxruf, 64).
[5] (Ğafir, 60).

### İmamətin şərti, Allaha ibadət etməkdədir

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاءَ الزَّكَاةِ وَكَانُوا لَنَا عَابِدِينَ

Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik. Biz onları xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.[1]

### Kainatın yaradılışından məqsəd, Allaha ibadət etməkdir

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنْسَ إِلَّا لِيَعْبُدُونِ

Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım![2]

## Allah bəndələrinin nişanələri

### a) Şükür etmək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُلُوا مِنْ طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ وَاشْكُرُوا لِلَّهِ إِنْ كُنْتُمْ إِيَّاهُ تَعْبُدُونَ

Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin (təmiz və) halalından yeyin! Əgər Allaha ibadət edirsinizsə, (bu nemətlərə görə) Ona şükür edin![3]

### b) Səbirli olmaq

رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَا بَيْنَهُمَا فَاعْبُدْهُ وَاصْطَبِرْ لِعِبَادَتِهِ هَلْ تَعْلَمُ لَهُ سَمِيًّا

O, göylərin və yerin, onların arasında olan hər şeyin Rəbbidir! Yalnız Ona ibadət et və Onun ibadətinə səbrli ol! Heç (Allahın özündən başqa) Ona bənzərini

---

[1] (Ənbiya, 73).
[2] (Zariat, 56).
[3] (Bəqərə, 172).

(Onun adını daşıyan başqa birisini) görmüsənmi? (Müşriklər öz bütlərinə tanrı, ilahi desələr də, heç zaman onlara Allah adını verməzlər).[1]

### c) Təvazökarlıq

وَعِبَادُ الرَّحْمَٰنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا

Rəhmanın (əsl) bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə (təvazökarlıqla) gəzər, cahillər onlara söz atdıqları (xoşlarına gəlməyən bir söz dedikləri) zaman (onları incitməmək üçün) salam deyərlər.[2]

## Nə üçün Allaha ibadət etməliyik?

Bu sualın bir neçə cavabı var:

### a) Çünki yalnız Allah həqiqi məbuddur və ibadətə layiq olan yalnız Odur

وَمَا أَرْسَلْنَا مِنْ قَبْلِكَ مِنْ رَسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدُونِ

(Ya Rəsulum!) Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: “Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!” – deyə vəhy etməyək.[3]

### b) Çünki insanları heçdən yaradan Allahdır və o, insana nəyin faydalı olub, ziyanlı olduğunu daha yaxşı bilir

يَا أَيُّهَا النَّاسُ اعْبُدُوا رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

---

[1] (Məryəm, 65).
[2] (Furqan, 63).
[3] (Ənbiya, 25).

Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, müttəqi olasınız! (Allahdan qorxub pis əməllərdən çəkinəsiniz!)[1]

**c) Çünki insanlara ruzi verən Allahdır**

فَلْيَعْبُدُوا رَبَّ هَٰذَا الْبَيْتِ الَّذِي أَطْعَمَهُمْ مِنْ جُوعٍ وَآمَنَهُمْ مِنْ خَوْفٍ

Bu evin Rəbbinə (Kəbənin sahibi Allaha) ibadət etsinlər! O Allah ki, onları aclıqdan qurtarıb yemək verdi və onlara qorxudan (fil sahiblərinin təhlükəsindən) sonra əmin-amanlıq bəxş etdi.[2]

## Rəvayətlərdə Allaha ibadət etmək

Məsumlardan (ə) bəndəçilik mövzusuna aid bir çox hədislər nəql olunub. Bütün ilahi şəxsiyyətlər, o cümlədən peyğəmbər, imam (ə) və Allah övliyaları ibadət mövzusuna çox əhəmiyyət verir və bunu özləri üçün yaşayışlarının əsası hesab edirlər. Aşağıda, məsumlardan (ə) bəndəçilik mövzusu barədə nəql olunmuş bəzi hədislərə işarə edirik.

## Allaha ibadət etməyin əxlaqi qaydası

Allah Rəsulu (s) buyurur: Allaha o cür ibadət et ki, sanki onu görürsən. Çünki, sən onu görməsən də, O səni mütləq görür.[3]

قال رسول الله (ص): اعبد الله كأنّك تراه فإنْ لم تكن تراه فإنّه يراك

**Ən üstün ibadət**

İmam Muhəmməd Baqir (ə) buyurur: Qarın və şəhvətini (haramlardan) qoruyan şəxs, Allaha ən layiqli ibadət etmiş sayılar.[4]

قال الباقر (ع): ما عبد الله بشیء افضل من عفة بطن و فرج

---

[1] (Bəqərə, 21).
[2] (Qurəyş, 3-4).
[3] (Kənzul-Ummal, hədis 5250).
[4] (Usuli-Kafi, cild.2.səh,79).

Peyğəmbər (s) buyurur: İbadət yetmiş hissədən ibarətdir və onlardan ən yaxşısı halal ruzi qazanmaqdır.[1]

قال رسول الله (ص): العبادة سبعون جُزْءاً و أَفْضلها جزءاً طَلَبُ الحلال

### Allaha ən yaxşı ibadət edən şəxs

Allah Rəsulu (s) buyurur: Allahın vacib buyurduğu işləri yerinə yetirən, ona ən yaxşı ibadət etmiş olar.[2]

قال رسول الله (ص): من أتى الله بما افترض الله عليه فهو من أعبد الناس

### Qəbul olunmayan ibadət

Peyğəmbər (s) buyurur: Haram yeyib ibadət edən, su və ya buz üzərində ev tikən şəxsə bənzəyir.[3]

قال رسول الله (ع): ألعبادة مع أكل الحرام كا البناء على الرمل و قيل على الماء

### Məsumlara (ə) görə, ən xalis ibadət

İmam Əli (ə) buyurur: Xalis ibadət odur ki, insan Allahdan başqasına ümid bəsləməsin və yalnız etdiyi günahlardan qorxsun.[4]

قال على (ع): العبادة الخالصة أنْ لا يرجوا الرجل إلّا ربّه و لا يَخاف إلا ذنْبَهُ

### Xalis ibadətin insana təsiri

Həzrət Fatimə (s.ə) buyurur: Hər kim Allaha xalis ibadət etsə, Allah ona ən xeyirli məsləhətləri nazil edər.[5]

قالتْ فاطمة (س): مَنْ أَصْعدَ إلى الله خالص عبادته أَهْبَطَ الله عزّ و جلّ له أفضل مَصْلَحَتَه

### İbadətin növləri

[1] (Biharul-Ənvar, cild.103.səh.18).
[2] (Xisal, səh.125).
[3] (İddətud-Dai, səh.141).
[4] (Ğurərul-Hikəm, hədis.2128).
[5] (Biharul-Ənvar.cild.68.səh.184).

İmam Əli (ə) buyurur: İnsanların bir qismi, (cənnətə meyilli olduqları üçün) Allaha ibadət edirlər. Bu, tacirlərin ibadətidir. Bəziləri isə Allahdan qorxduqları üçün ona ibadət edir. Bu insanların ibadəti isə, qulların ibadətidir. Bəziləri isə, Allaha şükr etmək üçün ona ibadət edir. Bu şəxslərin ibadəti isə, azad ibadət edən insanların ibadətidir.[1]

قال على (ع): إِنَّ قَوْماً عَبَدُوا اللهَّ رَغْبَةً فَتِلْكَ عِبادَةُ التُّجَّارِ، وَإِنَّ قَوْماً عَبَدُوا اللهَّ رَهْبَةً فَتِلْكَ عِبادَةُ الْعَبِيدِ، وَإِنَّ قَوْماً عَبَدُوا اللهَّ شُكْراً فَتِلْكَ عِبادَةُ الأَحْرَارِ

### İbadətin insana təsiri

İmam Hüseyn (ə) buyurur: Hər kim Allaha bəndə olsa, Allah bütün canlıları ona qul edər.[2]

قال الحسين (ع): مَنْ عَبَدَ اللهَ عبَّدَ اللهُ له كلَّ شىءٍ

### Gözün ibadəti

Allah Rəsulu (s) buyurur: Kəbə evinə baxmaq ibadətdir.[3]

قال رسول الله (ص): أَلنَّظَرُ إلى الكعبةِ عبادة

Yenə o həzrət (s) buyurur: Qurana baxmaq ibadətdir.[4]

قال رسول الله (ص): أَلنَّظر فى المُصْحَفِ عبادةٌ

İmam Sadiqdən (ə) nəql olunub ki, həzrət buyurur: Kəbə evinə, ata-anaya, Quran yazılarına, alimin üzünə və Əhli-beytə (ə) baxmaq ibadətdir.[5]

رُوِىَ أَنَّ النَّظَرَ إِلَى الْكَعْبَةِ عِبادَةٌ وَ النَّظَرَ إِلَى الْوَالِدَيْنِ عِبادَةٌ وَ النَّظَرَ فِى الْمُصْحَفِ مِنْ غَيْرِ قِرَاءَةٍ عِبادَةٌ وَ النَّظَرَ إِلَى وَجْهِ الْعَالِمِ عِبادَةٌ وَ النَّظَرَ إِلَى آلِ مُحَمَّدٍ ع عِبادَةٌ

[1] (Nəhcül-Bəlağə, Hikmətli kəlamlar,237).
[2] (Məcmue Vəram, cild.2.səh.108).
[3] (Biharul-Ənvar, cild.74.səh.73).
[4] (Biharul-Ənvar, cild.38.səh.199).
[5] (Mən-La-Yəhzuruhul-Fəqih, cild.2.səh.205).

# MƏSCİD

## Quran ayələrində məscid

### Məscid səmimi ibadət mərkəzidir

وَأَنَّ الْمَسَاجِدَ لِلَّهِ فَلَا تَدْعُوا مَعَ اللَّهِ أَحَدًا

Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin![1]

### Allaha görə ən böyük zülm, məsciddə Allahı yad etməyin qarşısını almaqdır

وَمَنْ أَظْلَمُ مِمَّنْ مَنَعَ مَسَاجِدَ اللَّهِ أَنْ يُذْكَرَ فِيهَا اسْمُهُ وَسَعَىٰ فِي خَرَابِهَا ۚ أُولَٰئِكَ مَا كَانَ لَهُمْ أَنْ يَدْخُلُوهَا إِلَّا خَائِفِينَ ۚ لَهُمْ فِي الدُّنْيَا خِزْيٌ وَلَهُمْ فِي الْآخِرَةِ عَذَابٌ عَظِيمٌ

Allahın məscidlərində Onun (Allahın) adının çəkilməsinə maneçilik törədənlərdən və onların xarab edilməsinə (dağılmasına) çalışanlardan daha zalım kim ola bilər? Halbuki onlar oraya (məscidlərə) ancaq qorxa-qorxa girməli idilər. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük əzab gözləyir![2]

### Məscid inşa edəndə niyyətimiz saf və sırf Allaha xatir olmalıdır

أَفَمَنْ أَسَّسَ بُنْيَانَهُ عَلَىٰ تَقْوَىٰ مِنَ اللَّهِ وَرِضْوَانٍ خَيْرٌ أَمْ مَنْ أَسَّسَ بُنْيَانَهُ عَلَىٰ شَفَا جُرُفٍ هَارٍ فَانْهَارَ بِهِ فِي نَارِ جَهَنَّمَ ۗ وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

Elə isə (məscid) binasını Allah qorxusu və rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa uçulmaqda olan bir yerin(uçurumun) kənarında qurub onunla

---

[1] (Cin,18).

[2] (Bəqərə, 114).

birlikdə cəhənnəm oduna yuvarlanan kəs?! Allah zalım tayfanı doğru yola yönəltməz![1]

## Məscidi abad edən şəxslər

إِنَّمَا يَعْمُرُ مَسَاجِدَ اللهِّ مَنْ آمَنَ بِاللهِّ وَالْيَوْمِ الْآخِرِ وَأَقَامَ الصَّلَاةَ وَآتَى الزَّكَاةَ وَلَمْ يَخْشَ إِلَّا اللهَّ فَعَسَىٰ أُولَٰئِكَ أَنْ يَكُونُوا مِنَ الْمُهْتَدِينَ

Allahın məscidlərini yalnız Allaha və qiyamət gününə iman gətirən, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar təmir edə bilərlər (yalnız bu qəbildən olan şəxslərin əməlləri Allah dərgahında qəbul olunar). Məhz onlar doğru yolu tapa bilənlərdən ola bilərlər![2]

## Müttəqilər məscidi qoruyan və onun nəzarətçiləridir

وَمَا لَهُمْ أَلَّا يُعَذِّبَهُمُ اللهُّ وَهُمْ يَصُدُّونَ عَنِ الْمَسْجِدِ الْحَرَامِ وَمَا كَانُوا أَوْلِيَاءَهُ ۚ إِنْ أَوْلِيَاؤُهُ إِلَّا الْمُتَّقُونَ وَلَٰكِنَّ أَكْثَرَهُمْ لَا يَعْلَمُونَ

Lakin onlar (müşriklər) Məscidül-həramın sahibləri (və ya ona xidmət etməyə layiq) olmadıqları halda, (möminlərə onu təvaf etməyə) mane olduqda Allah nə üçün onlara əzab verməsin! Onun sahibləri (və ya Allahın dostları) yalnız Allahdan qorxub pis əməllərdən (küfrdən, şirkdən, bütpərəstlikdən) çəkinənlərdir. Lakin onların (müşriklərin) əksəriyyəti bunu bilməz![3]

## Məscidi imanlı insanlar abad edər

---

[1]

[2] (Tövbə, 18).

[3] (Ənfal, 34).

أَجَعَلْتُمْ سِقَايَةَ الْحَاجِّ وَعِمَارَةَ الْمَسْجِدِ الْحَرَامِ كَمَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَجَاهَدَ فِي سَبِيلِ اللَّهِ لَا يَسْتَوُونَ عِنْدَ اللَّهِ وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

(Ey müşriklər!) Məgər siz hacılara su verməyi və Məscidül-həramı təmir etməyi Allaha və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Onlar Allah yanında eyni olmazlar. Allah zalım tayfanı doğru yola yönəltməz![1]

### İnsanlar içərisində ixtilaf törədən məsciddə iştirak etməmək

وَالَّذِينَ اتَّخَذُوا مَسْجِدًا ضِرَارًا وَكُفْرًا وَتَفْرِيقًا بَيْنَ الْمُؤْمِنِينَ وَإِرْصَادًا لِمَنْ حَارَبَ اللَّهَ وَرَسُولَهُ مِنْ قَبْلُ وَلَيَحْلِفُنَّ إِنْ أَرَدْنَا إِلَّا الْحُسْنَى وَاللَّهُ يَشْهَدُ إِنَّهُمْ لَكَاذِبُونَ لَا تَقُمْ فِيهِ أَبَدًا لَمَسْجِدٌ أُسِّسَ عَلَى التَّقْوَىٰ مِنْ أَوَّلِ يَوْمٍ أَحَقُّ أَنْ تَقُومَ فِيهِ فِيهِ رِجَالٌ يُحِبُّونَ أَنْ يَتَطَهَّرُوا وَاللَّهُ يُحِبُّ الْمُطَّهِّرِينَ

(Quba məscidinə və müsəlmanlara) zərər vurmaq, küfr etmək, möminlər arasına təfriqə salmaq məqsədilə, əvvəllər Allaha və Onun Peyğəmbərinə qarşı müharibə edən kimsədən (gəlib onlara rəhbərlik edəcəyi təqdirdə) göz-qulaq olmaq üçün məscid düzəldən və: “Biz (bununla) yaxşılıqdan başqa bir şey istəmədik”, - deyə and içənlərin (münafiqlərin), həqiqətən, yalançı olmaları barədə Allah Özü şahidlik edəcəkdir! (Ya Rəsulum!) Orada heç vaxt namaz qılma. İlk gündən binası təqva (Allahdan qorxub pis əməllərdən çəkinmək) üzərində qurulmuş məscid namaz qılmağına daha layiqdir. Orada paklanmağı sevən insanlar vardır. Allah pak olanları (özlərini cismən təmizləyənləri, mənəvi qüsurlardan, çirkinliklərdən qorumağa çalışanları) sevər![2]

### Məscidə gedərkən səliqəli paltar geyinmək

يَا بَنِي آدَمَ خُذُوا زِينَتَكُمْ عِنْدَ كُلِّ مَسْجِدٍ وَكُلُوا وَاشْرَبُوا وَلَا تُسْرِفُوا إِنَّهُ لَا يُحِبُّ الْمُسْرِفِينَ

---

[1] (Tövbə, 19).
[2] (Tövbə, 107-108).

Ey Adəm oğulları! Hər bir ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz![1]

## İslami rəvayətlərdə məscid

### Məscid Allah evidir

İmam Sadiq (ə) buyurur: Sizə məscidlərə getməyi tövsiyə edirəm. Çünki məscidlər Allah evidir.[2]

**قال الصادق (ع): عليكم بإِتيان المساجد فانها بيوت الله فى الارض**

### Məscid axirətin bazarıdır

Peyğəmbər (s) buyurur: Məscidlər axirət aləminin bazarlarından biridir. İnsanlar orada Allahın bağışlanması ilə qarşılaşar və onun töhfəsi behiştdir.[3]

قال رسول الله (ص): المساجد سوقٌ منْ أسواق الآخرة قراها المغفرة و تحفتها الجنة

### Məscid ibadət və bağışlanma mərkəzidir

Peyğəmbər (s) buyurur: Namaz qılmaq, Allahı yad etmək və elm öyrənməkdən başqa bir iş üçün məsciddə oturmaq mənasız iş hesab olur.[4]

قال رسول الله (ص): كل جلوس فى المسجد لغو الا ثلثة: قرائة مفصل او ذكر الله او سائل عن علم

### Məsciddə oturmaq cənnətdə oturmaqdan üstündür

[1] (Əraf, 31).
[2] (Biharul-Ənvar,cild.73.səh.384).
[3] (Biharul-Ənvar,cild.84.səh.4).

[4] (Biharul-Ənvar,cild.77.səh.86).

İmam Əli (ə) buyurur: Məsciddə oturmaq cənnətdə oturmaqdan üstündür. Çünki cənnətdə oturmaq nəfsimin razılığı, amma məsciddə oturmaq mənim Rəbbimin razılığıdır.[1]

قال على (ع): الجلسة فى المسجد خير من الجلسة فى الجنة لِأنّ الجنة فيها رضى نفسى و الجامع فيه رضى ربّى

### Məscidə getməyin faydaları

İmam Əli (ə) buyurur: Hər kim daim məscidə getsə, səkkiz faydalı şeydən biri ona şamil olar.

1- Dindar qardaşla tanış olar. 2- Yeni bir elm öyrənər.3- Tutarlı dəlil və sübutu dərk edər. 4- Rəhmətə şamil olar. 5-Onu pis işdən çəkindirən sözü öyrənər. 6- Hidayət olmasına səbəb olan sözü eşidər. 7- (Allahdan) qorxub günahı tərk edər. 8- (Allahdan) həya edib günahı tərk edər.[2]

قال على (ع): من اختلف إلى المسجد اصاب احدى الثمان اخاً مستفاداً فى الله او علماً مستطرفاً او آية محكمة او رحمة منتظرة او كلمة تردّه عن ردى او يسمع كلمة تدلّ على هدى او يترك ذنباً خشية او حياء

### Məscidin qiyamətdə şikayət etməsi

İmam Sadiq (ə) buyurur: Qiyamətdə üç şey Allaha şikayət edər: İçərisində namaz qılınmayan məscid. Cahillər içərisində olub, elmindən istifadə edilməyən alim və toz-torpağa bürünmüş oxunmayan Quran.[3]

قال الصادق (ع): ثلاثة يشكون الى الله عزّ و جلّ مسجد خراب لا يصلّى فيه اهله و عالم بين جهال و مصحف معلّق قد وقع عليه غبار لا يقرأ فيه

### Məsciddə təmizlik işləri görmək

[1] (Vəsailuş-Şiə, cild. 3.səh.482).
[2] (Biharul-Ənvar,cild.83.səh.351).
[3] (Vəsailuş-Şiə,cild. 3.səh. 483).

Peyğəmbər (s) buyurur: Allah taala məscidi təmizləyən şəxsə, qul azad etmiş şəxsin savabını verər.[1]

قال رسول الله (ص): من قمّ مسجداً كتب الله له عتق رقبة

# NAMAZ

## Quranda namaz

### Namaz bütün dinlərdə olub

رَبِّ اجْعَلْنِي مُقِيمَ الصَّلَاةِ وَمِنْ ذُرِّيَّتِي رَبَّنَا وَتَقَبَّلْ دُعَاءِ

Ey Rəbbim! Məni də, nəslimdən olanları da (vaxtlı-vaxtında, lazımınca) namaz qılan et. Ey Rəbbimiz! Duamı qəbul buyur!

وَكَانَ يَأْمُرُ أَهْلَهُ بِالصَّلَاةِ وَالزَّكَاةِ وَكَانَ عِنْدَ رَبِّهِ مَرْضِيًّا

O öz ümmətinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı. (İsmailin əməli Allah dərgahında bəyənilmişdi).[2]

إِنَّنِي أَنَا اللَّهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدْنِي وَأَقِمِ الصَّلَاةَ لِذِكْرِي

Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir Tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl![3]

قَالُوا يَا شُعَيْبُ أَصَلَاتُكَ تَأْمُرُكَ أَنْ نَتْرُكَ مَا يَعْبُدُ آبَاؤُنَا أَوْ أَنْ نَفْعَلَ فِي أَمْوَالِنَا مَا نَشَاءُ إِنَّكَ لَأَنْتَ الْحَلِيمُ الرَّشِيدُ

Onlar (istehza ilə) dedilər: "Ey Şüeyb! Atalarımızın tapındığı bütləri tərk etməyimizi, mallarımızla istədiyimiz kimi hərəkət etməkdən vaz keçməyimizi

[1] (Əmali,səh.180).
[2] (Məryəm, 55).
[3] (Məryəm, 55).

sənə namazınmı (dininmi) əmr edir? Sən doğrudan da, həlim xasiyyətlisən, çox ağıllısan!”[1]

وَجَعَلَنِي مُبَارَكًا أَيْنَ مَا كُنْتُ وَأَوْصَانِي بِالصَّلَاةِ وَالزَّكَاةِ مَا دُمْتُ حَيًّا

O, harada oluramsa olum, məni mübarək (həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən) etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu.[2]

## Namaz qılan şəxs, qeybə iman gətirənlərlə bir cərgədə

الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ وَيُقِيمُونَ الصَّلَاةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ

O kəslər ki, qeybə (Allaha, mələklərə, qiyamətə, qəza və qədərə) inanır, (lazımınca) namaz qılır və onlara verdiyimiz ruzidən (ailələrinə, qohum-qonşularına və digər haqq sahiblərinə) sərf edirlər.[3]

## Çətinliklərdə namazdan kömək almaq

وَاسْتَعِينُوا بِالصَّبْرِ وَالصَّلَاةِ وَإِنَّهَا لَكَبِيرَةٌ إِلَّا عَلَى الْخَاشِعِينَ

(Müsibət vaxtında) səbr etmək və namaz qılmaqla (Allahdan) kömək diləyin! Bu, ağır iş olsa da, (Allaha) itaət edənlər üçün ağır deyildir.[4]

## Həqiqi mömin namazda cismən və ruhən yalnız Allaha itaət edər

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَالَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ

Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!) O kəslər ki, namazlarında (hər şeyi unudaraq

[1] (Hud, 87).
[2] (Hud, 87).
[3] (Bəqərə, 3).
[4] (Bəqərə, 45).

ruhən və cismən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər! (Allahın qarşısında kiçilərlər!)[1]

### Namaz insanı dünyaya sevgi və ona qarşı olan bağlılıqdan qoruyar

إِنَّ الْإِنْسَانَ خُلِقَ هَلُوعًا إِذَا مَسَّهُ الشَّرُّ جَزُوعًا وَإِذَا مَسَّهُ الْخَيْرُ مَنُوعًا إِلَّا الْمُصَلِّينَ

Həqiqətən, insan (sərvətə) çox həris (tamahkar və kəmhövsələ) yaradılmışdır! Ona bir pislik üz verdikdə fəryad qoparar. Ona bir xeyir nəsib olduqda isə xəsis olar. Namaz qılanlar istisnadır![2]

## Həqiqi namaz qılanların bəzi xüsusiyyətləri

1- Namazı həmişə və öz vaxtında qılırlar
2- Onların mallarında müəyyən bir haqq var
3- Qiyamətə inanırlar
4- Allahın əzabından qorxurlar
5- Zina etmirlər
6- Öz əhd-peymanına əməl edirlər
7- Düzgün şəhadət verirlər
8- Namazlarını qoruyurlar.

الَّذِينَ هُمْ عَلَىٰ صَلَاتِهِمْ دَائِمُونَ وَالَّذِينَ فِي أَمْوَالِهِمْ حَقٌّ مَعْلُومٌ لِلسَّائِلِ وَالْمَحْرُومِ وَالَّذِينَ يُصَدِّقُونَ بِيَوْمِ الدِّينِ وَالَّذِينَ هُمْ مِنْ عَذَابِ رَبِّهِمْ مُشْفِقُونَ إِنَّ عَذَابَ رَبِّهِمْ غَيْرُ مَأْمُونٍ وَالَّذِينَ هُمْ لِفُرُوجِهِمْ حَافِظُونَ إِلَّا عَلَىٰ أَزْوَاجِهِمْ أَوْ مَا مَلَكَتْ أَيْمَانُهُمْ فَإِنَّهُمْ غَيْرُ مَلُومِينَ فَمَنِ ابْتَغَىٰ وَرَاءَ ذَٰلِكَ فَأُولَٰئِكَ هُمُ الْعَادُونَ وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ وَالَّذِينَ هُمْ بِشَهَادَاتِهِمْ قَائِمُونَ وَالَّذِينَ هُمْ عَلَىٰ صَلَاتِهِمْ يُحَافِظُونَ أُولَٰئِكَ فِي جَنَّاتٍ مُكْرَمُونَ

[1] (Muminun, 1-2).
[2] (Məaric, 19-22).

O kəslər ki, daim namaz qılarlar; O kəslər ki, onların mallarında müəyyən bir haqq (pay) vardır Dilənən və (hər şeydən) məhrum olan (lakin abrına qısılıb dilənməyən) kimsə üçün; O kəslər ki, haqq-hesab gününü təsdiq edərlər; O kəslər ki, Rəbbinin əzabından qorxub tir-tir əsərlər; Çünki onların Rəbbinin əzabından (bu əzabın kiməsə toxunub-toxunmayacağından) arxayın olmaq olmaz; O kəslər ki, ayıb yerlərini qoruyub saxlayarlar (zina etməzlər); Övrətləri və cariyələri istisna olmaqla. (Onlarla yaxınlıq etməyə görə) əsla qınanmazlar; Bundan artığını istəyənlər isə həddi aşanlardır; O kəslər ki, əmanətə xəyanət etməz, verdikləri sözü yerinə yetirərlər; O kəslər ki, düzgün şəhadət verərlər və o kəslər ki, namazlarını (layiqincə) hifz edərlər- Məhz onlar cənnətlərdə ehtiram olunacaq (əzizlənəcək) kimsələrdir![1]

# Hədis və rəvayətlərdə namaz

### Namazın Allah dərgahında qəbul olma şərti təqvadır

Peyğəmbər (s) buyurur: Namaz qılmaqdan ip qədər nəzilsəniz və oruc tutmaqdan kaman kimi əyilsəniz belə, günahdan qorunmaq üçün təqvanız olmasa fayda verməz.[2]

قال رسول الله (ص): لو صلّيتم حتى تكونوا كالاوتار و صمتم حتى تكونوا كالحنايا لم يقبل الله منكم الّا بورع

### Namazın qəbul olma şərti

İmam Sadiq (ə) buyurur: Hər kim namazının qəbul olub-olmamasını bilmək istəsə, görsün ki, qıldığı namaz onu günahdan çəkindirir yoxsa yox. İnsan günahdan nə həddə uzaqlaşırsa, onun namazı həmin miqdarda qəbul olar.[3]

[1] (Məaric, 22-35).
[2] (Biharul-Ənvar,cild.81.səh.258).
[3] (Biharul-Ənvar,cild.82.səh.209).

قال الصادق (ع): من أحبَّ أن يعلم أقبلت صلاته أم لم تقبل فلينظر هل منعته صلاته عن الفحشاء و المنكر فبقدر ما منعته قبلت منه

## Namazın insana təsiri

### a) Allahın razılığına səbəb olar

Allah Rəsulu (s) buyurur: Namaz dini qaydalardan biri və Allahın razılığına səbəb olan bir əməldir. Həmçinin Peyğəmbərlər (ə) namaz əhli olublar.[1]

### b) Günahdan təmizlənməyə səbəb olar

Peyğəmbər (s) buyurur: Hər gün beş namaz qılmaq ona bənzəyir ki, insanın evi kənarında çay axa və o, hər gün həmin çayda beş dəfə bədənini yuya.[2]

### c) Allahın bağışlanmasına nail olar

Əli (ə) buyurur: Hər kim düzgün namaz qılsa, günahları bağışlanar.[3]

### Namaz, əməllərin qəbul olma şərtidir

İmam Muhəmməd Baqir (ə) buyurur: Bəndənin əməlləri qarşısında ilk hesaba çəkiləcək şey namazdır. Əgər onun namazı qəbul olsa, digər yaxşı əməlləri də qəbul olar.[4]

قال الباقر (ع):إنَّ أوَّلَ ما يُحاسَبُ بِهِ العَبدُ الصَّلاةُ، فَإن قُبِلَت قُبِلَ ما سِواها

[1] (Biharul-Ənvar,cild.79.səh.231).
[2] (Kənzul-Ummal,cild.7.səh.310).
[3] (Biharul-Ənvar,cild.79.səh.207).
[4] (Usuli-Kafi,cild.3.səh.268).

# GECƏ NAMAZI

## Quranda gecə namazı

### Gecə namazı və yüksək mənəvi məqama ucalmaq

وَمِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً لَكَ عَسَىٰ أَنْ يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَحْمُودًا

(Ya Rəsulum!) Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd) namazı qıl. Ola bilsin ki, Rəbbin səni (qiyamət günü hamı tərəfindən) bəyənilib təriflənən bir məqama (axirətdə ən böyük şəfaət məqamına) göndərsin![1]

### Gecə namazı sayəsində sabitqədəmlik

إِنَّ نَاشِئَةَ اللَّيْلِ هِيَ أَشَدُّ وَطْئًا وَأَقْوَمُ قِيلًا

Şübhəsiz ki, gecə (namaz qılmaq üçün) qalxmaq (çox çətin olsa da) daha əlverişli və (o zaman) söz demək (Quran oxumaq, dua etmək) daha münasibdir![2]

### Gecə namazı qılanlar, peyğəmbərin (s) sırasındadır

إِنَّ رَبَّكَ يَعْلَمُ أَنَّكَ تَقُومُ أَدْنَىٰ مِنْ ثُلُثَيِ اللَّيْلِ وَنِصْفَهُ وَثُلُثَهُ وَطَائِفَةٌ مِنَ الَّذِينَ مَعَكَ

(Ya Peyğəmbər!) Həqiqətən, Rəbbin bilir ki, sən (yatağından) qalxıb bəzən gecənin təqribən üçdə ikisini, bəzən yarısını, bəzən də üçdə birini namaz qılırsan. Səninlə birlikdə olan bir zümrə (yaxın səhabən) də belədir.[3]

[1] (İsra, 79).
[2] (Muzzəmmil, 7).
[3] (Muzzəmmil, 20).

## Gecə namazı qılmaq və Allahdan bağışlanmaq diləmək, təqvalıların xüsusiyyətlərindəndir

إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَعُيُونٍ آخِذِينَ مَا آتَاهُمْ رَبُّهُمْ إِنَّهُمْ كَانُوا قَبْلَ ذَٰلِكَ مُحْسِنِينَ كَانُوا قَلِيلًا مِنَ اللَّيْلِ مَا يَهْجَعُونَ وَبِالْأَسْحَارِ هُمْ يَسْتَغْفِرُونَ

Həqiqətən, müttəqilər cənnətlərdə və çeşmələr başında olacaqlar; Rəbbinin onlara verdiyini alacaqlar. Çünki onlar bundan əvvəl yaxşı əməllər etmişdilər. Onlar gecələr (ibadətlə məşğul olub) az yatırdılar. Səhərlər isə (Allahdan) bağışlanmalarını diləyirdilər.[1]

### Həqiqi elmin nişanəsi, gecə namazıdır

أَمَّنْ هُوَ قَانِتٌ آنَاءَ اللَّيْلِ سَاجِدًا وَقَائِمًا يَحْذَرُ الْآخِرَةَ وَيَرْجُو رَحْمَةَ رَبِّهِ قُلْ هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ إِنَّمَا يَتَذَكَّرُ أُولُو الْأَلْبَابِ

Məgər axirətdən qorxan, Rəbbinə (Allahın mərhəmətinə) ümid bəsləyən, gah səcdəyə qapanıb, gah da ayaq üstə durub gecə saatlarını ibadət içində keçirən (müti bəndə kafirlə birdirmi)?! De: “Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!”[2]

### Gecə namazının savabı gizlidir

تَتَجَافَىٰ جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ فَلَا تَعْلَمُ نَفْسٌ مَا أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أَعْيُنٍ جَزَاءً بِمَا كَانُوا يَعْمَلُون

Onlar ibadət üçün yataqlarından qalxar (gecələr az yatar), qorxu və ümid içində (Allahın əzabından qorxaraq, mərhəmətinə ümid bəsləyərək) Rəbbinə

[1] (Zariyat, 15-18).
[2] (Zumər, 9).

dua edər və onlara verdiyimiz ruzilərdən (ehtiyacı olanlara) sərf edərlər. Etdikləri əməllərin mükafatı olaraq (Allah dərgahında) onlar (möminlər) üçün göz oxşayan (onları sevindirəcək) nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz! [1]

## Rəvayətlərdə gecə namazı

### Gecə namazının əhəmiyyəti

Peyğəmbər (s) buyurur: Cəbrail (ə) mənə gecə namazı qılmağı o qədər tövsiyə edirdi ki, düşünürdüm mənim ümmətimin ən yaxşıları gecələr yatmırlar.[2]

حديث قال رسول الله (ص): ما زال جبرائيل...يوصينى بقيام الليل حتى ظننت أنَّ خيار أُمتى لن يناموا

### Gecə namazı bütün nemətlərdən üstündür

Peyğəmbər (s) buyurur: Gecə vaxtı iki rükət namaz qılmaq, dünya və onun bütün nemətlərindən daha yaxşıdır.[3]

قال رسول الله (ص): ركعتان فى جوف الليل احب الىَّ من الدنيا و ما فيها

### Gecə namazı ən üstün namazdır

Peyğəmbır (s) buyurur: Vacib namazlardan sonra ən yaxşı namaz, gecə çağında qılınan namazdır.[4]

قال رسول الله (ص): افضل الصلوة بعد الصلوة المكتوبة الصلوة فى جوف الليل

### Gecə namazının insana təsiri

Əli (ə) buyurur: Gecə namazı cismin sağlamlığı, Allahın razılıq və rəhmətinə səbəb olar[5].

---

[1] (Səcdə,16-17).
[2] (Əmali,səh.349).
[3] (Biharul-Ənvar,cild.87.səh.148).
[4] (Kənzul-Ummal, cild.7.hədis.21397).
[5] (Bihar,cild.87.səh.144).

قال علی (ع): قیام اللیل مصحّة للبدن و مرضاة للرب عزّ و جلّ و تعرّض للرحمة

### Gecə namazı üçün niyyət etməyin savabı

Peyğəmbər (s) buyurur: Gecə namazı qılmaq niyyətində olub, ancaq gecəni yatıb, gecə namazını qıla bilməyən şəxsin yuxusu sədəqə savabı hesab olar və fikrində tutduğu niyyətə görə ona savab yazılar.[1]

قال رسول الله (ص): ما من عبد یحدّث نفسه بقیام ساعة من اللیل فینام عنها الا کان نومه صدقة تصدّق الله بها علیه و کتب له اجر ما نوی

[1] (Kənzul-Ummal,hədis.21475).

# ORUC

## Quran ayələrində oruc

### Oruc tutmaq, bütün ümmətlərdə olduğu kimi müsəlmanlara da vacibdir

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz![1]

### Oruc tutmaq insanlara faydalıdır

وَأَنْ تَصُومُوا خَيْرٌ لَكُمْ إِنْ كُنْتُمْ تَعْلَمُونَ

Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir![2]

### Oruc tutmaq xüsusi bir vaxtda (Ramazan ayında) vacibdir

أَيَّامًا مَعْدُودَاتٍ

(Oruc tutmaq) sayı müəyyən olan (bir ay) günlərdir.[3]

### Çətinlik və xəstə olan vaxtı

### oruc tutmaq vacib deyil

وَمَنْ كَانَ مَرِيضًا أَوْ عَلَىٰ سَفَرٍ فَعِدَّةٌ مِنْ أَيَّامٍ أُخَرَ يُرِيدُ اللهُ بِكُمُ الْيُسْرَ وَلَا يُرِيدُ بِكُمُ الْعُسْر

[1] (Bəqərə, 183).
[2] (Bəqərə, 184).
[3] (Bəqərə, 184).

Xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər...[1]

### Ramazan ayı, Quranın nazil olma ayıdır

شَهْرُ رَمَضَانَ الَّذِي أُنْزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِلنَّاسِ وَبَيِّنَاتٍ مِنَ الْهُدَىٰ وَالْفُرْقَان

İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) ramazan ayında nazil edilmişdir.[2]

## Rəvayətlərdə oruc tutmaq

### Oruc tutmağın əhəmiyyəti

İmam Sadiq (ə) buyurur: İslam dini beş mühüm əməl vasitəsi ilə möhkəmlənir. O beş əməl namaz, zəkat, oruc, həcc və vilayətdən ibarətdir.[3]

قال الصادق (ع): بنى الاسلام على خمس دعائم على الصلوة و الزكوة و الصوم و الحج و الولاية

### Oruc tutanlara verilən savab

İmam Sadiq (ə) buyurur: Oruc tutanın yuxusu ibadət, sükutu təsbih, əməli qəbul, duası müstəcab olar və iftar vaxtı etdiyi duası geri qaytarılmayacaq.[4]

قال الصادق (ع): نوم الصائم عبادة و صمته تسبيح و عمله متقبل و دعاؤه مستجاب عند افطاره دعوة لا تردّ

### Oruc tutmağın hikməti

[1] (Bəqərə, 185).
[2] (Bəqərə, 185).
[3] (Biharul-Ənvar,cild.76.səh.257).
[4] (Biharul-Ənvar,cild.96.səh.253).

Həzrət Fatimeyi Zəhra (s) buyurur: Allah oruc tutmağı ona görə vacib edib ki, insanlarda ixlas daha möhkəm olsun.[1]

قالت فاطمة الزهراء (س): فرض الله الصيام تثبيتاً للاخلاص

### Oruc tutmaq cismin zəkatıdır

Peyğəmbər (s) buyurur: Hər şeyin zəkatı var və cismin zəkatı oruc tutmaqdır.[2]

قال رسول الله (ص): لكلّ شيءٍ زكوة و زكوة الابدان الصيام

### Həqiqi oruc

İmam Əli (ə) buyurur: Necə ki, insan oruc tutanda yemək və içməkdən çəkinir, gərək günahlardan da çəkinib, uzaq olsun.[3]

قال على (ع): الصيام اجتناب المحارم كما يمتنع الرجل من الطعام و الشراب

## Oruc tutmağın faydaları

### a) Allahın əzabından qorunmağa səbəb olar

Peyğəmbər (s) buyurur: Oruc, cəhənnəm atəşinin qalxanıdır.[4]

### b) Ən üstün savab amilidir

Peyğəmbərdən (s) nəql olunub ki, Allah taala buyurur: Oruc mənim üçündü, onun savabını da özüm verəcəm.[5]

---

[1] (Biharul-Ənvar,cild.96.səh.368).
[2] (Biharul-Ənvar,cild.96.səh.246).
[3] (Biharul-Ənvar,cild.96.səh.294).
[4] (Vəsailuş-Şiə.cild.7.səh,190).
[5] (Rəuzətul-Muttəqin, cild.3.səh.225).

### c) Oruc tutmaq şeytanın üzünü qaraldar

Peyğəmbər (s) buyurur: Oruc şeytanın üzünü qaraldar.[1]

### d) İxlasın möhkəmlənməsinə səbəb olar

Fatimeyi Zəhra (s) buyurur: Allah oruc tutmağı ona görə vacib edib ki, insanlarda ixlas daha möhkəm olsun.[2]

## Oruc tutanların əxlaqi xüsusiyyətləri

İmam Sadiq (ə) buyurur: Oruc tutan şəxs gərək, yalan danışmasın, gözünü günahdan qorusun, mübahisə etməkdən uzaq olsun, paxıllıq etməsin, qeybət etməsin, haqlı tərəflə müxalif olmasın, əsəbləşməsin, söyüş söyməsin, heç kimi danlamasın, böhtan atmasın, düşmənçilik etməsin, zülm etməsin, başqalarına zəhmət verməsin, Allahı yaddan çıxarmasın, namazına diqqət yetirsin, çoxlu sükut etsin, səbirli olsun, düz danışsın, pis insanlardan uzaq olsun, musiqiyə qulaq asmasın, söz gəzdirməsin, qiyamətə hazır olsun, Allahla görüşmək üçün azuqəsini hazırlamış olsun, ibadət və gündəlik işlərində təvazökarlıq etsin, sirlərini qorusun, qəlbini Allah itaəti ilə doldursun, cismini haram və nəcis şeylərdən təmizləsin və Allaha ümid bəsləmiş, onun əzabından isə qorxan bir qəlbi olsun.[3]

[1] (Rəuzətul-Muttəqin, cild.3.səh.227).
[2] (Biharul-Ənvar,cild.96.səh.368).
[3] (Vəsailuş-Şiə,cild.7.səh.119).

# XUMS

## Quranda xums

وَاعْلَمُوا أَنَّمَا غَنِمْتُمْ مِنْ شَيْءٍ فَأَنَّ لِلَّهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَىٰ وَالْيَتَامَىٰ وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ إِنْ كُنْتُمْ آمَنْتُمْ بِاللَّهِ وَمَا أَنْزَلْنَا عَلَىٰ عَبْدِنَا يَوْمَ الْفُرْقَانِ يَوْمَ الْتَقَى الْجَمْعَانِ وَاللَّهُ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِير

(Ey möminlər!) Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin bir-birilə qarşılaşdığı gün (Bədr günü) bəndəmizə (Muhəmmədə) nazil etdiyimizə (ayələrə) iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirlərindir (pulu qurtarıb yolda qalan yolçularındır). Allah hər şeyə qadirdir![1]

## Rəvayətlərdə xums

### Xums insanların əldə etdiyi qazanca düşür

Səmaə adlı bir şəxs deyir: İmam Kazımdan (ə) xums haqqında soruşdum və həzrət (ə) buyurdu: Xums, insanların əldə etdikləri gəlirə düşür. İstər o gəlir az olsun, istərsə də çox.

### Xums, yaşayış xərclərini ayırdıqdan sonra, geridə qalan gəlirə düşür

Səhabələrin bəziləri imam Cavada (ə) məktub yazıb, xumsu necə ödəyəcəkləri barədə məlumat almaq istədilər. İmam (ə) məktuba cavab yazdı və bildirdi ki, xums, yaşayış üçün lazım olan xərcləri çıxıb, geridə qalan gəlirə düşür.[2]

### Xums ödəmək ruzinin artması və günahların məhv olmasına səbəb olar

[1] (Ənfal, 41).
[2] (Vafi.cild,6.səh.273).

İmam Rza (ə) buyurur: Evinizdən xumsu çıxarmaq, ruzinizin artmasının açarıdır və günahların məhv olmasına səbəb olar...[1]

## Xums, ruhun təmizlənməsinə səbəb olar

İmam Sadiq (ə) buyurur: Mən sizin hamınızdan dirhəm (sikkə qəpik) götürürəm bir halda ki, Mədinənin ən varlı insanlarından biriyəm. Bilin ki, sizdən xums almağımın səbəbi yalnız budur ki, siz pak olasınız.[2]

[1] (Camiul-Əhadis,cild.8.hədis.1676).

[2] (Camiul-Əhadis,cild.8.hədis.1685).

# ZƏKAT

## Quranda zəkat

### Zəkat ödəmək keçmiş dinlərdə də var idi

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاءَ الزَّكَاةِ وَكَانُوا لَنَا عَابِدِينَ

Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.[1]

### Zəkat hökmünün icrası, islam hökümətinin vəzifəsidir

الَّذِينَ إِنْ مَكَّنَّاهُمْ فِي الْأَرْضِ أَقَامُوا الصَّلَاةَ وَآتَوُا الزَّكَاةَ وَأَمَرُوا بِالْمَعْرُوفِ وَنَهَوْا عَنِ الْمُنْكَرِ وَلِلَّهِ عَاقِبَةُ الْأُمُورِ

O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək (onlara bir yer versək), namaz qılar, zəkat verər, (insanlara) yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu (nəticəsi) Allaha aiddir. (Allah qiyamət günü əməllərinə müvafiq olaraq möminlərə mükafat, kafirlərə isə cəza verəcəkdir).[2]

### Zəkat, möminlərin davamlı proqramıdır

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ.... وَالَّذِينَ هُمْ لِلزَّكَاةِ فَاعِلُونَ

Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!).... O kəslər ki, zəkat verərlər;[3]

---

[1] (Ənbiya, 73).
[2] (Həcc, 41).
[3] (Muminun, 1, 4).

### Zəkat günahların kəffarəsidir

لَئِنْ أَقَمْتُمُ الصَّلَاةَ وَآتَيْتُمُ الزَّكَاةَ وَآمَنْتُمْ بِرُسُلِي وَعَزَّرْتُمُوهُمْ وَأَقْرَضْتُمُ اللَّهَ قَرْضًا حَسَنًا لَأُكَفِّرَنَّ عَنْكُمْ سَيِّئَاتِكُمْ

Əgər namaz qılsanız, zəkat versəniz, peyğəmbərlərimə iman gətirib onlara kömək etsəniz, Allaha (Allah yolunda) gözəl bir borc (sədəqə) versəniz, əlbəttə, günahlarınızın üstünü örtər...[1]

## Rəvayətlərdə zəkat

### Zəkatı ödəməyin faydaları

### a) İnsanın ruzisi artar

Peyğəmbər (s) buyurur: Əgər istəsən Allah ruzini artırsın, onun zəkatını ver.[2]

### b) İlahi əzabı uzaqlaşdırar

İmam Əli (ə) buyurur: Agah olun ki, zəkat verməklə Allahın qəzəbi sizdən uzaqlaşar.[3]

### c) Zəkat vermək, xoşbəxt yaşamağa səbəb olar

İmam Sadiq (ə) buyurur: Əgər insanlar öhdələrinə düşən haqqı versələr, xoşbəxt olarlar.[4]

## Hər şeyin zəkatı var

İmam Əli (ə) buyurur: Qüdrətin zəkatı insafdır.
İmam Əli (ə) buyurur: Gözəlliyin zəkatı ismətdir.

İmam Əli (ə) buyurur: Varlının zəkatı qonşularına yaxşılıq və sileyi-rəhm etməkdir.

---

[1] (Maidə, 12).
[2] (Biharul-Ənvar,cild.96.səh,23).
[3] (Biharul-Ənvar,cild.96.səh,20).
[4] (Vəsailuş-Şiə,cild.6.səh,3).

İmam Əli (ə) buyurur: Sağlamlığın zəkatı Allaha itaətdə çalışmaqdır.

İmam Əli (ə) buyurur: Şücaətin zəkatı Allah yolunda cihaddır.

İmam Sadiq (ə) buyurur: Sənə oruc tutmağı tövsiyə edirəm. Çünki o bədənin zəkatıdır.

İmam Sadiq (ə) buyurur: Hər şeyin zəkatı var. Elmin zəkatı da, onu öz əhlinə öyrətməkdir.

İmam Sadiq (ə) buyurur: Yaxşılıq nemətlərin zəkatıdır. Himayədarlıq məqam və mövqeyin zəkatı, güzəşt isə qələbənin zəkatıdır. Əgər hər bir nemətin zəkatını versən, həmin nemət yox olmaq təhlükəsindən amanda qalar.[1]

[1] (Ğurərul-Hikəm. Biharul-Ənvar,cild.96.səh,7).

# XEYRİYYƏÇİLİK

## Quranda xeyriyyəçilik

### Xeyir işlər görmək, Allahın rızasına səbəb olar

الَّذِي يُؤْتِي مَالَهُ يَتَزَكَّىٰوَمَا لِأَحَدٍ عِنْدَهُ مِنْ نِعْمَةٍ تُجْزَىٰإِلَّا ابْتِغَاءَ وَجْهِ رَبِّهِ الْأَعْلَىٰوَلَسَوْفَ يَرْضَىٰ

O kimsə ki, malını (Allah yolunda) verib (günahlardan) təmizlənər, O şəxsin boynunda heç kəsin bir minnəti (neməti) yoxdur ki, onun əvəzi verilsin (etdiyi yaxşılıq ona əvəz olsun; və ya: o, etdiyi yaxşılıq müqabilində heç kəsdən bir mükafat gözləməz). O ancaq ən uca olan Rəbbinin rizasını qazanmaq üçün belə edər. And olsun ki, o (öz Rəbbindən Cənnətdə ona verəcəyi nemətlərə görə) razı olacaqdır![1]

### Xeyirxah işlərin Allah dərgahında qəbul olma şərti, insanın təqvalı olmasıdır

فَأَمَّا مَنْ أَعْطَىٰ وَاتَّقَى وَصَدَّقَ بِالْحُسْنَى فَسَنُيَسِّرُهُ لِلْيُسْرَىٰ

Kim (malını Allah yolunda) versə, (Allahdan) qorxsa, Və ən gözəl sözü (la ilahə illallah kəlməsini) təsdiq etsə, Biz ona ən asan olanı (Cənnəti) müyəssər edəcəyik![2]

### Xeyriyyəçilikdə qabaqcıl olmaq

لَا يَسْتَوِي مِنْكُمْ مَنْ أَنْفَقَ مِنْ قَبْلِ الْفَتْحِ وَقَاتَلَ أُولَٰئِكَ أَعْظَمُ دَرَجَةً مِنَ الَّذِينَ أَنْفَقُوا مِنْ بَعْدُ وَقَاتَلُوا

Sizlərdən (mal-dövlətini) fəthdən (Məkkənin fəthindən) əvvəl (Allah yolunda) sərf edənlər və (müşriklərə qarşı) vuruşanlar (başqaları ilə) eyni deyillər. Onlar (mallarını Allah yolunda) fəthdən sonra sərf edib döyüşənlərdən dərəcə etibarilə daha üstündürlər.[3]

---

[1] (Ləyl, 18-21).

[2] (Ləyl, 5-7).

[3] (Hədid, 10).

### İnsanlara ehsan və xeyriyyəçilik etmək, cəmiyyətin həlak olmasının qarşısını alar

وَأَنْفِقُوا فِي سَبِيلِ اللَّهِ وَلَا تُلْقُوا بِأَيْدِيكُمْ إِلَى التَّهْلُكَةِ وَأَحْسِنُوا إِنَّ اللَّهَ يُحِبُّ الْمُحْسِنِينَ

(Malınızı) Allah yolunda xərcləyin. Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq (ehsan) edənləri sevir.[1]

### Xeyriyyəçilik ən üstün və dəyərli işlərdən biridir

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَنْفِقُوا مِنْ طَيِّبَاتِ مَا كَسَبْتُمْ وَمِمَّا أَخْرَجْنَا لَكُمْ مِنَ الْأَرْضِ وَلَا تَيَمَّمُوا الْخَبِيثَ مِنْهُ تُنْفِقُونَ وَلَسْتُمْ بِآخِذِيهِ إِلَّا أَنْ تُغْمِضُوا فِيهِ وَاعْلَمُوا أَنَّ اللَّهَ غَنِيٌّ حَمِيدٌ

Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin (ən pak, halal və) yaxşılarından (Allah yolunda) sərf edin! Ancaq göz yumaraq aldığınız pis, yaramaz şeylərdən vermək fikrində olmayın! Bilin ki, Allahın heç bir şeyə ehtiyacı yoxdur. (O, hər cür) şükrə (tərifə) layiqdir![2]

### Xeyriyyəçilik qıtlığa yox, ruzinin bol olmasına səbəb olar

قُلْ إِنَّ رَبِّي يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاءُ مِنْ عِبَادِهِ وَيَقْدِرُ لَهُ وَمَا أَنْفَقْتُمْ مِنْ شَيْءٍ فَهُوَ يُخْلِفُهُ وَهُوَ خَيْرُ الرَّازِقِينَ

(Ya Peyğəmbər!) De: “Həqiqətən, Rəbbim bəndələrindən istədiyinin ruzisini bol edər, (istədiyininkini də) azaldar. (Allah yolunda) nə xərclərsiniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!”[3]

---

[1] (Bəqərə, 195).
[2] (Bəqərə, 267).
[3] (Səba, 39).

## Nə üçün xeyriyyəçiliyə bu qədər əhəmiyyət verilir?

وَمَا لَكُمْ أَلَّا تُنْفِقُوا فِي سَبِيلِ اللَّهِ وَلِلَّهِ مِيرَاثُ السَّمَاوَاتِ وَالْأَرْضِ

(Ey insanlar!) Sizə nə olub ki, (mal-dövlətinizi) Allah yolunda xərcləmirsiniz? Halbuki göylərin və yerin mirası (bütün sərvəti, eləcə də siz öləndən sonra qoyub gedəcəyiniz malın hamısı) ancaq Allahındır.[1]

## Rəvayətlər baxımından xeyriyyəçilik

### Xeyriyyəçilik etmək, imanın əlamətidir

Allah Rəsulu (s) buyurur: Hər kim əlindəki sərvəti vasitəsi ilə kasıblarla bölüşə və insanlar ilə insafla davrana, həqiqi mömin hesab olar.[2]

منْ واسي الفقيرَ من ماله و انصف الناس مِنْ نفسه فذلك المؤمن حقّاً

### İnfaq və xeyriyyəçilik, Allah yolunda cihad etməyə bərabərdir

İmam Əli (ə) buyurur: Allahın sizə verdiyi ruzilərdən infaq (xeyriyyəçilik) edin ki, infaq verən şəxs, Allah yolunda cihad edən şəxs kimidir. Axirət aləminə yəqin etmiş insan, gərək insanlara dəyərli şeylər versin və xeyir işlər yerinə yetirməkdə əliaçıq olsun.[3]

قال على (ع): أنفقوا ممّا رزقكم الله عزّ و جلّ فإنّ المنفق بمنزلة المجاهد فى سبيل الله فمن أيْقن بالخلف جاد بالعطية و سخت نفسه بالنفقة

### İnfaq etmək ən böyük nemətdir

İmam Əli (ə) buyurur: Həqiqətən Allah yolunda xeyriyyəçilik etmək ən böyük nemət, və günah yolunda pul xərcləmək ən böyük bədbəxtlikdir.[4]

---

[1] (Hədid, 10).
[2] (Usuli-Kafi,cild.2.səh,19).
[3] (Xisal,cild.2.səh.245).
[4] (Camiul-Əhadis, cild.17.səh,86).

قال على (ع): إنّ إنفاق هذا المال فى طاعة الله اعظم نعمة و انفاقه فى معصية الله اعظم محنة

### Xeyirli işlər görmək, insanın xoşbəxtliyinə səbəb olar

Peyğəmbər (s) buyurur: Xoş halına o şəxsin ki, sərvətinin çoxunu Allah yolunda infaq edir və sözünün çoxusunu özündə qoruyub saxlayır.[1]

قال رسول الله (ص): طوبى لمن انفق الفضل من ماله و امسک الفضل من قوله

### İnfaq halal qazancdan olmalıdır

İmam Əli (ə) buyurur: Xeyriyyəçilikdə ən mühüm şey odur ki, infaq etmək istədiyi şeyin mənbəyi halaldan olsun.[2]

قال على (ع): أصل الامور فى الانفاق طلب الحلال لما ينفق

## Xeyir işlər görməyin insana təsiri

### a) İnfaq, insanın axirət aləmini islah edir

İmam Əli (ə) buyurur: Dünyada əldə etdiyin ən yaxşı qazanc odur ki, onun vasitəsi ilə axirətini islah etmiş olasan. Buna görə də haqq uğrunda xeyirli işlər yerinə yetir və özün üçün çoxlu savablar əldə etməyə çalış.[3]

### b) İnfaq etdiyimiz ruzi heç vaxt azalmaz

İmam Sadiq (ə) buyurur: Həftənin hər cümə axşamı iki mələk nida edirlər: İlahi, infaq edən insanların ruzisini artır və infaq etməyənlərin ruzisini yox et.[4]

---

[1] (Biharul-Ənvar,cild.96.səh,117).
[2] (Mustədrəkul Səfinə, cild.10.səh.121).
[3] (Biharul-Ənvar,cild.77.səh,211).
[4] (Biharul-Ənvar,cild.96.səh,117).

### c) İnfaq etməklə əvəzsiz savab əldə etmiş oluruq

Peyğəmbər (s) buyurur: Hər kəs Allah yolunda bir dirhəm infaq etsə, Allah ona yeddi yüz min savab yazar.[1]

### d) İnfaq etməməyin acı aqibəti

Peyğəmbər (s) buyurur: Hər kim imkanı olan təqdirdə pulundan yaxşı insanlara infaq etməsə, Allah elə edər ki, o, həmin sərvətini pis insanlara xərcləyər.[2]

---

[1] (Biharul-Ənvar,cild.96.səh,122).
[2] (Biharul-Ənvar,cild.96.səh,131).

# HƏCC

## Quran ayələrində həcc

### Həcc ziyarəti, vacib əməllərdən biridir

فِيهِ آيَاتٌ بَيِّنَاتٌ مَقَامُ إِبْرَاهِيمَ وَمَنْ دَخَلَهُ كَانَ آمِنًا وَلِلَّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ
إِلَيْهِ سَبِيلًا وَمَنْ كَفَرَ فَإِنَّ اللَّهَ غَنِيٌّ عَنِ الْعَالَمِينَ

Orada aydın nişanələr – İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır (təhlükədən kənardır). Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir![1]

### Həcc ziyarətinin əməlləri, xüsusi zamanda yerinə yetirilməlidir

الْحَجُّ أَشْهُرٌ مَعْلُومَاتٌ فَمَنْ فَرَضَ فِيهِنَّ الْحَجَّ فَلَا رَفَثَ وَلَا فُسُوقَ وَلَا جِدَالَ فِي الْحَجِّ
وَمَا تَفْعَلُوا مِنْ خَيْرٍ يَعْلَمْهُ اللَّهُ وَتَزَوَّدُوا فَإِنَّ خَيْرَ الزَّادِ التَّقْوَىٰ وَاتَّقُونِ يَا أُولِي الْأَلْبَابِ

Həcc (mövsümü) məlum olan aylardır (şəvval, zül-qədə ayları və zül-hiccənin birinci on günü). (Həmin aylarda) həcc ziyarəti vacib olan (həcci özünə vacib bilən) şəxsə həcdə olarkən (qadınla) yaxınlıq, söyüş söyüb pis sözlər danışmaq, dava-dalaş etmək yaramaz. Allah gördüyünüz hər bir yaxşı işi bilir. (Həcc və ya axirət üçün) tədarük görün. Ən yaxşı tədarük (azuqə) isə təqvadır (pis əməllərdən çəkinməkdir). Ey ağıl sahibləri, Məndən qorxun![2]

---

[1] (Ali İmran, 97).
[2] (Bəqərə, 197).

## həcc ziyarətinə dəvət etməsi

وَأَذِّنْ فِي النَّاسِ بِالْحَجِّ يَأْتُوكَ رِجَالًا وَعَلَىٰ كُلِّ ضَامِرٍ يَأْتِينَ مِنْ كُلِّ فَجٍّ عَمِيقٍ

İnsanları həccə çağır ki, onlar sənin yanına (istər) piyada və (istərsə də) hər uzaq yoldan yollanan hər cür arıq (yorğun-arğın) dəvələr üstündə (süvari olaraq) gəlsinlər.[1]

## Həccin maddi və mənəvi faydaları

لِيَشْهَدُوا مَنَافِعَ لَهُمْ وَيَذْكُرُوا اسْمَ اللَّهِ فِي أَيَّامٍ مَعْلُومَاتٍ عَلَىٰ مَا رَزَقَهُمْ مِنْ بَهِيمَةِ الْأَنْعَامِ فَكُلُوا مِنْهَا وَأَطْعِمُوا الْبَائِسَ الْفَقِيرَ

Belə ki, öz mənfəətlərinin şahidi olsunlar və məlum günlərdə Allahın onlara ruzi verdiyi (dördayaqlı) heyvanların üstündə (onları qurban kəsərkən) Onun adını çəksinlər (bismillah desinlər). Onlardan özünüz də yeyin, biçarə (zavallı) yoxsullara da yedirdin![2]

## Həcc ziyarətinin əməlləri hər kəs üçün eynidir və fərqlilik yoxdur

إِنَّ الَّذِينَ كَفَرُوا وَيَصُدُّونَ عَنْ سَبِيلِ اللَّهِ وَالْمَسْجِدِ الْحَرَامِ الَّذِي جَعَلْنَاهُ لِلنَّاسِ سَوَاءً الْعَاكِفُ فِيهِ وَالْبَادِ وَمَنْ يُرِدْ فِيهِ بِإِلْحَادٍ بِظُلْمٍ نُذِقْهُ مِنْ عَذَابٍ أَلِيمٍ

Kafir olub (insanları) Allah yolundan, həm yerlilər, həm də gəlmələr üçün (qiblə, məbəd) etdiyimiz Məscidülhəramdan döndərənlərə və orada zülmə, haqsızlığa meyl etmək istəyənlərə də şiddətli əzabdan daddıracağıq![3]

---

[1] (Həcc, 27).
[2] (Həcc, 28).
[3] (Həcc, 25).

## Həcc və ümrədən məqsəd Allaha yaxın olmaqdır

وَأَتِمُّوا الْحَجَّ وَالْعُمْرَةَ لِلَّهِ

Allahdan ötrü həcc və ümrə (kiçik həcc) əməllərini tam yerinə yetirin...[1]

## Həcc əməllərini icra edəndə, Allahı daim yada salmaq lazımdır

فَإِذَا قَضَيْتُمْ مَنَاسِكَكُمْ فَاذْكُرُوا اللَّهَ كَذِكْرِكُمْ آبَاءَكُمْ أَوْ أَشَدَّ ذِكْرًا ۗ فَمِنَ النَّاسِ مَنْ يَقُولُ رَبَّنَا آتِنَا فِي الدُّنْيَا وَمَا لَهُ فِي الْآخِرَةِ مِنْ خَلَاقٍ

Həcc mərasimini tamamlayıb qurtardıqda (keçmişdə) ata-babalarınızı yada saldığınız kimi, ondan da artıq Allahı yad edin! İnsanların bəzisi: "Ey Rəbbimiz, bizə nə verəcəksənsə, elə bu dünyada ver!" – deyirlər. Belə şəxslərin axirətdə heç bir payı yoxdur![2]

## Həcc ziyarətindən mənəvi yüksəliş üçün istifadə etmək

الْحَجُّ أَشْهُرٌ مَعْلُومَاتٌ ۚ فَمَنْ فَرَضَ فِيهِنَّ الْحَجَّ فَلَا رَفَثَ وَلَا فُسُوقَ وَلَا جِدَالَ فِي الْحَجِّ ۗ وَمَا تَفْعَلُوا مِنْ خَيْرٍ يَعْلَمْهُ اللَّهُ ۗ وَتَزَوَّدُوا فَإِنَّ خَيْرَ الزَّادِ التَّقْوَىٰ ۚ وَاتَّقُونِ يَا أُولِي الْأَلْبَابِ

Həcc (mövsümü) məlum olan aylardır (şəvval, zül-qədə ayları və zül-hiccənin birinci on günü). (Həmin aylarda) həcc ziyarəti vacib olan (həcci özünə vacib bilən) şəxsə həcdə olarkən (qadınla) yaxınlıq, söyüş söyüb pis sözlər danışmaq, dava-dalaş etmək yaramaz. Allah gördüyünüz hər bir yaxşı işi bilir. (Həcc və ya axirət üçün) tədarük görün. Ən yaxşı tədarük (azuqə) isə təqvadır (pis əməllərdən çəkinməkdir). Ey ağıl sahibləri, Məndən qorxun![3]

## Həcc ziyarəti zamanı, zahiri və batini təmizliyə riayət etmək

[1] (Bəqərə, 196).
[2] (Bəqərə, 200).
[3] (Bəqərə, 197).

ثُمَّ لْيَقْضُوا تَفَثَهُمْ وَلْيُوفُوا نُذُورَهُمْ وَلْيَطَّوَّفُوا بِالْبَيْتِ الْعَتِيقِ

Sonra həcc əməllərini (dırnaq kəsmək, saçını qırxmaq, yaxud qısaltmaq və s.) yerinə yetirsinlər (və ya kirlərini təmizləsinlər), nəzirlərini versinlər və (Nuhun tufanından salamat çıxmış, yaxud bəşər övladı üçün ilk ziyarətgah olan) qədim evi (Kəbəni) təvaf etsinlər![1]

## Rəvayətlər baxımından həcc ziyarəti

### Həcci ziyarət etmək, zəif insanların cihadı, eyni zamanda da ən üstün cihad hesab olur

Peyğəmbər (s) buyurur: Ən üstün cihad, həccdir və həcc iki cihaddan biridir ki, zəiflərin cihadı hesab olur.[2]

قال رسول الله (ص): أفضل الجهاد حجّ مبرور و هو احد الجهادين و هو جهاد الضعفاء

### Müsəlmanlar imkanları olduğu təqdirdə, heç vaxt həcc ziyarətindən uzaq düşməməlidirlər

İmam Sadiq (ə) buyurur: Əgər insanlar həccə getməkdən əl çəksələr, müsəlmanların başçılarının öhdəsindədir ki, onları həccə getməyə həvəsləndirsin.[3]

قال الصادق (ع): لو عطّل الناس الحج لوجب على الامام ان يجبر هم على الحج

## Həcc ziyarəti yolunda xeyir işlər yerinə yetirməyin faydası

İmam Sadiq (ə) buyurur: Hər kim həccdə bir dirhəm infaq etsə, digər xeyirli işdə xərclədiyi yüz min dirhəmdən daha yaxşıdır.[4]

قال الصادق (ع): منْ أنفق درهماً فى الحج كان خيراً له من مأة الف درهم ينفقها فى حقّ

[1] (Həcc, 29).
[2] (Təhzibul-Əhkam,cild.5.səh.22).
[3] (İləluş-Şərai,səh.392).
[4] (Səfinətul-Bihar.cild.1.səh,217).

### Həcc, özünü islah və tərbiyə etmək üçün ən yaxşı vasitədir

İmam Sadiq (ə) buyurur: Həcc ziyarətinə getmək istədiyin zaman, evdən çölə çıxmadan öncə, Allahdan başqasına olan məhəbbəti qəlbindən uzaqlaşdır və bütün diqqət və hərəkətlərində Allaha sığın. Allahın qəza-qədərinə (alın yazısı) təslim ol, dünya və onun rahatçılığından əl çək və boynunda olan insanların haqqını əda et. (Muhiccətul-Bəyza,cild.2.səh,207).

قال الصادق (ع): اذا اردت الحج فجرّدْ قلبک لله تعالى من کلّ شيءٍ شاغل و حجاب و فوّضْ أُمورک کلّها إلى خالقک و توکل عليه فی جميع ما يظهر من حرکاتک و سکناتک و سلّم لقضائه و حکمه و قدره و دع الدنيا و الراحة و الخلق و اخرج من حقوق تلزمک من جهة المخلوقين

## Həccin təsiri və faydaları

**a) Həcci ziyarət etmək, insanın dininin güclənməsinə səbəb olur**

İmam Əli (ə) buyurur: Həcc, dinin güclənməsinə səbəb olar. (Ğurərul-Hikəm).

**b) Cismin sağlamlığı və ruzinin artmasına səbəb olar**

İmam Zeynul-Abidin (ə) buyurur: Həcc və ümrə ziyarətinə gedin ki, sağlamlıq tapasınız, ruziniz arta və imanınız islah ola. [1]

**c) Həccdə edilən dua, Allah dərgahında qəbul olar**

Vəsailuş-şiə kitabında nəql olunub: Üç dəstə var ki, onların duası qəbul olar. Onlardan biri hacı, digəri əsgər, digəri isə xəstədir.[2]

**d) Həcc ziyarəti, kasıbçılığı yox edər**

[1] (Səvabul-Əmal,səh.108).
[2] (Vəsailuş-Şiə, cild.8.səh, 67).

İmam Sadiq (ə) buyurur: Hər kim ömründə üç dəfə həcc ziyarətinə getsə, heç vaxt kasıbçılıqla üzləşməz.[1]

**e) Həcc ziyarəti xoşbəxtliyə səbəb olar**

İmam Sadiq (ə) buyurur: İki dəfə həccə gedən şəxs, ömrünün sonuna kimi xeyir-bərəkət içində yaşayar.[2]

**f) Həcc ziyarətinin qiyamətdəki hesab-kitaba olan təsiri**

İmam Sadiq (ə) buyurur: Hər kəs on dəfə həcci ziyarət etsə, Allah (qiyamət günü) onu hesaba çəkməz.[3]

**h) Həcc ziyarəti, qəlbin aramlığına səbəb olar**

İmam Muhəmməd Baqir (ə) buyurur: Həcc ziyarəti, qəlbin aramlığına səbəb olar.[4]

---

[1] (Xisal,səh.93).
[2] (Biharul-Ənvar,cild.91.səh,6).
[3] (Rəuzətul-Vaizin,səh.420).
[4] (Biharul-Ənvar,cild.75.səh,183).

# CİHAD

Cihad, çalışmaq anlamındadır. Deməli islamın, vətənin və xalqın inkişafı uğrunda hər növ çalışmaq cihad adlanır. İslamda cihad dedikdə, məqsəd budur ki, insan gərək Allahın razılığı, vətən, din və bu kimi dəyərləri qorumaq uğrunda heç bir şeyi əsirgəməyə. Həqiqi müsəlman haqqın və islamın bərpası üçün, lazım olsa canını da qurban verməyə hazır olmalıdır. Kiminsə haqqını tapdalamaq, günahsız insanları qətlə yetirmək, terror aktları törətmək və s. kimi işlər, heç də cihad hesab olmur.

## Quran ayələri baxımından cihad

### Mücahidlərin üstünlüyü

لَا يَسْتَوِي الْقَاعِدُونَ مِنَ الْمُؤْمِنِينَ غَيْرُ أُولِي الضَّرَرِ وَالْمُجَاهِدُونَ فِي سَبِيلِ اللَّهِ بِأَمْوَالِهِمْ وَأَنْفُسِهِمْ فَضَّلَ اللَّهُ الْمُجَاهِدِينَ بِأَمْوَالِهِمْ وَأَنْفُسِهِمْ عَلَى الْقَاعِدِينَ دَرَجَةً وَكُلًّا وَعَدَ اللَّهُ الْحُسْنَىٰ وَفَضَّلَ اللَّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا

Zərər çəkmədən (üzrsüz səbəbə görə evlərində) əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən (vuruşan) kimsələr bir olmazlar. Allah malları və canları ilə vuruşanları (evlərində) əyləşənlərdən (cihada getməyənlərdən) dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına (hər ikisinə savab) vəd etmişdir. (Lakin) Allah mücahidlərə (evlərində) oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir.[1]

### Müsəlmanlara qarşı müharibə edən kafirlərlə cihad etmək

يَا أَيُّهَا النَّبِيُّ جَاهِدِ الْكُفَّارَ وَالْمُنَافِقِينَ وَاغْلُظْ عَلَيْهِمْ وَمَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ الْمَصِيرُ

[1] (Nisa, 95).

Ya Peyğəmbər! Kafirlərə qarşı (qılıncla), münafiqlərə qarşı (sözlə) vuruş. Onlarla sərt rəftar et. Onların məskəni Cəhənnəmdir. Ora necə də pis sığınacaqdır![1]

## Allah, mücahidlərin tərəfindədir

فَلَا تَهِنُوا وَتَدْعُوا إِلَى السَّلْمِ وَأَنْتُمُ الْأَعْلَوْنَ وَاللَّهُ مَعَكُمْ وَلَنْ يَتِرَكُمْ أَعْمَالَكُمْ

Buna görə də (cihada) zəiflik göstərməyin və (kafirlərə) üstün (qalib) gəldiyiniz zaman (onları) sülhə dəvət etməyin. Allah sizinlədir. O sizin əməllərinizi boş (mükafatsız) buraxmaz![2]

## Allah, yolunda cihad edənləri sevir

إِنَّ اللَّهَ يُحِبُّ الَّذِينَ يُقَاتِلُونَ فِي سَبِيلِهِ صَفًّا كَأَنَّهُمْ بُنْيَانٌ مَرْصُوصٌ

Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər![3]

## Allah-taalanın baxışında, düşmənlərə təcavüz etmək qadağandır

وَقَاتِلُوا فِي سَبِيلِ اللَّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلَا تَعْتَدُوا إِنَّ اللَّهَ لَا يُحِبُّ الْمُعْتَدِينَ

(Ey möminlər!) Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz![4]

---

[1] (Təhrim, 9).
[2] (Muhəmməd, 35).
[3] (Səff, 4).
[4] (Bəqərə, 190).

## Cihadın hədəfləri

### a) Allahın və islam ümmətinin düşmənlərini qorxutmaq

وَأَعِدُّوا لَهُمْ مَا اسْتَطَعْتُمْ مِنْ قُوَّةٍ وَمِنْ رِبَاطِ الْخَيْلِ تُرْهِبُونَ بِهِ عَدُوَّ اللَّهِ وَعَدُوَّكُمْ وَآخَرِينَ مِنْ دُونِهِمْ لَا تَعْلَمُونَهُمُ اللَّهُ يَعْلَمُهُمْ وَمَا تُنْفِقُوا مِنْ شَيْءٍ فِي سَبِيلِ اللَّهِ يُوَفَّ إِلَيْكُمْ وَأَنْتُمْ لَا تُظْلَمُونَ

(Ey möminlər) Allahın düşmənini və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri (münafiqləri) qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və (cihad üçün bəslənilən) döyüş atları tədarük edin. Allah yolunda nə xərcləsəniz, onun əvəzi artıqlaması ilə ödənilər və sizə heç bir haqsızlıq edilməz![1]

### b) İbadət mərkəzlərini qorumaq

الَّذِينَ أُخْرِجُوا مِنْ دِيَارِهِمْ بِغَيْرِ حَقٍّ إِلَّا أَنْ يَقُولُوا رَبُّنَا اللَّهُ وَلَوْلَا دَفْعُ اللَّهِ النَّاسَ بَعْضَهُمْ بِبَعْضٍ لَهُدِّمَتْ صَوَامِعُ وَبِيَعٌ وَصَلَوَاتٌ وَمَسَاجِدُ يُذْكَرُ فِيهَا اسْمُ اللَّهِ كَثِيرًا وَلَيَنْصُرَنَّ اللَّهُ مَنْ يَنْصُرُهُ إِنَّ اللَّهَ لَقَوِيٌّ عَزِيزٌ

O kəslər ki, haqsız yerə, ancaq "Rəbbimiz Allahdır" - dediklərinə görə yurdlarından (Məkkədən) çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə (müşrikləri möminlərlə) dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan soməələr (rahiblərin yaşadığı monastırlar), kilsələr, məbədlər (yəhudi məbədləri) və məscidlər dağılıb gedərdi (darmadağın edilərdi). Allah Ona (öz dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir![2]

---

[1] (Ənfal, 60).
[2] (Həcc, 40).

**c) İslam düşmənlərini xar və rüsvay etmək**

قَاتِلُوهُمْ يُعَذِّبْهُمُ اللَّهُ بِأَيْدِيكُمْ وَيُخْزِهِمْ وَيَنْصُرْكُمْ عَلَيْهِمْ وَيَشْفِ صُدُورَ قَوْمٍ مُؤْمِنِينَ

Onlarla vuruşun ki, Allah sizin əlinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırıb möminlərin ürəklərini fərəhləndirsin.[1]

**d) Şirki yox edib, İlahi dini bərpa etmək**

وَقَاتِلُوهُمْ حَتَّىٰ لَا تَكُونَ فِتْنَةٌ وَيَكُونَ الدِّينُ كُلُّهُ لِلَّهِ ۚ فَإِنِ انْتَهَوْا فَإِنَّ اللَّهَ بِمَا يَعْمَلُونَ بَصِيرٌ

(Yer üzündə) fitnə (şirk) qalmayıb, bütün din (ibadət) yalnız Allaha məxsus olanadək onlarla vuruşun. Əgər (Allaha şərik qoşmağa) son qoysalar (bilsinlər ki), Allah onların nə etdiklərini görəndir (bunun əvəzində mükafatlarını verəcəkdir).[2]

## Rəvayətlərdə cihad

### Cihad, Allah yanında ən sevimli əməllərdəndir

Peyğəmbər (s) buyurur: Allah dərgahında ən sevimli əməl, namaz, xeyriyyəçilik və Allah yolunda cihad etməkdir.[3]

قال رسول الله (ص): إنّ أحبّ الاعمال إلى الله الصلوة و البرّ و الجهاد

**Allah yolunda cihad etmək, insanın dinini və dünyasını islah edər**

İmam Əli (ə) buyurur: Allah-taala cihadı vacib edib və onun məqamını uca tutub. Allaha and olsun ki, insanın dini və dünyası cihaddan başqa bir şeylə islah olmaz.[4]

---

[1] (Tövbə, 14).
[2] (Ənfal, 39).
[3] (Xisal,cild.1.səh.185).
[4] (Vəsailuş-Şiə, cild,11. səh9).

قال علی (ع): إنّ الله فرض الجهاد و عظّمه والله ما صلحت دنيا و لا دين الا به

**Cihad, islamın baş ucalığına səbəb olar**

İmam Əli (ə) buyurur: Allaha-taala cihadı, islamın izzətli olması üçün vacib edib.[1]

قال علی (ع): فرض الله ... الجهاد عزّاً للاسلام

**Cihad, ən çox savablı əməllərdən biridir**

Peyğəmbər (s) buyurur: Namazı vaxtında qılmaq, ata-anaya yaxşılıq etmək və Allah yolunda cihad etmək ən yaxşı işlərdən hesab olur.[2]

قال رسول الله (ص): أفضل الاعمال الصلوة لوقتها و برّ الوالدين و الجهاد فی سبيل الله

## Cihadın insana təsiri

**a) Cihad, günahların bağışlanmasına səbəb olur**

Peyğəmbər buyurur: Hər kim vətənin sərhədini qorumaq və ya vətən uğrunda cihad etmək üçün evdən çıxa, Allah onun atdığı hər addıma görə, yeddi yüz min savab yazar, yeddi yüz min günahını əfv edər və onun mənəvi məqamını yeddi yüz min dəfə artırar.[3]

**b) Cihad etmək, duanın qəbul olmasına səbəb olar**

İmam Sadiq (ə) buyurur: Üç nəfərin duası qəbul olar. Allah evini ziyarət edənin..., Allah yolunda döyüşdə olanın... və xəstənin.[4]

---

[1] (Nəhcül-Bəlağə, hikmət,243).

[2] (Biharul-Ənvar,cild.69.səh,392).

[3] (Səvabul-Əmal,səh.682).

[4] (Biharul-Ənvar,cild.81.səh,225).

## c) Cihad, şəfaətin qəbul olmasına səbəb olar

Peyğəmbər (s) buyurur: Üç dəstə şəfaət edənlərin şəfaəti, Allah dərgahında qəbul olar. Onlar Peyğəmbərlər (ə), alimlər və şəhidlərdir.[1]

## d) Cihad, cənnətin açarlarından biridir

İmam Əli (ə) buyurur: Cihad cənnətin qapılarından biridir ki, Allah-taala onu xüsusi bəndələrin üzünə açar.[2]

---

[1] (Məvaizul-Ədədiyyə, səh.93).
[2] (Biharul-Ənvar,cild.100.səh,8).

# ƏL-ƏMRU BİL-MƏRUF VƏN-NƏHYU ƏNİL-MUNKƏR (YAXŞILIĞA DƏVƏT VƏ PİS İŞLƏRDƏN ÇƏKİNDİRMƏK)

## Quran baxımından yaxşılığa dəvət və pis işlərdən çəkindirmək

### Yaxşılığa dəvət etmək vacib bir işdir

وَلْتَكُنْ مِنْكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنْكَرِ وَأُولَٰئِكَ هُمُ الْمُفْلِحُون

(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış şəxslərdir.[1]

### Yaxşılığa dəvət etmək, Peyğəmbərin (s) xüsusiyyətlərindən biridir

الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الْأُمِّيَّ الَّذِي يَجِدُونَهُ مَكْتُوبًا عِنْدَهُمْ فِي التَّوْرَاةِ وَالْإِنْجِيلِ يَأْمُرُهُمْ بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنْكَرِ وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَائِثَ وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالْأَغْلَالَ الَّتِي كَانَتْ عَلَيْهِمْ

O kəslər ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsula–ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş və ya məkkəli) peyğəmbərə tabe olurlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər).[2]

[1] (Ali-İmran, 104).
[2] (Əraf, 157).

## Yaxşılığa dəvət etmək, bəzi kitab əhlinin xüsusiyyətindəndir

لَيْسُوا سَوَاءً مِنْ أَهْلِ الْكِتَابِ أُمَّةٌ قَائِمَةٌ يَتْلُونَ آيَاتِ اللَّهِ آنَاءَ اللَّيْلِ وَهُمْ يَسْجُدُونَ يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنْكَرِ وَيُسَارِعُونَ فِي الْخَيْرَاتِ وَأُولَٰئِكَ مِنَ الصَّالِحِينَ

Onların hamısı eyni deyil. Kitab əhli içərisində düzgün (sabitqədəm) bir camaat vardır ki, onlar gecə vaxtları səcdə edərək Allahın ayələrini oxuyurlar. Onlar Allaha, axirət gününə inanır, (insanlara) yaxşı işlər görməyi əmr edir, (onları) pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər.[1]

## Allah yolunda cihad edənlər, başqalarını yaxşı işə dəvət edirlər

إِنَّ اللَّهَ اشْتَرَىٰ مِنَ الْمُؤْمِنِينَ أَنْفُسَهُمْ وَأَمْوَالَهُمْ بِأَنَّ لَهُمُ الْجَنَّةَ يُقَاتِلُونَ فِي سَبِيلِ اللَّهِ فَيَقْتُلُونَ وَيُقْتَلُونَ وَعْدًا عَلَيْهِ حَقًّا فِي التَّوْرَاةِ وَالْإِنْجِيلِ وَالْقُرْآنِ وَمَنْ أَوْفَىٰ بِعَهْدِهِ مِنَ اللَّهِ فَاسْتَبْشِرُوا بِبَيْعِكُمُ الَّذِي بَايَعْتُمْ بِهِ وَذَٰلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ التَّائِبُونَ الْعَابِدُونَ الْحَامِدُونَ السَّائِحُونَ الرَّاكِعُونَ السَّاجِدُونَ الْآمِرُونَ بِالْمَعْرُوفِ وَالنَّاهُونَ عَنِ الْمُنْكَرِ وَالْحَافِظُونَ لِحُدُودِ اللَّهِ وَبَشِّرِ الْمُؤْمِنِينَ

Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır. Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz sövdəyə görə sevinin. Bu, böyük qurtuluşdur (uğurdur)! (Onlar Allaha) tövbə, ibadət və şükür-səna edənlər, oruc tutanlar (və ya cihad uğrunda, elm təhsil etmək üçün yurdundan ayrılıb başqa yerlərə gedənlər), rüku və səcdə edənlər (namaz qılanlar), yaxşı işlər görməyi əmr edib pis işləri yasaq edənlər və Allahın hədlərini (halal-haramı) qoruyanlardır. (Ya Rəsulum!) Belə möminləri (Cənnətlə) müjdələ![2]

[1] (Ali-İmran, 113-114).
[2] (Tövbə, 111-112).

## Yaxşılığa dəvət etmək, islam hökümətinin nişanələrindən biridir

الَّذِينَ إِنْ مَكَّنَّاهُمْ فِي الْأَرْضِ أَقَامُوا الصَّلَاةَ وَآتَوُا الزَّكَاةَ وَأَمَرُوا بِالْمَعْرُوفِ وَنَهَوْا عَنِ الْمُنْكَرِ ۗ وَلِلَّهِ عَاقِبَةُ الْأُمُورِ

O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək (onlara bir yer versək), namaz qılar, zəkat verər, (insanlara) yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu (nəticəsi) Allaha aiddir. (Allah qiyamət günü əməllərinə müvafiq olaraq möminlərə mükafat, kafirlərə isə cəza verəcəkdir).[1]

## Həqiqi möminlərin xüsusiyyətlərindən biri, insanları yaxşılığa dəvət etməkdir

وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بَعْضُهُمْ أَوْلِيَاءُ بَعْضٍ ۚ يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنْكَرِ وَيُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَيُطِيعُونَ اللَّهَ وَرَسُولَهُ ۚ أُولَٰئِكَ سَيَرْحَمُهُمُ اللَّهُ ۗ إِنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ

Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (hayandırlar). Onlar (insanlara) yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allaha və Peyğəmbərinə itaət edərlər. Allah, əlbəttə ki, onlara rəhm edəcəkdir. Allah, həqiqətən, yenilməz qüvvət sahibi, hikmət sahibidir![2]

## Münafiqlər hər an çalışarlar ki, başqalarını pis işlərə dəvət edib, yaxşı işlərdən çəkindirsinlər

الْمُنَافِقُونَ وَالْمُنَافِقَاتُ بَعْضُهُمْ مِنْ بَعْضٍ ۚ يَأْمُرُونَ بِالْمُنْكَرِ وَيَنْهَوْنَ عَنِ الْمَعْرُوفِ وَيَقْبِضُونَ أَيْدِيَهُمْ ۚ نَسُوا اللَّهَ فَنَسِيَهُمْ ۗ إِنَّ الْمُنَافِقِينَ هُمُ الْفَاسِقُونَ

Münafiq kişilərlə münafiq qadınlar (iki-üzlülükdə) bir-birinin eynidirlər. Onlar (insanlara) pis işlər görməyi əmr edər, yaxşı işləri qadağan edərlər. Hələ əlləri də

[1] (Həcc, 41).
[2] (Tövbə, 71).

bərkdir (xəsisdirlər). Onlar Allahı unutdular, Allah da onları unutdu. Həqiqətən, münafiqlər (Allahın itaətindən çıxmış) fasiqlərdir![1]

**Allaha görə, ən yaxşı ümmət olmaq, başqalarını yaxşılığa dəvət etmək sayəsində mümkün olar**

كُنْتُمْ خَيْرَ أُمَّةٍ أُخْرِجَتْ لِلنَّاسِ تَأْمُرُونَ بِالْمَعْرُوفِ وَتَنْهَوْنَ عَنِ الْمُنْكَرِ وَتُؤْمِنُونَ بِاللَّهِ ۗ وَلَوْ آمَنَ أَهْلُ الْكِتَابِ لَكَانَ خَيْرًا لَهُمْ ۚ مِنْهُمُ الْمُؤْمِنُونَ وَأَكْثَرُهُمُ الْفَاسِقُونَ

(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız. Əgər kitab əhli də (sizin kimi) iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların da içərisində bəzi iman gətirən şəxslər vardır, lakin çox hissəsi haqq yoldan çıxanlardır.[2]

**İnsanları yaxşılığa dəvət edən şəxs, gərək özü həmin işlərə əməl etmiş olsun**

قَالَ يَا قَوْمِ أَرَأَيْتُمْ إِنْ كُنْتُ عَلَىٰ بَيِّنَةٍ مِنْ رَبِّي وَرَزَقَنِي مِنْهُ رِزْقًا حَسَنًا ۚ وَمَا أُرِيدُ أَنْ أُخَالِفَكُمْ إِلَىٰ مَا أَنْهَاكُمْ عَنْهُ ۚ إِنْ أُرِيدُ إِلَّا الْإِصْلَاحَ مَا اسْتَطَعْتُ ۚ وَمَا تَوْفِيقِي إِلَّا بِاللَّهِ ۚ عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ

(Şüeyb onlara) belə cavab verdi: “Ey qövmüm! Bir deyin görək! Əgər mən Rəbbimdən aşkar bir möcüzə ilə gəlsəm və Rəbbim mənə Öz dərgahından gözəl (halal) bir ruzi versə (mən ona haram qatarammı)? (Və ya mən öz Rəbbimə asi ola bilərəmmi?) Mən sizə yasaq buyurduğum şeyin əksinə gedib onu özüm etmək istəmirəm. Mən yalnız bacardığım qədər sizi islah etmək istəyirəm. Mənim (bu işdə) müvəffəqiyyətim yalnız Allahın köməyilədir. Mən yalnız Ona təvəkkül etdim və məhz Onun hüzuruna dönəcəyəm![3]

[1] (Tövbə, 67).
[2] (Ali-İmran, 110).
[3] (Hud, 88).

## Rəvayətlərdə yaxşılığa dəvət etmək

### Yaxşılığa dəvət etməyi tərk etmək, zalım insanların cəmiyyətə hakim olmasına səbəb olar

İmam Əli (ə) buyurur: İnsanları yaxşılığa dəvət edib, pis işlərdən çəkindirməyi əsla tərk etməyin ki, zalım insanlar cəmiyyətdə sizə hakim olar və siz nə qədər dua etsəniz Allah dərgahında qəbul olmaz.[1]

قال على (ع): لا تتركوا الامرَ با المعروف و النهىَ عن المنكر فيولّى عليكم شراركم ثمَّ تدعون فلا يستجاب لكم

### Cəmiyyətdə fəsadın artmasına səbəb olan amillərdən biri, yaxşılığa dəvət və pis işlərdən çəkindirməyi tərk etməkdir

Peyğəmbər (s) üzünü müsəlmanlara tutub buyurdu: Qadınlarınız fəsad, cavanlarınız isə günah əhli olduğu zaman, sizin halınız necə olacaq? Bu, yaxşılığa dəvət və pis işlərdən çəkindirməyi tərk etdiyiniz zaman baş verəcək. Müsəlmanlar soruşdu: Ey Allah Rəsulu! Belə bir zaman olacaqmı ki, biz yaxşılığa dəvət etməyi və pis işlərdən çəkindirməyi tərk etmiş olaq? Peyğəmbər (s) cavab verdi: Bəli, bundan da pis olacaq. Belə ki, (elə bir zaman gələcək ki, ) insanlar içində yaxşı işlər pis, pis işlər isə yaxşı tanınacaq.

عن ابى عبد الله (ع) قال النبى (ص): كيف بكم اذا فسدت نساؤكم و فسق شبابكم و لم تأمروا با المعروف و لم تنهوا عن المنكر فقيل و يكون ذلک يا رسول الله؟ فقال نعم و شرّ من ذلک كيف بكم اذا امر تم با المنكر و نهيتم عن المعروف فقيل له يا رسول الله و يكون ذلک؟ قال نعم شرّ من ذلک كيف بكم اذا رأيتم المعروف منكراً و المنكرا معروفاً

### İnsanları pis işlərdən çəkindirməyi tərk etmək, imanın zəifləməsinə səbəb olar

[1] (Nəhcül-Bəlağə, məktub.47).

Peyğəmbər (s) buyurur: Allah-taala dini olmayan və zəif mömini özünə düşmən hesab edir. Soruşdular ki, dini olmayan, zəif mömin kimdir? Peyğəmbər (s) buyurdu: İnsanları pis işlərdən çəkindirməyənlər.[1]

قال لنبى (ص): إنّ الله ليبغض المومن الضعيف الذى لا دين له فقيل و ما المومن الضعيف الذى لا دين له؟ قال الذين لا ينهى عن المنكر

## Yaxşılığa dəvət etmək, bir çox işlərdən üstündür

İmam Əli (ə) buyurur: Bütün yaxşı əməllər, hətta Allah yolunda cihad etmək, yaxşılığa dəvət etmək və pis işlərdən çəkindirməklə müqayisədə, böyük dənizin suyu ilə ağız suyu misalı kimidir.(Yəni bütün yaxşı əməllərin ağız suyu miqdarında, yaxşılığa dəvət və pis işlərdən çəkindirməyin isə dənizin suyu miqdarında savabı var).[2]

قال على (ع): و ما اعمال البرّ كلها و الجهاد فى سبيل الله عند الامر با المعروف و النهى عن المنكر الا كنفثة فى بحر لجّى

## İnsanları yaxşılığa dəvət edib, pis işlərdən çəkindirən şəxs, Allah və Peyğəmbərin (s) xəlifəsi hesab olur

Peyğəmbər (s) buyurur: Hər kim insanları yaxşılığa dəvət edib, pis işlərdən çəkindirsə, yer üzündə Allahın və peyğəmbərin canişini olar.[3]

قال رسول الله (ص): منْ أمر با المعروف و نهى عن المنكر فهو خليفة الله فى أرضه و خليفة رسوله و خليفة كتابه

## Yaxşılığa dəvət edənlərin xüsusiyyətləri

İmam Hüseyn (ə) buyurur: Yaxşılığa dəvət edənlər, üç xüsusiyyətə malik olmalıdır. Dəvət etdiyi şeyin həqiqətindən agah olmalı, insanları çəkindirdiyi

[1] (Vəsailuş-Şiə,cild.11.səh.397).
[2] (Nəhcül-Bəlağə, hikmətli sözlər,374).
[3] (Məcməul-Bəyan,cild.2.səh,807).

əməldən uzaq olmalı, əmr və qadağan etdiyi şeydə ədalətli olmalı və insanlarla tollerantlıqla rəftar etməlidir.[1]

عن ابی عبد الله (ع): إنما يأمر با المعروف و ينهى عن المنكر من كانت فيه ثلاث خصال عالم بما يأمر به تارک لما ينهى عنه عادل فيما يأمر عادل فيما ينهى رفيق فيما يأمر رفيق فيما ينهى

## Yaxşılığa dəvət etməyin təsiri

İmam Məhəmməd Baqir (ə) buyurur: Yaxşılığa dəvət etmək vasitəsi ilə digər vacib əməllər möhkəmlənər, yollarda əmniyyət yaranar, qazanclar halal olar, əmlaklar sahiblərinə qaytarılar, yer abadlaşar, düşmənlərdən intiqam alınar və bütün işlər islah olar.[2]

قال الباقر (ع): ...بها تقام الفرائض و تأمن المذاهب و تحلّ المكاسب و تردّ المظالم و تعمر الارض و ينتصف من الاعداء و يستقيم الامر

[1] (Vəsailuş-Şiə,cild.6.səh 403).
[2] (Vəsailuş-Şiə,cild.11.səh,395).

# TƏVƏLLA VƏ TƏBƏRRA

Allah dostları ilə dost olmaq təvəlla, Allah düşmənləri ilə düşmən olmaq isə təbərra adlanır.

## Quranda təvəlla

### Allah, peyğəmbər və imamlardan itaət olunmasına əmr

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ فَإِنْ تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللَّهِ وَالرَّسُولِ إِنْ كُنْتُمْ تُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ ذَٰلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلًا

Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.[1]

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَلَا تُبْطِلُوا أَعْمَالَكُمْ

Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və (şəkk-şübhə, riya, küfr və nifaq kimi şeylərlə) əməllərinizi puça çıxartmayın![2]

### Pak imamlarla (ə) dostluq edib, onlara tabe olmaq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَكُونُوا مَعَ الصَّادِقِينَ

Ey iman gətirənlər! Allahdan qorxun və (imanında, sözündə, işində) doğru olanlarla olun! (Peyğəmbər və onun sadiq səhabələri ilə birlikdə olun!)[3]

---

[1] (Nisa, 59).
[2] (Muhəmməd, 33).
[3] (Tövbə, 119).

## Allahın iman əhli üzərində rəhbərliyi

اللَّهُ وَلِيُّ الَّذِينَ آمَنُوا يُخْرِجُهُمْ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ وَالَّذِينَ كَفَرُوا أَوْلِيَاؤُهُمُ الطَّاغُوتُ يُخْرِجُونَهُمْ مِنَ النُّورِ إِلَى الظُّلُمَاتِ أُولَٰئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ

Allah (Ona) iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə Tağutdur (şeytanlardır). Onları (kafirləri) nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar![1]

## Allah, peyğəmbər və imamların möminlərə rəhbər olması

إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər.[2]

## Peyğəmbərin (s) insanlara özlərindən daha yaxın olması

النَّبِيُّ أَوْلَىٰ بِالْمُؤْمِنِينَ مِنْ أَنْفُسِهِم

Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. (Möminlər peyğəmbəri özlərindən çox sevməli, onun hər bir əmrini sözsüz yerinə yetirməlidirlər).[3]

## Möminlər bir-biri ilə dostdur

وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بَعْضُهُمْ أَوْلِيَاءُ بَعْضٍ

Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (hayandırlar).[4]

[1] (Bəqərə, 257).
[2] (Maidə, 55).
[3] (Əhzab, 6).
[4] (Tövbə, 71).

# Quranda təbərra

## Allah müşriklərdən üz döndərir

بَرَاءَةٌ مِنَ اللَّهِ وَرَسُولِهِ إِلَى الَّذِينَ عَاهَدْتُمْ مِنَ الْمُشْرِكِينَفَسِيحُوا فِي الْأَرْضِ أَرْبَعَةَ أَشْهُرٍ
وَاعْلَمُوا أَنَّكُمْ غَيْرُ مُعْجِزِي اللَّهِ وَأَنَّ اللَّهَ مُخْزِي الْكَافِرِينَوَأَذَانٌ مِنَ اللَّهِ وَرَسُولِهِ إِلَى النَّاسِ
يَوْمَ الْحَجِّ الْأَكْبَرِ أَنَّ اللَّهَ بَرِيءٌ مِنَ الْمُشْرِكِينَ وَرَسُولُهُ فَإِنْ تُبْتُمْ فَهُوَ خَيْرٌ لَكُمْ وَإِنْ تَوَلَّيْتُمْ
فَاعْلَمُوا أَنَّكُمْ غَيْرُ مُعْجِزِي اللَّهِ وَبَشِّرِ الَّذِينَ كَفَرُوا بِعَذَابٍ أَلِيمٍ

Allahdan və Onun Peyğəmbərindən saziş bağladığımız müşriklərə (onlarla olan əhdlərinin pozulması, əlaqələrin kəsilməsi barədə) bir xəbərdarlıq! (Ey müşriklər!) Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz (Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz). Allah kafirləri (dünyada və axirətdə) rüsvay edəcəkdir! Allahdan və Onun Peyğəmbərindən böyük həcc günü (zülhiccə ayında vacib, fərz olan həcc; qurban bayramı və ya Ərəfə günü) insanlara bir bildiriş! Allahın və Onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur. Əgər (küfrdən və şirkdən) tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Əgər (imandan) üz döndərsəniz, bilin ki, Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz. (Ey Peyğəmbərim!) Kafir olanları şiddətli bir əzabla müjdələ![1]

## Allah-taala, onun düşmənləri ilə dostluq etməyi qadağan edir

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَتَّخِذُوا الْكَافِرِينَ أَوْلِيَاءَ مِنْ دُونِ الْمُؤْمِنِينَ أَتُرِيدُونَ أَنْ تَجْعَلُوا لِلَّهِ
عَلَيْكُمْ سُلْطَانًا مُبِينًا

[1] (Tövbə, 1-3).

Ey iman gətirənlər! Möminləri qoyub kafirləri dost tutmayın! Məgər Allaha öz əleyhinizə açıq bir dəlilmi vermək istəyirsiniz?[1]

## Möminlər sirlərini məhrəm olmayanlarla bölüşməli deyil

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَتَّخِذُوا بِطَانَةً مِنْ دُونِكُمْ لَا يَأْلُونَكُمْ خَبَالًا وَدُّوا مَا عَنِتُّمْ قَدْ بَدَتِ الْبَغْضَاءُ مِنْ أَفْوَاهِهِمْ وَمَا تُخْفِي صُدُورُهُمْ أَكْبَرُ قَدْ بَيَّنَّا لَكُمُ الْآيَاتِ إِنْ كُنْتُمْ تَعْقِلُونَ

Ey iman gətirənlər! Özündən başqasını özünüzə sirdaş (dost) tutmayın. Onlar sizin barənizdə fitnə-fəsad törətməkdən əl çəkməzlər, sizin (zərərə və) əziyyətə düşməyinizi istəyirlər. Həqiqətən, onların sizə qarşı olan ədavəti ağızlarından çıxan sözlərdən aşkar olur. Amma ürəklərində gizlətdikləri (düşmənçilik) isə daha böyükdür. Əgər düşünüb dərk edirsinizsə, (onların sizə bəslədikləri ədavət barəsindəki) ayələri artıq sizə izah etdik.[2]

## Zalım insanlara etimad etmək olmaz

وَلَا تَرْكَنُوا إِلَى الَّذِينَ ظَلَمُوا فَتَمَسَّكُمُ النَّارُ وَمَا لَكُمْ مِنْ دُونِ اللهِ مِنْ أَوْلِيَاءَ ثُمَّ لَا تُنْصَرُونَ

Zülm edənlərə (rəğbət bəsləməklə, kömək göstərməklə) meyl etməyin, yoxsa sizə atəş toxunar (cəhənnəmlik olarsınız). Sizin Allahdan başqa dostunuz (himayədarınız) yoxdur. Sonra sizə (dünyada da, axirətdə də Onun əzabından heç bir) kömək olunmaz![3]

## Allah taala, həvayi nəfsinə aldanmış şəxsə itaət etməyi qadağan edir

وَلَا تُطِعْ مَنْ أَغْفَلْنَا قَلْبَهُ عَنْ ذِكْرِنَا وَاتَّبَعَ هَوَاهُ وَكَانَ أَمْرُهُ فُرُطًا

[1] (Nisa, 144).
[2] (Ali-İmran, 118).
[3] (Hud, 113).

Qəlbini Bizi (Quranı) xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və (hər) işində ifrata varan bir kimsəyə itaət etmə![1]

### İkiüzlü insan və kafirlərdən itaət etməyin qadağan olunması

وَلَا تُطِعِ الْكَافِرِينَ وَالْمُنَافِقِينَ وَدَعْ أَذَاهُمْ وَتَوَكَّلْ عَلَى اللَّهِ ۚ وَكَفَىٰ بِاللَّهِ وَكِيلًا

Kafirlərə və münafiqlərə itaət etmə. Onların (sənə olan) əziyyətlərinə əhəmiyyət vermə, Allaha bel bağla. Allahın sənə vəkil olması kifayət edər.[2]

### Allah taala yalançı insanlarla dostluq edib, onlara itaət etməyi qadağan edir

فَلَا تُطِعِ الْمُكَذِّبِينَوَدُّوا لَوْ تُدْهِنُ فَيُدْهِنُونَ

Elə isə (ya Peyğəmbər! Allahın ayələrini) yalan sayanlara itaət etmə! (Müşriklər) istərdilər ki, sən onlara yumşaqlıq göstərəsən, onlar da sənə yumşaqlıq göstərsinlər! (Sən onların bütləri barəsində pis söz deməyəsən, onlar da sənə əziyyət verməsinlər və ya sən onların bütlərinə tapınasan, onlar da sənin Allahına ibadət etsinlər!)[3]

### Allah, həddi aşanlardan itaət etməyi qadağan edir

وَلَا تُطِيعُوا أَمْرَ الْمُسْرِفِينَ

Həddi aşanların əmrinə tabe olmayın.[4]

### Fitnə-fəsad törədənlərə tabe olmaq olmaz

[1] (Kəhf, 28).
[2] (Əhzab, 48).
[3] (Qələm, 8-9).
[4] (Şüəra, 151).

وَوَاعَدْنَا مُوسَىٰ ثَلَاثِينَ لَيْلَةً وَأَتْمَمْنَاهَا بِعَشْرٍ فَتَمَّ مِيقَاتُ رَبِّهِ أَرْبَعِينَ لَيْلَةً ۚ وَقَالَ مُوسَىٰ لِأَخِيهِ هَارُونَ اخْلُفْنِي فِي قَوْمِي وَأَصْلِحْ وَلَا تَتَّبِعْ سَبِيلَ الْمُفْسِدِينَ

Musa ilə otuz gecə (oruc tutub dua edəcəyi, bunun müqabilində ona Tövratı nazil edəcəyimiz və özü ilə danışacağımız) barədə vədələşdik, sonra ona daha bir on gün də əlavə etdik. Beləliklə, Rəbbinin (ibadət üçün) təyin etdiyi müddət tam qırx gecə (gün) oldu. Musa qardaşı Haruna dedi: "Sən tayfam içində mənim xəlifəm ol, (camaatı) islah etməyə çalış və (yer üzündə) fitnə-fəsad törədənlərin yolu ilə getmə!"[1]

## Şeytanın yolu ilə getmək qadağan olunub

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَتَّبِعُوا خُطُوَاتِ الشَّيْطَانِ ۚ وَمَنْ يَتَّبِعْ خُطُوَاتِ الشَّيْطَانِ فَإِنَّهُ يَأْمُرُ بِالْفَحْشَاءِ وَالْمُنْكَرِ ۚ وَلَوْلَا فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ مَا زَكَىٰ مِنْكُمْ مِنْ أَحَدٍ أَبَدًا وَلَٰكِنَّ اللَّهَ يُزَكِّي مَنْ يَشَاءُ ۗ وَاللَّهُ سَمِيعٌ عَلِيمٌ

Ey iman gətirənlər! Şeytanın yolunu tutub getməyin! Kim şeytanın getdiyi yolla getsə, o, (insanlara) çirkin, pis işlər görməyi (zina etməyi, yalan danışmağı, özgələrə böhtan atmağı) əmr edər. Əgər Allahın sizə neməti və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt (günahdan) pak olmazdı. Lakin Allah dilədiyini (günahdan) pak edər. Allah (hər şeyi) eşidəndir, biləndir![2]

[1] (Əraf, 142).
[2] (Nur, 21).

(Müsəlmanları qətlə yetirən və onlara zərər vuran) Kafir və müşrikləri qətlə yetirmək

يَا أَيُّهَا النَّبِيُّ جَاهِدِ الْكُفَّارَ وَالْمُنَافِقِينَ وَاغْلُظْ عَلَيْهِمْ وَمَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ الْمَصِيرُ

Ya Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! (Kafirləri qılıncla, münafiqləri isə dəlil-sübutla, sözlə məhv et!) Onlarla sərt davran! Onların məskəni Cəhənnəmdir. Ora nə pis yerdir![1]

## Rəvayətlər baxımından təvəlla və təbərra

### Təvəlla və təbərranın əhəmiyyəti

İmam Sadiq (ə) buyurur: Allah dostları ilə dostluq edib, onlara tabe olmaq və Allah düşmənlərindən uzaq olub, onlarla düşmən olmaq vacibdir. [2]

قال الصادق (ع): حبّ اولياء الله واجب و الولاية لهم واجبة و البرائة منْ أعدائهم واجبة

### Təvəlla, islamın kökünü təşkil edən əməllərdəndir

İmam Sadiq (ə) buyurur: İslam beş sütun üzərində təşkil olub.O beş sütun, namaz, zəkat, oruc, həcc, Əli (ə) və onun övladlarının vilayətindən ibarətdir.[3]

قال الصادق (ع): بنى الاسلام على خمس على الصلوة و الزكوة و الصوم و الحج و ولاية أمير المؤمنين و الأئمة من ولده

### Təvəllanın savabı

İmam Səccad (ə) buyurur: Hər kim bizim qeybdə olan imamımızın zamanında biz Əhli-beytin sevgisinə sadiq qalsa, Allah ona Ühüd və Bədr döyüşündə iştirak edən min nəfərin savabını yazar.[4]

---

[1] (Tövbə, 73).
[2] (Mustədrəkul-Vəsail, cild.10.səh,446).
[3] (Usuli-Kafi, cild.3.səh,38).
[4] (Mustədrəkus-Səfinə, cild.10.səh.447).

قال السجاد (ع): منْ ثبت على ولايتنا فی غيبة قائمنا أعطاه الله أجر ألف شهيد مثل شهداء بدر و أُحد

Əbu-Həmzə Somali nəql edir ki, bir gün imam Muhəmməd Baqirin hüzurunda idim. O cənabdan soruşdum: Ey Peyğəmbər (ə) övladı! Əgər bir nəfər gündüzləri oruc tutur, gecələr isə ibadətlə məşğul olur, sədəqə verir və mən onun yalnız xeyirli işlər ilə məşğul olduğunu görürəm. Amma o, sizin İlahi rəhbərliyinizi qəbul etmir. İmam Baqir (ə) gülümsəyərək buyurdu: Əgər bəndə ömrünün sonuna kimi rükn və məqamda həmişə səcdə halında ola, amma bizim vilayətimizi tanımasa, bu ibadətin ona heç bir faydası olmaz. [1]

[1] (Camiul-Əhadisuş-Şiə).

# 3-cü Fəsil

# ƏXLAQİ MÖVZULARDA MOİZƏLƏR

## İSLAM ƏXLAQI

### Quran ayələrinə əsasən islam təlimlərinə uyğun olan davranışlar

#### 1- Pislik edən şəxsə, yaxşılıq etməklə cavab vermək

İslam tarixini mütaliə etsək, görərik ki, Peyğəmbər (s) və bütün məsum İmamlar (ə) heç vaxt pislik edənlərə dərhal sərt reaksiya verməyiblər. Onlar çalışıblar ki, həmin şəxslər ilə İslam əxlaqına uyğun şəkildə davransınlar. Tarixdə belə hadisələrə çox rast gəlmək olar. Burada o hadisələrdən birini qeyd etmək yerinə düşərdi. Belə ki, Peyğəmbər (s) məscidə namaz qılmağa gedərkən yəhudi dininə mənsub olan bir qadın, hər dəfə o həzrətə (s) hörmətsizlik edər, peyğəmbər (s) o qadının evinin kənarından keçəndə o, evindən peyğəmbərin (s) üstünə zibil atar, o həzrəti təhqir etməyə çalışardı. Peyğəmbər (s) səbr edər və ona acı söz belə deməzdi. Günlərin bir günü həmin qadın xəstələnir. Peyğəmbər (s) bunu eşidəndə qadının evinə gedir. Qadın xəstə olduğuna görə yataqda idi. O, peyğəmbəri gördükdə narahat oldu və elə düşündü ki, peyğəmbər (s) onu danlamağa gəlib. Sonra başa düşdü ki, Peyğəmbər (s) xəstə ziyarətinə gəlib. Bunu başa düşən yəhudi qadın utandığından üzünü örtür. Peyğəmbərin (s) ona qarşı olan mərhəmətini dərk edir və İslam dinini qəbul edir.

Allah-taala Quranda buyurur:

وَالَّذِينَ صَبَرُوا ابْتِغَاءَ وَجْهِ رَبِّهِمْ وَأَقَامُوا الصَّلَاةَ وَأَنْفَقُوا مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلَانِيَةً وَيَدْرَءُونَ بِالْحَسَنَةِ السَّيِّئَةَ أُولَٰئِكَ لَهُمْ عُقْبَى الدَّارِ

O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbr edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər.[1]

ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ السَّيِّئَةَ نَحْنُ أَعْلَمُ بِمَا يَصِفُونَ

Sən pisliyi yaxşılıqla dəf et. Biz onların aid etdikləri sifətləri daha yaxşı bilirik.[2]

**2- Mənasız işlərdən uzaq olmaq**

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَالَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَوَالَّذِينَ هُمْ عَنِ اللَّغْوِ مُعْرِضُونَ

Möminlər, həqiqətən də, nicat tapmışlar; o kəslər ki, namazlarında mütidirlər, o kəslərdir ki, sözbazlıqdan qaçırlar.[3]

**3- Təvazökar olmaq və cahillərlə düzgün şəkildə davranmaq**

وَعِبَادُ الرَّحْمَٰنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا

Ər-Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara (xoşagəlməz) bir söz dedikdə: “Salam!”- deyərlər.[4]

**4- Başqalarının səhvlərinə göz yummaq və əsəbi kontrol etmək**

الَّذِينَ يُنْفِقُونَ فِي السَّرَّاءِ وَالضَّرَّاءِ وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللَّهُ يُحِبُّ الْمُحْسِنِينَ

O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da (mallarından Allah yolunda) xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir.[5]

---

[1] (Rəd, 22).
[2] (Muminun, 96).
[3] (Muminun, 1-3).
[4] (Furqan, 63).
[5] (Ali-İmran 134).

وَلَا يَأْتَلِ أُولُو الْفَضْلِ مِنْكُمْ وَالسَّعَةِ أَنْ يُؤْتُوا أُولِي الْقُرْبَىٰ وَالْمَسَاكِينَ وَالْمُهَاجِرِينَ فِي سَبِيلِ اللَّهِ وَلْيَعْفُوا وَلْيَصْفَحُوا أَلَا تُحِبُّونَ أَنْ يَغْفِرَ اللَّهُ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَحِيمٌ

Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə (heç)(bir)(şey) verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir.[1]

### 5- Ədalətli olmaq və ehtiyacı olanlara yardım etmək

إِنَّ اللَّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالْإِحْسَانِ وَإِيتَاءِ ذِي الْقُرْبَىٰ وَيَنْهَىٰ عَنِ الْفَحْشَاءِ وَالْمُنْكَرِ وَالْبَغْيِ يَعِظُكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ

Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara (haqqını) verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız.[2]

### 6- Allahın qəza-qədərinə razı qalmaq

وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِنَ الْخَوْفِ وَالْجُوعِ وَنَقْصٍ مِنَ الْأَمْوَالِ وَالْأَنْفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ الَّذِينَ إِذَا أَصَابَتْهُمْ مُصِيبَةٌ قَالُوا إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُون

Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"– deyirlər.[3]

[1] (Nur, 22).
[2] (Nəhl, 90).
[3] (Bəqərə, 155-156).

### 7- İnsanlar ilə yaxşı davranmaq

وَإِنَّكَ لَعَلَىٰ خُلُقٍ عَظِيمٍ

Həqiqətən də, sən böyük əxlaq sahibisən![1]

### 8- Əməlsiz nəsihətdən uzaqlaşmaq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لِمَ تَقُولُونَ مَا لَا تَفْعَلُونَ كَبُرَ مَقْتًا عِنْدَ اللَّهِ أَنْ تَقُولُوا مَا لَا تَفْعَلُونَ

Ey iman gətirənlər! Nə üçün siz etməyəcəyiniz şeyləri danışırsınız? Etməyəcəyiniz şeylərdən danışmağınız Allah tərəfindən böyük nifrətlə qarşılanır.[2]

### 9- Özünü tərifləməkdən çəkinmək

الَّذِينَ يَجْتَنِبُونَ كَبَائِرَ الْإِثْمِ وَالْفَوَاحِشَ إِلَّا اللَّمَمَ إِنَّ رَبَّكَ وَاسِعُ الْمَغْفِرَةِ هُوَ أَعْلَمُ بِكُمْ إِذْ أَنْشَأَكُمْ مِنَ الْأَرْضِ وَإِذْ أَنْتُمْ أَجِنَّةٌ فِي بُطُونِ أُمَّهَاتِكُمْ فَلَا تُزَكُّوا أَنْفُسَكُمْ هُوَ أَعْلَمُ بِمَنِ اتَّقَىٰ

Onlar kiçik günahlar istisna olmaqla, böyük günahlardan və iyrənc əməllərdən çəkinirlər. Həqiqətən, sənin Rəbbin geniş məğfirət sahibidir. O, sizi torpaqdan yaradanda da, siz analarınızın bətnində rüşeym halında olanda da sizi yaxşı tanıyırdı. Özünüzü təmizə çıxartmayın! Çünki O, kimin (Allahdan) qorxduğunu yaxşı bilir.[3]

## Rəvayətlər baxımından İslam təlimlərinə uyğun olan davranış

### Yaxşı davranış imanın kamillik nişanəsidir

İmam Baqir (ə) buyurur: Möminlərin ən imanlısı o kəsdir ki, əxlaq və davranışı yaxşı olsun.[4]

---

[1] (Qələm, 4).
[2] (Səff, 2-3).
[3] (Nəcm, 32).
[4] (Usuli-Kafi,cild.2.səh.99).

### Yaxşı əxlaqın əhəmiyyəti

Peyğəmbər (s) buyurur: Qiyamət günü heç bir əməl yaxşı əxlaqdan ağır (dəyərli) olan deyil.[1]

### Gözəl davranış bütün yaxşılıqların açarıdır

İmam Əli (ə) buyurur: Yaxşı davranış bütün yaxşı işlərin əsasıdır.[2]

### Gözəl əxlaqın əlaməti

İmam Əli (ə) buyurur: Gözəl əxlaq üç əməl vasitəsi ilə kamilləşər. Günahlardan uzaqlaşmaq, halal ruzi qazanmaq və ailə üçün lazımi məişət şəraitini yaratmaq.[3]

### Hər nə qədər əxlaqımız yaxşı olsa, bir o qədər də peyğəmbərə (s) oxşayarıq

Peyğəmbər (s) buyurur: İçərinizdən mənə daha çox oxşayan, ən yaxşı əxlaqa malik olanınızdır.[4]

### Pis davranışlı olmağın ziyanı

İmam Əli (ə) buyurur: Əxlaqı pis olanın qulağına azan oxuyun. (Yəni əxlaqı pis olan şəxs həqiqi müsəlman deyil).[5]

## Yaxşı əxlaqın insana olan müsbət təsirləri

### a) Ruhi aramlıq

İmam Huseyn (ə): Həyatda gözəl əxlaqdan yaxşı ruhi ləzzət yoxdur.[6]

### b) Yaxşı əxlaqlı olmaq, dostların çoxalmasına səbəb olar

[1] (Biharul-Ənvar, cild.71.səh.383).
[2] (Ğurərul-Hikəm.hədis.4857).
[3] (Biharul-Ənvar, cild.71.səh.394).
[4] (Biharul-Ənvar, cild.71.səh.387).
[5] (Biharul-Ənvar, cild.62.səh.277).
[6] (Usuli-Kafi.cild,2.səh.57).

Peyğəmbər (s) buyurur: Yaxşı davranış dostluğu möhkəmləndirər, kini aradan qaldırar və insanın üzünü gözəlləşdirər.[1]

**c) Gözəl əxlaq günahları məhv edər**

Peyğəmbər (s) buyurur: Günəş buzu əritdiyi kimi, gözəl əxlaq da günahları məhv edər.[2]

**d) Gözəl əxlaq, ruzinin artmasına səbəb olar**

Peyğəmbər (s) buyurur: Gözəl əxlaq dini təlimlərdəndir və ruzinin artmasına səbəb olar.[3]

**e) Gözəl əxlaqlı davranış, şəhərlərin abadlaşması və ömrün uzanmasına səbəb olar**

İmam Huseyn (ə) buyurur: Gözəl əxlaq şəhərlərin abadlaşması və ömrün uzanmasına səbəb olar.[4]

---

[1] (Biharul-Ənvar, cild.77.səh.148).
[2] (Uyunu-Əxbari Riza, cild.2.səh,37).
[3] (Tuhfəl-Uqul.səh,275).
[4] (Usuli-Kafi,cild.2.səh,100).

# İSLAMA UYĞUN OLMAYAN DAVRANIŞ

## Quran ayələrinə əsasən qeyri İslami davranış - istehza

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا يَسْخَرْ قَوْمٌ مِنْ قَوْمٍ عَسَىٰ أَنْ يَكُونُوا خَيْرًا مِنْهُمْ وَلَا نِسَاءٌ مِنْ نِسَاءٍ عَسَىٰ أَنْ يَكُنَّ خَيْرًا مِنْهُنَّ وَلَا تَلْمِزُوا أَنْفُسَكُمْ وَلَا تَنَابَزُوا بِالْأَلْقَابِ بِئْسَ الِاسْمُ الْفُسُوقُ بَعْدَ الْإِيمَانِ وَمَنْ لَمْ يَتُبْ فَأُولَٰئِكَ هُمُ الظَّالِمُونَ

Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları (lağa qoymasınlar). Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fəsadçı adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır.[1]

## Başqalarında eyb axtarmaq

وَلَا تَلْمِزُوا أَنْفُسَكُمْ وَلَا تَنَابَزُوا بِالْأَلْقَابِ

Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın.[2]

## Casusluq, qeybət etmək və bir-birinə qarşı bədgümanlı olmaq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ وَلَا تَجَسَّسُوا وَلَا يَغْتَبْ بَعْضُكُمْ بَعْضًا أَيُحِبُّ أَحَدُكُمْ أَنْ يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ تَوَّابٌ رَحِيمٌ

Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz

[1] (Hucurat, 11).
[2] (Hucurat, 11).

ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir.[1]

### Böhtan atmaq

وَالَّذِينَ يُؤْذُونَ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ بِغَيْرِ مَا اكْتَسَبُوا فَقَدِ احْتَمَلُوا بُهْتَانًا وَإِثْمًا مُبِينًا

Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üstünə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər.[2]

## Sələm

الَّذِينَ يَأْكُلُونَ الرِّبَا لَا يَقُومُونَ إِلَّا كَمَا يَقُومُ الَّذِي يَتَخَبَّطُهُ الشَّيْطَانُ مِنَ الْمَسِّ ذَٰلِكَ بِأَنَّهُمْ قَالُوا إِنَّمَا الْبَيْعُ مِثْلُ الرِّبَا وَأَحَلَّ اللَّهُ الْبَيْعَ وَحَرَّمَ الرِّبَا......

Sələm yeyənlər (qəbirlərindən) şeytan toxunub dəli eləmiş kimsənin qalxdığı kimi qalxarlar. Bu onların: "Alış-veriş də sələmçilik kimidir!"–demələrinə görədir. Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir.....[3]

## Təkəbbür

وَلَا تُصَعِّرْ خَدَّكَ لِلنَّاسِ وَلَا تَمْشِ فِي الْأَرْضِ مَرَحًا إِنَّ اللَّهَ لَا يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ

İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir.[4]

---

[1] (Hucurat, 12).
[2] (Əhzab, 58).
[3] (Bəqərə 275)
[4] (Loğman, 18).

### Həsəd

أَمْ يَحْسُدُونَ النَّاسَ عَلَىٰ مَا آتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ فَقَدْ آتَيْنَا آلَ إِبْرَاهِيمَ الْكِتَابَ وَالْحِكْمَةَ وَآتَيْنَاهُمْ مُلْكًا عَظِيمًا

Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar? Biz İbrahimin nəslinə də Kitab və hikmət bəxş etmiş və onlara böyük bir səltənət vermişdik.[1]

## Yalan danışmaq

إِنَّمَا يَفْتَرِي الْكَذِبَ الَّذِينَ لَا يُؤْمِنُونَ بِآيَاتِ اللَّهِ وَأُولَٰئِكَ هُمُ الْكَاذِبُونَ

Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Məhz onlardır yalançılar.[2]

### Xəyanət etmək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَخُونُوا اللَّهَ وَالرَّسُولَ وَتَخُونُوا أَمَانَاتِكُمْ وَأَنْتُمْ تَعْلَمُونَ

Ey iman gətirənlər! Allaha və Elçisinə xəyanətkarlıq göstərməyin və bilə-bilə aranızdakı əmanətlərə də qəsd etməyin.[3]

### Xəsislik

وَلَا يَحْسَبَنَّ الَّذِينَ يَبْخَلُونَ بِمَا آتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ هُوَ خَيْرًا لَهُمْ بَلْ هُوَ شَرٌّ لَهُمْ سَيُطَوَّقُونَ مَا بَخِلُوا بِهِ
يَوْمَ الْقِيَامَةِ وَلِلَّهِ مِيرَاثُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ

Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edənlər elə güman etməsinlər ki, bu, onların xeyrinədir. Əksinə, bu, onlar üçün pisdir. Onların

[1] (Nisa, 54).
[2] (Nəhl, 105).
[3] (Ənfal, 27).

xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiklərinizdən xəbərdardır.[1]

## Sədəqə verərən minnət qoymaq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تُبْطِلُوا صَدَقَاتِكُمْ بِالْمَنِّ وَالْأَذَىٰ كَالَّذِي يُنْفِقُ مَالَهُ رِئَاءَ النَّاسِ وَلَا يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَمَثَلُهُ كَمَثَلِ صَفْوَانٍ عَلَيْهِ تُرَابٌ فَأَصَابَهُ وَابِلٌ فَتَرَكَهُ صَلْدًا لَا يَقْدِرُونَ عَلَىٰ شَيْءٍ مِمَّا كَسَبُوا وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz.[2]

## Bəyənilməyən əxlaq haqqında olan rəvayətlər

### Əxlaqı pis olanın tövbəsi qəbul olmaz

Peyğəmbər (s) buyurur: Ey Əli! Pis əxlaqdan başqa hər bir günahın tövbəsi var. Çünki pis əxlaqlı şəxs bir günahdan çıxır və başqa bir günah işlədir.[3]

### Yaxşı əxlaqa malik olmayan şəxsin həyatı sıxıntılı və darıxdırıcı olar

İmam Əli (ə) buyurur: Pis əxlaqlı olmaq, səbəb olar ki, insanın yaşayışı darıxdırıcı və çətin olsun. (Ğurərul-Hikəm).

### İman və əməlin məhv olması

[1] (Ali-İmran, 180).
[2] (Bəqərə, 264).
[3] (Biharul-Ənvar, cild.74.səh.48).

Peyğəmbər (s) buyurur: Sirkə balı xarab etdiyi kimi, pis əxlaq da insanın (yaxşı) əməlini məhv edir.[1]

### Daimi narahatçılıq

İmam Əlidən (ə) soruşdular: Hansı şəxsdir ki, daim qəm-qüssədə olar? Həzrət (ə) buyurdu: İnsanlarla pis rəftar edən şəxs daim qəm-qüssə içində olar.[2]

### İnsanlardan uzaq olmaq

İmam Əli (ə) buyurur: Pis əxlaqlı olmaq insana yaxın olanları qorxuya salar, yadları isə uzaqlaşdırar.[3]

### Pis əxlaq, qəbr əzabına səbəb olar

Peyğəmbər (s) yaxın silahdaşlarından olan Səd İbni Məazı dəfn edəndə buyurur: Qəbr əzabı onu (Məazı) sıxır. Peyğəmbərdən (s) soruşdular: Ey Allah Rəsulu! Bu əzabın səbəbi nədir? Həzrət (s) buyurdu: O, (Məaz) ailəsi ilə pis rəftar edirdi.[4]

## Quran ayələrinə əsasən müsbət əxlaqi xüsusiyyətlərin insana olan təsiri

### Namaz insanı günahdan uzaqlaşdırar

اتْلُ مَا أُوحِيَ إِلَيْكَ مِنَ الْكِتَابِ وَأَقِمِ الصَّلَاةَ إِنَّ الصَّلَاةَ تَنْهَىٰ عَنِ الْفَحْشَاءِ وَالْمُنْكَرِ وَلَذِكْرُ اللَّهِ أَكْبَرُ وَاللَّهُ يَعْلَمُ مَا تَصْنَعُونَ

[1] (Biharul-Ənvar, cild.73.səh.297).
[2] (Müstədrəkul-Vəsail.cild,3.səh,327).
[3] (Ğurərul-Hikəm).
[4] (Əmali.səh.315).

Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə (ibadətlərin) ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir.[1]

### Oruc tutmaq insanda təqvanın (Allah qorxusu) yaranmasına səbəb olar

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz.[2]

### Zəkat vermək səbəb olar ki, insan dünya bağlılığından xilas olsun

خُذْ مِنْ أَمْوَالِهِمْ صَدَقَةً تُطَهِّرُهُمْ وَتُزَكِّيهِمْ بِهَا وَصَلِّ عَلَيْهِمْ إِنَّ صَلَاتَكَ سَكَنٌ لَهُمْ وَاللَّهُ سَمِيعٌ عَلِيمٌ

Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan. Onlar üçün dua et. Çünki sənin duan onlar üçün bir təskinlikdir. Allah Eşidəndir, Biləndir.[3]

### Xalis tövbə etmək, günahların məhv olmasına səbəb olar

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللَّهِ تَوْبَةً نَصُوحًا عَسَىٰ رَبُّكُمْ أَنْ يُكَفِّرَ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَيُدْخِلَكُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ يَوْمَ لَا يُخْزِي اللَّهُ النَّبِيَّ وَالَّذِينَ آمَنُوا مَعَهُ نُورُهُمْ يَسْعَىٰ بَيْنَ أَيْدِيهِمْ وَبِأَيْمَانِهِمْ يَقُولُونَ رَبَّنَا أَتْمِمْ لَنَا نُورَنَا وَاغْفِرْ لَنَا إِنَّكَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

Ey iman gətirənlər! Allaha səmimi olaraq tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızdan keçsin və sizi, Allah o Peyğəmbəri və onunla birlikdə iman gətirənləri utandırmayacağı gündə, (ağacları) altından çaylar axan Cənnət

---

[1] (Ənkəbut, 45).
[2] (Bəqərə, 183).
[3] (Tövbə, 103).

bağlarına daxil etsin. Onların nuru önlərindən və sağ tərəflərindən ətrafa yayılacaqdır. Onlar deyəcəklər: "Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamamla və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!"[1]

### Ehtiyacı olana borc pul verən şəxs, Allahın məğfirətinə nail olar

إِنْ تُقْرِضُوا اللَّهَ قَرْضًا حَسَنًا يُضَاعِفْهُ لَكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ شَكُورٌ حَلِيمٌ

Əgər Allaha gözəl bir borc versəniz (malınızı Onun yolunda xərcləsəniz), O bunu sizin üçün qat-qat artırar və sizi bağışlayar. Allah şükürün əvəzini verəndir, Həlimdir.[2]

### Peyğəmbərin (s) göstərişlərinə əməl edən şəxs, Allahın sevimlisi olar

قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللَّهُ غَفُورٌ رَحِيمٌ

De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir".[3]

### Allaha imanı olub, yaxşı işlərlə məşğul olan, insanlar içərisində sevilər

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ سَيَجْعَلُ لَهُمُ الرَّحْمَٰنُ وُدًّا

İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman (qəlblərdə) bir sevgi yaradacaq.[4]

---

[1] (Təhrim, 8).
[2] (Təğabun, 17).
[3] (Ali-İmran, 31).
[4] (Məryəm, 96).

### Qiyaməti yada salmaq insanda ixlasın çoxalmasına səbəb olar

إِنَّا أَخْلَصْنَاهُمْ بِخَالِصَةٍ ذِكْرَى الدَّارِ

Biz onları Axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik.[1]

### Allaha şükr etmək, nemətin artmasına səbəb olar

وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِنْ شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ وَلَئِنْ كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ

O zaman Rəbbiniz bildirmişdi: “Əgər şükür etsəniz, sizə (olan nemətimi) artıraram, yox əgər nankorluq etsəniz, (bilin ki,) Mənim əzabım şiddətlidir”.[2]

### Allahı daim yada salmaq, insana aramlıq bəxş edər

الَّذِينَ آمَنُوا وَتَطْمَئِنُّ قُلُوبُهُمْ بِذِكْرِ اللهِ أَلَا بِذِكْرِ اللهِ تَطْمَئِنُّ الْقُلُوبُ

Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır.[3]

## Peyğəmbər (s) və İmamlardan (ə) nəql olunmuş hədislərə əsasən, müsbət əxlaqi xüsusiyyətlərin insana olan təsiri

### Qardaş və yaxınlarına yaxşılıq edənin ömrü uzanar

İmam Kazim (ə) buyurur: Qardaşlarına və ailəsinə xidmət edən və onlara ehsan verən şəxsin ömrü uzanar.[4]

---

[1] (Sad, 46).
[2] (İbrahim, 7).
[3] (Rəd, 28).
[4] (Müstədrəkul-Vəsail,cild.12.səh,421).

## Günahdan tövbə etməyin insana təsiri

İmam Əli (ə) buyurur: Tövbə etmək qəlbi saflaşdırar və günahın məhv olmasına səbəb olar.[1]

## Alimlərlə oturmağın insana təsiri

İmam Əli (ə) buyurur: Alimlərlə oturub-dur ki, elmin artsın, ədəbin yaxşılaşsın və nəfsin paklaşsın.[2]

## Nəfslə mübarizə aparmaq

İmam Əli (ə) buyurur: Nəfsi ilə mübarizə aparan şəxs, təqvanın kamilliyinə yetişər.[3]

## Səxavətli olmaq

İmam Əli (ə) buyurur: Səxavətli şəxs dünyada tərifə layiq görülər, axirət aləmində isə səadətə yetişər.[4]

## Ölümü yada salmağın insana faydası

Peyğəmbər (s) buyurur: Ölümü çox yada salan şəxs, Allahın sevimlisinə çevrilər.[5]

## Möminin ehtiyacını qarşılamaq

[1] (Ğurərul-Hikəm,hədis.1355).
[2] (Ğurərul-Hikəm, hədis,4786).
[3] (Ğurərul-Hikəm,hədis 7751).
[4] (Ğurərul-Hikəm,hədis,2152).
[5] (Usuli-Kafi,cild.2.səh,122).

Peyğəmbər (s) buyurur: Möminin ehtiyacını qarşılamaq üçün zəhmət çəkən, gündüzləri oruc tutub, gecələri isə namaz qılaraq Allaha 9 min il ibadət edən şəxs kimi hesab olar.[1]

## İxlaslı olmaq

İmam Əli (ə) buyurur: Əməllər ixlas vasitəsi ilə yüksələr.[2]

## Allahdan qorxmaq

Peyğəmbər (s) buyurur: Hər kim Allahdan qorxsa, hər bir şey ondan qorxar və hər kim Allahdan qorxmasa, Allah onu hər bir şeydən qorxudar.[3]

## İbadət və bəndəçiliyin insana təsiri

İmam Hüseyn (ə) buyurur: Hər kim Allaha ibadət etsə, bütün varlıqlar ona bəndə olar.[4]

## Mərifətlə namaz qılmağın insana təsiri

İmam Əli (ə) buyurur: Hər kim mərifətlə namaz qılsa, Allah onun günahlarını əfv edər.[5]

## Oruc tutmaq

Peyğəmbər (s) buyurur: Oruc tutmaq insana hikmət bəxş edər, hikmətin vasitəsi ilə isə, mərifət tapar, mərifət isə insanda yəqinin əmələ gəlməsinə səbəb olar. İnsan yəqin həddinə yetişsə, dünya həyatının onun üçün çətin və ya dar olmasından qorxmaz.[6]

---

[1] (Biharul-Ənvar, cild.74.səh.315).
[2] (Ğurərul-Hikəm,hədis.4242).
[3] (Biharul-Ənvar, cild.717 səh.50).
[4] (Tənbihul-Xəvatir.cild,2.səh,108).
[5] (Əl-Xisal,səh.628).
[6] (Biharul-Ənvar, cild.77.səh.27).

İnsanlar barədə yaxşı fikirdə olmaq

İmam Əli (ə) buyurur: İnsanlara qarşı xoşfikirli olan şəxs, onların sevgisini qazanar.[1]

Dünyaya meyilsizlik və ona ürək bağlamamaq

Peyğəmbər (s) buyurur: Dünyaya tamahı olmayan şəxsə, problemlər sadə görsənər.[2]

## Quran baxımından pis xüsusiyyət və əməllərin insana təsiri

İnsan xəyanət etməklə, Allahın sevgisindən məhrum qalar

وَإِمَّا تَخَافَنَّ مِنْ قَوْمٍ خِيَانَةً فَانْبِذْ إِلَيْهِمْ عَلَىٰ سَوَاءٍ ۚ إِنَّ اللَّهَ لَا يُحِبُّ الْخَائِنِينَ

Əgər bir qövmün (əhdi pozacağı ilə) xəyanət etməsindən qorxsan, (döyüş zamanı) sən də onlara onu pozduğunu bildir. Şübhəsiz ki, Allah xainləri sevmir.[3]

Zülm etmək

وَتِلْكَ الْقُرَىٰ أَهْلَكْنَاهُمْ لَمَّا ظَلَمُوا وَجَعَلْنَا لِمَهْلِكِهِمْ مَوْعِدًا

(Budur) haqsızlıq etdikləri zaman məhv etdiyimiz məmləkətlər. Biz onları məhv etmək üçün vaxt müəyyən etmişdik.[4]

Allaha qarşı yalan uydurmaq

[1] (Ğurərul-Hikəm,hədis,4823).
[2] (Biharul-Ənvar, cild.77.səh.94).
[3] (Ənfal, 58).
[4] (Kəhf, 59).

وَلَا تَقُولُوا لِمَا تَصِفُ أَلْسِنَتُكُمُ الْكَذِبَ هَٰذَا حَلَالٌ وَهَٰذَا حَرَامٌ لِتَفْتَرُوا عَلَى اللَّهِ الْكَذِبَ ۚ إِنَّ الَّذِينَ يَفْتَرُونَ عَلَى اللَّهِ الْكَذِبَ لَا يُفْلِحُونَ

Dilinizin uydurduğu yalana əsasən: "Bu halaldır, o haramdır!"– deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.[1]

### Küfr və nifaq

وَقَدْ نَزَّلَ عَلَيْكُمْ فِي الْكِتَابِ أَنْ إِذَا سَمِعْتُمْ آيَاتِ اللَّهِ يُكْفَرُ بِهَا وَيُسْتَهْزَأُ بِهَا فَلَا تَقْعُدُوا مَعَهُمْ حَتَّىٰ يَخُوضُوا فِي حَدِيثٍ غَيْرِهِ ۚ إِنَّكُمْ إِذًا مِثْلُهُمْ ۗ إِنَّ اللَّهَ جَامِعُ الْمُنَافِقِينَ وَالْكَافِرِينَ فِي جَهَنَّمَ جَمِيعًا

(Allah) Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, (günahkarlar) başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah bütün münafiqləri və kafirləri Cəhənnəmə toplayacaqdır.[2]

### Allah yolunda cihad etməyi tərk etmək

قُلْ لِلْمُخَلَّفِينَ مِنَ الْأَعْرَابِ سَتُدْعَوْنَ إِلَىٰ قَوْمٍ أُولِي بَأْسٍ شَدِيدٍ تُقَاتِلُونَهُمْ أَوْ يُسْلِمُونَ ۖ فَإِنْ تُطِيعُوا يُؤْتِكُمُ اللَّهُ أَجْرًا حَسَنًا ۖ وَإِنْ تَتَوَلَّوْا كَمَا تَوَلَّيْتُمْ مِنْ قَبْلُ يُعَذِّبْكُمْ عَذَابًا أَلِيمًا

Geri qalan bədəvilərə de: "Siz çox qüvvətli bir tayfaya qarşı (döyüşməyə) çağırılacaqsınız. Siz ya onlarla döyüşəcəksiniz, ya da onlar müsəlman olacaqlar. Əgər itaət etsəniz, Allah sizə gözəl bir mükafat verər. Yox, əgər daha əvvəl üz döndərdiyiniz kimi üz döndərsəniz, O sizə ağrılı-acılı bir əzab verər".[3]

---

[1] (Nəhl, 116).
[2] (Nisa, 140).
[3] (Fəth, 16).

### Təkəbbür və özündənrazı şəkildə yol getmək

وَلَا تُصَعِّرْ خَدَّكَ لِلنَّاسِ وَلَا تَمْشِ فِي الْأَرْضِ مَرَحًا إِنَّ اللَّهَ لَا يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ

İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir.[1]

### Dünyapərəstlik

فَأَمَّا مَنْ طَغَىٰ وَآثَرَ الْحَيَاةَ الدُّنْيَا فَإِنَّ الْجَحِيمَ هِيَ الْمَأْوَىٰ

Kim həddi aşmışsa, dünya həyatını (axirətdən) üstün bilmişsə, həqiqətən, Cəhənnəm onun sığınacağı olacaqdır.[2]

## Rəvayətlər baxımından pis xüsusiyyət və əməllərin insana təsiri

### Həddən artıq yemək

Peyğəmbər (s) buyurur: Çox yeməkdən çəkinin ki, cismin xəstəliyinə və ibadətdə halsızlığın yaranmasına səbəb olar.[3]

### Çox danışmağın təsiri

İmam Əli (ə) buyurur: Çox danışmaqdan çəkin ki, çox xəta edib, sənə qulaq asanları isə yorarsan.[4]

### Uzun-uzadı arzular

İmam Əli (ə) buyurur: Uzun-uzadı arzular səbəb olar ki, insan axirət aləmini yaddan çıxarsın.[5]

---

[1] (Loğman, 18).
[2] (Naziat, 37-39).
[3] (Biharul-Ənvar, cild.62.səh.266).
[4] (Ğurərul-Hikəm,hədis,2680).
[5] (Usuli-Kafi,cild.2.səh,335).

### Mənasız işlərlə məşğul olmaq

İmam Əli (ə) buyurur: Mənasız işlərlə məşğul olmaq, Allahın qəzəbi, şeytanın sevinməsi və Quranın unudulmasına səbəb olar.[1]

### Başqalarını danlamaq

İmam Əli (ə) buyurur: İnsanları çox danlama ki, kin-küdurət və düşmənçiliyin yaranmasına səbəb olar.[2]

## Zülmün insana olan təsiri

İmam Əli (ə) buyurur: Hər kim qılıncını zülm etmək üçün qaldırsa, həmin qılıncla öldürüləcək.[3]

### Böhtan atmaq

İmam Sadiq (ə) buyurur: Hər kim mömin qardaşına töhmət atsa, duzun suda aradan getdiyi kimi, onun imanı da qəlbindən yox olar.[4]

### Xəsislik

İmam Əli (ə) buyurur: Xəsislik ruzini artırmaz və insanı gözdən salar.[5]

---

[1] (Biharul-Ənvar, cild.78.səh.9).
[2] (Ğurərul-Hikəm, hədis.10214).
[3] (Nəhcus-Səadət, cild.1.səh,52).
[4] (Usuli-Kafi,cild.2.səh,361).
[5] (Ğurərul-Hikəm,hədis.1550).

Peyğəmbər (s) buyurur: Hər kim bir tikə haram yesə, onun namazı qırx gecə qəbul olmaz.[1]

### Həsəd və qısqanclıq

Peyğəmbər (s) buyurur: Həsəd və qısqanclıqdan çəkin ki, od odunu yandırdığı kimi, həsəd də yaxşı işlərin savabını aradan aparar.[2]

### Kin saxlamaq

İmam Həsən Əsgəri (ə): İnsanların içərisində ən çox narahatçılıq keçirən, kin saxlayan şəxsdir.[3]

### İnsanları təhqir etmək

İmam Sadiq (ə): Hər kim imanlı kişi və ya qadını onun kasıbçılıq və ya hər hansı bir çatışmazlığına görə təhqir etsə, Allah-taala qiyamət günü onu rüsvay edər.[4]

### Çox gülmək

Peyğəmbər (s) buyurur: Çox gülməkdən çəkinin ki, qəlbin məhv olmasına səbəb olar.[5]

### İmkanlı şəxsin qarşısında izzəti-nəfsi sındırmaq

İmam Əli (ə) buyurur: Hər kim imkanlı şəxsin sərvətinə görə onun qarşısında özünü sındırsa, dininin üçdə ikisi aradan gedər.[6]

### Vəzifə əldə etmək hərisliyi

İmam Sadiq (ə) buyurur: Hərisliklə hər hansı bir vəzifə və məqam əldə etməkdən çəkin ki, sonunda bu iş dalınca gedənlərin hamısı məhv olurlar.[7]

---

[1] (Kənzul-Ummal,hədis,9266).
[2] (Camiul-Əxbar,səh.451).
[3] (Tuhfəl-Uqul,səh.488).
[4] (Biharul-Ənvar,cild.72.səh.44).
[5] (Məanil-Əxbar,səh.335).
[6] (Nəhcül-Bəlağə, hikmətli sözlər, 227).
[7] (Məanil-Əxbar, səh.180).

# ALLAH ÖVLİYALARI

## Quranda Allah övliyaları

### Qurana görə Allah övliyaları aşağıda qeyd olunan xüsusiyyətlərə malik olmalıdır

### İman və təqva

أَلَا إِنَّ أَوْلِيَاءَ اللَّهِ لَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ الَّذِينَ آمَنُوا وَكَانُوا يَتَّقُونَ

Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və (Allahdan) qorxmuşlar.[1]

### Ölümdən qorxmazlar

قُلْ يَا أَيُّهَا الَّذِينَ هَادُوا إِنْ زَعَمْتُمْ أَنَّكُمْ أَوْلِيَاءُ لِلَّهِ مِنْ دُونِ النَّاسِ فَتَمَنَّوُا الْمَوْتَ إِنْ كُنْتُمْ صَادِقِينَ

De: "Ey yəhudilər! Əgər insanlar arasında ancaq özünüzün Allahın dostları olduğunuzu iddia edirsinizsə və doğru danışanlarsınızsa, onda ölüm diləyin!"[2]

### Dünyadakı maddiyyata ürək bağlamamalı

لِكَيْلَا تَأْسَوْا عَلَىٰ مَا فَاتَكُمْ وَلَا تَفْرَحُوا بِمَا آتَاكُمْ ۗ وَاللَّهُ لَا يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ

(Allah bunu) əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə (həddindən artıq) sevinməyəsiniz deyə (belə izah edir). Allah heç bir özündən razını, özünü öyəni sevmir.[3]

### Allah qarşısında ağlayaraq səcdə etməlidir

---

[1] (Yunus 62-63).
[2] (Cümə, 6).
[3] (Hədid, 23).

أُولَٰئِكَ الَّذِينَ أَنْعَمَ اللَّهُ عَلَيْهِمْ مِنَ النَّبِيِّينَ مِنْ ذُرِّيَّةِ آدَمَ وَمِمَّنْ حَمَلْنَا مَعَ نُوحٍ وَمِنْ ذُرِّيَّةِ إِبْرَاهِيمَ وَإِسْرَائِيلَ وَمِمَّنْ هَدَيْنَا وَاجْتَبَيْنَا ۚ إِذَا تُتْلَىٰ عَلَيْهِمْ آيَاتُ الرَّحْمَٰنِ خَرُّوا سُجَّدًا وَبُكِيًّا

Onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlərdən, Adəmin və Nuhla birlikdə (gəmidə) daşıdığımız kimsələrin nəslindən, İbrahimin və İsrailin nəslindən seçib haqq yola yönəltdiyimiz kimsələrdəndir. Onlar özlərinə ər-Rəhmanın ayələri oxunduğu zaman səcdəyə qapanıb ağlayanlardır.[1]

### Yaxşılıq edəndə qarşılığını gözləməməlidir

إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنْكُمْ جَزَاءً وَلَا شُكُورًا

(və deyərlər): "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik![2]

### Əhdə vəfa

مِنَ الْمُؤْمِنِينَ رِجَالٌ صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ ۖ فَمِنْهُمْ مَنْ قَضَىٰ نَحْبَهُ وَمِنْهُمْ مَنْ يَنْتَظِرُ ۖ وَمَا بَدَّلُوا تَبْدِيلًا

Möminlərin içərisində Allaha etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (əhdlərini) əsla dəyişdirməyiblər.[3]

### Cihad edib, şəhid olmağa meyilli olarlar

وَلَا عَلَى الَّذِينَ إِذَا مَا أَتَوْكَ لِتَحْمِلَهُمْ قُلْتَ لَا أَجِدُ مَا أَحْمِلُكُمْ عَلَيْهِ تَوَلَّوْا وَأَعْيُنُهُمْ تَفِيضُ مِنَ الدَّمْعِ حَزَنًا أَلَّا يَجِدُوا مَا يُنْفِقُونَ

Miniklə təmin edəsən deyə sənin yanına gəldikdə: "Sizin üçün minik tapa bilmirəm"– dediyin zaman (cihad üçün) xərcləməyə bir şey tapa

[1] (Məryəm, 58).
[2] (İnsan, 9).
[3] (Əhzab, 23).

bilmədiklərindən ötrü kədərlənib gözləri dolmuş halda geri dönənlərin də (heç bir günahı yoxdur).[1]

### Dünya və axirətdə qorxu və qəm onlardan uzaq olar

أَلَا إِنَّ أَوْلِيَاءَ اللَّهِ لَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər.[2]

وَقَالُوا الْحَمْدُ لِلَّهِ الَّذِي أَذْهَبَ عَنَّا الْحَزَنَ إِنَّ رَبَّنَا لَغَفُورٌ شَكُورٌ

Onlar deyəcəklər: “Qəm-qüssəni bizdən uzaq edən Allaha həmd olsun! Həqiqətən, Rəbbimiz Bağışlayandır, şükürün əvəzini verəndir.[3]

## Rəvayətlər baxımından Allah övliyalarının xüsusiyyətləri

### Allah övliyalarının xüsusiyyətləri

Peyğəmbər (s) buyurur: Allah dostları bu üç xüsusiyyətə malikdir. Hər bir şeydə Allaha güvənər, hər bir şeydən ehtiyacsız olmalı və hər bir şeydə özlərini Allaha möhtac bilməlidirlər. (Biharul-Ənvar,cild.100.səh.20).

Peyğəmbərdən (s) “ Allah dostları üçün qorxu yoxdur” cümləsinin kimlərə aid olduğunu soruşanda, o həzrət buyurdu: Onlar o kəslərdir ki, insanlar dünyanın zahirinə baxanda, onlar onun batininə baxar və insanlar dünya üçün çalışdıqları vaxt, onlar axirət üçün çalışar.[4]

### Allah övliyaları üçün heç bir qorxu və qəm-qüssə olmaz

İmam Sadiq (ə) buyurur: Ey Əbu-Bəsir! Qaimin qeybəti dövründə onun intizarını çəkən davamçılarının xoş halına ki, qeybət dövründə ona tabedirlər. Onlar Allah dostlarıdır, qorxu və qəm onlardan uzaqdır.[5]

---

[1] (Tövbə, 92).
[2] (Yunus, 62).
[3] (Fatir, 34).
[4] (Səfinətul-Bihar,cild.2.səh,69).
[5] (Nurus-Səqələyn, cild.2.səh,309).

# SALEH İNSANLAR

## Quran ayələrinə əsasən saleh insanların xüsusiyyətləri

### Allahın sifətlərindən biri, saleh işləri yerinə yetirməsidir

إِنَّا كُنَّا مِنْ قَبْلُ نَدْعُوهُ إِنَّهُ هُوَ الْبَرُّ الرَّحِيمُ

Biz əvvəllər Ona dua edirdik. Həqiqətən, O, yaxşılıq edəndir, Rəhmlidir!”[1]

### Saleh işlər imanla yanaşı olmalıdır

لَيْسَ الْبِرَّ أَنْ تُوَلُّوا وُجُوهَكُمْ قِبَلَ الْمَشْرِقِ وَالْمَغْرِبِ وَلَٰكِنَّ الْبِرَّ مَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَالْمَلَائِكَةِ وَالْكِتَابِ وَالنَّبِيِّينَ وَآتَى الْمَالَ عَلَىٰ حُبِّهِ ذَوِي الْقُرْبَىٰ وَالْيَتَامَىٰ وَالْمَسَاكِينَ وَابْنَ السَّبِيلِ وَالسَّائِلِينَ وَفِي الرِّقَابِ وَأَقَامَ الصَّلَاةَ وَآتَى الزَّكَاةَ وَالْمُوفُونَ بِعَهْدِهِمْ إِذَا عَاهَدُوا وَالصَّابِرِينَ فِي الْبَأْسَاءِ وَالضَّرَّاءِ وَحِينَ الْبَأْسِ أُولَٰئِكَ الَّذِينَ صَدَقُوا وَأُولَٰئِكَ هُمُ الْمُتَّقُونَ

Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl (sahibləri) Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbr edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır.[2]

وَلَيْسَ الْبِرُّ بِأَنْ تَأْتُوا الْبُيُوتَ مِنْ ظُهُورِهَا وَلَٰكِنَّ الْبِرَّ مَنِ اتَّقَىٰ وَأْتُوا الْبُيُوتَ مِنْ أَبْوَابِهَا وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ

[1] (Tur, 28).
[2] (Bəqərə, 177).

Evlərə arxa tərəfindən daxil olmağınız yaxşı əməl deyildir. Lakin yaxşı əməl (sahibi) Allahdan qorxan şəxsdir. Evlərə qapılarından daxil olun! Allahdan qorxun ki, bəlkə nicat tapasınız.[1]

### Əgər saleh insan olmaq istəyiriksə, gərək sevdiyimiz şeylərdən infaq edək

لَنْ تَنَالُوا الْبِرَّ حَتَّىٰ تُنْفِقُوا مِمَّا تُحِبُّونَ وَمَا تُنْفِقُوا مِنْ شَيْءٍ فَإِنَّ اللهَ بِهِ عَلِيمٌ

Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir.[2]

### Saleh insanların Allah dərgahındakı məqamı

إِنَّ الْأَبْرَارَ لَفِي نَعِيمٍ

Həqiqətən, itaətkarlar nemət içində olacaqlar.[3]

لَٰكِنِ الَّذِينَ اتَّقَوْا رَبَّهُمْ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا نُزُلًا مِنْ عِنْدِ اللهِ وَمَا عِنْدَ اللهِ خَيْرٌ لِلْأَبْرَارِ

Öz Rəbbindən qorxanları (ağacları) altından çaylar axan Cənnət bağları gözləyir ki, onlar orada əbədi qalacaqlar. (Bu,) Allahdan bir ziyafətdir. Allahın dərgahında olan (nemətlər) möminlər üçün daha xeyirlidir.[4]

إِنَّ الْأَبْرَارَ يَشْرَبُونَ مِنْ كَأْسٍ كَانَ مِزَاجُهَا كَافُورًا

Sözsüz ki, itaətkarlar kafur qatılmış (şərabla dolu) badələrdən nuş edəcəklər.[5]

---

[1] (Bəqərə, 189).
[2] (Ali-İmran 92).
[3] (İnfitar, 13).
[4] (Ali-İmran, 198).
[5] (İnsan, 5).

**Əql sahibləri dualarının qəbul olunması üçün, saleh insanları da öz dualarında xatırlayırlar**

رَبَّنَا إِنَّنَا سَمِعْنَا مُنَادِيًا يُنَادِي لِلْإِيمَانِ أَنْ آمِنُوا بِرَبِّكُمْ فَآمَنَّا رَبَّنَا فَاغْفِرْ لَنَا ذُنُوبَنَا وَكَفِّرْ عَنَّا سَيِّئَاتِنَا وَتَوَفَّنَا مَعَ الْأَبْرَارِ

Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!"– deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al![1]

**Allah-taala bizi saleh insan olmağımız üçün həvəsləndirir**

وَتَعَاوَنُوا عَلَى الْبِرِّ وَالتَّقْوَىٰ وَلَا تَعَاوَنُوا عَلَى الْإِثْمِ وَالْعُدْوَانِ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir.[2]

**Allah-taala başqalarını yaxşı işlərə dəvət edib, özünü unudanları pisləyir**

أَتَأْمُرُونَ النَّاسَ بِالْبِرِّ وَتَنْسَوْنَ أَنْفُسَكُمْ وَأَنْتُمْ تَتْلُونَ الْكِتَابَ أَفَلَا تَعْقِلُونَ

Siz Kitab oxuyub insanlara xeyirxahlığı əmr etdiyiniz halda, özünüz (bunu) unudursunuz? Məgər anlamır-sınız?[3]

**Ata-anaya yaxşılıq etmək, Allahın ən bəyəndiyi xüsusiyyətlərdən biridir**

---

[1] (Ali-İmran, 193).
[2] (Maidə, 2).
[3] (Bəqərə, 44).

يَا يَحْيَىٰ خُذِ الْكِتَابَ بِقُوَّةٍ وَآتَيْنَاهُ الْحُكْمَ صَبِيًّاوَحَنَانًا مِنْ لَدُنَّا وَزَكَاةً وَكَانَ تَقِيًّا وَبَرًّا بِوَالِدَيْهِ وَلَمْ يَكُنْ جَبَّارًا عَصِيًّا

"Ey Yəhya! Kitabdan möhkəm yapış!"(–) (deyə)(vəhy etdik.) Biz uşaq ikən ona hikmət bəxş etik. Üstəlik Öz tərəfimizdən bir şəfqət və paklıq da (bəxş etdik). O, müttəqi idi. Həm də ata-anasına qarşı qayğıkeş (idi); lovğa və asi deyildi.[1]

## Saleh insanların nişanələri

### a) Əhdə vəfalı olarlar

يُوفُونَ بِالنَّذْرِ

Onlar vəd etdikləri nəziri verər [2]

### b) Qiyamət günündən qorxarlar

وَيَخَافُونَ يَوْمًا كَانَ شَرُّهُ مُسْتَطِيرًا

və vəhşəti (hər yeri) sarsıdacaq Gündən qorxarlar.[3]

### c) Ac olanları doyuzdurarlar

وَيُطْعِمُونَ الطَّعَامَ عَلَىٰ حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا

Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər.[4]

### d) İxlaslı olarlar

إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنْكُمْ جَزَاءً وَلَا شُكُورًا

[1] (Məryəm, 12-14).
[2] (İnsan, 7).
[3] (İnsan, 7).
[4] (İnsan, 8).

(və deyərlər): “Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik![1]

e) Allahdan qorxarlar

إِنَّا نَخَافُ مِنْ رَبِّنَا يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا

Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!”[2]

## Rəvayətlərdə saleh insanlar

### Saleh əməllərin növləri

İmam Sadiq (ə) saleh əməllərin qismlərini açıqlayaraq buyurur: Zikr olunan beş xüsusiyyət saleh işlərdən hesab olur. Saleh işlər isə insanı behiştə aparır. (Bu beş əməl aşağıdakılardır):

a)Başımıza gələn müsibət və çətinlikləri gizlətmək, b)Sol əlin xəbəri olmadan, sağ əl ilə sədəqə vermək, c) Ata-anaya yaxşılıq etmək ki, onlara yaxşılıq etməklə, Allahı razı salmış olarıq, d)”Lə həvlə və la quvvətə illə billəh” cümləsini çox demək ki, bu zikr cənnət dəfinəsidir, e) Peyğəmbər və onun ailəsinə (ə) sevgi bəsləmək.[3]

İmam Əli (ə) buyurur: Yaxşılığın üç qapısı var: Səxavətli olmaq, xoş danışıq və əziyyətlər qarşısında səbirli olmaq.[4]

Peyğəmbər (s) buyurur: Dörd şeyi gizli saxlamaq saleh işlərin dəfinələrindən hesab olur. Ehtiyac və istəkləri, sədəqəni, dərd və müsibəti.[5]

## Kimlərə yaxşılıq etməliyik?

a) Ata-anaya

---

[1] (İnsan, 9).
[2] (İnsan, 10).
[3] (Biharul-Ənvar,cild.69.səh.390).
[4] (Biharul-Ənvar,cild.71.səh.89).
[5] (Biharul-Ənvar,cild.81.səh.208).

Mənsur ibni Hazim deyir ki, İmam Sadiqdən (ə) soruşdum ki, yaxşı işlərdən ən üstün hansı işdir? İmam (ə) cavab verdi: Namazları öz vaxtında qılmaq, ata-anaya yaxşılıq etmək və Allah yolunda cihad etmək.[1]

### b) Övladlara

Əli (ə) buyurur: Öz övladlarınıza yaxşılıq və ehsan edin.[2]

### c) Qonağa

Peyğəmbər (s) buyurur: Qonağa yaxşılıq etmək insanın böyüklük və kəramət nişanələrindəndir.[3]

### d) Ailəyə

İmam Sadiq (ə) buyurur: Öz ailəsinə ehsan edən şəxsin ruzisi bol olar.[4]

### e) Mömin qardaşlara

İmam Sadiq (ə) buyurur: Mömin qardaşlara ehsan etmək, xalis imanın əlamətlərindəndir.[5]

### f) Qohumlara

Peyğəmbər (s) buyurur: Qohumlara ehsan etmək insanın ömrünü uzadar.[6]

### h) Qonşuya

Peyğəmbər (s) buyurur: Allah rəhm etsin o şəxsə ki, öz qonşusuna ehsan edir.[7]

### q) Dosta

---

[1] (Biharul-Ənvar,cild.82.səh.226).
[2] (Biharul-Ənvar,cild.74.səh.77).
[3] (Biharul-Ənvar,cild.21.səh.376).
[4] (Biharul-Ənvar,cild.74.səh.104).
[5] (Biharul-Ənvar,cild.69.səh.159).
[6] (Biharul-Ənvar,cild.77.səh.172).
[7] (Biharul-Ənvar,cild.74.səh.65).

Peyğəmbər (s) buyurur: Allah öz dostuna yaxşılıqda kömək edən şəxsi öz rəhmətinə qərq etsin.[1]

## Ehsan edən şəxsin əlamətləri

Peyğəmbər (s) buyurur: Saleh əməl sahibinin on xüsusiyyəti var:

Saleh insan o insandır ki, onun sevgi, nifrət, dostluq, ayrılıq, qəzəb, razılıq, əməl, istək, qorxu və ehsanı yalnız Allaha xatir ola.[2]

### Allah yanında ən üstün ehsan

Peyğəmbər (s) buyurur: Hər bir yaxşılıqdan üstün, başqa bir yaxşılıqdı. Amma bütün yaxşılıqlardan daha üstün hesab olan, Allah yolunda şəhid olmaqdır ki, ondan üstün əməl yoxdur.[3]

[1] (Həmin mənbə).
[2] (Tuhfəl-Uqul,səh.21).
[3] (Biharul-Ənvar,cild.74.səh.61).

# DAVRANIŞ QAYDALARI

İslam dinində bir çox qayda-qanunlar var. Bu qaydalara riayət etmək, insanların kamil insan kimi yetişməsində böyük rol oynayır. Amma İslam dininin bizə olan əsas tapşırığı budur ki, insanlarla xoş davranaq. Peyğəmbərin (s) məşhur “Mən ən kamil əxlaqı tamamlamaq üçün peyğəmbərliyə seçildim“ cümləsi də bunu isbat edir. Aşağıda bəzi əxlaqi davranış qaydalarına işarə edirik.

## Quran ayələrinə əsasən davranış qaydaları

### Salam vermək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَدْخُلُوا بُيُوتًا غَيْرَ بُيُوتِكُمْ حَتَّىٰ تَسْتَأْنِسُوا وَتُسَلِّمُوا عَلَىٰ أَهْلِهَا ذَٰلِكُمْ خَيْرٌ لَكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ

Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə salam verмədən girməyin. Bu, sizin üçün daha yaxşıdır. Bəlkə, düşünüb ibrət alasınız.[1]

### İnsanlarla yaxşı davranıb, onlarla məsləhətləşmək

فَبِمَا رَحْمَةٍ مِنَ اللَّهِ لِنْتَ لَهُمْ وَلَوْ كُنْتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانْفَضُّوا مِنْ حَوْلِكَ فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِي الْأَمْرِ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللَّهِ إِنَّ اللَّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ

Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, (Allahdan) onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.[2]

---

[1] (Nur, 27).
[2] (Ali-İmran, 159).

### Salamın cavabını layiqli şəkildə qaytarmaq

وَإِذَا حُيِّيتُمْ بِتَحِيَّةٍ فَحَيُّوا بِأَحْسَنَ مِنْهَا أَوْ رُدُّوهَا ۗ إِنَّ اللَّهَ كَانَ عَلَىٰ كُلِّ شَيْءٍ حَسِيبًا

Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya (verilən salamı olduğu kimi) qaytarın! Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir.[1]

### Pislik edənə pislik etməklə deyil, bəlkə yaxşılıq etməklə cavab vermək

ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ السَّيِّئَةَ ۚ نَحْنُ أَعْلَمُ بِمَا يَصِفُونَ

Sən pisliyi yaxşılıqla dəf et. Biz onların aid etdikləri sifətləri daha yaxşı bilirik.[2]

### İnsanların səhvlərinə göz yummaq

الَّذِينَ يُنْفِقُونَ فِي السَّرَّاءِ وَالضَّرَّاءِ وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ ۗ وَاللَّهُ يُحِبُّ الْمُحْسِنِينَ

O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da (mallarından Allah yolunda) xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir.[3]

### İnsanlarla mülayim danışmaq

وَقُولُوا لِلنَّاسِ حُسْنًا

. . . Və insanlarla xoş danışın. . .[4]

### İnsanlara xidmət göstərmək

---

[1] (Nisa, 86).

[2] (Muminun, 96).

[3] (Ali-İmran, 134).

[4] (Bəqərə, 83).

وَابْتَغِ فِيمَا آتَاكَ اللَّهُ الدَّارَ الْآخِرَةَ ۖ وَلَا تَنْسَ نَصِيبَكَ مِنَ الدُّنْيَا ۖ وَأَحْسِنْ كَمَا أَحْسَنَ اللَّهُ إِلَيْكَ ۖ وَلَا تَبْغِ الْفَسَادَ فِي الْأَرْضِ ۖ إِنَّ اللَّهَ لَا يُحِبُّ الْمُفْسِدِينَ

Allahın sənə verdiyi ilə Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də (başqalarına) yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevmir”.[1]

## Rəvayət və hədislərə əsasən davranış qaydaları

### Salam vermək

Peyğəmbər (s) buyurur: İnsanlara uca salam verən şəxs, dünya və axirətdə ən üstün əxlaqa malik olan şəxsdir.[2]

### Başqalarına qarşı hörmət göstərmək

İmam Səccad (ə) Zuhriyə buyurur: Müsəlmanları öz ailəndən hesab et. Ona görə də onların böyüklərini atan, kiçiklərini övladın və eyni yaşda olanları da öz qardaşın hesab et. Belə olduğu halda onlardan hansı birinə zülm etməyə hazır olarsan?[3]

### İnsanların inancları haqda axtarış aparmamaq

İmam Sadiq (ə) buyurur: İnsanların din və inancları haqda axtarış aparma ki, dostsuz qalarsan.[4]

### Yaxşı davranmaq və insanlara yaxşılıq etmək

İmam Əli (ə) Muhəmməd Hənəfiyyəyə buyurur: Sənə bəyəndiyin şəkildə ehsan olunduğu kimi, insanlara da o cür ehsan et, özün üçün bəyəndiyin şeyi başqaları üçün də bəyən, özün üçün bəyənmədiyini başqaları üçün də bəyənmə, öz davranışını düzəlt ki, əgər insanların içərisindən getsən sənə tərəf gəlmək

[1] (Qəsəs, 77).
[2] (Biharul-Ənvar,cild.76.səh.11).
[3] (Biharul-Ənvar,cild.74.səh.156).
[4] (Biharul-Ənvar,cild.75.səh.253).

istəsinlər və dünyadan köçsən sənə ağlayaraq hamılıqla “İnnə lilləhi və innə iləyhi raciun” desinlər. Məbadə o kəslərdən olasan ki, öləndən sonra insanlar “ Şükür Allaha ki, öldü” desinlər.[1]

## Ayrılıq vaxtı məğfirət istəmək

İmam Sadiq (ə) buyurur: Görüşəndə bir-birinizə salam verin və ayrılanda Allahdan məğfirət tələb edin.[2]

## İnsanlarla keçinməyi bacarmaq

Peyğəmbər buyurur: Ən ağıllı şəxs o kəsdir ki, insanları yola verməyi bacara və ən zəlil şəxs o şəxsdir ki, insanlara tohin edə.[3]

## Gülərüzlü olmaq

İmam Əli (ə) buyurur: Qardaşlarınızla görüşəndə gülərüzlü və şadlığınızı aşkar edin.[4]

## İnsanların üzrünü qəbul etmək

İmam Səccad (ə) buyurur: Əgər bir nəfər sizə nalayiq söz deyib, bir müddətdən sonra sizdən üzr istəsə, onun üzrünü qəbul edin.[5]

---

[1] (Vəsailuş-Şiə,cild,8. səh,541).
[2] (Biharul-Ənvar,cild.76.səh.5).
[3] (Biharul-Ənvar,cild.75.səh.52).
[4] (Xisal,səh.633).
[5] (Biharul-Ənvar,cild.78.səh.141).

# Quran ayələrində oturmaq qaydaları

## Məclisdə başqalarına yer vermək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا قِيلَ لَكُمْ تَفَسَّحُوا فِي الْمَجَالِسِ فَافْسَحُوا يَفْسَحِ اللَّهُ لَكُمْ وَإِذَا قِيلَ انْشُزُوا فَانْشُزُوا
يَرْفَعِ اللَّهُ الَّذِينَ آمَنُوا مِنْكُمْ وَالَّذِينَ أُوتُوا الْعِلْمَ دَرَجَاتٍ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ

Ey iman gətirənlər! Sizə: “Məclislərdə yer verin!”– deyildikdə yer verin ki, Allah da sizə geniş yer versin. Habelə sizə: “Qalxın!”– deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah nə etdiklərinizdən xəbərdardır.[1]

## Zalım insanlarla bir yerdə oturmamaq

وَإِذَا رَأَيْتَ الَّذِينَ يَخُوضُونَ فِي آيَاتِنَا فَأَعْرِضْ عَنْهُمْ حَتَّىٰ يَخُوضُوا فِي حَدِيثٍ غَيْرِهِ وَإِمَّا يُنْسِيَنَّكَ الشَّيْطَانُ
فَلَا تَقْعُدْ بَعْدَ الذِّكْرَىٰ مَعَ الْقَوْمِ الظَّالِمِينَ

Ayələrimizi lağlağıya qoyanları gördüyün zaman, onlar başqa söhbətə keçənə qədər onlardan üz çevir. Əgər şeytan (bunu) sənə unutdursa, xatırladıqdan sonra zalım camaatla birgə oturma.[2]

## Rişxəndçilərlə oturmaqdan çəkinmək

وَقَدْ نَزَّلَ عَلَيْكُمْ فِي الْكِتَابِ أَنْ إِذَا سَمِعْتُمْ آيَاتِ اللَّهِ يُكْفَرُ بِهَا وَيُسْتَهْزَأُ بِهَا فَلَا تَقْعُدُوا مَعَهُمْ حَتَّىٰ
يَخُوضُوا فِي حَدِيثٍ غَيْرِهِ إِنَّكُمْ إِذًا مِثْلُهُمْ إِنَّ اللَّهَ جَامِعُ الْمُنَافِقِينَ وَالْكَافِرِينَ فِي جَهَنَّمَ جَمِيعًا

(Allah) Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, (günahkarlar) başqa bir söhbətə

---

[1] (Mucadilə, 11).
[2] (Ənam, 68).

keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah bütün münafiqləri və kafirləri Cəhənnəmə toplayacaqdır. [1]

## Rəvayətlər baxımından oturmaq qaydaları

### Qibləyə tərəf oturmaq

Peyğəmbər (s) buyurur: Hər bir şeyin özünəməxsus üstünlüyü var, məclislərin isə şərafətlisi odur ki, insan orada qibləyə tərəf otursun.[2]

### Məclisin ayağında oturmaq

Rəvayətlərdə nəql olunur ki, Peyğəmbər (s) məclisə daxil olduğu vaxt həmişə məclisin başında yox, ayağında əyləşərmiş.[3]

### Başqalarının yanında oturanda ayağımızı uzatmamaq

Tarixdə heç vaxt nəql olmayıb ki, Peyğəmbıər (s) hər hansısa bir məclisdə ayağını uzadaraq oturmuş olsun.[4]

### Məclisdə bir-birinin qulağına pıçıldamamaq

Peyğəmbər (s) buyurur: Məclisdə olduğun vaxt kiminsə qulağına pıçıldama.[5]

### Günah olan məclisdən uzaq olmaq

Peyğəmbər (s) buyurur: Allaha və qiyamətə imanı olan şəxs, İmama söyüş verilən və ya müsəlmanın qeybəti olunan məclisdə oturmalı deyil. . . [6]

### Sirri yaymamaq

Peyğəmbər (s) buyurur: Məclislər əmanətdir və mömin qardaşın sirrini açmaq xəyanətdir.[7]

---

[1] (Nisa, 140).
[2] (Biharul-Ənvar.cild.75.səh,469).
[3] (Biharul-Ənvar.cild.16.səh,240).
[4] (Biharul-Ənvar.cild.16.səh,236).
[5] (Biharul-Ənvar.cild.84.səh,354).

[6] (Biharul-Ənvar.cild.75.səh,371).
[7] (Biharul-Ənvar.cild.77..səh,89).

## Allaha yaxın olan insanlarla oturmaq

Həvarilər İsadan (ə) soruşdular ki, biz kimlə yoldaşlıq edib bir yerdə oturaq? İsa (ə) cavab verdi: Elə bir adamla oturun ki, onu görmək sizə Allahı yada salsın, sözü yaxşı əməllərinizin artmasına səbəb olsun və əməli sizi axirətə qarşı həvəsləndirsin.[1]

### Layiqli insanlarla oturmaq

Peyğəmbər (s) buyurur: Sizi beş şeydən beş şeyə qarşı dəvət edənlərdən başqa heç kimnən oturmayın. (O beş şey bunlardan ibarətdir): Şəkdən yəqinə, təkəbbürdən təvazöyə, düşmənçilikdən dostluğa, riyadan ixlasa və dünyaya meyilli olmaqda ona qarşı meyilsiz olmağa.[2]

### Məclisdə qeyri-müsəlman olsa belə, ədəbə riayət etmək lazımdır

İmam Əli (ə) buyurur: Məclisdə hətta yəhudi ilə birgə olsan belə, düzgün davran.[3]

### Məclisin başında əyləşməkdən uzaqlaşmaq

İmam Əli (ə) buyurur: Məclisin başında əyləşməyə tələsmə. Məclisin ayağında əyləşib, bir qədər sonra başda əyləşmək, başda əyləşib bir qədər sonra aşağıda əyləşməkdən daha yaxşıdır.[4]

### Yolların arasında oturmaqdan uzaq olmaq

Peyğəmbər (s) buyurur: Yolların arasında oturmaqdan çəkin.[5]

### Nadan insanlarla oturmamaq

İmam Əli (ə) buyurur: Nadan insanlarla oturan şəxs, gərək onun dəyərsiz sözlərinə qulaq asmağa hazır olsun.[6]

---

[1] (Biharul-Ənvar.cild.77.səh,147).
[2] (Məcmuə Vəram,səh.322).
[3] (Səfinətul-Bihar.cild.1.səh.692).
[4] (Ğurərul-Hikəm,hədis.10283).
[5] (Biharul-Ənvar.cild.75.səh,464).
[6] (Ğurərul-Hikəm.hədis,8508).

# MOİZƏ

## Quranda moizə

### Quran, Allah-taalanın insanlara etdiyi bir nəsihətdir

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءَتْكُمْ مَوْعِظَةٌ مِنْ رَبِّكُمْ وَشِفَاءٌ لِمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِلْمُؤْمِنِينَ

Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa, möminlərə doğru yolu göstərən rəhbər və mərhəmət gəlmişdir.[1]

### İnsanları moizə vasitəsi ilə Allaha tərəf dəvət etmək lazımdır

ادْعُ إِلَىٰ سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ ۖ وَجَادِلْهُمْ بِالَّتِي هِيَ أَحْسَنُ ۚ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَنْ ضَلَّ عَنْ سَبِيلِهِ ۖ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ

(İnsanları) Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır.[2]

### Tövrat kitabında moizə mövzusuna işarə

وَكَتَبْنَا لَهُ فِي الْأَلْوَاحِ مِنْ كُلِّ شَيْءٍ مَوْعِظَةً وَتَفْصِيلًا لِكُلِّ شَيْءٍ فَخُذْهَا بِقُوَّةٍ وَأْمُرْ قَوْمَكَ يَأْخُذُوا بِأَحْسَنِهَا سَأُرِيكُمْ دَارَ الْفَاسِقِينَ

Biz onun üçün lövhələrdə hər şeydən öyüd-nəsihət və hər şeyin təfsilatını yazdıq (və dedik:) “Bunları möhkəm tut və camaatına da onun ən yaxşısından yapışmağı əmr et! Mən sizə fasiqlərin yurdunu göstərəcəyəm.[3]

---

[1] (Yunus, 57).
[2] (Nəhl, 125).
[3] (Əraf, 145).

## Ailəvi məsələlərdə moizədən istifadə etməyin əhəmiyyəti

الرِّجَالُ قَوَّامُونَ عَلَى النِّسَاءِ بِمَا فَضَّلَ اللَّهُ بَعْضَهُمْ عَلَىٰ بَعْضٍ وَبِمَا أَنْفَقُوا مِنْ أَمْوَالِهِمْ فَالصَّالِحَاتُ قَانِتَاتٌ حَافِظَاتٌ لِلْغَيْبِ بِمَا حَفِظَ اللَّهُ وَاللَّاتِي تَخَافُونَ نُشُوزَهُنَّ فَعِظُوهُنَّ وَاهْجُرُوهُنَّ فِي الْمَضَاجِعِ وَاضْرِبُوهُنَّ فَإِنْ أَطَعْنَكُمْ فَلَا تَبْغُوا عَلَيْهِنَّ سَبِيلًا إِنَّ اللَّهَ كَانَ عَلِيًّا كَبِيرًا

Allahın onlardan birini digərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində himayəçidirlər. Əməlisaleh qadınlar Allaha itaət edər və qorunması lazım gələn şeyləri Allahın himayəsi sayəsində qoruyub saxlayarlar. Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, yataqda onları tərk edin və onları döyün! Əgər sizə itaət etsələr, onlara (əziyyət vermək üçün başqa) yol axtarmayın. Həqiqətən, Allah Ucadır, Böyükdür.[1]

## Moizə kafir insanlara təsir göstərmir

قَالُوا سَوَاءٌ عَلَيْنَا أَوَعَظْتَ أَمْ لَمْ تَكُنْ مِنَ الْوَاعِظِينَ

Onlar dedilər: "Bizə öyüd-nəsihət versən də, verməsən də, bizim üçün birdir.[2]

## İnsanın cavanlıq dövründə daha çox moizə eşitməyə ehtiyacı var

وَإِذْ قَالَ لُقْمَانُ لِابْنِهِ وَهُوَ يَعِظُهُ يَا بُنَيَّ لَا تُشْرِكْ بِاللَّهِ إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ

Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: "Oğlum! (Allaha) şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"[3]

## Yaşlı insanlar da moizədən bəhrələnməlidir

---

[1] (Nisa, 34).

[2] (Şüəra, 136).

[3] (Loğman, 13).

قَالَ يَا نُوحُ إِنَّهُ لَيْسَ مِنْ أَهْلِكَ إِنَّهُ عَمَلٌ غَيْرُ صَالِحٍ فَلَا تَسْأَلْنِ مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ إِنِّي أَعِظُكَ أَنْ تَكُونَ مِنَ الْجَاهِلِينَ

O dedi: “Ey Nuh! O, sənin ailəndən deyildir. Doğrusu, bu, pis bir işdir. Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Həqiqətən də, Mən sənə cahillərdən olmamağı tövsiyə edirəm”.[1]

## Loğman-Həkimin oğluna etdiyi moizələrdən nümunələr

### 1) Əqidəvi məsələlərə aid moizələr

#### a) Tövhidə yaxın olub, şirkdən uzaqlaşmaq

وَإِذْ قَالَ لُقْمَانُ لِابْنِهِ وَهُوَ يَعِظُهُ يَا بُنَيَّ لَا تُشْرِكْ بِاللَّهِ إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ

Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: “Oğlum! (Allaha) şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!”[2]

#### b) Məad və əməllərin hesablanması

يَا بُنَيَّ إِنَّهَا إِنْ تَكُ مِثْقَالَ حَبَّةٍ مِنْ خَرْدَلٍ فَتَكُنْ فِي صَخْرَةٍ أَوْ فِي السَّمَاوَاتِ أَوْ فِي الْأَرْضِ يَأْتِ بِهَا اللَّهُ إِنَّ اللَّهَ لَطِيفٌ خَبِيرٌ

(Loğman dedi:) “Oğlum! (Gördüyün iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, Xəbərdardır.[3]

---

[1] (Hud, 46).

[2] (Loğman, 13).
[3] (Loğman, 16).

2) Əməli məsələlərə aid olan moizələr

a) Namaz qılmağın əhəmiyyəti

b) Yaxşılığa dəvət edib, pis işlərdən çəkindirmək

c) Müsibətlər qarşısında səbirli olmaq

يَا بُنَيَّ أَقِمِ الصَّلَاةَ وَأْمُرْ بِالْمَعْرُوفِ وَانْهَ عَنِ الْمُنْكَرِ وَاصْبِرْ عَلَىٰ مَا أَصَابَكَ إِنَّ ذَٰلِكَ مِنْ عَزْمِ الْأُمُورِ

Oğlum! Namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. Başına gələn çətinliklərə səbr et. Həqiqətən, bu, əzm (tələb edən) əməllərdəndir.[1]

3- Əxlaqa aid olan məsələlərdə olan moizələr

a) Təvazökarlıq

b) Yol gedərkən həddi aşmamaq

c) Danışıqda həddi aşmamaq

وَلَا تُصَعِّرْ خَدَّكَ لِلنَّاسِ وَلَا تَمْشِ فِي الْأَرْضِ مَرَحًا إِنَّ اللَّهَ لَا يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ وَاقْصِدْ فِي مَشْيِكَ وَاغْضُضْ مِنْ صَوْتِكَ إِنَّ أَنْكَرَ الْأَصْوَاتِ لَصَوْتُ الْحَمِيرِ

İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir. Yerişində həddi gözlə, (danışanda) səsini alçalt. Çünki ən çirkin səs uzunqulaq səsidir".[2]

## Rəvayətlərdə moizə

Ən yaxşı hədiyyə

İmam Əli (ə) buyurur: Moizə ən yaxşı hədiyyədir.[3]

Ölüm insanlar üçün ən yaxşı moizədir

[1] (Loğman, 17).
[2] (Loğman, 18-19).
[3] (Ğurərul-Hikəm).

Peyğəmbər (s) buyurur: Ölüm insana moizə üçün kifayətdir.[1]

### Hər bir şeyin moizə olması

İmam Əli (ə) buyurur: Həqiqətən ağıllı insanlar üçün hər bir şeydə moizə var.[2]

### İnsanın ruhu oyanması moizəyə bağlıdır

İmam Əli (ə) buyurur: Öz qəlbini moizə vasitəsi ilə canlandır.[3]

### İnsan özü-özünə moizə edə bilər

İmam Muhəmməd Baqir (ə) buyurur: Özü-özünə moizə etməyən şəxsə, başqalarının nəsihəti fayda verməz.[4]

### İnsana moizənin təsir etməsi, bildiklərinə əməl etməsinə bağlıdır

İmam Sadiq (ə) buyurur: Necə ki, yağış torpağın üzərində sabit olaraq qalmır, elə də elminə əməl etməyən alimin moizəsi insanlara heç vaxt təsir göstərməz.[5]

## İlahi rəhbərlərin moizələrindən nümunələr

### 1-Peyğəmbərin (s) moizəsi

Peyğəmbər (s) buyurur: Dünyaya bağlılıq insanların çoxuna o qədər qalib gəlib, sanki ölüm bu insanlara yetişən deyil.[6]

### 2- İmam Əlinin (ə) moizəsi

İmam Əli (ə) buyurur: Axirətə ümid bəsləyib əməl etməyən, uzun-uzadı arzularla yaşayıb, tövbə etməyən, danışığı axirət sevgisi ilə dolu, amma əməli dünya qullarının əməli kimi olanlar təki olma. Bu insanların xüsusiyyəti belədir ki, dünya malını əldə etsələr doymaz və əgər dünya malı əllərinə yetişməsə qane

---

[1] (Tuhfəl-Uqul,səh.35).
[2] (Ğurərul-Hikəm).
[3] (Nəhcül-Bəlağə,məktub.7).
[4] (Tuhfəl-Uqul,səh.294).
[5] (Munyətul-Murid,səh.146).
[6] (Biharul-Ənvar.cild.77.səh,125).

olmazlar. Onlar əllərində olduğuna şükr etməz və mal-mülkün artması üçün həriscəsinə zəhmət çəkib çalışarlar. [1]

### 3- İmam Həsən Müctəbanın (ə) moizəsi

İmam Həsən Müctəba (ə) buyurur: Bilin ki Allah sizi boş yerə yaratmayıb. Allah sizin hər biriniz üçün ölümü müəyyən edib, sizin ruzinizi bölüb ki, hər bir ağıllı insan öz yerini bilsin, başa düşsün ki, ona ayrılan ruzi mütləq ona çatacaq və ona aid olmayan şey ona yetişən deyil.[2]

### 4- İmam Hüseynin (ə) moizəsi

İmam Hüseyn (ə) buyurur: Bəyənilməyən bir iş görüb üzr istəməkdən uzaq ol. Həqiqi mömin bəyənilməyən iş görüb, sonra da üzr istəməz. Amma münafiq hər gün pis iş görüb, tez-tez üzr istəyər.[3]

### 5- İmam Səccadın moizəsi

İmam Səccad (ə) buyurur: Üç şey var ki, möminin nicat vasitəsi hesab olur:

a) Dilini qoruyub, qeybətdən uzaq olmaq.

b) Dünya və ya axirət üçün faydalı olan işlərlə məşğul olmaq.

c) Günahlar üçün çoxlu göz yaşı tökmək. [4]

### 6- İmam Muhəmməd Baqirin (ə) moizəsi

İmam Məhəmməd Baqir (ə) buyurur: Çalış ki, münafiqlə dil tap, möminə isə həqiqi mənada məhəbbət bəslə və əgər yəhudi ilə bir məclisdə otursan, məclis qaydalarına riayət et.[5]

---

[1] (Nəhcül-Bəlağə,hikmətli sözlər,142).
[2] (Tuhfəl-Uqul,cild.1.səh,232).
[3] (Biharul-Ənvar.cild.78.səh,120).
[4] (Biharul-Ənvar.cild.78.səh,140).
[5] (Biharul-Ənvar.cild.78.səh,172).

## 7- İmam Sadiqin (ə) moizəsi

İmam Sadiq (ə) buyurur: Din qardaşlarından hər hansı biri sənə nalayiq söz demədən, sənə üç dəfə əsəbləşmiş olsa, onu özünə dost seç.[1]

## 8- İmam Kazimin (ə) moizəsi

İmam Kazim (ə) buyurur: Ağıllı insan o kəsdir ki, onu təkzib edəcək söz danışmaz, onu məhrum etdikləri şeyi istəməz və əhdinə vəfa edə bilmədiyi şeyi söz verməz.[2]

## 9- İmam Rzanın (ə) moizəsi

İmam Rza (ə) buyurur: Maddi imkanı geniş olan şəxs gərək öz ailəsini maddi baxımdan daha yaxşı təmin etsin.[3]

## 10- İmam Cavadın (ə) moizəsi

İmam Cavad (ə) buyurur: Hər bir möminin zikr olunan bu üç xüsusiyyətə ehtiyacı var: Allahdan gələn tofiq, özü-özünü moizə etməsi və başqalarının nəsihətini qəbul etmək.[4]

## 11- İmam Hadinin (ə) moizəsi

İmam Hadi (ə) buyurur: Özündən razı olan şəxsdən insanlar narazı olar.[5]

## 12- İmam Həsən Əsgərinin (ə) moizəsi

İmam Həsən Əsgəri (ə) buyurur: İnsanlara yaxşılıq edəndə elə etmək lazımdır ki, onlar zəhmətə və çətinliyə düşməsinlər.[6]

---

[1] (Biharul-Ənvar.cild.78.səh,251).
[2] (Biharul-Ənvar.cild.78.səh,304).
[3] (Biharul-Ənvar.cild.78..səh,335).
[4] (Biharul-Ənvar.cild.78.səh,358).
[5] (Biharul-Ənvar.cild.78.səh,369).
[6] (Biharul-Ənvar.cild.78.səh,374).

13- İmam Məhdinin (ə. f) moizəsi

İmam Mehdi (ə. f) buyurur: Zühurun tezləşməsi üçün çox dua edin. Çünki sizin çətinliklərinizin həlli də ona bağlıdır.[1]

## Quran ayələrinə əsasən iman və saleh əməlin insana təsiri

### İman və saleh əməl, pak həyat sahibi olmaqda insana kömək olar

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.[2]

### İman və saleh əməl insanın səhvlərini düzəldir və bütün işlərini islah edir

وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَآمَنُوا بِمَا نُزِّلَ عَلَىٰ مُحَمَّدٍ وَهُوَ الْحَقُّ مِنْ رَبِّهِمْ ۙ كَفَّرَ عَنْهُمْ سَيِّئَاتِهِمْ وَأَصْلَحَ بَالَهُمْ

İman gətirib yaxşı işlər görənlərin, öz Rəbbindən gerçək həqiqət kimi Muhəmmədə nazil edilənə inananların isə (Allah) günahlarından keçmiş və onların vəziyyətini yaxşılaşdırmışdır.[3]

### İman və saleh əməl səbəb olur ki, Allahın rəhməti insana şamil olsun

فَأَمَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ فَيُدْخِلُهُمْ رَبُّهُمْ فِي رَحْمَتِهِ ذَٰلِكَ هُوَ الْفَوْزُ الْمُبِينُ

[1] (Muntəxəbul-Əsər,səh.268).
[2] (Nəhl, 97).
[3] (Muhəmməd, 2).

İman gətirib yaxşı işlər görənlərə gəlincə, Rəbbi onları Öz mərhəmətinə nəsib edəcəkdir. Bu, açıq-aşkar müvəffəqiyyətdir.[1]

### İman və saleh əməl, xalqın qəlbində bizə qarşı sevgi yaranmasına səbəb olar

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ سَيَجْعَلُ لَهُمُ الرَّحْمَٰنُ وُدًّا

İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman (qəlblərdə) bir sevgi yaradacaq.[2]

### İman və saleh əməl insanın xoşbəxtlik açarıdır

قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ وَالَّذِينَ هُمْ عَنِ اللَّغْوِ مُعْرِضُونَ وَالَّذِينَ هُمْ لِلزَّكَاةِ فَاعِلُونَ

Möminlər, həqiqətən də, nicat tapmışlar; o kəslər ki, namazlarında mütidirlər, o kəslərdir ki, sözbazlıqdan qaçırlar, o kəslərdir ki, zəkat verirlər.[3]

### İman və saleh əmələ sahib olan, Allahın ən yaxşı bəndəsi hesab olur

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُولَٰئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ

Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər məxluqların ən yaxşısıdırlar.[4]

### İman və saleh əməl sahibi, Allaha ən düzgün şükr edən şəxsdir

فَمَنْ يَعْمَلْ مِنَ الصَّالِحَاتِ وَهُوَ مُؤْمِنٌ فَلَا كُفْرَانَ لِسَعْيِهِ وَإِنَّا لَهُ كَاتِبُونَ

---

[1] (Casiyə, 30).
[2] (Məryəm, 96).
[3]
[4] (Bəyyinə, 7).

Kim mömin olduğu halda yaxşı işlər görsə, onun əziyyəti inkar olunmaz. Şübhəsiz ki, Biz onun (əməllərini) yazırıq.[1]

## Hədis və rəvayətlərə əsasən iman və saleh əməlin insana təsiri

## Həqiqi imanın əlamətləri

a) İxlas

İmam Əli (ə) buyurur: İmam, əməli xalis etmək anlamındadır.[2]

b) Haqqı seçib, batildən uzaq olmaq

İmam Sadiq (ə) buyurur:Həqiqi iman nişanələrindən biri budur ki, haqq ziyanımıza da olsa onu seçək və batil xeyrimizə də olsa ondan uzaq olaq.[3]

c) Allaha arxalanmaq

İmam Əli (ə) buyurur: İnsanın imanı o vaxt kamil iman hesab olar ki, öz ixtiyarında olan imkanlardan Allahın qüdrətində olanlara daha çox etimad etsin.[4]

Əməlsiz iman insana fayda verməz

Peyğəmbər (s) buyurur: Əməlsiz iman və imansız əməl Allah dərgahında qəbul olmaz.[5]

İman daxili inamdır

Peyğəmbər (s) buyurur: İman, qəlbi inam, dil ilə təsdiq və bədən üzvlərinin (saleh işlərə) əməl etməsindən ibarətdir.[6]

---

[1] (Ənbiya, 96).
[2] (Ğurərul-Hikəm,səh.873).
[3] (Biharul-Ənvar.cild.70.səh,106).
[4] (Biharul-Ənvar.cild.103.səh,37).
[5] (Kənzul-Ummal,səh.260).
[6] (Məanil-Əxbar,səh.186).

### Kamil iman

İmam Sadiq (ə) buyurur: İnsanın imanı yalnız o vaxt kamil olur ki, üç xüsusiyyətə yiyələnmiş olsun:

**a)** Dini anlayış və məlumat

**b)** Yaşayışını qiymətləndirib, özünə ölçü götürməli

**c)** Çətinlik və müsibətlər qarşısında səbirli olmaq[1]

### Ən yaxşı iman

Peyğəmbər (s) buyurur: Ən yaxşı iman odur ki, biləsən ki, harada olursan ol, Allah səninlədir.[2]

## İmanın dərəcələri

İmam Sadiq (ə) buyurur: Nərdivanın pillələri olduğu kimi, imanın da on pilləsi var. Ona görə də imanın ikinci pilləsində olan şəxs, birinci pillədə olana, "Sənin imanın yoxdur" deməli deyil. . . Ona görə də heç vaxt iman baxımından səndən aşağı dərəcədə olanı özündən çevirmə. Çünki bu səbəb olar ki, səndən iman baxımından yuxarıda olan şəxs də, səndən üz çevirsin.[3]

### İmandan çıxmağın səbəbi

İmam Sadiq (ə) buyurur: İnsanı imandan xaric edən ən kiçik əməl budur ki, insan öz din qardaşının xətalarını yadda saxlayıb, lazım olan vaxt onun bu səhvini üzünə çəkib və bu vasitə ilə onu danlaya. (Məanil-Əxbar,səh.349).

---

[1] (Biharul-Ənvar.cild.78.səh,239).

[2] (Kənzul-Ummal,səh.66).

[3] (Usuli-Kafi,cild.2.səh.45).

# Quranda təqva

## Cihadda təqva

إِنْ تَمْسَسْكُمْ حَسَنَةٌ تَسُؤْهُمْ وَإِنْ تُصِبْكُمْ سَيِّئَةٌ يَفْرَحُوا بِهَا ۖ وَإِنْ تَصْبِرُوا وَتَتَّقُوا لَا يَضُرُّكُمْ كَيْدُهُمْ شَيْئًا ۗ إِنَّ اللَّهَ بِمَا يَعْمَلُونَ مُحِيطٌ

Sizə bir uğur nəsib olsa, (bu) onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbr etsəniz və (Allahdan) qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir.[1]

## Yemək yeyəndə təqvaya riayət etmək

وَكُلُوا مِمَّا رَزَقَكُمُ اللَّهُ حَلَالًا طَيِّبًا ۚ وَاتَّقُوا اللَّهَ الَّذِي أَنْتُمْ بِهِ مُؤْمِنُونَ

Allahın sizə ruzi olaraq verdiyi halal, təmiz nemətlərdən yeyin və iman gətirmiş olduğunuz Allahdan qorxun![2]

## Alverdə təqva

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَأْكُلُوا الرِّبَا أَضْعَافًا مُضَاعَفَةً ۖ وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ

Ey iman gətirənlər! Dəfələrlə artırılmış olan sələmi yeməyin! Allahdan qorxun ki, bəlkə, nicat tapasınız.[3]

---

[1] (Ali-İmran, 120).
[2] (Maidə, 88).
[3] (Ali-İmran, 130).

### Allah peyğəmbərinə (s) itaət etməkdə təqvaya riayət etmək

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانْتَهُوا ۚ وَاتَّقُوا اللَّهَ ۖ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir.[1]

### İnsanlarla davranışda təqvaya riayət etmək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ ۖ وَلَا تَجَسَّسُوا وَلَا يَغْتَبْ بَعْضُكُمْ بَعْضًا ۚ أَيُحِبُّ أَحَدُكُمْ أَنْ يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ ۚ وَاتَّقُوا اللَّهَ ۚ إِنَّ اللَّهَ تَوَّابٌ رَحِيمٌ

Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir.[2]

### İnfaq və təqva

فَأَمَّا مَنْ أَعْطَىٰ وَاتَّقَىٰ وَصَدَّقَ بِالْحُسْنَىٰ فَسَنُيَسِّرُهُ لِلْيُسْرَىٰ

Kim (haqqını) verir və (Allahdan) qorxursa, və ən gözəl olanı (lə ilahə illəllahı) təsdiq edirsə, biz onu ən asan olana nail edəcəyik.[3]

---

[1] (Həşr, 7).
[2] (Hucurat, 12).
[3] (Ləyl, 5-7).

Müşriklərlə davranışda təqvaya riayət etmək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا قَوَّامِينَ لِلَّهِ شُهَدَاءَ بِالْقِسْطِ ۖ وَلَا يَجْرِمَنَّكُمْ شَنَآنُ قَوْمٍ عَلَىٰ أَلَّا تَعْدِلُوا ۚ اعْدِلُوا هُوَ أَقْرَبُ لِلتَّقْوَىٰ ۖ وَاتَّقُوا اللَّهَ ۚ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ

Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.[1]

## Təqvanın insana olan təsirləri

1- Təqva vasitəsi ilə haqqı batildən ayırma gücünə sahib olmaq olar

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تَتَّقُوا اللَّهَ يَجْعَلْ لَكُمْ فُرْقَانًا وَيُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَيَغْفِرْ لَكُمْ ۗ وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir.[2]

2- Təqva səbəb olar ki, insan qiyamət günü qorxmasın

يَا بَنِي آدَمَ إِمَّا يَأْتِيَنَّكُمْ رُسُلٌ مِنْكُمْ يَقُصُّونَ عَلَيْكُمْ آيَاتِي ۙ فَمَنِ اتَّقَىٰ وَأَصْلَحَ فَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

[1] (Maidə, 8).
[2] (Ənfal, 29).

Ey Adəm oğulları! Sizə aranızdan elçilər gəlib ayələrimi bəyan edərkən (Məndən) qorxub öz (əməllərini) islah edən şəxslərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər.[1]

### 3- Təqva, bərəkətin nazil olmasına səbəb olar

وَلَوْ أَنَّ أَهْلَ الْقُرَىٰ آمَنُوا وَاتَّقَوْا لَفَتَحْنَا عَلَيْهِم بَرَكَاتٍ مِنَ السَّمَاءِ وَالْأَرْضِ وَلَٰكِنْ كَذَّبُوا فَأَخَذْنَاهُمْ بِمَا كَانُوا يَكْسِبُونَ

Əgər o ölkələrin əhalisi iman gətirib (Allahdan) qorxsaydı, əlbəttə, Biz onların üstünə göydən və yerdən bərəkət (qapılarını) açardıq. Lakin onlar (peyğəmbərləri) yalançı hesab etdilər. Biz də onları qazandıqları günahlara görə (əzabla) yaxaladıq.[2]

### 4- Təqvalı şəxs cəhənnəm əzabından xilas olar

ثُمَّ نُنَجِّي الَّذِينَ اتَّقَوْا وَنَذَرُ الظَّالِمِينَ فِيهَا جِثِيًّا

Sonra Biz müttəqiləri (oddan) xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik.[3]

### 5- Təqvalı şəxsə düşmənin hiyləsi ziyan yetirə bilməz

إِنْ تَمْسَسْكُمْ حَسَنَةٌ تَسُؤْهُمْ وَإِنْ تُصِبْكُمْ سَيِّئَةٌ يَفْرَحُوا بِهَا وَإِنْ تَصْبِرُوا وَتَتَّقُوا لَا يَضُرُّكُمْ كَيْدُهُمْ شَيْئًا إِنَّ اللَّهَ بِمَا يَعْمَلُونَ مُحِيطٌ

Sizə bir uğur nəsib olsa, (bu) onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbr etsəniz və (Allahdan) qorxsanız, onların

[1] (Əraf, 35).
[2] (Əraf, 96).
[3] (Məryəm, 72).

qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir.[1]

### 6- Təqva, saleh əməllərin qəbul olmasına səbəb olar

وَاتْلُ عَلَيْهِمْ نَبَأَ ابْنَيْ آدَمَ بِالْحَقِّ إِذْ قَرَّبَا قُرْبَانًا فَتُقُبِّلَ مِنْ أَحَدِهِمَا وَلَمْ يُتَقَبَّلْ مِنَ الْآخَرِ قَالَ لَأَقْتُلَنَّكَ قَالَ إِنَّمَا يَتَقَبَّلُ اللَّهُ مِنَ الْمُتَّقِينَ

Onlara Adəmin iki oğlunun gerçək əhvalatını oxu. O zaman ikisi də qurban vermiş, onların birindən qəbul edilmiş, digərindən isə qəbul edilməmişdi. (Qurbanı qəbul olmayan oğlu öz qardaşına) demişdi: “Səni hökmən öldürəcəyəm!” (Qardaşı da ona belə) demişdi: “Allah ancaq müttəqilərdən (qurban) qəbul edər![2]

### 7- Təqva sayəsində insan xoşbəxtliyə yetişər

إِنَّ لِلْمُتَّقِينَ مَفَازًا

Həqiqətən, müttəqilər üçün nicat yeri vardır.[3]

### 8- Təqva, insanı Allahın sevimlisinə çevirər

بَلَىٰ مَنْ أَوْفَىٰ بِعَهْدِهِ وَاتَّقَىٰ فَإِنَّ اللَّهَ يُحِبُّ الْمُتَّقِينَ

Xeyr! Kim əhdini yerinə yetirsə və (Allahdan) qorxsa, şübhəsiz ki, Allah müttəqiləri sevər.[4]

## Rəvayətlərdə təqva

[1] (Ali-İmran, 120).
[2] (Maidə, 27).
[3] (Nəbə, 31)
[4] (Ali-İmran, 76).

Təqvanın əhəmiyyəti

Peyğəmbər (s) buyurur: Təqvası olan şəxs, dünya və axirət xeyrinə yiyələnmişdir.

## Təqvanın əlamətləri

### a) Əməldə ixlaslı olmaq

İmam Əli (ə) buyurur: Təqvalı insanın üç nişanəsi var: Əməldə ixlaslı olmaq, arzuların az olması və fürsətlərdən istifadə etmək.[1]

### b) Uydurmalardan uzaq olmaq

Peyğəmbər (s) buyurur: Mən və ümmətimin təqvalıları uydurma şeylərdən uzağıq.[2]

### c) Nəfsi hesaba çəkmək

Peyğəmbər (s) buyurur: Ey Əbuzər! Bir işdə şərik olan şəxs, digər şərikini sınağa çəkdiyi kimi, insan da özünü ən çətin vasitələrlə sınağa çəkməyincə təqvanı əldə edə bilməz. . . .[3]

### d) Nəfslə müxalifətçilik etmək

Məsum (ə) buyurur: Qəlbinizi şəhvani hisslər və şeytan yuvası yox, təqva mərkəzinə çevirin. .[4]

### e) Haqqın qarşısında təslim olmaq

[1] (Ğurərul-Hikəm,səh.47).
[2] (Hədaiq,cild.3.hədis,1067).
[3] (Biharul-Ənvar.cild.77.səh,86).
[4] (Biharul-Ənvar.cild.1.səh,146).

Peyğəmbər (s) buyurur: Təqvalı insan o kəsdir ki, haqq sözü deyə. İstər bu söz onun xeyrinə, istərsə də ziyanına qurtarsın. .[1]

## Təqvanın fayda və təsirləri

### a) Ruhi azadlıq əldə edib, həlak olmaqdan uzaqlaşmaq

İmam Əli (ə) buyurur: Həqiqətən də Allahdan çəkinmək hər bir bağlı qapının açarı, qiyamət günü üçün azuqə, hər növ köləlikdən azad olmaq və həlak olmamaq üçün bir amildir.[2]

### b) Allahın qalasına sığınmaq

İmam Əli (ə) buyurur: Ey Allahın bəndələri! Bilin ki, təqva Allahın möhkəm qalası, günah və cinayət isə zillət və xarlıq məkanıdır.[3]

### c) Təqva ruhi xəstəliyin dərmanıdır

İmam Əli (ə) buyurur:Təqva qəlb və ruhun xəstəlik dərmanı, qəlb gözünün görməsinin amili, ruh xəstəliyinin müalicə və qəlbin çirkinliklərdən təmizlənib, paklanma səbəbidir. .[4]

### d) Təqva insana izzət bəxş edir

Peyğəmbər (s) buyurur: Hər kim istəsə insanların içərisində ən istəkli insan olsun, gərək Allahın təqvasına yiyələnmiş ola. .[5]

### e) Təqva insanda müsbət xüsusiyyətlərin güclənməsinə səbəb olur

---

[1] (Biharul-Ənvar.cild.70.səh,288).
[2] (Nəhcül-Bəlağə,Xütbə,230).
[3] (Tuhfəl-Uqul,səh.160).
[4] (Biharul-Ənvar.cild.70.səh,284).
[5] (Biharul-Ənvar.cild.67.səh,168).

İmam Əli (ə) buyurur: Əql bir ağacdır ki, onun kökü təqva, budaqları həya, meyvəsi dindarlıqdır. Deməli təqva insanı üç xüsusiyyətə dəvət edir: Dini anlayıb başa düşmək, dünyada zahidlik və qəlbimizi dünya bağlılığından uzaqlaşdırıb, Allah sevgisinə yaxınlaşdırmaq.[1]

## Təqvalı şəxslərin üstünlükləri

## Quran ayələrində təqvalı şəxslərin üstünlükləri

### Təqvalı şəxs Allahın xüsusi rəhmətini əldə etmiş olar

الشَّهْرُ الْحَرَامُ بِالشَّهْرِ الْحَرَامِ وَالْحُرُمَاتُ قِصَاصٌ فَمَنِ اعْتَدَىٰ عَلَيْكُمْ فَاعْتَدُوا عَلَيْهِ بِمِثْلِ مَا اعْتَدَىٰ عَلَيْكُمْ وَاتَّقُوا اللَّهَ وَاعْلَمُوا أَنَّ اللَّهَ مَعَ الْمُتَّقِينَ

Haram ay haram aya görədir. Haram olanları (pozmağın) (cəzası) qisas almaqdır. Kim sizə qarşı təcavüz etsə, siz də ona qarşı onun təcavüz etdiyi qədər təcavüz edin. Allahdan qorxun və bilin ki, Allah müttəqilərlədir.[2]

### Məscidul-hərama başçılıq etmək şərəfi, təqvalılara aiddir

وَمَا لَهُمْ أَلَّا يُعَذِّبَهُمُ اللَّهُ وَهُمْ يَصُدُّونَ عَنِ الْمَسْجِدِ الْحَرَامِ وَمَا كَانُوا أَوْلِيَاءَهُ إِنْ أَوْلِيَاؤُهُ إِلَّا الْمُتَّقُونَ وَلَٰكِنَّ أَكْثَرَهُمْ لَا يَعْلَمُونَ

Onlar Məscidul-həramın xidmətçiləri olmadıqlarına baxmayaraq (möminləri) oraya buraxmadıqları halda Allah nə üçün onlara əzab verməsin? Onun xidmətçiləri yalnız müttəqilərdir. Lakin onların çoxu (bunu) bilmir.[3]

### Təqvalılar Allahın sevimli bəndələridir

---

[1] (Məvauzul-Ədədiyyə,səh.85).
[2] (Bəqərə, 194).
[3] (Ənfal, 34).

بَلَىٰ مَنْ أَوْفَىٰ بِعَهْدِهِ وَاتَّقَىٰ فَإِنَّ اللَّهَ يُحِبُّ الْمُتَّقِينَ

Xeyr! Kim əhdini yerinə yetirsə və (Allahdan) qorxsa, şübhəsiz ki, Allah müttəqiləri sevər.[1]

### Təqvalıların əməlləri Allah dərgahında qəbul olar

وَاتْلُ عَلَيْهِمْ نَبَأَ ابْنَيْ آدَمَ بِالْحَقِّ إِذْ قَرَّبَا قُرْبَانًا فَتُقُبِّلَ مِنْ أَحَدِهِمَا وَلَمْ يُتَقَبَّلْ مِنَ الْآخَرِ قَالَ لَأَقْتُلَنَّكَ قَالَ إِنَّمَا يَتَقَبَّلُ اللَّهُ مِنَ الْمُتَّقِينَ

Onlara Adəmin iki oğlunun gerçək əhvalatını oxu. O zaman ikisi də qurban vermiş, onların birindən qəbul edilmiş, digərindən isə qəbul edilməmişdi. (Qurbanı qəbul olmayan oğlu öz qardaşına) demişdi: "Səni hökmən öldürəcəyəm!" (Qardaşı da ona belə) demişdi: "Allah ancaq müttəqilərdən (qurban) qəbul edər![2]

### Təqva əhlinin aqibəti xeyirli olar

قَالَ مُوسَىٰ لِقَوْمِهِ اسْتَعِينُوا بِاللَّهِ وَاصْبِرُوا إِنَّ الْأَرْضَ لِلَّهِ يُورِثُهَا مَنْ يَشَاءُ مِنْ عِبَادِهِ وَالْعَاقِبَةُ لِلْمُتَّقِينَ

Musa öz qövmünə dedi: "Allahdan kömək diləyin və səbr edin. Şübhəsiz ki, yer üzü Allahındır. O, qullarından dilədiyini onun varisləri təyin edir. (Gözəl) aqibət müttəqilərindir".[3]

### Cənnət təqva əhli üçün hazırdır

وَسَارِعُوا إِلَىٰ مَغْفِرَةٍ مِنْ رَبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالْأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ

Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin.[4]

---

[1] (Ali-İmran, 76).
[2] (Maidə, 27).
[3] (Əraf, 128).
[4] (Ali-İmran, 133).

### Allah-taala cənnəti, təqvalı şəxslər üçün yaxınlaşdırar

وَأُزْلِفَتِ الْجَنَّةُ لِلْمُتَّقِينَ غَيْرَ بَعِيدٍ

Cənnət müttəqilərə yaxınlaşdırılacaq, (onlardan) uzaqda olmayacaqdır.[1]

### Təqva əhli nicat tapar

إِنَّ لِلْمُتَّقِينَ مَفَازًا

Həqiqətən, müttəqilər üçün nicat yeri vardır.

### Təqvaya riayət edənlər, axirətdə təhlükəsiz yerdə qərar tutar[2]

إِنَّ الْمُتَّقِينَ فِي مَقَامٍ أَمِينٍ فِي جَنَّاتٍ وَعُيُونٍ

Allahdan qorxanlar isə təhlükəsiz bir yerdə – bağçalarda və çeşmələr başında olacaqlar![3]

### Təqvalılar ilahi nura yiyələnər

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَآمِنُوا بِرَسُولِهِ يُؤْتِكُمْ كِفْلَيْنِ مِنْ رَحْمَتِهِ وَيَجْعَلْ لَكُمْ نُورًا تَمْشُونَ بِهِ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَحِيمٌ

Ey iman gətirənlər! Allahdan qorxun və Onun elçisinə iman gətirin! Onda O sizə Öz mərhəmətindən iki pay bəxş edər, sizə (düz yolla) getməyiniz üçün nur verər və sizi bağışlayar. Allah Bağışlayandır, Rəhmlidir.[4]

---

[1] (Qaf, 31).
[2] (Nəbə, 31).
[3] (Duxan, 51-52).
[4] (Hədid, 28).

## Təqva əhli qiyamət günü Allahın hörmətli nümayəndələri kimi məşhur olar

يَوْمَ نَحْشُرُ الْمُتَّقِينَ إِلَى الرَّحْمَٰنِ وَفْدًا

O gün Biz müttəqiləri ər-Rəhmanın hüzuruna hörmətli nümayəndələr kimi toplayarıq.[1]

## Rəvayətlərdə təqvalı şəxslərin üstünlükləri

Bir gün Həmmam adlı mömin bir şəxs Həzrət Əli ibn Əbu Talibdən (ə) xahiş etdi ki, təqvalıların xüsusiyyətlərini sanki görürmüş kimi onun üçün təsvir etsin. Əli (ə) əvvəlcə qısa izahat verməyi kafi bilib belə söylədi:"Ey Həmmam, Allaha münasibətlə təqvalı ol və yaxşı əməllər et: "Həqiqətən, Allah təqvalılarla və yaxşı iş görənlərlədir" (Nəhl, 128)". Lakin Həmmam bu qısa nəsihətə qane olmayıb İmam Əlini (ə) and verdi ki, təqvalıları daha artıq vəsf etsin. Bu zaman Həzrət Əli (ə) "Nəhcül-bəlağə" xütbələri sırasında 184-cü yerdə duran məşhur xütbəni söylədi: "Allah onlarda təcəlla edəndə Allahdan savayı hər şey onların gözündə xırdalaşar. Cənnətə elə münasibət bəsləyirlər ki, sanki onu görür və içindəki nemətləri dadırlar. Cəhənnəmə münasibətləri də elədir ki, elə bil alovu görür və içində əzab çəkirlər. Onların qəlbi hüznlüdür, xalqa pislik etməzlər. Onların bədəni arıqlayıb incəlmişdir, özləri də iffətlidirlər. Bir neçə günlük dünyada səbr edərlər, əvəzində Rəbbin onlardan ötrü hazırladığı əbədi rahatlığı umarlar. Dünya onları özünə tabe etmək istəyər, onlar dünyadan qaçarlar. Dünya onları əsir etmək istəyər, onlar əsarətdən xilas olarlar. . . Etdikləri yaxşı əməllərin azlığına qane olmaz, qazandıqları savabın çoxluğu ilə fəxr etməzlər. Həmişə özlərini ittiham edər və günahlarından qorxarlar. Birisi onları tərifləyəndə narahat olub deyərlər: "Mən özümü özgədən daha yaxşı tanıyıram. Allah isə məni özümdən daha yaxşı tanıyır. İlahi, onların sözlərinə görə məni danlama, məni onların güman etdiklərindən də uca məqama yüksəlt! Camaata məlum olmayan günahlarımı bağışla!". Təqvalı şəxsin adamlardan uzaqlaşmasının səbəbi zöhd, yaxınlaşmasının səbəbi mehribanlıq və mərhəmət olar.

[1] (Məryəm, 85).

İnsanlardan təkəbbür üzündən kənar qaçmaz, adamlara hiylə və kələk məqsədilə yaxın gəlməz”.

İmamın sözləri bu yerə çatanda Həmmam ucadan bir ah çəkib canını tapşırdı. Əli (ə) təqvanın şərtlərinin nə qədər ağır olduğunu dərk etmiş və buna layiq olmadığından dəhşətə gəlib ürəyi partlamış Həmmamın cansız bədəninə işarə edərək buyurdu: "Allaha and olsun, mən bunu bildiyim üçün danışmaq istəmirdim. Təsirli nəsihət, onu dərk edən dinləyiciyə bu cür təsir göstərər”.

## Təqvalı şəxslərin bəzi xüsusiyyətləri

Zikr olunan məşhur “Həmmam xütbəsi” və bir çox rəvayətlərdə, təqva əhlinin çox sayda xüsusiyyətləri zikr olunub. Həmin xüsusiyyətlərdən ən əhəmiyyətli olanlarını aşağıda müşahidə edirsiniz.

1. Dində qüdrətli olmaq.
2. Uzaqgörənlik, mülayimlik və uyğunlaşmaq.
3. Yəqin mərhələsində olan iman və əqidə, şəkk və şübhədən uzaq olmaq.
4. Elm öyrənməkdə həris olmaq.
5. Elm öyrənməkdə səbirli olmaq.
6. Sərvətli və ehtiyacsız olan zaman mötədil olmaq.
7. İbadətdə təvazökar və müti olmaq.
8. Yoxsul olan zaman abırlı olmaq.
9. Çətinliyin böhranlarında səbirli olmaq.
10. Halal mal axtarmaq.
11. İnsanları hidayət etməkdə çalışqan olmaq.
12. Tamahdan uzaq olmaq.
13. Layiqli işləri xudbinlikdən uzaq olaraq yerinə yetirmək və ibadətin qəbul olmamasından qorxmaq.
14. Gecəni Allahın şükrü ilə sona çatdırmaq, gündüzü Allahı yada salaraq başlamaq.
15. Gecəni qafillər kimi bir dəfəyə yatmamaq. Gecə oyaq qalmaq və Allahı zikr etmək onu yatağından ayırar. Bu gecə oyaq qalmağı səhərki şadlığını ondan almaz. Onun qorxusu və nigarançılığı ondadır ki, qəflət tələsinə düşməsin. İlahi rəhmət ona şamil olduğu üçün şaddır.
16. Əgər günaha göz yummaq ona ağır gələrsə, müqavimət göstərər ki, dinə zidd olan bu istəyə məğlub olmasın və şəxsiyyətini ləkələməsin.
17. Dünyanın tez ötən ləzzətlərinə görə əbədi həyatını məhv etməz.

18. Səbri elmlə qarışdırar, danışığını rəftarla.
19. Arzu və istəkləri az olar və şəxsiyyəti qızıl röyalara batmaqdan uzaqdır.
20. Büdrəmələri azdır.
21. Ürəyi mütidir.
22. Qane insandır, gözü və ürəyi toxdur.
23. Çox yemək yeməkdən çəkinər və qarnının əsiri deyildir.
24. Həyatı sadə keçər.
25. Dini möhkəm və şeytanın fitnəsi qarşısında dağ kimi möhkəmdir.
26. Şəhvətinə hakimdir.
27. Qəzəbini yatızdırar və qəzəb qüvvəsinə hakimdir.
28. Ondan xeyir ümid edirlər və şərrindən amandadırlar.
29. Əgər qafillərin cəmində olsa, yada salanlardan olar və zülmü haqqa və ədalətə tərəf dəyişdirər. Əgər yada salanların cəmində olsa, qəflət yolunu tutmaz.
30. Ona zülm edənləri bağışlayar və onu məhrum edənə kərəm əlini açar.
31. Onunla qohumluq əlaqəsini kəsənlə sileyi-rəhm edər.
32. O, söyüşdən və pis sözlərdən uzaqdır, mülayim və mehriban dili vardır.
33. O, xeyir işlərə üz tutar və şərdən çəkinər.
34. Ondan nalayiq iş görünməz, əksinə xasiyyəti dillər əzbəridir.
35. Çətinliklərdə mətanətli və müqavimət göstərəndir.
36. Çətinlikdə səbirli və rifahda şükür edəndir.
37. O kəsə ki, qəzəblənər həddi aşmaz və kiminləsə dostluq etsə, günaha çatmaz.
38. Onun əleyhinə şəhadət verməzdən əvvəl haqqı etiraf edər.
39. Əmanətdarlıqda çalışqandır, səhlənkar olmağı rəva bilməz ki, xəyanətdir.
40. Allahı yada salmaq və razılığını əldə etmək yadından çıxmaz.
41. Başqalarını çirkin ləqəblərlə çağırmaz.
42. Qonşuya ziyan vurmaz.
43. Müsibət görənləri məsxərə etməz.
44. Batil işlərə addım atmaz, haqq çərçivəsindən xaric olmaz.
45. Əgər söz deməkdən ağzını yumarsa, sükut etdiyinə görə qəmgin olmaz ki, daha faydalıdır. Əgər gülərsə, qəhqəhəyə çatmaz.
46. Əgər ona zülm etsəniz, səbir və müdafiə edər. İntiqam almaz və Allaha tapşırar.
47. Özünü Allah və bəndələri yolunda çətinliyə salar ki, insanlar ona görə rifahda olsunlar
48. Özünü axirətinə görə əziyyətdə saxlayar ki, başqaları rahatlıqda qərar tutsunlar.

49. Onun insanlardan uzaqlaşması paklanmasına görədir. Onun başqaları ilə ünsiyyəti rəhmət və mehribanlığa səbəb olar.

50. Onun insanlardan uzaqlaşması təkəbbürə görə deyildir, həmçinin yaxın olması və rabitəsi məkr və fırıldaqdan qaynaqlanmır.

Bir gün Müfəzzəl ibni Ömər adlı bir şəxs, İmam Sadiqlə (ə) əməllər haqda söhbət edərkən o həzrətə (ə) üz tutub dedi: Mənim əməllərim nə qədər zəifdir. İmam (ə) ona dedi: İstiğfar et. Daha sonra İmam Sadiq (ə) buyurdu: Təqva ilə birgə olan az əməl, təqvasız çox əməldən yaxşıdır. Mufəzzəl: Bu necə olur? İmam: Misal üçün bir şəxs qonşularına ehsan edir, amma haramla üzləşəndə özünə nəzarət edə bilmir (günah edir). Bu iş təqvasız iş hesab olur.

# HELM

## Quran ayələrində helm

### Helmli olmaq, Allahın xüsusiyyətlərindən biridir

وَلَا جُنَاحَ عَلَيْكُمْ فِيمَا عَرَّضْتُمْ بِهِ مِنْ خِطْبَةِ النِّسَاءِ أَوْ أَكْنَنْتُمْ فِي أَنْفُسِكُمْ عَلِمَ اللهُ أَنَّكُمْ سَتَذْكُرُونَهُنَّ وَلَٰكِنْ لَا تُوَاعِدُوهُنَّ سِرًّا إِلَّا أَنْ تَقُولُوا قَوْلًا مَعْرُوفًا وَلَا تَعْزِمُوا عُقْدَةَ النِّكَاحِ حَتَّىٰ يَبْلُغَ الْكِتَابُ أَجَلَهُ وَاعْلَمُوا أَنَّ اللهَ يَعْلَمُ مَا فِي أَنْفُسِكُمْ فَاحْذَرُوهُ وَاعْلَمُوا أَنَّ اللهَ غَفُورٌ حَلِيمٌ

Qadınlara elçi göndərmək istəyinizi işarə ilə bildirməkdə və ya ürəyinizdə gizlətməkdə sizə heç bir günah yoxdur. Allah bilir ki, siz onları xatırlayacaqsınız. Lakin onlarla gizlicə vədələşməyin, onlara yalnız (şəriətə) müvafiq qayda üzrə söz deyin. Gözləmə vaxtı başa çatmayıncaya qədər nikah etmək qərarına gəlməyin. Bilin ki, Allah sizin qəlblərinizdə olanları bilir. Ondan qorxun! Bilin ki, Allah Bağışlayandır, Rəhmlidir![1]

### İbrahim peyğəmbərin (ə) xüsusiyyətlərindən biri, onun helmli olmasıdır

وَمَا كَانَ اسْتِغْفَارُ إِبْرَاهِيمَ لِأَبِيهِ إِلَّا عَنْ مَوْعِدَةٍ وَعَدَهَا إِيَّاهُ فَلَمَّا تَبَيَّنَ لَهُ أَنَّهُ عَدُوٌّ لِلهِ تَبَرَّأَ مِنْهُ إِنَّ إِبْرَاهِيمَ لَأَوَّاهٌ حَلِيمٌ

İbrahimin öz atası üçün bağışlanma diləməsi isə sadəcə ona verdiyi vədə görə idi. Atasının Allaha düşmən olduğu ona bəlli olduqdan sonra isə ondan uzaqlaşdı. Həqiqətən, İbrahim (Allaha) çox yalvaran həlim bir kimsə idi.[2]

[1] (Bəqərə, 235).
[2] (Tövbə, 114).

İsmail peyğəmbərin (ə) xüsusiyyətlərindən biri, onun helmli olmasıdır

فَبَشَّرْنَاهُ بِغُلَامٍ حَلِيمٍ

Biz də onu həlim xasiyyətli bir oğlan uşağı ilə müjdələdik.[1]

Şueyb peyğəmbərin (ə) zamanında yaşayan insanlar onun helmli olduğunu etiraf ediblər

قَالُوا يَا شُعَيْبُ أَصَلَاتُكَ تَأْمُرُكَ أَنْ نَتْرُكَ مَا يَعْبُدُ آبَاؤُنَا أَوْ أَنْ نَفْعَلَ فِي أَمْوَالِنَا مَا نَشَاءُ إِنَّكَ لَأَنْتَ الْحَلِيمُ الرَّشِيدُ

Onlar dedilər: "Ey Şueyb! Atalarımızın ibadət etdikləri (tanrılardan), yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir? Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan".[2]

## Rəvayətlərdə helm

### Helmin mənası

İmam Əli (ə) buyurur: Helm hirsi boğmaq və nəfsinə malik olmaqdan ibarətdir.[3]

### Helmə yiyələnməklə, Peyğəmbərə (s) oxşar olarıq

İslam Peyğəmbəri (s) buyurur: Ey Əli! Əxlaqi baxımdan mənə oxşar şəxsi sənə tanıtdırımmı? Dedilər: Bəli. Peyğəmbər (s): Əxlaq və davranış cəhətdən ən yaxşınız, səbr cəhətdən ən böyüyünüz, qohum-yaxınlara qarşı ən çox yaxşılıq edən və içərinizdə ən insaflınız mənə ən yaxın şəxsdir.[4]

---

[1] (Saffat, 101).
[2] (Hud, 87).
[3] (Ğurərul-Hikəm,cild.1.səh.296).
[4] (Vəsailuş-Şiə,cild.6.səh.212).

### Qəzəb vaxtı helmin yaranması

İmam Əli (ə) buyurur: Helmin meyarı rahatçılıq vaxtı yox, qəzəb vaxtıdır.[1]

### Həqiqi abidin nişanəsi, helmdir

İmam Rza (ə) buyurur: İnsanın helmi olmasa, həqiqi ibadət edən sayılmaz.[2]

### Əziyyətlər qarşısında helmli olub, səbr etmək

İmam Əli (ə) buyurur: Helmli şəxs o şəxsdir ki, ona əziyyət verəndə səbr edər və zülm olunan vaxt əfv edər.[3]

## Helmin insana olan təsirləri

### a) Allah məhəbbətinə nail olmaq

Peyğəmbər (s) buyurur: Allah məhəbbəti o kəslərə şamil olar ki, əsəbləşəndə səbr edirlər.[4]

### b) Köməkçilərin çoxalması

İmam Əli (ə) buyurur: Helm vasitəsi ilə köməkçilər çoxalar.[5]

### c) Helm vasitəsi ilə düşmənə qalib gəlmək olar

İmam Əli (ə) buyurur: Öz düşməninə qarşı helmli olan, ona qalib gələr. .[6]

---

[1] (Nəhcül-Bəlağənin şərhi,cild.20.səh,316).
[2] (Usuli-Kafi,cild.3.səh,175).
[3] (Ğurərul-Hikəm,cild,1.səh,300).
[4] (Kənzul-Ummal,cild.3.səh,131).
[5] (Ğurərul-Hikəm,cild.1.səh,329).
[6] (Biharul-Ənvar.cild.68.səh,428).

# MƏNƏVİ PAKLIQ

## Quran ayələrində mənəvi paklıq

### Allah-taala mənəvi paklığı olanları sevir

لَا تَقُمْ فِيهِ أَبَدًا ۚ لَمَسْجِدٌ أُسِّسَ عَلَى التَّقْوَىٰ مِنْ أَوَّلِ يَوْمٍ أَحَقُّ أَنْ تَقُومَ فِيهِ ۚ فِيهِ رِجَالٌ يُحِبُّونَ أَنْ يَتَطَهَّرُوا ۚ وَاللَّهُ يُحِبُّ الْمُطَّهِّرِينَ

Heç vaxt orada namaz qılma. İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada pak olmağı sevən kişilər vardır. Allah da pak olanları sevir.[1]

### Quranla təmasda olmağın şərti, mənəvi paklıqdır

فِي كِتَابٍ مَكْنُونٍ لَا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ

Qorunub saxlanılan Yazıdadır (Lövhi-məhfuzdadır). Ona yalnız pak olanlar toxunur. [2]

### Məsum İmamlar (ə) mənəvi paklığa sahib idi

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

Ey Əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər![3]

---

[1] (Tövbə, 108).
[2] (Vaqiə, 78-79).
[3] (Əhzab, 33).

## Mənəvi paklığı əldə etməyin yolları

### Vacib zəkatı ödəmək

خُذْ مِنْ أَمْوَالِهِمْ صَدَقَةً تُطَهِّرُهُمْ وَتُزَكِّيهِمْ بِهَا وَصَلِّ عَلَيْهِمْ إِنَّ صَلَاتَكَ سَكَنٌ لَهُمْ وَاللهُ سَمِيعٌ عَلِيمٌ

Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan. Onlar üçün dua et. Çünki sənin duan onlar üçün bir təskinlikdir. Allah Eşidəndir, Biləndir.[1]

### Tövbə etmək

إِنَّ اللهَ يُحِبُّ التَّوَّابِينَ وَيُحِبُّ الْمُتَطَهِّرِينَ

Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da.[2]

### Başqalarının namusuna xəyanət etməmək

وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَاعًا فَاسْأَلُوهُنَّ مِنْ وَرَاءِ حِجَابٍ ذَٰلِكُمْ أَطْهَرُ لِقُلُوبِكُمْ وَقُلُوبِهِنَّ وَمَا كَانَ لَكُمْ أَنْ تُؤْذُوا رَسُولَ اللهِ وَلَا أَنْ تَنْكِحُوا أَزْوَاجَهُ مِنْ بَعْدِهِ أَبَدًا إِنَّ ذَٰلِكُمْ كَانَ عِنْدَ اللهِ عَظِيمًا

(Peyğəmbərin) zövcələrindən bir şey istədikdə, pərdə arxasından istəyin. Bu həm sizin qəlbinizə, həm də onların qəlbinə daha çox saflıq gətirər. Sizə Allahın Elçisini narazı salmaq, vəfatından sonra onun həyat yoldaşları ilə izdivac etmək qətiyyən yolverilməzdir. Həqiqətən, bu, Allah yanında böyük günahdır.[3]

---

[1] (Tövbə, 103).
[2] (Bəqərə, 222).
[3] (Əhzab, 53).

## Qüsl, təyəmmüm və ya dəstəmazlı olmaq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا قُمْتُمْ إِلَى الصَّلَاةِ فَاغْسِلُوا وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى الْمَرَافِقِ وَامْسَحُوا بِرُءُوسِكُمْ وَأَرْجُلَكُمْ إِلَى الْكَعْبَيْنِ وَإِنْ كُنْتُمْ جُنُبًا فَاطَّهَّرُوا وَإِنْ كُنْتُمْ مَرْضَىٰ أَوْ عَلَىٰ سَفَرٍ أَوْ جَاءَ أَحَدٌ مِنْكُمْ مِنَ الْغَائِطِ أَوْ لَامَسْتُمُ النِّسَاءَ فَلَمْ تَجِدُوا مَاءً فَتَيَمَّمُوا صَعِيدًا طَيِّبًا فَامْسَحُوا بِوُجُوهِكُمْ وَأَيْدِيكُمْ مِنْهُ مَا يُرِيدُ اللَّهُ لِيَجْعَلَ عَلَيْكُمْ مِنْ حَرَجٍ وَلَٰكِنْ يُرِيدُ لِيُطَهِّرَكُمْ وَلِيُتِمَّ نِعْمَتَهُ عَلَيْكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ

Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə (dirsəklərdən və ya dirsəklərə qədər) əllərinizi yuyun. (Yaş əlinizlə) başınızı və hər iki bəndə (oynağa) qədər ayaqlarınızı məsh edin. Əgər cünub (murdar) olmusunuzsa, qüsl edin (bədəninizi başdan ayağa qədər yuyub təmizləyin). Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaq yolundan gəldiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün (paklığı niyyət edib əllərinizi bir dəfə torpağa sürtərək üzünüzü, bir dəfə də torpağa sürtərək əllərinizi məsh edin). Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər ki, bəlkə, şükür edəsiniz![1]

## Üzrü qəbul etmək

فَإِنْ لَمْ تَجِدُوا فِيهَا أَحَدًا فَلَا تَدْخُلُوهَا حَتَّىٰ يُؤْذَنَ لَكُمْ وَإِنْ قِيلَ لَكُمُ ارْجِعُوا فَارْجِعُوا هُوَ أَزْكَىٰ لَكُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ عَلِيمٌ

Əgər orada heç kəsi tapmasanız, sizə izn verilməyincə oraya girməyin. Sizə: “Qayıdın!”– deyilsə, qayıdın. Bu, sizin üçün daha təmizdir. Allah nə etdiklərinizi bilir.[2]

[1] (Maidə, 6).
[2] (Nur, 28).

## Rəvayətlərdə mənəvi paklıq

### Qəlbin qısqanclıq xəstəliyindən müalicə olunması

İmam Əli (ə) buyurur: Qəlblərinizi qısqanclıq və həsəddən təmizləyin.[1]

### Ağızın günahdan paklanması

Peyğəmbər (s) buyurur: Ağzınızı günahdan pak edin. Çünki sizin ağzınız Quranın keçdiyi və tilavət olunduğu yerdir.[2]

### Qəlbin xəsislik xəstəliyindən paklanması

İmam Sadiq (ə) buyurur: Sərvətinin zəkatını ödəyən şəxs, qəlbini hərislik xəstəliyindən qorumuş olar.[3]

### Sağlam və paklaşmış nəfsin insana təsiri

Peyğəmbər (s) buyurur: Nəfsi paklamaqla saflıq yaranar.[4]

İmam Əli (ə) buyurur: Öz nəfsinizi şəhvət çirkinliklərindən paklayın ki, uca məqamlara yetişəsiniz.[5]

---

[1] (Ğurərul-Hikəm,hədis.6016).
[2] (Kənzul-Ummal,hədis,2752).
[3] (Məcməul-Bəyan,cild.10.səh,300).
[4] (Məcmuə Vəram,cild.2.səh,119).
[5] (Ğurərul-Hikəm,cild,2.səh,472).

# MƏNƏVİ NEMƏTLƏR

## Qurani-kərimə görə mənəvi nemətlər

Mərhəmətli Allahın insanlara bəxş etdiyi nemətlər iki növdür. Onlardan bəzisi zahiri nemətlərdir ki, insanların çoxusu daha çox bu nemətlərə daha çox diqqət yetirirlər. Bəzi nemətlər isə batini nemətlərdir ki, Quran ayələri və bir çox hədislərdə onlara işarə olunub. Misal üçün Allah-taalanın verdiyi nemətlər vasitəsi ilə insan özünə geyim alır. Bu geyim zahiri nemətdir. Amma təqva adlanan mənəvi bir geyim də var ki, Allah onu insanlar üçün batini bir geyim hesab edir. Bu nemətlərin bəzilərinə aşağıda işarə edirik.

### Mənəvi sağlamlıq

إِذْ جَاءَ رَبَّهُ بِقَلْبٍ سَلِيمٍ

Bir zaman o, öz Rəbbinin yanına pak bir qəlblə gəldi.[1]

### Mənəvi həyat

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً ۖ وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.[2]

---

[1] (Saffat, 84).
[2] (Nəhl, 97).

### Mənəvi zinət

وَاعْلَمُوا أَنَّ فِيكُمْ رَسُولَ اللَّهِ لَوْ يُطِيعُكُمْ فِي كَثِيرٍ مِنَ الْأَمْرِ لَعَنِتُّمْ وَلَٰكِنَّ اللَّهَ حَبَّبَ إِلَيْكُمُ الْإِيمَانَ وَزَيَّنَهُ فِي قُلُوبِكُمْ وَكَرَّهَ إِلَيْكُمُ الْكُفْرَ وَالْفُسُوقَ وَالْعِصْيَانَ أُولَٰئِكَ هُمُ الرَّاشِدُونَ

Bilin ki, Allahın Elçisi aranızdadır. Əgər o, bir çox işlərdə sizə güzəştə getsəydi, çətinliyə düşərdiniz. Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır.[1]

### Mənəvi yemək

فَلْيَنْظُرِ الْإِنْسَانُ إِلَىٰ طَعَامِهِ

Qoy insan yediyinə diqqət yetirsin (bir az!)[2]

### Mənəvi geyim

يَا بَنِي آدَمَ قَدْ أَنْزَلْنَا عَلَيْكُمْ لِبَاسًا يُوَارِي سَوْآتِكُمْ وَرِيشًا وَلِبَاسُ التَّقْوَىٰ ذَٰلِكَ خَيْرٌ ذَٰلِكَ مِنْ آيَاتِ اللَّهِ لَعَلَّهُمْ يَذَّكَّرُونَ

Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və bəzək-düzək nazil etdik. Təqva libası isə daha xeyirlidir. Bu, Allahın dəlillərindəndir. Bəlkə düşünüb (onlardan)ibrət alasınız.[3]

### Mənəvi vasitə

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَابْتَغُوا إِلَيْهِ الْوَسِيلَةَ وَجَاهِدُوا فِي سَبِيلِهِ لَعَلَّكُمْ تُفْلِحُونَ

---

[1] (Hucurat, 7).
[2] (Əbəsə, 24)
[3] (Əraf, 26).

Ey iman gətirənlər! Allahdan qorxun, Ona (yaxınlaşmaq üçün) vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız.[1]

**Mənəvi təharət**

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

Ey əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər![2]

**Mənəvi nemət**

ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ

Sonra, o gün nemətlər barəsində hökmən sorğu-suala tutulacaqsınız.[3]

**Mənəvi ruzi**

قَالَ يَا قَوْمِ أَرَأَيْتُمْ إِنْ كُنْتُ عَلَىٰ بَيِّنَةٍ مِنْ رَبِّي وَرَزَقَنِي مِنْهُ رِزْقًا حَسَنًا ۚ وَمَا أُرِيدُ أَنْ أُخَالِفَكُمْ إِلَىٰ مَا أَنْهَاكُمْ عَنْهُ ۚ إِنْ أُرِيدُ إِلَّا الْإِصْلَاحَ مَا اسْتَطَعْتُ ۚ وَمَا تَوْفِيقِي إِلَّا بِاللَّهِ ۚ عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ

O dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə gözəl bir ruzi veribsə, onda necə olsun?" Sizə qadağan etdiyim şeyləri etməklə sizin əleyhinizə çıxmaq istəmirəm. Mən ancaq bacardığım qədər islah etmək istəyirəm. Mən ancaq Allahın sayəsində uğur qazanıram. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam.[4]

---

[1] (Maidə, 35).
[2] (Əhzab, 33).
[3] (Təkasur, 8).
[4] (Hud, 88).

## Rəvayətlərdə mənəvi nemətlər

### Mənəvi gözəllik

İmam Əli (ə) buyurur: Batinin gözəlliyi, vicdanın gözəlliyidir.[1]

### Mənəvi cihad

Peyğəmbər (s) buyurur: Mücahid o şəxsdir ki, Allaha itaət etmək yolunda öz nəfsi ilə cihad edə.[2]

### Mənəvi şücaət

İmam Əli (ə) buyurur: Ən şücaətli şəxs o kəsdir ki, öz həva-həvəsinə qalib gəlsin.[3]

### Mənəvi sərvət

İmam Sadiq (ə) buyurur: Öz nəfsinə əsir olmayan, ən ehtiyacsız şəxsdir. .[4]

### Mənəvi zəkat

İmam Sadiq (ə) buyurur: Nemətlərin zəkatı yaxşı işlər, məqam-vəzifənin zəkatı şəfaət, cismin zəkatı əməl və qələbənin zəkatı əfvdir. Zəkatı verilən şey heç vaxt aradan getməz. .[5]

### Mənəvi ətir

İmam Əli (ə) buyurur: İstiğfar (Allahdan bağışlanmaq istəmək) vasitəsi ilə özünüzü xoşətirli edin ki, günahlarınızın iysi sizi rüsvay etməsin.[6]

### Mənəvi səyahət

Peyğəmbər (s) buyurur: Hər bir ümmətin istirahət və səyahəti var, mənim ümmətimin səhayəti isə Allah yolunda cihad etməkdir.[7]

### Mənəvi külək

---

[1] (Ğurərul-Hikəm,cild,1.səh,41).
[2] (Muhiccətul-Bəyza,cild.5.səh,115).
[3] (Ğurərul-hikəm).
[4] (Biharul-Ənvar.cild.73.səh,178).
[5] (Biharul-Ənvar.cild.78.səh,268).
[6] (Biharul-Ənvar.cild.93.səh,278).
[7] (Kənzul-Ummal, cild,4. səh,285).

Peyğəmbər (s) buyurur: Həqiqətən sizin yaşayışınızda bəzi vaxtlar (mənəvi) küləklər olur. Agah olun və o fürsətlərdən bəhrələnin. .[1]

## Mənəvi səfər

İmam Həsən Əsgəri (ə) buyurur: Allaha yetişmək, gecəni öz miniyinə çevirmədən dərk olunmayacaq bir səfərdir. (Məqsəd budur ki, Allaha yaxınlaşmaq gecə namazı qılmaqla mümkün olar). .[2]

## Mənəvi tərəzi

İmam Əli (ə) buyurur: Namaz tərəziyə bənzəyir ki, hər kim onu kamilləşdirsə, onun mükafatı da kamil olar.[3]

[1] (Biharul-Ənvar.cild.71.səh,221).
[2] (Biharul-Ənvar.cild.75.səh,380).
[3] (Nəhcül-Bəlağə, 392).

# ALLAHA QARŞI OLAN SEVGİ

## Quran ayələrinə əsasən Allaha qarşı olan sevgi

### İnsan bir qəlbə malikdir

مَا جَعَلَ اللَّهُ لِرَجُلٍ مِنْ قَلْبَيْنِ فِي جَوْفِهِ وَمَا جَعَلَ أَزْوَاجَكُمُ اللَّائِي تُظَاهِرُونَ مِنْهُنَّ أُمَّهَاتِكُمْ وَمَا جَعَلَ
أَدْعِيَاءَكُمْ أَبْنَاءَكُمْ ذَٰلِكُمْ قَوْلُكُمْ بِأَفْوَاهِكُمْ وَاللَّهُ يَقُولُ الْحَقَّ وَهُوَ يَهْدِي السَّبِيلَ

Allah bir adamın daxilində iki ürək yaratmamışdır. Allah (anaya bənzədərək) özünüzə haram etdiyiniz zövcələrinizi analarınız etməmiş, oğulluğa götürdüklərinizi də oğullarınız etməmişdir. Bunlar sizin dilinizə gətirdiyiniz (yalan) sözlərdir. Allah isə haqqı deyir və doğru yola yönəldir.[1]

### İnsanın qəlbi iman və sevgi mərkəzidir

لَا تَجِدُ قَوْمًا يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ يُوَادُّونَ مَنْ حَادَّ اللَّهَ وَرَسُولَهُ وَلَوْ كَانُوا آبَاءَهُمْ أَوْ أَبْنَاءَهُمْ أَوْ
إِخْوَانَهُمْ أَوْ عَشِيرَتَهُمْ أُولَٰئِكَ كَتَبَ فِي قُلُوبِهِمُ الْإِيمَانَ وَأَيَّدَهُمْ بِرُوحٍ مِنْهُ وَيُدْخِلُهُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا
الْأَنْهَارُ خَالِدِينَ فِيهَا رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ أُولَٰئِكَ حِزْبُ اللَّهِ أَلَا إِنَّ حِزْبَ اللَّهِ هُمُ الْمُفْلِحُونَ

Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. (Allah) onları (ağacları) altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır.[2]

### Allaha qarşı olan sevginin nişanəsi, Peyğəmbərə (s) tabe olmaqdır

---

[1] (Əhzab, 4).
[2] (Mucadilə, 22).

قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَاللَّهُ غَفُورٌ رَحِيمٌ

De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir”.[1]

## Əsl iman əhlinin Allaha qarşı olan sevgisinin şiddəti

وَمِنَ النَّاسِ مَنْ يَتَّخِذُ مِنْ دُونِ اللَّهِ أَنْدَادًا يُحِبُّونَهُمْ كَحُبِّ اللَّهِ ۖ وَالَّذِينَ آمَنُوا أَشَدُّ حُبًّا لِلَّهِ ۗ وَلَوْ يَرَى الَّذِينَ ظَلَمُوا إِذْ يَرَوْنَ الْعَذَابَ أَنَّ الْقُوَّةَ لِلَّهِ جَمِيعًا وَأَنَّ اللَّهَ شَدِيدُ الْعَذَابِ

İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini (Ona) tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər.[2]

## Başqalarına qarşı olan sevgini, Allaha qarşı olan sevgidən üstün tutmamalıyıq

قُلْ إِنْ كَانَ آبَاؤُكُمْ وَأَبْنَاؤُكُمْ وَإِخْوَانُكُمْ وَأَزْوَاجُكُمْ وَعَشِيرَتُكُمْ وَأَمْوَالٌ اقْتَرَفْتُمُوهَا وَتِجَارَةٌ تَخْشَوْنَ كَسَادَهَا وَمَسَاكِنُ تَرْضَوْنَهَا أَحَبَّ إِلَيْكُمْ مِنَ اللَّهِ وَرَسُولِهِ وَجِهَادٍ فِي سَبِيلِهِ فَتَرَبَّصُوا حَتَّىٰ يَأْتِيَ اللَّهُ بِأَمْرِهِ ۗ وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ

De: “Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yo-lunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz”.[3]

---

[1] (Ali-İmran, 31).
[2] (Bəqərə, 165).
[3] (Tövbə 24).

### Allahın mömin insana olan sevgisi

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا مَنْ يَرْتَدَّ مِنْكُمْ عَنْ دِينِهِ فَسَوْفَ يَأْتِي اللَّهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّونَهُ أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ يُجَاهِدُونَ فِي سَبِيلِ اللَّهِ وَلَا يَخَافُونَ لَوْمَةَ لَائِمٍ ذَٰلِكَ فَضْلُ اللَّهِ يُؤْتِيهِ مَنْ يَشَاءُ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ

Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah (onun əvəzinə) Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (hər şeyi) əhatə edəndir, Biləndir.[1]

## Rəvayətlərə əsasən Allaha qarşı olan sevgi

### Dünya sevgisi ilə Allah sevgisi bir-biri ilə uyğunlaşmaz

Peyğəmbər (s) buyurur: Allah sevgisi ilə dünya sevgisi bir qəlbdə yerləşməz.[2]

### İnsanın qəlbi Allah sevgisinin məskənidir

İmam Sadiq (ə) buyurur: Ürək Allah hərəmidir. Belə isə Allahın hərəmində Allahdan başqasına yer vermə. .[3]

### Sevgi dinin əsasıdır

İmam Sadiq (ə) buyurur: Din məhəbbətdən başqa bir şey deyil. Allah buyurur:
(Ya Rəsulum!) De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin.[4]

---

[1] (Maidə, 54).
[2] (Tənbihul-Xəvatir,səh,362).
[3] (Biharul-Ənvar.cild.70.səh,25).
[4] (Biharul-Ənvar.cild.69.səh,237).

### Allahın sevgisinə nail olmağı istəmək

İmam Zeynul-Abidin (ə) buyurur: Allahım, səndən istəyirəm ki, mənim qəlbimi sənin sevgi və qorxun ilə doldurub, səni təsdiq edib və sənə iman gətirmiş olam. .[1]

### Allaha olan məhəbbətin nişanələri

Allah Rəsulu (s) buyurur: Allaha qarşı olan sevginin nişanəsi Allahı yada salmağı sevmək, Allaha qarşı nifrətin nişanəsi isə, onu yada salmağı nifrət etməkdir.[2]

### Allah sevgisinin ölçüsü

İmam Sadiq (ə) buyurur: Hər kim istəsə bilə ki, Allah dərgahında onun məqamı nə həddədir, Allahın onun yanındakı məqamına baxsın. .[3]

## Allaha olan sevginin insana olan təsirləri

**a)** Allaha olan sevgi vasitəsi ilə, Allahın insana xüsusi bir nəzəri olar.

Peyğəmbər (s) buyurur: Əgər Allah bir bəndəni sevsə, onun (Allaha dua edərkən) naləsini eşitmək üçün onu sınağa çəkər.[4]

**b)** Allaha məhəbbəti olan şəxs, Allaha itaət edər, qənaətcil olar və dini dərkə yetişər.

İmam Sadiq (ə) buyurur: Əgər Allah hər hansı bir bəndəni sevsə, ona öz itaətini ilham edər, qənaətçiliyə məcbur edər və dində fəqih edər. .[5]

**c)** Allah sevgisi insanın əmanətə riayət etməsinə səbəb olar.

İmam Əli (ə) buyurur: Əgər Allah hər hansı bir şəxsi sevsə, ona əmanətə riayət etməyi sevdirər.[6]

## Hansı amillər səbəb olar ki,

---

[1] (Biharul-Ənvar.cild.98.səh,89).
[2] (Kənzul-Ummal,hədis,1776).
[3] (Biharul-Ənvar.cild.71.səh,156).
[4] (Məcmuə Vəram,səh,5).
[5] (Biharul-Ənvar.cild.100.səh,26).
[6] (Təsnif-Ğurərə,səh,251).

## Allah-taalanın insana qarşı məhəbbəti olsun?

**Cavab:**

**a)** Dünyaya qarşı nifrət

İsa peyğəmbərdən (ə) soruşdular ki, bizə bir əməl öyrət ki, Allah (O əməlin vasitəsi ilə) bizi sevsin. (İsa) buyurdu: Dünyaya qarşı nifrətin olsun, Allah sizi sevəcək. .[1]

**b)** Ölümü yada salmaq

Peyğəmbər (s) buyurur: Ölümü çox yada salan şəxsi Allah sevir. .[2]

**c)** Günahkarlara qarşı nifrət

İmam Sadiq (ə) buyurur: Allahın dostluğunu əldə etmək istədim və onu günahlara düşmən olmaqda tapdım.[3]

**d)** İnsanlara kömək etmək

Allah-taala buyurur: . . . Ən sevimli insanlar o şəxslərdir ki, insanlara qarşı daha çox yaxşılıq edə və onların ehtiyaclarının təmin olunmasında daha çox səy göstərə.[4]

### Allahın bəyəndiyi əməllər

**a) Mömini sevindirmək**

İmam Muhəmməd Baqir (ə) buyurur: Allah dərgahında ən sevimli iş mömini sevindirmək, onun qarnını doyuzdurmaq, çətinliklərini həll etmək və onun borcunu verməkdir. .[5]

**b) İmam Hüseynin (ə) qəbrini ziyarət etmək**

---

[1] (Biharul-Ənvar.cild.14.səh,327).
[2] (Biharul-Ənvar.cild.75.səh,126).
[3] (Mustədrəkul-Vəsail,cild.2.səh,357).
[4] (Usuli-Kafi,cild,2.səh,199).
[5] (Biharul-Ənvar.cild.74.səh,297).

İmam Sadiq (ə) buyurur: Allahın ən sevdiyi əməllərdən biri, İmam Hüseyni (ə) ziyarət etməkdir.[1]

**c) Dua etmək**

İmam Əli (ə) buyurur: Allaha görə yer üzündə ən sevimli əməl, dua etməkdir..[2]

**d) Az danışmaq, az yatmaq və az yemək**

Peyğəmbər (s) buyurur: Üç əməl var ki, Allah onları sevir. Az danışmaq, az yatmaq və az yemək.[3]

---

[1] (Biharul-Ənvar.cild.101.səh,49).
[2] (Biharul-Ənvar.cild.93.səh,295).
[3] (Tənbihul-Xəvatir,cild.2.səh,213).

# İXLAS

## Quran ayələrində ixlas

### Dində ixlasa riayət etmək

وَمَا أُمِرُوا إِلَّا لِيَعْبُدُوا اللهَ مُخْلِصِينَ لَهُ الدِّينَ حُنَفَاءَ وَيُقِيمُوا الصَّلَاةَ وَيُؤْتُوا الزَّكَاةَ وَذَٰلِكَ دِينُ الْقَيِّمَةِ

Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur![1]

### Qiyaməti yada salmaq, ixlasın amilidir

إِنَّا أَخْلَصْنَاهُمْ بِخَالِصَةٍ ذِكْرَى الدَّارِ

Biz onları Axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik.[2]

### Yaşayışın bütün sahələrində ixlasa riayət etmək

قُلْ إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلَّهِ رَبِّ الْعَالَمِينَ

De: Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allaha məxsusdur![3]

### İxlas, saleh insanların daimi proqramıdır

[1] (Bəyyinə, 5).
[2] (Sad, 46).
[3] (Ənam, 162).

إِنَّ الْأَبْرَارَ يَشْرَبُونَ مِنْ كَأْسٍ كَانَ مِزَاجُهَا كَافُورًاعَيْنًا يَشْرَبُ بِهَا عِبَادُ اللَّهِ يُفَجِّرُونَهَا تَفْجِيرًايُوفُونَ بِالنَّذْرِ وَيَخَافُونَ يَوْمًا كَانَ شَرُّهُ مُسْتَطِيرًاوَيُطْعِمُونَ الطَّعَامَ عَلَىٰ حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًاإِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنْكُمْ جَزَاءً وَلَا شُكُورًا

Sözsüz ki, itaətkarlar kafur qatılmış (şərabla dolu) badələrdən nuş edəcəklər. (Bu elə) bir bulaqdır ki, Allahın qulları ondan (doyunca) içər və onun mənsəbini istədikləri səmtə yönəldərlər. Onlar vəd etdikləri nəziri verər və vəhşəti (hər yeri) sarsıdacaq Gündən qorxarlar. Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər, (və deyərlər): “Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik![1]

## Muxlis (İxlaslı) bəndələrdən bəziləri

### Musa (ə) peyğəmbər:

وَاذْكُرْ فِي الْكِتَابِ مُوسَىٰ ۚ إِنَّهُ كَانَ مُخْلَصًا وَكَانَ رَسُولًا نَبِيًّا

Kitabda Musanı da xatırla! Həqiqətən o, seçilmiş bir elçi və peyğəmbər idi.[2]

### Yusif (ə) peyğəmbər:

وَلَقَدْ هَمَّتْ بِهِ ۖ وَهَمَّ بِهَا لَوْلَا أَنْ رَأَىٰ بُرْهَانَ رَبِّهِ ۚ كَذَٰلِكَ لِنَصْرِفَ عَنْهُ السُّوءَ وَالْفَحْشَاءَ ۚ إِنَّهُ مِنْ عِبَادِنَا الْمُخْلَصِينَ

(Qadın) ona meyl etmişdi. Əgər (Yusif) Rəbbinin dəlilini görməsəydi, o da ona meyl edərdi. Beləcə, Biz pisliyi və çirkin əməli ondan uzaqlaşdırdıq. Həqiqətən, o, Bizim seçilmiş qullarımızdandır.[3]

---

[1] (İnsan, 5-9).
[2] (Məryəm, 51).
[3] (Yusif, 24).

Muhəmməd (s) peyğəmbər:

قُلْ إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلَّهِ رَبِّ الْعَالَمِينَ

De: Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allaha məx-susdur![1]

Həzrət Əli (ə):

وَمِنَ النَّاسِ مَنْ يَشْرِي نَفْسَهُ ابْتِغَاءَ مَرْضَاتِ اللَّهِ وَاللَّهُ رَءُوفٌ بِالْعِبَادِ

İnsanların eləsi də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir.[2]

## Muxlis insanların üstünlüyü

### 1- İxlasa malik olan insan şeytanın zərərlərindən amanda qalar

قَالَ رَبِّ بِمَا أَغْوَيْتَنِي لَأُزَيِّنَنَّ لَهُمْ فِي الْأَرْضِ وَلَأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ إِلَّا عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ

(İblis) dedi: “Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə, mən də yer üzündə onlara (pis işləri) gözəl göstərib onların hamısını azdıracağam. Yalnız Sənin sadiq qullarından başqa”.[3]

### 2- Muxlislər, etdiyi yaxşı əməllərdən daha çox savab alarlar

وَمَا تُجْزَوْنَ إِلَّا مَا كُنْتُمْ تَعْمَلُونَ إِلَّا عِبَادَ اللَّهِ الْمُخْلَصِينَ

Siz ancaq etdiyiniz əməllərin cəzasını alacaqsınız. Lakin Allahın seçilmiş (ixlaslı) qulları müstəsnadırlar.[4]

[1] (Ənam, 161).
[2] (Bəqərə, 207).
[3] (Hicr, 39-40).
[4] (Saffat, 39-40).

### 3- Muxlislər qiyamət gününün hesab-kitabında rahat olacaqlar

فَكَذَّبُوهُ فَإِنَّهُمْ لَمُحْضَرُونَ إِلَّا عِبَادَ اللَّهِ الْمُخْلَصِينَ

Onlar onu yalançı saydılar. Ona görə də hamısı (Cəhənnəmə) gətiriləcəkdir. Yalnız Allahın seçilmiş (səmimi)qullarından başqa.[1]

### 4- İxlaslı şəxslər dünyada İlahi əzabdan nicat taparlar

فَانْظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُنْذَرِينَ إِلَّا عِبَادَ اللَّهِ الْمُخْلَصِينَ

Bax gör xəbərdar edilənlərin aqibəti necə oldu. Yalnız Allahın seçilmiş (səmimi) qullarından başqa.[2]

### 5- Muxlislərdən başqa Allahı təsvir etməyə heç kimin haqqı yoxdur

سُبْحَانَ اللَّهِ عَمَّا يَصِفُونَ إِلَّا عِبَادَ اللَّهِ الْمُخْلَصِينَ

Allah onların (Ona) aid etdikləri sifətlərdən uzaqdır. Yalnız Allahın seçilmiş (səmimi) qullarından başqa.[3]

## Rəvayətlərdə ixlas

### İxlasın əhəmiyyəti

İmam Əli (ə) buyurur: Xoş halına o kəsin ki, dua və ibadətini ixlasla yerinə yetirir, qəlbini gözləri gördükləri şeylərə bağlamır və eşitdikləri şeylər onu Allahı yada salmağa mane olmur.[4]

---

[1] (Saffat, 127-128).
[2] (Saffat, 73-74).
[3] (Saffat, 159-160).
[4] (Usuli-Kafi,cild.2.səh,16).

# İxlasın təsirləri

## 1- Zöhd

İmam Əli (ə) buyurur: Xoş halına o kəsin ki, öz elm, əməl, dostluq, düşmənçilik, qəbul etmək(hər hansı bir şeyi), tərk etmək, sakit qalmaq, danışıq və davranışını Allaha xatir və ixlasla yerinə yetirmiş olsun. İnsan o vaxt həqiqi müsəlman hesab olar ki, təqva əhli olsun. Təqvalı olmaq da yalnız zöhd vasitəsi ilə mümkündür. [1]

## 2- Allah yanında sevimli bəndə olmaq

İmam Əli (ə) buyurur: Allah yanında ən sevimli bəndə, ixlaslı bəndədir.[2]

## 3- Aqibətin yaxşı olması

Həzrət Fatimə (s) buyurur: Hər kəs ki, ibadətini sırf Allaha xatir yerinə yetirsə, Allah-taala ona ən yaxşı məsləhətləri qismət edər.[3]

## 4- Həqiqi azadlığa nail olmaq

İmam Əli (ə) buyurur: İnsanlar ixlas vasitəsi ilə əsirlikdən azad olarlar.[4]

## 5- Hikmətin qəlbdən dilə cari olması

Peyğəmbər (s) buyurur: Hər kim qırx gün öz əməllərini Allaha xatir ixlasla yerinə yetirsə, hikmət çeşmələri qəlbindən dilinə cari olar. .[5]

## 6- Xoşbəxtliyə nail olmaq

İmam Əli (ə) buyurur: Ən xoşbəxt insan o kəsdir ki, itaətini sırf Allaha xatir yerinə yetirmiş olsun.[6]

## 7- Hədəfə çatmaq

İmam Əli (ə)buyurur: İxlaslı ol ki, hədəfinə yetişəsən.[7]

## 8- Mərifət və bəsirət əldə etmək

---

[1] (Biharul-Ənvar.cild.70.səh,229).
[2] (Nəhcül-Bəlağə,xütbə,87).
[3] (Biharul-Ənvar.cild.70.səh,250).
[4] (Usuli-Kafi,cild.2.səh,340).
[5] (Biharul-Ənvar.cild.70.səh,242).
[6] (Ğurərul-Hikəm,cild1.səh,46).
[7] (Ğurərul-Hikəm).

İmam Əli (ə) buyurur: İxlas vasitəsi ilə insanın bəsirət və baxışı nurlu olar.[1]

## 9- Əməllərin qəbul olma şərti ixlasdır

Peyğəmbər (s) buyurur: Əməllərinin hamısını ixlasla və sırf Allahın razılığını qazanmaq üçün yerinə yetir. Çünki Allah dərgahında yalnız ixlaslı əməllər qəbul olar. .[2]

[1] (Həmin mənbə).

[2] (Biharul-Ənvar.cild.77.səh,30).

## Quranda yəqin

### Axirət aləminə yəqin etmək, təqvalı insanların xüsusiyyətlərindəndir

ذَٰلِكَ الْكِتَابُ لَا رَيْبَ ۛ فِيهِ ۛ هُدًى لِلْمُتَّقِينَ الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ وَيُقِيمُونَ الصَّلَاةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ وَالَّذِينَ يُؤْمِنُونَ بِمَا أُنْزِلَ إِلَيْكَ وَمَا أُنْزِلَ مِنْ قَبْلِكَ وَبِالْآخِرَةِ هُمْ يُوقِنُونَ

Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır. O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyirlər; O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar.[1]

### Axirət aləminə yəqin etmək, iman əhlinin əlamətlərindəndir

هُدًى وَبُشْرَىٰ لِلْمُؤْمِنِينَ الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ بِالْآخِرَةِ هُمْ يُوقِنُونَ

Möminlərə doğru yolu göstərən rəhbər və müjdədir. O kəslərin ki, namaz qılır, zəkat verir və axirətə qətiyyətlə inanırlar.[2]

### Axirət aləminə yəqin etmək, yaxşı əməl sahiblərinin əlamətlərindəndir

تِلْكَ آيَاتُ الْكِتَابِ الْحَكِيمِ هُدًى وَرَحْمَةً لِلْمُحْسِنِينَ الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ بِالْآخِرَةِ هُمْ يُوقِنُونَ

[1] (Bəqərə. 2, 3, 4).
[2] (Nəml, 2-3).

Bu, hikmətli Kitabın ayələridir. Xeyirxah əməl sahiblərinə doğru yolu göstəricisi və rəhmətdir. O kəslərə ki, namaz qılır, zəkat verir və axirətə qətiyyətlə inanırlar.[1]

### Yəqin, ilahi rəhbərlərin xüsusiyyətlərindəndir

وَجَعَلْنَا مِنْهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا لَمَّا صَبَرُوا وَكَانُوا بِآيَاتِنَا يُوقِنُونَ

Səbr etdiklərinə və ayələrimizə yəqinliklə inandıqlarına görə Biz əmrimizlə onlardan doğru yolu göstərən rəhbərlər təyin etmişdik.[2]

### İbadət etməkdən məqsəd, yəqin məqamına yetişməkdir

وَاعْبُدْ رَبَّكَ حَتَّىٰ يَأْتِيَكَ الْيَقِينُ

Sənə ölüm gələnədək Rəbbinə ibadət et.[3]

## Rəvayətlərdə yəqin

### Yəqinin dəyəri

Peyğəmbər (s) buyurur: Yəqin, insanın qəlbində yerləşən ən yaxşı şeydir. [4]

### Yəqin, qiymətli ləl-cəvahirdir

İmam Sadiq (ə) buyurur: Həqiqətən də iman  İslamdan, yəqin isə imandan üstündür və yəqindən az tapılan şey yoxdur.[5]

### Yəqin ən yaxşı ibadətdir

İmam Əli (ə) buyurur: Yəqin ən yaxşı ibadətdir.[6]

### Yəqin ən uca kamillik dərəcəsidir

---

[1] (Loğman. 2, 3, 4).
[2] (Səcdə, 24).
[3] (Hicr, 99).
[4] (Əmali,səh,395).
[5] (Usuli-Kafi,cild.2.səh,51).
[6] (Ğurərul-Hikəm,səh.856).

İmam Rza (ə) buyurur: İman İslamdan, təqva imandan və yəqin təqvadan bir mərtəbə üstündür və bəndələr arasında yəqindən az bölünən şey yoxdur.[1]

### Yəqinin əlamətləri

İmam Əli (ə) buyurur: (Aşağıda zikr olunan) Üç vasitə ilə insanın yəqin əhli olmasını bilmək olar: Arzuların az olması, əməldə ixlas və dünyaya qarşı meyilsiz olmaq.[2]

### Yəqinin aradan getməsinə səbəb olan əməl

İmam Əli (ə) buyurur: Dünya malına ürək bağlamaq insanın dinini süstləşdirib, onun yəqinini aradan aparar.[3]

### Yəqinin ülgü və nümunəsi

İmam Əli (ə) buyurur: Əgər pərdə (mənəvi pərdə) aradan qaldırılsa, mənim yəqinim artmaz.[4]

## Yəqinin insana olan təsiri

### a) Səbr

İmam Əli (ə) buyurur: Yəqin əhlinin silahı, bəla qarşısında səbr və rahatçılıq zamanı şükr etməsidir.[5]

### b) Təvəkkül

İmam Əli (ə) buyurur: Allaha düzgün şəkildə təvəkkül etmək, yəqinin düzgün olmasının göstəricisidir.[6]

### c) Razılıq

İmam Əli (ə) buyurur: Allahın hökmü və insana bəxş etdiklərinə razı olmaq, insanın yəqininin düzgün olmasının əlamətidir.[7]

---

[1] (Usuli-Kafi,cild.2.səh,5).
[2] (Ğurərul-Hikəm,hədis,10970).
[3] (Ğurərul-Hikəm,hədis 4879).
[4] (Ğurərul-Hikəm,hədis,7569).
[5] (Ğurərul-Hikəm,hədis,5560).
[6] (Ğurərul-Hikəm,hədis,4286).
[7] (Ğurərul-Hikəm,hədis,4284).

# TƏVƏKKÜL

## Quranda təvəkkül

### Allaha təvəkkül

فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللهِ إِنَّ اللهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ

Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.[1]

### Möminlərin Allaha sığınması

قَالَتْ لَهُمْ رُسُلُهُمْ إِنْ نَحْنُ إِلَّا بَشَرٌ مِثْلُكُمْ وَلَٰكِنَّ اللهَ يَمُنُّ عَلَىٰ مَنْ يَشَاءُ مِنْ عِبَادِهِ وَمَا كَانَ لَنَا أَنْ نَأْتِيَكُمْ بِسُلْطَانٍ إِلَّا بِإِذْنِ اللهِ وَعَلَى اللهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ

Elçiləri (onlara) dedilər: "Biz də sizin kimi bir insanıq. Lakin Allah Öz qullarından istədiyinə lütfkarlıq edir. Allahın izni olmadan biz sizə heç bir dəlil gətirə bilmərik. Qoy möminlər ancaq Allaha təvəkkül etsinlər.[2]

### Allaha təvəkkül edənlərə şeytan müsəllət olmaz

إِنَّهُ لَيْسَ لَهُ سُلْطَانٌ عَلَى الَّذِينَ آمَنُوا وَعَلَىٰ رَبِّهِمْ يَتَوَكَّلُونَ

Şübhəsiz ki, şeytanın, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur.[3]

---

[1] (Ali-İmran, 159).
[2] (İbrahim, 11).
[3] (Nəhl, 99).

### Şura surəsinə əsasən, Allaha təvəkkül edənlərin yeddi növ xüsusiyyəti

وَالَّذِينَ يَجْتَنِبُونَ كَبَائِرَ الْإِثْمِ وَالْفَوَاحِشَ وَإِذَا مَا غَضِبُوا هُمْ يَغْفِرُونَ وَالَّذِينَ اسْتَجَابُوا لِرَبِّهِمْ وَأَقَامُوا الصَّلَاةَ وَأَمْرُهُمْ شُورَىٰ بَيْنَهُمْ وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ وَالَّذِينَ إِذَا أَصَابَهُمُ الْبَغْيُ هُمْ يَنْتَصِرُونَ

O kəslər üçün ki, böyük günahlardan və çirkin əməllərdən çəkinir, qəzəbləndikləri zaman (xətanı) bağışlayırlar, O kəslər üçün ki, Rəbbinin dəvətini qəbul edir, namaz qılır, işləri barədə öz aralarında məsləhətləşir, onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyirlər. O kəslər üçün ki, haqsızlığa məruz qaldıqda intiqam alırlar.[1]

### Təvəkkül əhli Allahın sevimli bəndələridir

فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللهِ إِنَّ اللهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ

Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.[2]

### Nə üçün Allaha təvəkkül etməliyik?

**Cavab:** Çünki. . .

**1-** Allah ən yaxşı sığınacaqdır

الَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُوا لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَانًا وَقَالُوا حَسْبُنَا اللهُ وَنِعْمَ الْوَكِيلُ

(Bəzi) adamlar onlara: “Camaat sizə qarşı (ordu) toplayıbdır, onlardan qorxun!”– dedilər. Bu, onların imanını daha da artırdı və onlar: “Allah bizə yetər. O nə gözəl Qoruyandır!”– dedilər.[3]

**2-** Allah bütün canlıların sığınacağıdır

---

[1] (Şura, 37-39).
[2] (Ali-İmran, 159).
[3] (Ali-İmran, 173).

فَلَعَلَّكَ تَارِكٌ بَعْضَ مَا يُوحَىٰ إِلَيْكَ وَضَائِقٌ بِهِ صَدْرُكَ أَنْ يَقُولُوا لَوْلَا أُنْزِلَ عَلَيْهِ كَنْزٌ أَوْ جَاءَ مَعَهُ مَلَكٌ إِنَّمَا أَنْتَ نَذِيرٌ وَاللَّهُ عَلَىٰ كُلِّ شَيْءٍ وَكِيلٌ

Onların: "Nə üçün ona bir xəzinə endirilməyib yaxud onunla bir mələk gəlməyib?"– deməkləri üzündən, bəlkə də, sənə gələn vəhyin bir hissəsini tərk edəcəksən və buna görə köksün daralacaq. Sən ancaq qorxudansan. Allah isə hər şeyi Qoruyandır.[1]

**3-** Hər kim Allaha sığınsa, Allah ona kifayət edər

وَيَرْزُقْهُ مِنْ حَيْثُ لَا يَحْتَسِبُ وَمَنْ يَتَوَكَّلْ عَلَى اللَّهِ فَهُوَ حَسْبُهُ إِنَّ اللَّهَ بَالِغُ أَمْرِهِ قَدْ جَعَلَ اللَّهُ لِكُلِّ شَيْءٍ قَدْرًا

və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü qoymuşdur.[2]

**4-** Allah həmişə sağdır

**5-** Allah hər şeydən xəbərdardır

**6-** Allah bütün şeyə hakimdir

وَتَوَكَّلْ عَلَى الْحَيِّ الَّذِي لَا يَمُوتُ وَسَبِّحْ بِحَمْدِهِ وَكَفَىٰ بِهِ بِذُنُوبِ عِبَادِهِ خَبِيرًا الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَىٰ عَلَى الْعَرْشِ الرَّحْمَٰنُ فَاسْأَلْ بِهِ خَبِيرًا

Ölməz, (əbədi) Yaşayana təvəkkül et və Onu həmd-səna ilə tərif lə. Onun Öz qullarının günahlarından agah olması kifayətdir. O, göyləri, yeri və onların arasındakıları altı gündə yaratdı, sonra da Ərşə ucaldı. O, ər-Rəhmandır. Bunu biləndən soruş![3]

---

[1] (Hud, 12).
[2] (Təlaq, 3).
[3] (Furqan, 58-59).

**7-** Allah heç vaxt məğlub olmur

وَتَوَكَّلْ عَلَى الْعَزِيزِ الرَّحِيمِ

Qüdrətli və Rəhmli olana təvəkkül et![1]

**8-** Allah insanları düz yola hidayət edəndir

وَمَا لَنَا أَلَّا نَتَوَكَّلَ عَلَى اللَّهِ وَقَدْ هَدَانَا سُبُلَنَا وَلَنَصْبِرَنَّ عَلَىٰ مَا آذَيْتُمُونَا وَعَلَى اللَّهِ فَلْيَتَوَكَّلِ الْمُتَوَكِّلُونَ

(Allah) bizə yollarımızı göstərdiyi halda, biz nə üçün Allaha təvəkkül etməyək? Sizin bizə verdiyiniz əziyyətlərə dözəcəyik. Qoy təvəkkül edənlər ancaq Allah təvəkkül etsinlər".[2]

**9-** Allahın rəhməti hamıya şamildir

قُلْ هُوَ الرَّحْمَٰنُ آمَنَّا بِهِ وَعَلَيْهِ تَوَكَّلْنَا فَسَتَعْلَمُونَ مَنْ هُوَ فِي ضَلَالٍ مُبِينٍ

De: "O, ər-Rəhmandır! Biz Ona iman gətirib, Ona təvəkkül etmişik. Kimin tam azğınlıq içində olduğunu (tezliklə) biləcəksiniz.[3]

## Rəvayətlərdə təvəkkül

### Təvəkkül imanın rüknlərindən biridir

İmam Rza (ə) buyurur: İman dörd sütun üzərində qurulub. (Həmin dörd sütun) Allaha təvəkkül etmək, onun qəza-qədərinə razı olmaq, onun əmrləri qarşısında təslim olmaq və işləri ona tapşırmaqdan ibarətdir.[4]

---

[1] (Şüəra, 217).
[2] (İbrahim, 12).
[3] (Mülk, 29).
[4] (Qurbul-Əsnad, səh,354).

### Təvəkkülün həqiqəti

İmam Sadiqdən (ə) təvəkkülün həddi haqqında soruşdular və o, belə buyurdu: Allah olan halda heç bir şeydən qorxmayasan.[1]

Həmçinin Peyğəmbərdən (s) təvəkkülün mənası haqda soruşanda, o həzrət belə cavab verdi: İnsan bilə ki, yaradılmış insana ziyan və fayda yetirə bilməz, ona hər hansı bir şeyi verib, onu hər hansı bir şeydən uzaqlaşdıra bilməz və gərək insanlara ümid bəsləməyə. Əgər insan bu xüsusiyyətlərə yiyələnsə, Allahdan başqa heç kimə arxalanmaz, ümid bəsləməz, heç kimə tamah salmaz. Budur təvəkkülün mənası.[2]

## Təvəkkülün insana təsirləri

**a)** Çətinliklərin asanlaşması

İmam Əli (ə) buyurur: Hər kim Allaha sığınsa, çətinliklər onun üçün asanlaşar və (problemlərin həlli üçün lazım olan) vasitələr onun üçün təşkil olunar.[3]

**b)** Qalibiyyət

İmam Muhəmməd Baqir (ə) buyurur: Allaha təvəkkül edən şəxs məğlub olmaz və ona əl uzadan heç vaxt sınmaz.[4]

**c)** Allah insana kifayət edər

İmam Əli (ə) buyurur: Hər kimin Allaha inamı olsa, onu şad edər və Allah ona sığınan şəxsin işlərini təmin edər.[5]

### Təvəkkül, təkamülün nərdivanıdır

---

[1] (Biharul-Ənvar, cild.71,Səh,156).
[2] (Məanil-Əxbar, səh,261).
[3] (Təsnif Ğurər, Səh,197).
[4] (Camiul-Əxbar, səh,322).
[5] (Həmin mənbə).

İmam Cavad (ə) buyurur: Allaha inam hər bir qiymətli şeydən üstündür və yüksək işlər üçün uca nərdivandır.[1]

## Təvəkkülün əlaməti

İmam Əli (ə) buyurur: Allahın qəza-qədərinə razı olan şəxs, gərək ona təvəkkül etsin.[2]

### Allaha təvəkkül etməməyin nəticəsi

Peyğəmbər (s) buyurur: Allah-taala bəzi peyğəmbərlərinə vəhy edib buyurdu ki, and olsun İzzət-cəlalıma, nə vaxt ki, kimsə məndən başqasına ümid bəsləmiş olsa, onun arzularını kəsər, onu ümidsiz edərəm və (cəhənnəm) atəşində ona zillət paltarı geyindirərəm. Müşküllərin həlli mənim əlimdə olan halda, mənim bəndəm öz çətinliklərindən məndən başqasına ümid bəsləyir? O məndən başqasına ümid bəsləyir bir halda ki, mən ehtiyacsız və çox bəxş edənəm. . .[3]

[1] (Biharul-Ənvar, cild.78, səh.364).
[2] (Ğurərul-Hikəm, hədis, 10936).
[3] (Biharul-Ənvar, cild.71, səh.154)

# TƏSLİM

## Quran baxımından Allaha təslim olmaq

### Allah qarşısında təslim olmağın əhəmiyyəti

وَلِكُلِّ أُمَّةٍ جَعَلْنَا مَنْسَكًا لِيَذْكُرُوا اسْمَ اللَّهِ عَلَىٰ مَا رَزَقَهُمْ مِنْ بَهِيمَةِ الْأَنْعَامِ فَإِلَٰهُكُمْ إِلَٰهٌ وَاحِدٌ فَلَهُ أَسْلِمُوا وَبَشِّرِ الْمُخْبِتِينَ

Biz hər bir ümmət üçün qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi olaraq verdiyi heyvanları (qurban kəsərkən) Allahın adını çəksinlər. Sizin tanrınız Tək olan İlahdır. Yalnız Ona itaət edin. Sən müti olanlara müjdə ver;[1]

### Peyğəmbərin (s) hökmü qarşısında təslim olmaq, imanın nişanəsidir

فَلَا وَرَبِّكَ لَا يُؤْمِنُونَ حَتَّىٰ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لَا يَجِدُوا فِي أَنْفُسِهِمْ حَرَجًا مِمَّا قَضَيْتَ وَيُسَلِّمُوا تَسْلِيمًا

Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar.[2]

### Ən yaxşı din, Allah qarşısında təslim olmaqla yaranır

وَمَنْ أَحْسَنُ دِينًا مِمَّنْ أَسْلَمَ وَجْهَهُ لِلَّهِ وَهُوَ مُحْسِنٌ وَاتَّبَعَ مِلَّةَ إِبْرَاهِيمَ حَنِيفًا وَاتَّخَذَ اللَّهُ إِبْرَاهِيمَ خَلِيلًا

Yaxşı işlər görərək Allaha təslim olan və hənif olaraq İbrahim dininin ardınca gedən şəxsdən din baxımından daha gözəl kim ola bilər? Allah İbrahimi sevimli dost tutmuşdur.[3]

---

[1] (Həcc, 34).
[2] (Nisa, 65).
[3] (Nisa, 125).

**Bütün işlərdə Allaha təslim olmaq**

قُلْ إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلَّهِ رَبِّ الْعَالَمِينَ

De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allaha məxsusdur![1]

**Özümüz və övladlarımızın təslim məqamına yetişməsi üçün, dua etməyin əhəmiyyəti**

رَبَّنَا وَاجْعَلْنَا مُسْلِمَيْنِ لَكَ وَمِنْ ذُرِّيَّتِنَا أُمَّةً مُسْلِمَةً لَكَ وَأَرِنَا مَنَاسِكَنَا وَتُبْ عَلَيْنَا إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ

Ey Rəbbimiz! İkimizi də Sənə təslim olacaq, nəslimizdən də Sənə təslim olan bir ümmət et. Bizə ibadət qaydalarını göstər və bizim tövbələrimizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən![2]

## Allaha təslim olanlardan bəzi nümunələr

**1- İbrahim (ə)**

إِذْ قَالَ لَهُ رَبُّهُ أَسْلِمْ قَالَ أَسْلَمْتُ لِرَبِّ الْعَالَمِينَ

Rəbbi ona: "Təslim ol!"– dedikdə, o: "Aləmlərin Rəbbinə təslim oldum!"– demişdi.[3]

**2- İbrahim və İsmail (ə)**

فَلَمَّا أَسْلَمَا وَتَلَّهُ لِلْجَبِينِ وَنَادَيْنَاهُ أَنْ يَا إِبْرَاهِيمُ قَدْ صَدَّقْتَ الرُّؤْيَا إِنَّا كَذَٰلِكَ نَجْزِي الْمُحْسِنِينَ

---

[1] (Nisa, 162).
[2] (Bəqərə, 128).
[3] (Bəqərə, 131).

Hər ikisi (Allahın əmrinə) tabe olduqları və (İbrahim) onu üzüstə yerə yıxdığı zaman Biz onu çağırıb dedik: "Ey İbrahim! Artıq sən yuxunu təsdiq etdin!" Biz yaxşı iş görənləri belə mükafatlandırırıq.[1]

### Təslim və Allahın bəxş etdiyi lütflərdən istifadə etmək

الَّذِينَ إِذَا أَصَابَتْهُمْ مُصِيبَةٌ قَالُوا إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ أُولَٰئِكَ عَلَيْهِمْ صَلَوَاتٌ مِنْ رَبِّهِمْ وَرَحْمَةٌ وَأُولَٰئِكَ هُمُ الْمُهْتَدُونَ

O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"– deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır.[2]

### Təslimin mükafatı

بَلَىٰ مَنْ أَسْلَمَ وَجْهَهُ لِلَّهِ وَهُوَ مُحْسِنٌ فَلَهُ أَجْرُهُ عِنْدَ رَبِّهِ وَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

Xeyr! Kim yaxşı işlər görüb Allaha təslim olarsa, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur[3] və onlar kədərlənməyəcəklər.

## Rəvayətlərdə Allaha təslim olmaq

### Allahın insana bəxş etdiklərinə razı olmaq

İmam Əli (ə) buyurur: Allah-taala işləri sizin istədiyiniz kimi yox, bəlkə məsləhətləri nəzərə alıb və onlara uyğun olaraq qərar verir.[4]

---

[1] (Saffat, 103-105).
[2] (Bəqərə, 156-157).
[3] (Bəqərə, 112).
[4] (Ğürərul-Hikəm, hədis. 3423).

İmam Əli (ə) buyurur: İşlər sizin tədbirinizlə deyil, bəlkə Allahın təqdiri ilə yerinə yetirilir.[1]

**Allahın verdiyi nemətlərə razı olmaq, Allaha olan mərifətin kamillik nişanəsidir**

İmam Sadiq (ə) buyurur: Allahın qəza-qədərinə daha çox razı olan, Allahı ən yaxşı tanıyan şəxsdir.[2]

**Allahın nemətlərinə razı olsaq, həyatımız mənalı olar**

İmam Əli (ə) buyurur: Həyatdan ən çox ləzzət alan o şəxsdir ki, Allahın (insanlara verdiyi nemətlərə) bölgülərinə razı olsun.[3]

**Allahın insana verdiyi nemətlər qarşısında narazılıq etmək**

Peyğəmbər (s) buyurur: Allah-taala buyurur ki, Mənim qəza-qədərimə razı olmayan, nemətlərimin şükrünü yerinə yetirməyən və çətinliklərdə səbr etməyən şəxs, özünə Məndə başqa bir Tanrı seçibdir.[4]

## Allahdan razı olmağın təsirləri

**1- Cismi rahatlıq**

İmam Əli (ə) buyurur: Allahın verdiyi nemətə razı olan şəxsin cismi rahat olar.[5]

2- **Ruhi aramlıq**

İmam Əli (ə) buyurur: Allahın verdiyi ruziyə razı olan şəxs heç vaxt əlindən gedən ruziyə görə narahat olmaz.[6]

3- **Qəm-qüssənin aradan getməsi**

---

[1] (Ğürərul-Hikəm, hədis. 1947).
[2] (Biharul-Ənvar, cild.71.Səh,158).
[3] (Ğürərul-hikəm, hədis,3397).
[4] (Biharul-Ənvar, cild.82.Səh,132).
[5] (Biharul-Ənvar, cild.71.Səh,139).
[6] (Nəhcül-Bəlağə, hikmətli kəlamlar,349).

İmam Əli (ə) buyurur: Allahın hökmünə razı olmaq, qəm-qüssəni aradan aparan ən yaxşı vasitədir.[1]

### Təslim olmağın mənası

İmam Sadiq (ə) buyurur: Əgər hər hansı bir Allah qulu “ Lə həvlə və lə quvvətə illə billəh” desə, Allah mələklərə deyər: Bəndəm mənə təslim olub, istədiyi hacətini yerinə yetirin.[2]

### Xoşbəxtliyin səbəbi, Allaha təslim olmaqdır

Peyğəmbər (s) buyurur: Ey Allah bəndələri! Siz xəstə kimisiniz, Allah da həkim. Ona görə də xəstələrin xeyri ondadır ki, həkim məsləhət görər, nəinki xəstənin ürəyi hər nə istəyər. Allahın əmrinə təslim olun ki, xilas olanlardan olasınız”.[3]

## Allaha şikayət etmək və ona təslim olmamaq

Peyğəmbər (s) buyurur: Bir zaman gələcək ki, insanlar Allahdan şikayət edəcəklər. Sual verdilər ki, nə üçün onlar Allaha şikayət edəcəklər? Peyğəmbər (s) buyurdu: Deyəcəklər ki, uzun müddətdir ki, (maddi) gəlir əldə edə bilmirik və keçmişdən qalan əlimizdəki sərmayədən xərcləyirik. (daha sonra) Peyğəmbər (s) buyurdu: Vay olsun onlara! İxtiyarında olan sərmayə, onlara Allah tərəfindən yetişməyibmi?[4]

### Allah qarşısında təslim olanların əsl nümunəsi, Həzrət Muhəmməddir (s)

İmam Sadiq (ə) buyurur: Peyğəmbər (s) keçmiş bir iş üçün heç vaxt “ Ey kaş bundan başqası olaydı” sözünü dilinə gətirməyib.[5]

---

[1] (Ğürərul-Hikəm, hədis,9909).
[2] (Biharul-Ənvar, cild.93.Səh,189).
[3] (Tənbihul-Xəvatir, cild.2,səh.117).
[4] (Usuli Kafi,cild.5.səh,312).
[5] (Tənbihul-Xəvatir,cild.2.Səh,185).

# QORXU Və ÜMİD

## Quran ayələrində qorxu və ümid

### Gərək yalnız Allahdan qorxaq

يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُوا نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ وَأَوْفُوا بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ وَإِيَّايَ فَارْهَبُونِ

Ey İsrail oğulları! Sizə bağışladığım nemətimi yadınıza salın və Mənə verdiyiniz əhdə sadiq olun ki, Mən də sizə verdiyim əhdi yerinə yetirim. Təkcə Məndən qorxun![1]

إِنَّمَا ذَٰلِكُمُ الشَّيْطَانُ يُخَوِّفُ أَوْلِيَاءَهُ فَلَا تَخَافُوهُمْ وَخَافُونِ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ

O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun[2]

فَلَا تَخْشَوُا النَّاسَ وَاخْشَوْنِ

İnsanlardan qorxmayın, Məndən qorxun![3]

### Yalnız Allaha ümidvar olmalıyıq

إِنَّا نَطْمَعُ أَنْ يَغْفِرَ لَنَا رَبُّنَا خَطَايَانَا أَنْ كُنَّا أَوَّلَ الْمُؤْمِنِينَ

Biz (Firon xalqı arasından) ilk iman gətirənlər olduğumuza görə Rəbbimizdən günahlarımızı bağışlayacağını umuruq”.[4]

## Möminlərin xüsusiyyətlərindən biri, Allaha ümid bağlamaq və ondan qorxmaq arasında balans yaratmaqdır

إِنَّمَا يُؤْمِنُ بِآيَاتِنَا الَّذِينَ إِذَا ذُكِّرُوا بِهَا خَرُّوا سُجَّدًا وَسَبَّحُوا بِحَمْدِ رَبِّهِمْ وَهُمْ لَا يَسْتَكْبِرُونَ تَتَجَافَىٰ جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ

---

[1] (Bəqərə, 40).
[2] !(Ali-İmran, 175).
[3] (Maidə, 44).
[4] (Şüəra, 51).

Ayələrimizə ancaq o kəslər iman gətirirlər ki, ayələrimiz onlara xatırlanarkən təkəbbür göstərmədən səcdəyə qapanır, Rəbbinə həmd-səna ilə təriflər deyirlər. Onlar (gecə namazını qılmaq üçün) böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən (Allah yolunda) xərcləyirlər.[1]

**Düzgün alimlərin xüsusiyyətlərindən biri, Allaha ümid bağlamaq və ondan qorxmaq arasında balans yaratmaqdır**

أَمَّنْ هُوَ قَانِتٌ آنَاءَ اللَّيْلِ سَاجِدًا وَقَائِمًا يَحْذَرُ الْآخِرَةَ وَيَرْجُو رَحْمَةَ رَبِّهِ قُلْ هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ إِنَّمَا يَتَذَكَّرُ أُولُو الْأَلْبَابِ

Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə (kafirlə eynidirmi?) De: “Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? (Bundan) ancaq ağıl sahibləri düşünüb ibrət alarlar”.[2]

**Saleh əməl sahiblərinin xüsusiyyətlərindən biri, Allahın əzabından qorxmaqdır**

إِنَّ الْأَبْرَارَ يَشْرَبُونَ مِنْ كَأْسٍ كَانَ مِزَاجُهَا كَافُورًا. . . إِنَّا نَخَافُ مِنْ رَبِّنَا يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا

Sözsüz ki, itaətkarlar kafur qatılmış (şərabla dolu) badələrdən nuş edəcəklər... Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!”[3]

**Allah bəndələrinin xüsusiyyətlərindən biri, Allahın əzabından qorxmaqdır**

وَعِبَادُ الرَّحْمَٰنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا... وَعِبَادُ الرَّحْمَٰنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا

Ər-Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara (xoşagəlməz) bir söz dedikdə: “Salam!”- deyərlər. Onlar deyərlər:

---

[1] (Səcdə, 15-16).
[2] (Zumər, 9).
[3] (İnsan, 5-10).

“Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən uzaq elə. Doğrusu, onun əzabı həmişəlikdir.[1]

**Allahın ədalətli olmasından qorxmaq, insanın xoşbəxtlik amilidir**

وَأَمَّا مَنْ خَافَ مَقَامَ رَبِّهِ وَنَهَى النَّفْسَ عَنِ الْهَوَىٰ فَإِنَّ الْجَنَّةَ هِيَ الْمَأْوَىٰ

Ancaq kim Rəbbinin hüzuruna gələcəyindən qorxmuş və nəfsinə ehtirası yasaq etmişsə, həqiqətən, Cənnət onun məskəni olacaq.[2]

وَلِمَنْ خَافَ مَقَامَ رَبِّهِ جَنَّتَانِ

Rəbbinin hüzurunda durmaqdan qorxanları iki Cənnət bağı gözləyir.[3]

**Allaha ümid bəsləyənlərin nişanələri**

**1-** İman

**2-** Saleh işlər

قُلْ إِنَّمَا أَنَا بَشَرٌ مِثْلُكُمْ يُوحَىٰ إِلَيَّ أَنَّمَا إِلَٰهُكُمْ إِلَٰهٌ وَاحِدٌ فَمَنْ كَانَ يَرْجُو لِقَاءَ رَبِّهِ فَلْيَعْمَلْ عَمَلًا صَالِحًا وَلَا يُشْرِكْ بِعِبَادَةِ رَبِّهِ أَحَدًا

De: “Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin ilahınız Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!”[4]

**3-** Quran oxumaq

**4-** Namaz qılmaq

إِنَّ الَّذِينَ يَتْلُونَ كِتَابَ اللَّهِ وَأَقَامُوا الصَّلَاةَ وَأَنْفَقُوا مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلَانِيَةً يَرْجُونَ تِجَارَةً لَنْ تَبُورَلِيُوَفِّيَهُمْ أُجُورَهُمْ وَيَزِيدَهُمْ مِنْ فَضْلِهِ إِنَّهُ غَفُورٌ شَكُورٌ

[1] (Furqan, 63-65).
[2] (Naziat, 40, 41).
[3] (Ər-rəhman, 44).
[4] (Kəhf, 110).

Allahın Kitabını oxuyanlar, namaz qılanlar və özlərinə verdiyimiz ruzilərdən gizli və aşkar xərcləyənlər səmərəsiz olmayacaq bir ticarətə ümid edirlər ki, (Allah) onlara mükafatlarını tam olaraq versin, üstəlik də onlara Öz lütfünü artırsın. Həqiqətən, O, Bağışlayandır, şükürün əvəzini verəndir.[1]

**5-** Hicrət etmək

**6-** Allah yolunda cihad etmək

إِنَّ الَّذِينَ آمَنُوا وَالَّذِينَ هَاجَرُوا وَجَاهَدُوا فِي سَبِيلِ اللَّهِ أُولَٰئِكَ يَرْجُونَ رَحْمَتَ اللَّهِ ۚ وَاللَّهُ غَفُورٌ رَحِيمٌ

Həqiqətən də, iman gətirənlər, hicrət edənlər və Allah yolunda cihad edənlər, Allahın mərhəmətinə ümid edirlər. Allah Bağışlayandır, Rəhmlidir.[2]

## Rəvayətlərdə qorxu və ümid

### İnsan gərək həm Allahdan qorxa və həm də onun rəhmətinə ümidvar ola

İmam Sadiq (ə) buyurur: Loğman öz oğluna dedi: Oğlum! Allahdan elə qorx ki, sanki əgər bütün cin və insanların savabını qazanmış olsan yenə sənə əzab verəcək və Allaha o həddə ümidvar ol ki, sankı bütün insan və cinlərin günahını qazanmış olsan da yenə səni əfv edəcəkdir.[3]

### Allahdan qorxmaq, onu tanımağın nişanəsidir

İmam Əli (ə) buyurur: Allahı ən yaxşı tanıyan şəxs, ondan daha çox qorxandır.[4]

### Düzgün davranış, qorxu və ümidin əlamətidir

İmam Sadiq (ə) buyurur: İnsan o vaxt mömin hesab olar ki, həm Allahdan qorxsun, həm də onun rəhminə ümidvar olsun. Allahdan qorxub, onun rəhminə ümidvar olan şəxs, gərək qorxduğu və ümid bəslədiyi şeylərə də əməl etsin.[5]

### Günahlardan qorxub, Allahın rəhmətinə ümid bəsləməliyik

[1] (Fatir, 29, 30).
[2] (Bəqərə, 218).
[3] (Usuli-Kafi,cild.2,səh,67).
[4] (Ğurərul-Hikəm,hədis,3121).
[5] (Usuli-Kafi,cild.2.səh,71).

İmam Əli (ə) buyurur: Sizdən heç biriniz Allahdan başqasına ümid bağlamamalıdır.[1]

### Yalançı ümidlərdən uzaq olmalıyıq

İmam Məhəmməd Baqir (ə) buyurur: Yalançı ümidlərdən uzaqlaş ki, səni həqiqi qorxuya düçar edər.[2]

## Allahdan qorxmağın insana təsirləri

**1-** Allahdan qorxmaq nəticəsində, insan günahdan çəkinər

İmam Əli (ə) buyurur: Qorxu, günah etməmək üçün nəfsi zindana salmaq və insanı günahlardan uzaqlaşdırmaq üçün bir vasitədir.[3]

**2-** Allahdan qorxmaq insanın yüksəlişinə səbəb olar

Peyğəmbər (s) buyurur: Hər kim Allahdan qorxsa, Allah elə edər ki, hamı ondan qorxsun və hər kim Allahdan qorxmasa, Allah elə edər ki, o hər kəsdən qorxsun.[4]

**3-** İnsan Allahdan qorxsa, Allah dərgahında ən üstün şəxs hesab olar

Peyğəmbər (s) buyurur: Allaha ən yaxın insan, Allahdan ən çox qorxandır.[5]

**4-** Allahdan qorxmaq insanı zülm etməkdən uzaqlaşdırar

İmam Əli (ə) buyurur: Allahdan qorxan şəxs, zülmdən uzaq olar.[6]

---

[1] (Nəhcül-Bəlağə, hikmətli kəlamlar,82).
[2] (Biharul-Ənvar, cild.78.Səh,164).
[3] (Ğurərul-Hikəm,Hədis,1987).
[4] (Usuli-Kafi,cild.2.səh,67).
[5] (Biharul-Ənvar, cild.77.Səh,180).
[6] (Biharul-Ənvar, cild.75.Səh,309).

# SƏBR

## Quranda səbr

### Dünya əhli qarşısında səbr etmək

وَقَالَ الَّذِينَ أُوتُوا الْعِلْمَ وَيْلَكُمْ ثَوَابُ اللَّهِ خَيْرٌ لِمَنْ آمَنَ وَعَمِلَ صَالِحًا وَلَا يُلَقَّاهَا إِلَّا الصَّابِرُونَ

Elm verilmiş kəslər isə dedilər: “Vay halınıza! İman gətirib yaxşı əməl işlədən kimsə üçün Allahın mükafatı daha xeyirlidir. Buna isə yalnız səbr edənlər nail olarlar”.[1]

### Səbr, Allah tərəfindən verilən nemətdir və səbr Allaha xatir olmalıdır

وَاصْبِرْ وَمَا صَبْرُكَ إِلَّا بِاللَّهِ وَلَا تَحْزَنْ عَلَيْهِمْ وَلَا تَكُ فِي ضَيْقٍ مِمَّا يَمْكُرُونَ

Səbr et! Sənin səbrin ancaq Allahdandır. Onlara görə kədərlənmə və qurduqları hiylələrdən ötrü də sıxılma.[2]

وَلِرَبِّكَ فَاصْبِرْ

Rəbbin üçün səbr et![3]

### İnsan səbirli olmaq üçün çalışmalıdır

لَتُبْلَوُنَّ فِي أَمْوَالِكُمْ وَأَنْفُسِكُمْ وَلَتَسْمَعُنَّ مِنَ الَّذِينَ أُوتُوا الْكِتَابَ مِنْ قَبْلِكُمْ وَمِنَ الَّذِينَ أَشْرَكُوا أَذًى كَثِيرًا وَإِنْ تَصْبِرُوا وَتَتَّقُوا فَإِنَّ ذَٰلِكَ مِنْ عَزْمِ الْأُمُورِ

Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər

---

[1] (Biharul-Ənvar, cild.75.Səh,309).
[2] (Nəhl, 127).
[3] (Muddəssir, 7).

səbr edib (Allahdan) qorxsanız, (bilin ki,) bu, əzmkarlıq (tələb edən) əməllərdəndir.[1]

### Səbr, ilahi peyğəmbərlərin (ə) xüsusiyyətlərindəndir

فَلَمَّا فَصَلَ طَالُوتُ بِالْجُنُودِ قَالَ إِنَّ اللّٰهَ مُبْتَلِيكُمْ بِنَهَرٍ فَمَنْ شَرِبَ مِنْهُ فَلَيْسَ مِنِّي وَمَنْ لَمْ يَطْعَمْهُ فَإِنَّهُ مِنِّي إِلَّا مَنِ اغْتَرَفَ غُرْفَةً بِيَدِهِ فَشَرِبُوا مِنْهُ إِلَّا قَلِيلًا مِنْهُمْ فَلَمَّا جَاوَزَهُ هُوَ وَالَّذِينَ آمَنُوا مَعَهُ قَالُوا لَا طَاقَةَ لَنَا الْيَوْمَ بِجَالُوتَ وَجُنُودِهِ قَالَ الَّذِينَ يَظُنُّونَ أَنَّهُمْ مُلَاقُو اللّٰهِ كَمْ مِنْ فِئَةٍ قَلِيلَةٍ غَلَبَتْ فِئَةً كَثِيرَةً بِإِذْنِ اللّٰهِ وَاللّٰهُ مَعَ الصَّابِرِينَ

Talut qoşunla birlikdə (döyüşə) yola düşdükdə (əsgərlərinə) dedi: “Allah sizi bir çayla imtahan edəcək. Kim ondan içsə, məndən deyildir. Bir ovuc götürən istisna olmaqla, kim ondan dadmasa, o, məndəndir”. Onların az bir qismi istisna olmaqla (hamısı) ondan su içdilər. (Talut) onunla olan möminlərlə birlikdə çayı keçdikdən sonra (bəziləri) dedilər: “Bu gün bizim Caluta və onun qoşununa gücümüz çatmayacaq”. Allahla qarşılaşacaqlarını yəqin bilənlər isə dedilər: “Neçə-neçə az saylı dəstələr Allahın izni ilə çox saylı dəstələrə qalib gəlmişdir!” Allah səbr edənlərlədir.[2]

### İmamət məqamına yetişməyin amili, yəqin və səbrdir

وَجَعَلْنَا مِنْهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا لَمَّا صَبَرُوا وَكَانُوا بِآيَاتِنَا يُوقِنُونَ

Səbr etdiklərinə və ayələrimizə yəqinliklə inandıqlarına görə Biz əmrimizlə onlardan doğru yolu göstərən rəhbərlər təyin etmişdik.[3]

### Səbr məqamını əldə etmək üçün Allaha dua etməliyik

وَلَمَّا بَرَزُوا لِجَالُوتَ وَجُنُودِهِ قَالُوا رَبَّنَا أَفْرِغْ عَلَيْنَا صَبْرًا وَثَبِّتْ أَقْدَامَنَا وَانْصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ

---

[1] (Ali-İmran, 186).
[2] (Bəqərə, 249)
[3] (Səcdə, 24).

Onlar Calutun və onun qoşununun qarşısına çıxdıqda dedilər: “Ey Rəbbimiz! Bizə səbr ver, qədəmlərimizi möhkəmlət və kafir qövmə qələbə çalmaqda bizə yardım et!”[1]

**Quranda səbirli şəxsin nümunəsi, həzrət Əyyub (ə)**

وَخُذْ بِيَدِكَ ضِغْثًا فَاضْرِبْ بِهِ وَلَا تَحْنَثْ إِنَّا وَجَدْنَاهُ صَابِرًا نِعْمَ الْعَبْدُ إِنَّهُ أَوَّابٌ

(Biz ona dedik:) “Əlinə bir dəstə (çubuq) götür və onunla (arvadını) vur. Andını pozma”. Həqiqətən, Biz onu səbr edən gördük. Necə də gözəl qul idi! O, daima Allaha üz tutardı.[2]

## Səbr etməyin insana təsirləri

**1-** Səbr edən şəxs, şeytanın hiyləsindən amanda qalar

إِنْ تَمْسَسْكُمْ حَسَنَةٌ تَسُؤْهُمْ وَإِنْ تُصِبْكُمْ سَيِّئَةٌ يَفْرَحُوا بِهَا وَإِنْ تَصْبِرُوا وَتَتَّقُوا لَا يَضُرُّكُمْ كَيْدُهُمْ شَيْئًا إِنَّ اللَّهَ بِمَا يَعْمَلُونَ مُحِيطٌ

Sizə bir uğur nəsib olsa, (bu) onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbr etsəniz və (Allahdan) qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir.[3]

**2-** Allahın qeybi yardımı səbr əhlinə yetişər

بَلَىٰ إِنْ تَصْبِرُوا وَتَتَّقُوا وَيَأْتُوكُمْ مِنْ فَوْرِهِمْ هَٰذَا يُمْدِدْكُمْ رَبُّكُمْ بِخَمْسَةِ آلَافٍ مِنَ الْمَلَائِكَةِ مُسَوِّمِينَ

Əlbəttə, siz səbr etsəniz, (Allahdan) qorxsanız və onlar bu saat sizin üstünüzə hücuma keçsələr, Rəbbiniz nişanlanmış beş min mələklə sizə yardım edər.[4]

---

[1] (Bəqərə, 250).
[2] (Sad, 44).
[3] (Ali-İmran, 120).
[4] (Ali-İmran, 125).

**3-** Səbr əhli sonda qalib gələr

وَأَوْرَثْنَا الْقَوْمَ الَّذِينَ كَانُوا يُسْتَضْعَفُونَ مَشَارِقَ الْأَرْضِ وَمَغَارِبَهَا الَّتِي بَارَكْنَا فِيهَا وَتَمَّتْ كَلِمَتُ رَبِّكَ الْحُسْنَىٰ عَلَىٰ بَنِي إِسْرَائِيلَ بِمَا صَبَرُوا وَدَمَّرْنَا مَا كَانَ يَصْنَعُ فِرْعَوْنُ وَقَوْمُهُ وَمَا كَانُوا يَعْرِشُونَ

(Musa ilə olan) zəif camaatı isə yer üzünün xeyir-bərəkət verdiyimiz məşriqlərinə və məğriblərinə varislər təyin etdik. Səbr etdiklərinə görə Rəbbinin İsrail oğulları barəsindəki gözəl Sözü yerinə yetdi. Biz Firon və onun xalqının qurduqlarını və tikib ucaltdıqlarını darmadağın etdik.[1]

**4-** Cənnətdə mələklər səbirli şəxsləri salamlayarlar

سَلَامٌ عَلَيْكُمْ بِمَا صَبَرْتُمْ فَنِعْمَ عُقْبَى الدَّارِ

"Səbr etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!"[2]

**5-** Ən yaxşı mükafat səbirlilərə məxsusdur

مَا عِنْدَكُمْ يَنْفَدُ وَمَا عِنْدَ اللَّهِ بَاقٍ وَلَنَجْزِيَنَّ الَّذِينَ صَبَرُوا أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

Sizdə olan nemətlər tükənəcək, Allahın dərgahında olan nemətlər isə daim qalacaqdır. Səbrli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik.[3]

**6-** Allah-taala səbr edənləri müjdələyir

وَبَشِّرِ الصَّابِرِينَ الَّذِينَ إِذَا أَصَابَتْهُمْ مُصِيبَةٌ قَالُوا إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ

---

[1] (Əraf, 137).
[2] (Rəd, 24).
[3] (Nəhl, 96).

Səbr edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: “Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!”– deyirlər.[1]

**7-** Allah səbr edənləri sevir

وَكَأَيِّنْ مِنْ نَبِيٍّ قَاتَلَ مَعَهُ رِبِّيُّونَ كَثِيرٌ فَمَا وَهَنُوا لِمَا أَصَابَهُمْ فِي سَبِيلِ اللَّهِ وَمَا ضَعُفُوا وَمَا اسْتَكَانُوا ۗ وَاللَّهُ يُحِبُّ الصَّابِرِينَ

Neçə-neçə peyğəmbər (olmuşdur ki,) bir çox dindarlarla birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələnlərə görə nə ruhdan düşmüş, nə zəifləmiş, nə də (düşmənə) boyun əymişlər. Allah səbr edənləri sevir.[2]

**8-** Allah daim səbr edənlərlədir

وَأَطِيعُوا اللَّهَ وَرَسُولَهُ وَلَا تَنَازَعُوا فَتَفْشَلُوا وَتَذْهَبَ رِيحُكُمْ ۖ وَاصْبِرُوا ۚ إِنَّ اللَّهَ مَعَ الصَّابِرِينَ

Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbr edin, çünki Allah səbr edənlərlədir.[3]

## Səbrin qismləri

### İbadətdə səbr

فَلَمَّا بَلَغَ مَعَهُ السَّعْيَ قَالَ يَا بُنَيَّ إِنِّي أَرَىٰ فِي الْمَنَامِ أَنِّي أَذْبَحُكَ فَانْظُرْ مَاذَا تَرَىٰ ۚ قَالَ يَا أَبَتِ افْعَلْ مَا تُؤْمَرُ ۖ سَتَجِدُنِي إِنْ شَاءَ اللَّهُ مِنَ الصَّابِرِينَ

[1] (Bəqərə, 155-156).
[2] (Ali-İmran, 146).
[3] (Ənfal, 46).

O, böyüyüb (atası ilə) bərabər çalışmaq həddinə çatdıqda (İbrahim) dedi: “Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör nə düşünürsən!” O dedi: “Atacan! Sənə buyurulanı yerinə yetir. Allah qoysa mənim səbrlilərdən olduğumu görəcəksən”.[1]

رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ وَمَا بَيْنَهُمَا فَاعْبُدْهُ وَاصْطَبِرْ لِعِبَادَتِهِ هَلْ تَعْلَمُ لَهُ سَمِيًّا

O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbrli ol! Heç Ona oxşarını tanıyırsanmı?![2]

### Müsibət qarşısında səbr etmək

الَّذِينَ إِذَا ذُكِرَ اللَّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَالصَّابِرِينَ عَلَىٰ مَا أَصَابَهُمْ وَالْمُقِيمِي الصَّلَاةِ وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ

O kəslərə ki, Allah anıldığı zaman qəlbi qorxuya düşər, başına gələnə səbr edər, namaz qılar və onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyərlər.[3]

### Müharibə meydanında səbirli olmaq

وَالصَّابِرِينَ فِي الْبَأْسَاءِ وَالضَّرَّاءِ وَحِينَ الْبَأْسِ أُولَٰئِكَ الَّذِينَ صَدَقُوا وَأُولَٰئِكَ هُمُ الْمُتَّقُونَ

. . . Sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbr edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır.[4]

### Düşmənlərin təbliği qarşısında səbirli və təmkinli olmaq

فَاصْبِرْ عَلَىٰ مَا يَقُولُونَ وَسَبِّحْ بِحَمْدِ رَبِّكَ قَبْلَ طُلُوعِ الشَّمْسِ وَقَبْلَ الْغُرُوبِ

---

[1] (Saffat, 102).
[2] (Məryəm, 65).
[3] (Həcc, 35).
[4] (Bəqərə, 177).

Sən onların dediklərinə səbr et! Gün doğmamışdan əvvəl və batmamışdan əvvəl Rəbbini həmd ilə təriflə![1]

### Əxlaqi mövzularda səbirli olmaq

ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ السَّيِّئَةَ ۚ نَحْنُ أَعْلَمُ بِمَا يَصِفُونَ

Sən pisliyi yaxşılıqla dəf et. Biz onların aid etdikləri sifətləri daha yaxşı bilirik.[2]

### Ailənin ibadətində səbirli olmaq

وَأْمُرْ أَهْلَكَ بِالصَّلَاةِ وَاصْطَبِرْ عَلَيْهَا ۖ لَا نَسْأَلُكَ رِزْقًا ۖ نَحْنُ نَرْزُقُكَ ۗ وَالْعَاقِبَةُ لِلتَّقْوَىٰ

Ailənə namaz qılmağı əmr et, özün də onu səbrlə yerinə yetir. Biz səndən ruzi istəmirik, (əksinə) sənə ruzi verən Bizik. (Gözəl) aqibət təqvaya bağlıdır.[3]

### Övlad ayrılığı qarşısında səbirli olmaq

وَجَاءُوا عَلَىٰ قَمِيصِهِ بِدَمٍ كَذِبٍ ۚ قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ أَنْفُسُكُمْ أَمْرًا ۖ فَصَبْرٌ جَمِيلٌ ۖ وَاللَّهُ الْمُسْتَعَانُ عَلَىٰ مَا تَصِفُونَ

(Qardaşları) onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər. (Yaqub) dedi: “Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir. (Mənə) gözəl səbr gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır”.[4]

### Cəmiyyətin kasıb təbəqəsi ilə bir arada əyləşərək, səbirli olmağı bacarmaq

[1] (Qaf, 39).
[2] (Muminun, 96).
[3] (Taha, 132).
[4] (Yusif, 18).

وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدَاةِ وَالْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ ۖ وَلَا تَعْدُ عَيْنَاكَ عَنْهُمْ تُرِيدُ زِينَةَ الْحَيَاةِ الدُّنْيَا ۖ وَلَا تُطِعْ مَنْ أَغْفَلْنَا قَلْبَهُ عَنْ ذِكْرِنَا وَاتَّبَعَ هَوَاهُ وَكَانَ أَمْرُهُ فُرُطًا

Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbrli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə![1]

## Rəvayətlərdə səbr

### Səbr etməyin əhəmiyyəti

İmam Əli (ə) buyurur: Səbrin imana olan nisbəti, başın bədənə olan nisbəti kimidir. Bədən başsız məhv olduğu kimi, iman da səbr olmadan məhv olar.[2]

### Səbrin növləri

İmam Əli (ə) buyurur: Səbr üç növdür. Müsibətlər qarşısında, itaət qarşısında və ya günahlar qarşısında səbirli olmaq. Səbrlərin sonuncu qismi digər iki qismdən üstündür.[3]

### Ən yaxşı səbr

İmam Muhəmməd Baqirdən (ə) ən yaxşı səbr nədir deyə soruşdular və o, buyurdu: (Ən üstün səbr) o səbrdir ki, insanlardan şikayət etməyəsən.[4]

### Şiələrin səbri

İmam Sadiq (ə) buyurur: Biz (İmamlar) səbr əhliyik. Bizim davamçılarımızın səbri daha çoxdur. Çünki biz bildiklərimiz, onlar isə bilmədikləri şeylər qarşısında səbr edirlər.[5]

### Nümunəvi səbr edən şəxs

[1] (Kəhf, 28).
[2] (Usuli- Kafi,cild.2.səh,87).
[3] (Nəhcül-Bəlağənin şərhi, cild.1,səh,319).
[4] (Usuli-Kafi, cild.2.səh,93).
[5] (Usuli-Kafi.cild, 2.səh,93).

İmam Əli (ə) buyurur: Gözümdə qanqal, boğazımda sümük olan şəxs kimi səbr etdim.[1]

### Səbr, ən üstün ibadətdir

İmam Əli (ə) buyurur: Ən üstün ibadət səbr, sükut və fərəc intizarında olmaqdır.[2]

### Səbr, insan böyüklüyünün nişanəsidir

İmam Sadiqdən (ə) soruşdular ki, Allah yanında ən üstün şəxs kimdir? Cavab verdi: O şəxsdir ki, ona bir şey verəndə təşəkkür edər, çətinliyə düşən vaxt isə səbirli olar.[3]

### Səbr, kasıbçılığın qalxanıdır

İmam Əli (ə) buyurur: Səbr, kasıbçılığın qalxanıdır.[4]

### Səbirsizliyin iş və çalışmağa olan mənfi təsiri

İmam Əli (ə) buyurur: Hər kim işin çətinliyi qarşısında səbr etməsə, yoxsulluq qarşısında səbr etməli olar.[5]

## Səbrin insana olan təsirləri

**1-** Səbr vasitəsi ilə uca məqamlara yetişmək olar

İmam Əli (ə) buyurur: İnsan səbr vasitəsi ilə uca məqamlara yetişər.[6]

**2-** Səbirli olsaq, qalib gələrik

İmam Əli (ə) buyurur: Çox səbr edən şəxs gec də olsa qələbəni əldən verməz.[7]

**3-** Səbr vasitəsi ilə yüksək mükafat əldə etmiş olarıq

[1] (Səfinətul-Bihar, cild.5.səh,22).
[2] (Biharul-Ənvar, cild.74.Səh,420).
[3] (Mişkatul-Ənvar, səh, 60).
[4] (Ğurərul-Hikəm,cild. 1. Səh,95).
[5] (Ğurərul-Hikəm,cild.5.səh,414).
[6] (Ğurərul-Hikəm, hədis,4276).
[7] (Nəhcül-Bəlağə, hikmət.153).

İmam Sadiq (ə) buyurur: Davamçılarımızdan hər kim müsibət qarşısında səbr etsə, onun üçün min şəhidin savabı yazılar.[1]

**4-** Səbr insana uzunmüddətli sevinc bəxş edir

İmam Sadiq (ə) buyurur: Hər kim bir an səbr etsə, uzun müddət sevinər. Nə çox bir anlıq ləzzətlər var ki, ardınca uzun-uzadı qəm-qüssə gətirir.[2]

**5-** Səbr vasitəsi ilə cənnəti qazanmış olarıq

İmam Muhəmməd Baqir (ə) buyurur: Cənnət, çətinlik və müsibətlərə bürünüb. Dünyadakı xoşagəlməz hadisələrə səbr edən şəxs, cənnətə daxil olar.[3]

**6-** Müsibətlər səbr vasitəsi ilə asanlaşar

İmam Əli (ə) buyurur: Hər kim səbirli olsa, müsibətlər onun üçün asanlaşar.[4]

---

[1] (Səfinətul-Bihar, cild. 5.səh,18).
[2] (Səfinətul-Bihar, cild, 5.səh, 19).
[3] (Usuli-Kafi,cild.3.səh,145).
[4] (Ğurərul-Hikəm,cild.5,səh.176).

# Quranda Allahı yad etmək

## Allahı yad etməyin təsiri

الَّذِينَ آمَنُوا وَتَطْمَئِنُّ قُلُوبُهُمْ بِذِكْرِ اللَّهِ ۗ أَلَا بِذِكْرِ اللَّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır.[1]

## Allahı yada salmağın nəticəsi

وَمَنْ أَعْرَضَ عَنْ ذِكْرِي فَإِنَّ لَهُ مَعِيشَةً ضَنْكًا وَنَحْشُرُهُ يَوْمَ الْقِيَامَةِ أَعْمَىٰ

Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik”.[2]

وَمَنْ يَعْشُ عَنْ ذِكْرِ الرَّحْمَٰنِ نُقَيِّضْ لَهُ شَيْطَانًا فَهُوَ لَهُ قَرِينٌ

Kim Mərhəmətli (Allahın) zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar.[3]

## İmanlı şəxslər daim Allahı yad edər

رِجَالٌ لَا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَنْ ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاءِ الزَّكَاةِ ۙ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ

---

[1] (Rəd, 28).
[2] (Taha, 124).
[3] (Zuxruf, 36).

O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar.[1]

### İnsan hər bir vəziyyətdə Allahı yad etməlidir

الَّذِينَ يَذْكُرُونَ اللَّهَ قِيَامًا وَقُعُودًا وَعَلَىٰ جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِي خَلْقِ السَّمَاوَاتِ وَالْأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَٰذَا بَاطِلًا سُبْحَانَكَ فَقِنَا عَذَابَ النَّارِ

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haq-qında düşünür (və deyirlər:) "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi odun əzabından qoru![2]

### Allahı çox yada salmaq lazımdır

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا اللَّهَ ذِكْرًا كَثِيرًا

Ey iman gətirənlər! Allahı tez-tez yada salın![3]

### Gərək Allahı ürəkdə yalvararaq və qorxaraq yada salaq

وَاذْكُرْ رَبَّكَ فِي نَفْسِكَ تَضَرُّعًا وَخِيفَةً وَدُونَ الْجَهْرِ مِنَ الْقَوْلِ بِالْغُدُوِّ وَالْآصَالِ وَلَا تَكُنْ مِنَ الْغَافِلِينَ

Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma.[4]

---

[1] (Nur, 37).
[2] (Ali-İmran, 191).
[3] (Əhzab, 41).
[4] (Əraf, 205).

### Allahın bizə bəxş etdiyi nemətləri yada salmalıyıq

يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُوا نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ وَأَوْفُوا بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ وَإِيَّايَ فَارْهَبُونِ

Ey İsrail oğulları! Sizə bağışladığım nemətimi yadınıza salın və Mənə verdiyiniz əhdə sadiq olun ki, Mən də sizə verdiyim əhdi yerinə yetirim. Təkcə Məndən qorxun![1]

### Müharibədə Allahı yada salmaq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا لَقِيتُمْ فِئَةً فَاثْبُتُوا وَاذْكُرُوا اللَّهَ كَثِيرًا لَعَلَّكُمْ تُفْلِحُونَ

Ey iman gətirənlər! (Kafir) bir dəstə ilə üz-üzə gəldikdə möhkəm durun və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız.[2]

### Həcc əməllərindən sonra Allahı yad etmək

فَإِذَا قَضَيْتُمْ مَنَاسِكَكُمْ فَاذْكُرُوا اللَّهَ كَذِكْرِكُمْ آبَاءَكُمْ أَوْ أَشَدَّ ذِكْرًا فَمِنَ النَّاسِ مَنْ يَقُولُ رَبَّنَا آتِنَا فِي الدُّنْيَا وَمَا لَهُ فِي الْآخِرَةِ مِنْ خَلَاقٍ

(Həcc) mərasiminizi bitirdikdə (vaxtilə) atalarınızı yad etdiyiniz kimi, hətta bundan da artıq Allahı yad edin! İnsanlar arasında: “Ey Rəbbimiz! Bizə (verəcəyini) elə bu dünyada ver!”– deyənlər vardır. Belə şəxslərin axirətdə heç bir payı yoxdur.[3]

### Övladlarımızı Allahı yad etməkdən çəkindirməməliyik

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تُلْهِكُمْ أَمْوَالُكُمْ وَلَا أَوْلَادُكُمْ عَنْ ذِكْرِ اللَّهِ وَمَنْ يَفْعَلْ ذَٰلِكَ فَأُولَٰئِكَ هُمُ الْخَاسِرُونَ

[1] (Bəqərə, 40).
[2] (Ənfal, 45).
[3] (Bəqərə, 200).

Ey iman gətirənlər! Nə mallarınız, nə də övladlarınız sizi Allahın zikrindən yayındırmasın! Bunu edənlər ziyana uğrayanlardır.[1]

### Allahı yad etməkdə süstlük göstərməməliyik

اذْهَبْ أَنْتَ وَأَخُوكَ بِآيَاتِي وَلَا تَنِيَا فِي ذِكْرِي

Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin.[2]

### Allahı yad etməyin ən yaxşı yolu Quran oxumaq və namaz qılmaqdır

إِنَّنِي أَنَا اللهُ لَا إِلَٰهَ إِلَّا أَنَا فَاعْبُدْنِي وَأَقِمِ الصَّلَاةَ لِذِكْرِي

Həqiqətən, Mən Allaham. Məndən başqa heç bir ilah yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl![3]

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.[4]

### Şeytan daim çalışır ki, insan Allahı zikr etməkdən yayınsın

إِنَّمَا يُرِيدُ الشَّيْطَانُ أَنْ يُوقِعَ بَيْنَكُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاءَ فِي الْخَمْرِ وَالْمَيْسِرِ وَيَصُدَّكُمْ عَنْ ذِكْرِ اللهِ وَعَنِ الصَّلَاةِ فَهَلْ أَنْتُمْ مُنْتَهُونَ

Həqiqətən, şeytan sərxoşedici (içki) və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz (buna) son qoyacaqsınızmı?[5]

---

[1] (Munafiqun, 9).
[2] (Taha, 42).
[3] (Taha, 14).
[4] (Hicr, 9).
[5] (Maidə, 91).

### Allahı unutmağımızın səbəbi şeytandır

اسْتَحْوَذَ عَلَيْهِمُ الشَّيْطَانُ فَأَنْسَاهُمْ ذِكْرَ اللَّهِ أُولَٰئِكَ حِزْبُ الشَّيْطَانِ أَلَا إِنَّ حِزْبَ الشَّيْطَانِ هُمُ الْخَاسِرُونَ

Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır.[1]

## Rəvayətlərdə Allahı yad etmək

### Zikrin həqiqəti

İmam Əli (ə) buyurur: Allahı yad etmək iki növdür. Biri müsibət vaxtı Allahı yad etməkdir ki, bu bəyənilən bir işdir. Digəri və ən yaxşısı da o zikrdir ki, insan haram bir işlə üzləşən vaxt Allahı yad etsin. Əgər insan haram bir əməllə üzləşib, Allahı yada salsa, həmin günahdan uzaqlaşar.[2]

### Allahı davamlı şəkildə yad etmək, ruhun qidasıdır

İmam Əli (ə) buyurur: Allahı davamlı şəkildə zikr etmək, ruhun qidası və xoşbəxtlik açarıdır.[3]

### Allahı yad etməyə mane olan amillər

İmam Əli (ə) buyurur: Hər kim insanları yada salmaqla məşğul olsa, (İnsanların eybini axtarıb, onların qeybətini edib və başqalarına aid faydasız işlərlə məşğul olsa) Allah elə edər ki, o Allahı zikr edə bilməsin.[4]

---

[1] (Mucadilə, 19).
[2] (Biharul-Ənvar,cild.78,səh.55).
[3] (Təsnif-Ğurərul-Hikəm,səh.189).
[4] (Ğürərul-Hikəm,səh,8234).

## Allahı çox yad etməyə həvəsli olmalıyıq

Peyğəmbər (s) buyurur: Çalış çox Quran oxu və Allahı da çox yada sal. Əgər bunları yerinə yetirsən, dünyada üzün nurlu olar və mələkər aləmində səni yad edərlər.[1]

## Allahı çox yad etməkdən məqsəd nədir?

İmam Sadiq (ə) buyurur: Əgər bəndə gün boyu Allahı yüz dəfə yad etmiş olsa, onu çox yad etmiş sayılar.

İmam Sadiq (ə) buyurur: Fatimeyi Zəhranın (s) təsbihi, Allahı çox zikr etməyin misdaqlarındandır ki, Allah bu zikri yerinə yetirməyi əmr edib.[2]

## Xüsusi yerlərdə Allahı yad etməyin əhəmiyyəti

a) Düşmənlə müharibə vaxtı Allahı yada salmaq

İmam Əli (ə) buyurur: Düşmənlə müharibə edərkən az danışın və Allahı çox yada salın.[3]

b) Bazarda Allahı zikr etmək

İmam Əli (ə) buyurur: Bazara daxil olub, insanların dünya işləri ilə məşğul olduqlarını gördüyünüz vaxt, Allahı çox yada salın ki, bu iş günahlarınızın silinməsinə səbəb olar.[4]

c) Tənhalıqda Allahı yada salmaq

İmam Muhəmməd Baqir (ə) buyurur: Tövratda yazılıb ki, Ey Musa! Şadlıq və yalnızlıqda məni yada sal.[5]

[1] (Əl-Xisal,cild,2.səh,525).
[2] (Biharul-Ənvar,cild.93,səh.160).
[3] (Biharul-Ənvar,cild.93,səh.154).
[4] (Biharul-Ənvar,cild.10,səh.92).
[5] (Biharul-Ənvar,cild.13,səh.328).

**d)** Qərar və hökm verilən, həmçinin hər hansı bir şeyin paylaşıldığı zaman, Allahı yad etmək

Peyğəmbər (s) buyurur: Qərar verdiyiniz, hökm oxuduğunuz və hər hansı bir şeyi böldüyünüz zaman Allahı yada salın.[1]

## Allahı yad etməyin insana təsiri

**1-** İnsan yaxşı əməl sahibi olar

İmam Əli (ə) buyurur: Hər kim Allahı daim yada salmaqla qəlbini abadlaşdıra, onun bütün işləri öz yerini tutar.[2]

**2-** İnsanın qəlbi (ruhunun qəlbi) dirilər

İmam Əli (ə) buyurur: Allahı yad etməklə qəlb dirilər. (Həmin mənbə).

**3-** Şeytanın uzaqlaşmağına səbəb olar

İmam Əli (ə) buyurur: Allahı yada salmaq, şeytanın uzaqlaşmağı üçün bir vəsilədir. (Həmin mənbə).

**4-** İnsanın nifaqdan qorunmasına səbəb olar

İmam Əli (ə) buyurur: Allahı çox yad edən şəxs, nifaqdan uzaq olar. (Həmin mənbə).

**5-** Rəhmətin nazil olmasına səbəb olar

İmam Əli (ə) buyurur: Allahı yada salmaqla, ilahi rəhmət nazil olar. (Həmin mənbə).

**6-** Allahı yad edən, onun sevimlisinə çevrilər

İmam Əli (ə) buyurur: Hər kim Allahı çox zikr etsə, Allahın sevimlisinə çevrilər.[3]

**7-** Allahı yad etmək ən üstün ləzzətdir

---

[1] (Biharul-Ənvar,cild.77,səh.173).
[2] (Təsnif Ğurərul-Hikəm,səh,189).
[3] (Biharul-Ənvar,cild.93,səh.160).

İmam Zeynul-Abidin (ə) buyurur: (Allahım) Səni yada salmaqdan başqa, hər bir ləzzətə görə, səninlə ünsiyyətdən başqa, hər bir rahatçılığa görə və səninlə yaxın olmaqdan başqa, bütün şadlığıma görə səndən əfv diləyirəm![1]

**8-** Allahı yad etmək ən böyük nemətdir

İmam Səccad (ə) buyurur: Bizə bəxş olunan nemətlərdən ən üstünü odur ki, sənin zikrini dilimizə gətiririk və bizə Səni yad etməyimizi icazə veribsən.[2]

**9-** Ən yaxşı zikr

Peyğəmbər (s) buyurur: Ən yaxşı zikr "La ilahə illəllah" və ən yaxşı dua "Əlhəmdu lillah"-dır.[3]

**10-** Allahı yad etmək, daxili dərdlərin dərmanıdır

İmam Əli (ə) buyurur: Allahı yad etmək, nəfsani dərdlərin dərmanıdır.[4]

**11-** Allahı zikr etmək, mömin insanın sərmayəsidir

İmam Əli (ə) buyurur: Allahı zikr etmək hər möminin sərmayəsidir və şeytanın zərərlərindən uzaq olmağa səbəb olar. (Həmin mənbə).

**12-** Allahla yoldaşlıq etmək istəyən, onu daim yad etməlidir

Peyğəmbər (s) buyurur: Allah-taala Musa peyğəmbərə (ə) buyurur: Ey Musa! Hər kim məni yad etsə, onun dostu olaram.[5]

**13-** Allah zikri insanın günahlarının yuyulmasına səbəb olar

İmam Əli (ə) buyurur: Allahı çox yada salın ki, sizin günahlarınızı əfv etsin.[6]

---

[1] (Biharul-Ənvar,cild.91,səh.151).
[2] (Münacatuz-Zakirin kitabından).
[3] (Kənzül-Ümmal,cild,1,səh,421).
[4] (Ğurərul-Hikəm,cild,1.səh,404).
[5] (Biharul-Ənvar,cild.13,səh.347).
[6] (Biharul-Ənvar,cild.82,səh.323).

# DUA

## Quranda dua

### Dua ibadətdir

وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ إِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ دَاخِرِينَ

Rəbbiniz dedi: “Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər”.[1]

### Dua etməsək Allah-taala bizə nəzər salmaz

قُلْ مَا يَعْبَأُ بِكُمْ رَبِّي لَوْلَا دُعَاؤُكُمْ فَقَدْ كَذَّبْتُمْ فَسَوْفَ يَكُونُ لِزَامًا

De: “Əgər yalvarmağınız olmasaydı, Rəbbim sizə diqqət yetirməzdi. Siz (haqqı) yalan saydınız. Ona görə də (əzab sizi) rahat buraxmayacaqdır!”[2]

### Allah bütün duaları qəbul edər

وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ فَلْيَسْتَجِيبُوا لِي وَلْيُؤْمِنُوا بِي لَعَلَّهُمْ يَرْشُدُونَ

Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər.[3]

---

[1] (Ğafir, 40).
[2] (Furqan, 77).
[3] (Bəqərə, 186).

## Duanın qəbul olma şərtləri

### 1- Qorxu və ümidlə dua etməliyik

وَلَا تُفْسِدُوا فِي الْأَرْضِ بَعْدَ إِصْلَاحِهَا وَادْعُوهُ خَوْفًا وَطَمَعًا إِنَّ رَحْمَتَ اللَّهِ قَرِيبٌ مِنَ الْمُحْسِنِينَ

Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır.[1]

### 2- Duanı gizlində və aciz olduğumuzu bildirərək etməliyik

ادْعُوا رَبَّكُمْ تَضَرُّعًا وَخُفْيَةً إِنَّهُ لَا يُحِبُّ الْمُعْتَدِينَ

Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir.[2]

### 3- Duanın qəbul olunması, iman və saleh əməllərə bağlıdır

وَيَسْتَجِيبُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَيَزِيدُهُمْ مِنْ فَضْلِهِ وَالْكَافِرُونَ لَهُمْ عَذَابٌ شَدِيدٌ

O, iman gətirib yaxşı əməllər edənlərin duasını qəbul edər və Öz lütfünü onlara artırar. Kafirlər üçün isə şiddətli əzab hazırlanmışdır.[3]

### 4- İxlaslı olmalıyıq

فَادْعُوا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَوْ كَرِهَ الْكَافِرُونَ

Kafirlərin xoşuna gəlməsə də, dini məhz Allaha aid sayıb, Ona dua edin![4]

### 5- Allahla bağladığımız əhdə vəfa etməliyik

يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُوا نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ وَأَوْفُوا بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ وَإِيَّايَ فَارْهَبُونِ

[1] (Əraf, 56).
[2] (Əraf, 55).
[3] (Şura, 26).
[4] (Ğafir, 14).

Ey İsrail oğulları! Sizə bağışladığım nemətimi yadınıza salın və Mənə verdiyiniz əhdə sadiq olun ki, Mən də sizə verdiyim əhdi yerinə yetirim. Təkcə Məndən qorxun![1]

## Rəvayətlərdə dua

### Duanın əhəmiyyət və üstünlüyü

Peyğəmbər (s) buyurur: Dua etmək Quran oxumaqdan üstündür.[2]

Yenə Peyğəmbər (s) buyurur: Dua möminin silahı, dinin kökü, yer və göyün nurudur.[3]

İmam Əli (ə) buyurur: Ən üstün silah, dua etməkdir.[4]

İmam Sadiq (ə) buyurur: Dua etməyin təsiri, nizənin ucundan daha çoxdur.[5]

İmam Əli (ə) buyurur: İnsanların içərisindən ən ağıllısı o şəxsdir ki, daha çox dua edir və sual soruşur.[6]

### Dua vasitəsi ilə insandan bəla uzaqlaşar

Peyğəmbər (s) buyurur: Dua vasitəsi ilə öz çətinliklərinizi aradan qaldırın.[7]

### Ehtiyacımız olan hər şeyi Allahdan istəməliyik

Peyğəmbər (s) buyurur: Hətta ayaqqabınızın ipi kəsilmiş olsa belə, möhtac olduğunuz hər bir şeyi Allahdan istəyin.[8]

## Duanın qəbul olma şərtləri

### 1- Allahı düzgün tanımaq

---

[1] (Bəqərə, 40).
[2] (Əl-Mizan,cild.2,səh34).
[3] (Usuli-Kafi,cild.2,səh.468)
[4] (Ğurərul-Hikəm).
[5] (Biharul-Ənvar,cild.93,səh.295).
[6] (Təsnif-Ğurərul-Hikəm,səh.192).
[7] (Biharul-Ənvar,cild.93,səh.288).
[8] (Biharul-Ənvar,cild.93,səh.295).

İmam Sadiqə üz tutub (ə), o həzrətdən soruşdular ki, biz dua edirik amma nə üçün etdiyimiz dua qəbul olmur? İmam (ə) cavab verdi: Çünki duanı qəbul edən şəxsi tanımırsınız.[1]

### 2- Saleh əməl

Peyğəmbər (s) buyurur: Duz yemək üçün lazım olduğu kimi, yaxşı əməldə dua üçün lazımlıdır. (Həmin mənbə).

### 3- Halal ruzi

"Duamın qəbul olmasını istəyirəm" deyən şəxsə Peyğəmbər (s) belə cavab verdi: Əgər duanın qəbul olmasını istəyirsənsə, halal yeməklərdən istifadə et və haram yeməkləri qarnından uzaqlaşdır. (Həmin mənbə).

### 4- Qəlb hüzuru

Qəlbi Allahdan uzaq olan şəxsin duası qəbul olmaz. Allahdən hər hansı bir hacəti istəmədən qabaq, qəlbini Allaha yaxınlaşdır və yəqin et ki, Allah duanı qəbul edəcək.[2]

## Qəbul olmayan dualar

### 1- İnsanlarla əlaqənin kəsilməsi üçün edilən dua

İmam Əli (ə) buyurur: Dedim Allah, məni məxluqlarının heç birinə möhtac etmə. Bu vaxt Peyğəmbər (s) buyurdu: Ey Əli! Belə demə. Çünki insanlara möhtac olmayan heç kəs yoxdur. Əli (ə) buyurdu: Bəs necə dua edim ya Rəsuləllah? Həzrət (s) buyurdu: De ki, İlahi məni pis insanlara möhtac etmə.[3]

### 2- Dünyada sınaqdan keçməmək üçün dua etmək

Bir gün İmam Əli (ə) "İlahi, fitnədən sənə pənah aparıram" deyən bir şəxsi görüb ona dedi: Görürəm ki, sən övladlarından və sərvətindən Allaha pənah aparırsan. Çünki Allah-taala bizi sınamaq üçün onları verib. Dua edərkən belə de: İlahi, sınaq vaxtındakı səhvlərdən sənə pənah aparıram.[4]

---

[1] (Biharul-Ənvar,cild.93,səh.376).
[2] (Usuli-Kafi, c. 2. Səh, 373).
[3] (Biharul-Ənvar,cild.93,səh.325).
[4] (Biharul-Ənvar,cild.93,səh.6).

**3- İnsanların hamısının bizdən razı qalması üçün dua etmək**

Musa peyğəmbər (ə) dedi: İlahi, məni insanların dilindən qoru, çünki onlar məni pisləyirlər. Allah-taala buyurdu: Ey Musa (ə)! Sən istədiyin şeyi mən özüm üçün belə etməmişəm. Sən istəyirsən onu sənin üçün edim? Musa (ə) buyurdu: İlahi, mənim üçün nümunə olduğuna razıyam.[1]

**4- İnsanların dilindən qorunmaq üçün dua etmək**

Əlqəmə nəql edir ki, İmam Sadiqə (ə) dedim: İnsanlar bizə çox böyük şeyləri nisbət verirlər ki, bu bizi sıxıntıya salır. İmam (ə) buyurdu: Ey Əlqəmə! İnsanların dili sakit durmaz və onların razılığı heç vaxt əldə olunmaz. Peyğəmbərlər (ə) insanların dilindən amanda qala bilmədiyi halda, adi insanlar onların dilindən necə amanda qala bilər? Məgər insanlar Peyğəmbərlərə (ə) sehrbaz və dünya malına uymuş demirdimi? Məgər Peyğəmbərə (s) şair və dəli demirdilərmi?[2]

**5- Duanın şərtlərinə əməl etmədən dua etmək**

İmam Sadiq (ə) buyurur: Dörd dəstə insanın duası qəbul olmaz.

a) Evində oturub, “İlahi mənə ruzi ver” deyən insanın duası qəbul olmaz. Allah ona deyər: Mən sənə zəhmət çəkib, ruzi qazanmağı əmr etməmişəmmi?

b) Pis həyat yoldaşı olub, ona nifrin edən kişinin duası qəbul olmaz. Allah həmin kişiyə”Mən belə bir qadını boşamağı sənin ixtiyarına buraxmamışammı” deyər.

c) Sərvəti olub, onu zay edəndən sonra Allahdan ruzi istəyən şəxsin duası qəbul olmaz. Allah həmin şəxsə deyər: Mən sənə mötədil olmağı əmr etməmişəm?

d) Öz malını şahidsiz borc verən şəxsin duası qəbul olmaz. Allah-taala həmin şəxsə deyər: Mən sənə əmr etmədimmi ki, şahid tut.[3]

[1] (Səfinətul-Bihar,cild,7.səh,592).
[2] (Səfinətul-Bihar,cild.7,səh591).
[3] (Dəəvatu-Ravəndi,səh.33).

## Dua etməyin qaydaları

1- Duanın xüsusi zamanına diqqət yetirmək lazımdır. Misal üçün Cümə və Ərəfə günü, eləcə də ramazan ayında dua etmək daha yaxşıdır.

2- Duanın qəbul olunması üçün xüsusi şərait yarananda dua etmək yaxşı olar. Misal üçün, yağış yağanda və ya azan ilə iqamə arasında edilən dua tez qəbul olar.

3- Dua edərkən üzü qibləyə və əlləri yuxarı qaldırıb dua etmək daha yaxşıdır.

4- Dua edərkən istəyimizi orta səslə diləməliyik

5- Allah qarşısında sınmış vəziyyətdə dua etmək lazımdır

6- İstəyimizi israrla tələb etməliyik

7- Duanı Allahın adı ilə başlamalıyıq

8- Dua etmədən öncə Allaha həmd və səna etməliyik

9- Duaya başlamadan öncə, Peyğəmbər (s) və Əhli-beytinə (ə) salavat demək lazımdır

10- Duaya başlamadan öncə, Peyğəmbər (s) və Əhli-beytini (ə) vasitəçi qərar verməliyik

11- Duadan qabaq iki rükət namaz qılmaq lazımdır

12- İstədiyimiz duanı küçümsəməməliyik

13- İnsanlarla birgə dua etmək daha yaxşıdır

14- Ağlayan halda dua etmək daha məsləhətlidir

15- Allahdan dəyərli şeyləri tələb etmək lazımdır

16- Dua vaxtı günahlarımızı yada salıb, Allah qarşısında etiraf etmək lazımdır

17- Bütün möminlərə dua etmək lazımdır

18- Duanın qəbul olmasına inanaraq dua etmək lazımdır

19- Dua etmədən öncə, etdiyimiz günahlara tövbə edib, zülm etdiyimiz şəxslərin haqqını qaytarmaq lazımdır

20- Dua vaxtı bütün insanlardan ümidimizi kəsməliyik.

# İSTİĞFAR

## Quranda istiğfar

### Günah üçün istiğfar tələb etmək, günahın bağışlanmasına səbəb olar

وَالَّذِينَ إِذَا فَعَلُوا فَاحِشَةً أَوْ ظَلَمُوا أَنْفُسَهُمْ ذَكَرُوا اللَّهَ فَاسْتَغْفَرُوا لِذُنُوبِهِمْ وَمَنْ يَغْفِرُ الذُّنُوبَ إِلَّا اللَّهُ وَلَمْ يُصِرُّوا عَلَىٰ مَا فَعَلُوا وَهُمْ يَعْلَمُونَ

O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər[1].

### İstiğfar edərkən Allahdan ümidsiz olmamalıyıq

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَىٰ أَنْفُسِهِمْ لَا تَقْنَطُوا مِنْ رَحْمَةِ اللَّهِ ۚ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا ۚ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

(Qullarıma mənim bu sözümü) de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmli-dir!”[2]

### İstiğfarın təsir və bərəkətləri

فَقُلْتُ اسْتَغْفِرُوا رَبَّكُمْ إِنَّهُ كَانَ غَفَّارًا يُرْسِلِ السَّمَاءَ عَلَيْكُمْ مِدْرَارًا وَيُمْدِدْكُمْ بِأَمْوَالٍ وَبَنِينَ وَيَجْعَلْ لَكُمْ جَنَّاتٍ وَيَجْعَلْ لَكُمْ أَنْهَارًا

[1] (Ali-İmran, 135).

[2] (Zümər, 53).

Dedim: “Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox Bağışlayandır! O, sizin üzərinizə bol-bol yağış göndərər, var-dövlət və oğul-uşaqla sizin imdadınıza çatar, sizin üçün bağlar salar və çaylar yaradar.[1]

## Münafiq insanların istiğfarı qəbul olmaz

سَوَاءٌ عَلَيْهِمْ أَسْتَغْفَرْتَ لَهُمْ أَمْ لَمْ تَسْتَغْفِرْ لَهُمْ لَنْ يَغْفِرَ اللَّهُ لَهُمْ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ

Sən onlar üçün bağışlanma diləsən də, diləməsən də, fərqi yoxdur. Allah onları bağışlamayacaqdır. Şübhəsiz ki, Allah fasiq adamları doğru yola yönəltməz.[2]

## İstiğfar vasitəsi ilə İlahi rəhməti qazanmış olarıq

قَالَ يَا قَوْمِ لِمَ تَسْتَعْجِلُونَ بِالسَّيِّئَةِ قَبْلَ الْحَسَنَةِ لَوْلَا تَسْتَغْفِرُونَ اللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ

O dedi: “Ey camaatım! Nə üçün yaxşılıqdan qabaq pisliyə tələsirsiniz? Nə üçün Allahdan bağışlanmağınızı diləmirsiniz? Ola bilsin ki, sizə rəhm oluna”.[3]

## Cəhənnəm əzabından xilas olmaq üçün istiğfar etmək lazımdır

وَمَا كَانَ اللَّهُ لِيُعَذِّبَهُمْ وَأَنْتَ فِيهِمْ وَمَا كَانَ اللَّهُ مُعَذِّبَهُمْ وَهُمْ يَسْتَغْفِرُونَ

Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir.[4]

## Təqvalı və səbirli şəxslərin xüsusiyyətlərindən biri, səhər çağı istiğfar etməkdir/

الصَّابِرِينَ وَالصَّادِقِينَ وَالْقَانِتِينَ وَالْمُنْفِقِينَ وَالْمُسْتَغْفِرِينَ بِالْأَسْحَارِ

[1] (Nuh, 10-12).
[2] (Munafiqun, 6).
[3] (Nəml, 46).
[4] (Ənfal, 33).

(onlar) səbr edən, doğru danışan, müti olan, (malından Allah yolunda) xərcləyən və sübh çağına yaxın bağışlanma diləyən kimsələrdir.[1]

إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَعُيُونٍ آخِذِينَ مَا آتَاهُمْ رَبُّهُمْ إِنَّهُمْ كَانُوا قَبْلَ ذَٰلِكَ مُحْسِنِينَ كَانُوا قَلِيلًا مِنَ اللَّيْلِ مَا يَهْجَعُونَ وَبِالْأَسْحَارِ هُمْ يَسْتَغْفِرُونَ

Şübhəsiz ki, müttəqilər Cənnət bağlarında və bulaqlar başında olacaqlar, öz Rəbbinin onlara verdiyini alacaqlar. Həqiqətən, onlar bundan əvvəl yaxşı iş görən adamlar olmuşdular. Onlar gecələr (ibadət edib) az yatırdılar. Sübh çağı isə bağışlanma diləyirdilər.[2]

## Rəvayətlərdə istiğfar

### İstiğfar, günahların dərmanıdır

İmam Əli (ə) buyurur: Sizə dərdiniz və onun müalicəsindən xəbər verimmi? Dərdiniz günah, onun müalicə yolu isə Allahdan bağışlanmaq istəməkdir.[3]

### İstiğfarla İlahi lütfü əldə etmiş olarıq

İmam Əli (ə) buyurur: Çalışın çox istiğfar edin. Həqiqətən Allah-taala istiğfarı sizin bağışlanmağınız üçün qərar verib.[4]

### İstiğfarla mənəvi ətir əldə etmiş olarıq

İmam Əli (ə) buyurur: İstiğfar vasitəsi ilə özünüzə ətir vurun ki, günahların pis qoxusu sizi rüsvay etməsin.[5]

### Allahın sevimlisi olmaq üçün, Allahdan bağışlanmaq diləməliyik

---

[1] (Ali-İmran, 17).
[2] (Zariat, 15-18).
[3] (Kənzul-Ummal,hədis,2089).
[4] (Tənbihul-Xəvatir,cild.1,səh5).
[5] (Biharul-Ənvar,cild.93.səh,278).

Peyğəmbər (s) buyurur: Allah-taala səslərin içərisindən daha çox üç səsi sevir. Xoruzun səsi, Quran səsi və səhər çağlarında istiğfar edənlərin səsini.[1]

### İstiğfar, hərtərəfli duadır

İmam Sadiq (ə) buyurur: Həqiqətən də istiğfar çox əhatəli bir duadır.[2]

### İstiğfar üçün ən yaxşı vaxt

Peyğəmbər (s) buyurur: Allahın sizi dəvət etdiyi ən yaxşı vaxt, səhər vaxtıdır. Daha sonra Peyğəmbər (s) Yəqubun (ə) oğlanlarına dediyi bu ayəni oxudu: "Mən Rəbbimdən sizin üçün bağışlanma diləyəcəyəm. "Və Yəqub Allahdan istiğfarı səhər vaxtı tələb etdi.[3]

## İstiğfarın təsirləri

**a)** Bəlanın uzaqlaşması

Peyğəmbər (s) buyurur: Özünüzdən müxtəlif bəlaları istiğfar vasitəsi ilə uzaqlaşdırın.[4]

**b)** Qəm-qüssənin uzaqlaşması

Peyğəmbər (s) buyurur: Qəm-qüssəsi çox olan şəxs, çox istiğfar etsin.[5]

**c)** Dünya əzabından uzaqlaşmaq

İmam Əli (ə) buyurur: Sizin üçün yer üzündə iki şey var ki, onların vasitəsi ilə İlahi əzabdan qoruna bilərsiniz. Onlardan biri, İslam Peyğəmbərinin (s) vücudu idi ki, o artıq dünyada yoxdur. Digəri isə istiğfardır ki, onu qorumalısınız. . . [6]

**d)** Allah tərəfindən bağışlanmağa nail olmaq

İmam Əli (ə) buyurur: Hər kimə istiğfar bəxş olunsa, Allahın mərhəmətindən məhrum qalmaz.[7]

---

[1] (Mustədrəkul-Vəsail,cild 12,səh.146).
[2] (Biharul-Ənvar,cild.90.səh,283).
[3] (Usuli-Kafi,cild.2,səh.477).
[4] (Mustədrəkul-Vəsail,cild. 5,səh.318).
[5] (Usuli-Kafi,cild. 8,səh.93).
[6] (Nəhcül-Bəlağə,Hikmətli sözlər,88).
[7] (Nəhcül-Bəlağə,Hikmətli sözlər 135).

# ZAHİDLİK

## Quranda zahidlik

Zahidlik sözünün mənası, dünyaya etinasız yanaşmaq anlamındadır. Zahidlikdən məqsəd budur ki, həqiqi Allah yoluna qulluq edən şəxs, gərək dünya həyatındakı baş vermiş hadisələr, haqsızlıqlar, zülmlər və bir çox xoşagəlməyən hadisələrə görə imanını əldən verməsin və dünyanın fani olduğunu dərk edərək, fani dünyada həyatını yaşasın. Quranda bəzi ayələr var ki, birbaşa zahidliklə əlaqəli olmasa da, həmin ayələrdə bu mövzuya yaxından işarə olunur.

## Dünyanın maddiyyatına ürək bağlamamaq, həqiqi zahidlik əlamətidir

لِكَيْلَا تَأْسَوْا عَلَىٰ مَا فَاتَكُمْ وَلَا تَفْرَحُوا بِمَا آتَاكُمْ ۗ وَاللَّهُ لَا يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ

(Allah bunu) əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə (həddindən artıq) sevinməyəsiniz deyə (belə izah edir). Allah heç bir özündən razını, özünü öyəni sevmir.[1]

## Dünyapərəst insanların maddi imkanlarına göz qoymamaq

وَلَا تَمُدَّنَّ عَيْنَيْكَ إِلَىٰ مَا مَتَّعْنَا بِهِ أَزْوَاجًا مِنْهُمْ زَهْرَةَ الْحَيَاةِ الدُّنْيَا لِنَفْتِنَهُمْ فِيهِ ۚ وَرِزْقُ رَبِّكَ خَيْرٌ وَأَبْقَىٰ

(Kafirlərdən) bəzisini sınamaq üçün onlara dünya həyatının bərbəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin ruzisi daha xeyirli və daha davamlıdır.[2]

## Diqqəti axirət aləminə yönəltmək

رِجَالٌ لَا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَنْ ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاءِ الزَّكَاةِ ۙ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ

[1] (Hədid, 23).
[2] (Taha, 131).

O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar.[1]

### Maddi nemətlərdə başqalarını özümüzdən qabağa salmaq

وَالَّذِينَ تَبَوَّءُوا الدَّارَ وَالْإِيمَانَ مِنْ قَبْلِهِمْ يُحِبُّونَ مَنْ هَاجَرَ إِلَيْهِمْ وَلَا يَجِدُونَ فِي صُدُورِهِمْ حَاجَةً مِمَّا أُوتُوا وَيُؤْثِرُونَ عَلَىٰ أَنْفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ ۚ وَمَنْ يُوقَ شُحَّ نَفْسِهِ فَأُولَٰئِكَ هُمُ الْمُفْلِحُونَ

(Mühacirlərdən Mədinədə) əvvəl (orada) yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.[2]

## Rəvayətlərdə zahidlik

### Zahidliyin üstünlüyü

İmam Əli (ə) buyurur: Allaha ən yaxşı ibadət, dünyaya qarşı meyilsiz olmaqdır.[3]

### Zahidliyin həqiqəti

Peyğəmbər (s) buyurur: Dünyada zahid olmaq bu mənadadır ki, insan arzularını qısaltsın, hər bir nemətin şükrünü əda etsin və Allahın haram buyurduqlarından uzaqlaşsın.[4]

---

[1] (Nur, 37).
[2] (Həşr, 9).
[3] (Müstədrəkul-Vəsail,cild. 12. Səh,50).
[4] (Tuhəful-Uqul,səh.58).

Yenə Peyğəmbər (s) buyurur: Allahın halal buyurduqlarını haram hesab etmək zahidlik deyil. Zahidlik odur ki, insan əlində olan imkanlardan daha çox Allahın ixtiyarında olanlara güvənsin.[1]

## Zahid şəxsin xüsusiyyətləri

İmam Əli (ə) zahidlərin xüsusiyyətlərini açıqlayarkən belə buyurur: Həqiqi zahidlər onlardır ki, zahirdə dünya əhlinə bənzəyir, batində və həqiqətdə isə dünya əhli deyillər. Onlar dünyada yaşayır, amma sanki dünya əhlindən deyillər. . .[2]

## Zahidliyə səbəb olan amillər

İmam Baqir (ə) buyurur: Çalış ölümü çox yada sal ki, bu iş insanı dünyaya qarşı meyilsiz edər.[3]

## Zahidliyə mane olan işlər

İmam Əli (ə) buyurur: Axirətin dəyərini bilməyən, dünyada zahid ola bilməz.[4]

Yenə Əli (ə) buyurur: Nəfsani istəklərini cilovlaya bilməyən şəxs, zöhdün həqiqətinə yetişə bilməz.[5]

## Ən zahid insan

Peyğəmbər (s) buyurur: Ən zahid şəxs o kəsdir ki, haramlardan uzaq olsun.[6]

İmam Kazim (ə) buyurur: Həqiqətən bəlalar qarşısında səbirli olan şəxs, dünyaya qarşı ən meyilsiz şəxs hesab olur.[7]

---

[1] (Biharul-Ənvar,cild.77,səh.172).
[2] (Biharul-Ənvar,cild.64,səh.320).
[3] (Biharul-Ənvar,cild.73,səh.64).
[4] (Ğürərul-Hikəm,hədis.6987).
[5] (Ğürərul-Hikəm.Hədis,7000).
[6] (Əmali,səh.27).
[7] (Biharul-Ənvar,cild.22,səh.308).

## Zahidliyin insana olan təsirləri

**a)** Zöhd vasitəsi ilə Allahın razılığını qazanmış olarıq

İmam Əli (ə) buyurur: Dünyada zöhdlə yaşayan şəxs, nəfsini azad edər və Allahı özündən razı salmış olar.[1]

**b)** İnsan üçün müsibətlərə dözmək asanlaşar

Peyğəmbər (s) buyurur: Hər kim dünyada zöhdlə yaşasa, müsibətlər onun üçün asanlaşar.[2]

**c)** Dünyanın naqis olan tərəflərini daha yaxşı dərk etmiş olarıq

Peyğəmbər (s) buyurur: Ey Əbuzər! Dünyada zöhdə yiyələnən şəxsin qəlbində bir hikmət yaranar ki, onun vasitəsi ilə dili açılar, dünyanın eyblərini görər və o hikmət həmin şəxsə dünyanın dərdini və dərmanını tanıtdırar.[3]

**d)** Zahid şəxs, insanlar içərisində sevilər

Peyğəmbər (s) buyurur: . . . İnsanların əlində olanlara qarşı meyilsiz ol ki, insanlar səni sevsin.[4]

---

[1] (Müstədrəkul-Vəsail,cild.12. səh,47).
[2] (Biharul-Ənvar,cild.94,səh.1).
[3] (Biharul-Ənvar,cild.80,səh.3).
[4] (Mucəmu Əlfazul-Hədis Nəbəvi,cild.səh,407).

# İLAHİ MƏRHƏMƏT

## Quranda İlahi mərhəmət

### Allahın ümumi mərhəməti bütün varlıqlara şamil olur

### Allahın xüsusi mərhəməti təqva əhlinə aiddir

وَاكْتُبْ لَنَا فِي هَٰذِهِ الدُّنْيَا حَسَنَةً وَفِي الْآخِرَةِ إِنَّا هُدْنَا إِلَيْكَ قَالَ عَذَابِي أُصِيبُ بِهِ مَنْ أَشَاءُ وَرَحْمَتِي
وَسِعَتْ كُلَّ شَيْءٍ فَسَأَكْتُبُهَا لِلَّذِينَ يَتَّقُونَ وَيُؤْتُونَ الزَّكَاةَ وَالَّذِينَ هُمْ بِآيَاتِنَا يُؤْمِنُونَ

Bizim üçün bu dünyada da yaxşılıq yaz, axirətdə də. Həqiqətən, biz, Sənə üz tutduq!" (Allah) dedi: "İstədiyimi əzabıma düçar edirəm. Mərhəmətim isə hər şeyi əhatə edir. Mən onu (Allahdan) qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam.[1]

### Yaxşı əməl sahibləri Allahın xüsusi mərhəmətini əldə edərlər

وَلَا تُفْسِدُوا فِي الْأَرْضِ بَعْدَ إِصْلَاحِهَا وَادْعُوهُ خَوْفًا وَطَمَعًا إِنَّ رَحْمَتَ اللَّهِ قَرِيبٌ مِنَ الْمُحْسِنِينَ

Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır.[2]

### Allah-taala mərhəmətli olmağı özünə vacib edib

[1] (Əraf, 156).
[2] (Əraf, 56).

وَإِذَا جَاءَكَ الَّذِينَ يُؤْمِنُونَ بِآيَاتِنَا فَقُلْ سَلَامٌ عَلَيْكُمْ كَتَبَ رَبُّكُمْ عَلَىٰ نَفْسِهِ الرَّحْمَةَ أَنَّهُ مَنْ عَمِلَ مِنْكُمْ سُوءًا بِجَهَالَةٍ ثُمَّ تَابَ مِنْ بَعْدِهِ وَأَصْلَحَ فَأَنَّهُ غَفُورٌ رَحِيمٌ

Ayələrimizə iman gətirənlər sənin yanına gəldikdə (onlara) de: "Sizə salam olsun! Rəbbiniz Özünə rəhmli olmağı əzəldən yazmışdır; sizlərdən hər kəs avamlığı üzündən pis iş görsə, sonra tövbə edib (əməllərini) islah etsə, (Allah onu bağışlayar). Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir".[1]

### Allahın mərhəmətini necə əldə edə bilərik?

**Cavab:** Aşağıdakı əməlləri yerinə yetirsək, İlahi mərhəməti əldə edə bilərik:

**a)** Qurani-kərimə əməl etmək

وَهَٰذَا كِتَابٌ أَنْزَلْنَاهُ مُبَارَكٌ فَاتَّبِعُوهُ وَاتَّقُوا لَعَلَّكُمْ تُرْحَمُونَ

Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır. Ona tabe olun və (Allahdan) qorxun ki, bəlkə sizə rəhm oluna.[2]

**b)** Quran oxunan zaman sakitçilik və ədəbə riayət etmək

وَإِذَا قُرِئَ الْقُرْآنُ فَاسْتَمِعُوا لَهُ وَأَنْصِتُوا لَعَلَّكُمْ تُرْحَمُونَ

Quran oxunduğu zaman onu dinləyin və susun ki, bəlkə sizə rəhm olunsun.[3]

**c)** Qardaşlar arasında barışıq yaratmaq və təqvaya riayət etmək

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ

[1] (Ənam, 54).
[2] (Ənam, 155).
[3] (Əraf, 204).

Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin.[1]

**d)** Müsibətlər qarşısında səbirli olmaq

وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِنَ الْخَوْفِ وَالْجُوعِ وَنَقْصٍ مِنَ الْأَمْوَالِ وَالْأَنْفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ الَّذِينَ إِذَا أَصَابَتْهُمْ مُصِيبَةٌ قَالُوا إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ أُولَٰئِكَ عَلَيْهِمْ صَلَوَاتٌ مِنْ رَبِّهِمْ وَرَحْمَةٌ وَأُولَٰئِكَ هُمُ الْمُهْتَدُونَ

Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: “Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!”– deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır.[2]

## İlahi mərhəmətin təzahürləri

### Quran

وَلَقَدْ جِئْنَاهُمْ بِكِتَابٍ فَصَّلْنَاهُ عَلَىٰ عِلْمٍ هُدًى وَرَحْمَةً لِقَوْمٍ يُؤْمِنُونَ

Biz onlara biliyimizlə izah etdiyimiz, iman gətirən camaat üçün hidayət və mərhəmət olan bir Kitab göndərdik.[3]

### Tövrat

[1] (Hucurat, 10).
[2] (Bəqərə, 155-157).
[3] (Əraf, 52).

أَفَمَنْ كَانَ عَلَىٰ بَيِّنَةٍ مِنْ رَبِّهِ وَيَتْلُوهُ شَاهِدٌ مِنْهُ وَمِنْ قَبْلِهِ كِتَابُ مُوسَىٰ إِمَامًا وَرَحْمَةً أُولَٰئِكَ يُؤْمِنُونَ بِهِ وَمَنْ يَكْفُرْ بِهِ مِنَ الْأَحْزَابِ فَالنَّارُ مَوْعِدُهُ فَلَا تَكُ فِي مِرْيَةٍ مِنْهُ إِنَّهُ الْحَقُّ مِنْ رَبِّكَ وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يُؤْمِنُونَ

Məgər Rəbbindən açıq-aydın bir dəlilə istinad edən, ardınca Ondan bir şahid (Cəbrail) gələn, ondan da əvvəl rəhbər və mərhəmət olmuş Musanın Kitabının (təsdiqlədiyi) kimsə (kafirə tay ola bilərmi)? (Müsəlmanlar) ona (Qurana) iman gətirirlər. Onu inkar edən firqələrin vəd olunduğu yer oddur. Sənin isə ona (Qurana) heç bir şübhən olmasın. Çünki bu, sənin Rəbbindən (gələn) haqdır, lakin insanların çoxu (buna) inanmır.[1]

### Nübuvvət

قَالَ يَا قَوْمِ أَرَأَيْتُمْ إِنْ كُنْتُ عَلَىٰ بَيِّنَةٍ مِنْ رَبِّي وَآتَانِي مِنْهُ رَحْمَةً فَمَنْ يَنْصُرُنِي مِنَ اللَّهِ إِنْ عَصَيْتُهُ فَمَا تَزِيدُونَنِي غَيْرَ تَخْسِيرٍ

O dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə bir mərhəmət (peyğəmbərlik) bəxş edibsə, onda necə olsun? Əgər Allaha asi olsam, məni Ondan kim qoruya bilər? Siz mənə ziyandan başqa bir şey artırmayacaqsınız.[2]

### İslam Peyğəmbəri (s)

وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِلْعَالَمِينَ

(Ey peyğəmbər) Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik.[3]

### Yağış

فَانْظُرْ إِلَىٰ آثَارِ رَحْمَتِ اللَّهِ كَيْفَ يُحْيِي الْأَرْضَ بَعْدَ مَوْتِهَا إِنَّ ذَٰلِكَ لَمُحْيِي الْمَوْتَىٰ وَهُوَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

[1] (Hud, 17).
[2] (Hud, 63).
[3] (Ənbiya, 107).

Sən Allahın mərhəmətinin izlərinə bax ki, yeri öldükdən sonra necə dirildir. Şübhəsiz ki, O, ölüləri də mütləq diriləcəkdir. O, hər şeyə qadirdir. [1]

### Gecə və gündüz

وَمِنْ رَحْمَتِهِ جَعَلَ لَكُمُ اللَّيْلَ وَالنَّهَارَ لِتَسْكُنُوا فِيهِ وَلِتَبْتَغُوا مِنْ فَضْلِهِ وَلَعَلَّكُمْ تَشْكُرُونَ

O, Öz mərhəməti ilə sizin üçün gecəni və gündüzü yaratdı ki, dincələsiniz və Onun lütfündən (ruzi) axtarasınız. Bəlkə, şükür edəsiniz.[2]

### Cənnət

وَأَمَّا الَّذِينَ ابْيَضَّتْ وُجُوهُهُمْ فَفِي رَحْمَةِ اللَّهِ هُمْ فِيهَا خَالِدُونَ

Üzləri ağ olan kəslər isə Allahın mərhəməti altında olacaq və orada əbədi qalacaqlar.[3]

## Rəvayətlərdə İlahi mərhəmət

### Əfv və mərhəmətin dəyəri

Peyğəmbər (s) buyurur: Sizə dünya və axirət aləminin ən yaxşı əxlaqının nə olduğunu bildirimmi? (O əməl) Sənə zülm edəni əfv etmək, səninlə əlaqəni kəsənlə əlaqə yaratmaq, sənə pislik edənə yaxşılıq etmək və səni məhrum edəni, məhrum etməməkdir.[4]

### Qüdrətli olduğumuz vaxt bağışlamağı bacarmalıyıq

İmam Əli (ə) buyurur: Düşmənin üzərində qüdrətli olduğun vaxt, bu nemətin şükrü müqabilində onu bağışla.[5]

### Hansı əməllər vasitəsi ilə İlahı əfvi əldə edə bilərik?

Rəvayətlərə görə aşağıdakı əməllərə riayət etsək, İlahi əfvə nail ola bilərik

---

[1] (Rum, 50).
[2] (Qəsəs, 73).
[3] (Ali-İmran, 107).
[4] (Usuli-Kafi,cild.2. səh,107).
[5] (Nəhcül-Bəlağə,Hikmətli sözlər,11).

**a)** Günahdan uzaqlaşmaq

İmam Əli (ə) buyurur: Hər kim günahlardan uzaqlaşsa, İlahi mərhəmət sürətlə ona tərəf yaxınlaşar.[1]

**b)** Zülm qarşısında əfv etmək

İmam Sadiq (ə) buyurur: Əfv olmağını istəyirsənsə, sənə zülm edən şəxsi bağışla və Allahın səni əfv etməsindən ibrət götür.[2]

**c)** İxlasla dua etmək

İmam Muhəmməd Baqir (ə) buyurur: Allahın səni əfv etməsinə yaxın ol, ona yaxşı müraciət et və ondan kömək istə.[3]

**d)** Zəif insanlara qarşı mərhəmətli olmaq

İmam Əli (ə) buyurur: Özündən aşağıda olanlara mərhəmət göstər ki, səndən yuxarıda olanlar da sənə qarşı mərhəmətli olsunlar və onların sənə qarşı olan səhvlərini, sənin Allah yanında olan səhvlərinə görə bağışla.[4]

## Əfvin insana müsbət təsirləri

**a)** Əfv etmək, insanın ömrünü uzadar

Çox əfv edən şəxsin ömrü uzanar.[5]

**b)** Əfv etmək insanı ucaldar

Peyğəmbər (s) buyurur: Əfv etmək insanın ucalmasına səbəb olar. Ona görə də çalışın insanları əfv edin ki, Allah sizə izzət versin.[6]

**c)** Əfv kin-küdurəti aradan aparar

Peyğəmbər (s) buyurur: Bir-birinizi əfv edin ki, kin-küdurətlər aradan getsin.[7]

---

[1] (Biharul-Ənvar,cild.78,səh.90).
[2] (Tuhfəl-Uqul,səh.305).
[3] (Biharul-Ənvar,cild.77,səh.164).
[4] (Ğurərul-Hikəm,Hədis 2422).
[5] (Əlamud-Din,səh.315).
[6] (Kənzul-Ummal,hədis. 7012).
[7] (Kənzul-Ummal,hədis.7004).

# TÖVBƏ

## Quranda tövbə

### Tövbənin mənası

**a)** Bəndənin Allaha tərəf qayıdışı və etdiyi günaha görə peşman olması

وَإِذَا جَاءَكَ الَّذِينَ يُؤْمِنُونَ بِآيَاتِنَا فَقُلْ سَلَامٌ عَلَيْكُمْ  كَتَبَ رَبُّكُمْ عَلَىٰ نَفْسِهِ الرَّحْمَةَ  أَنَّهُ مَنْ عَمِلَ مِنْكُمْ
سُوءًا بِجَهَالَةٍ ثُمَّ تَابَ مِنْ بَعْدِهِ وَأَصْلَحَ فَأَنَّهُ غَفُورٌ رَحِيمٌ

Ayələrimizə iman gətirənlər sənin yanına gəldikdə (onlara) de: “Sizə salam olsun! Rəbbiniz Özünə rəhmli olmağı əzəldən yazmışdır; sizlərdən hər kəs avamlığı üzündən pis iş görsə, sonra tövbə edib (əməllərini) islah etsə, (Allah onu bağışlayar). Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir”.[1]

**b)** Allahın tövbələri qəbul etməsi

فَتَلَقَّىٰ آدَمُ مِنْ رَبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ  إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ

Adəm (tövbə etmək üçün) Rəbbindən kəlmələr öyrəndi, O da onun tövbəsini qəbul etdi. Doğrudan da O, tövbələri qəbul edəndir, Rəhmlidir.[2]

### Tövbənin qəbul olma şərtləri

### 1- Təqva

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ  وَلَا تَجَسَّسُوا وَلَا يَغْتَبْ بَعْضُكُمْ بَعْضًا
أَيُحِبُّ أَحَدُكُمْ أَنْ يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ  وَاتَّقُوا اللَّهَ  إِنَّ اللَّهَ تَوَّابٌ رَحِيمٌ

---

[1] (Ənam, 54).
[2] (Bəqərə, 37).

Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir.[1]

### 2- Təsbih və istiğfar

فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ إِنَّهُ كَانَ تَوَّابًا

Həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir![2]

### 3- Peyğəmbərin (s) istiğfarı

وَمَا أَرْسَلْنَا مِنْ رَسُولٍ إِلَّا لِيُطَاعَ بِإِذْنِ اللَّهِ ۚ وَلَوْ أَنَّهُمْ إِذْ ظَلَمُوا أَنْفُسَهُمْ جَاءُوكَ فَاسْتَغْفَرُوا اللَّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُوا اللَّهَ تَوَّابًا رَحِيمًا

Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və Rəhmli olduğunu görərdilər.[3]

### 4- Allahın mərhəməti

وَلَوْلَا فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ وَأَنَّ اللَّهَ تَوَّابٌ حَكِيمٌ

Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, Allah tövbələri qəbul edən və Müdrik olmasaydı (yalan danışanlar Allahın lənətinə gələrdilər).[4]

---

[1] (Hucurat, 12).
[2] (Nəsr, 3).
[3] (Nisa, 64).
[4] (Nur, 10).

# Tövbə etməyin insana təsirləri

## a) Allahın mərhəmətini əldə etmək

وَإِذَا جَاءَكَ الَّذِينَ يُؤْمِنُونَ بِآيَاتِنَا فَقُلْ سَلَامٌ عَلَيْكُمْ ۖ كَتَبَ رَبُّكُمْ عَلَىٰ نَفْسِهِ الرَّحْمَةَ ۖ أَنَّهُ مَنْ عَمِلَ مِنْكُمْ سُوءًا بِجَهَالَةٍ ثُمَّ تَابَ مِنْ بَعْدِهِ وَأَصْلَحَ فَأَنَّهُ غَفُورٌ رَحِيمٌ

Ayələrimizə iman gətirənlər sənin yanına gəldikdə (onlara) de: "Sizə salam olsun! Rəbbiniz Özünə rəhmli olmağı əzəldən yazmışdır; sizlərdən hər kəs avamlığı üzündən pis iş görsə, sonra tövbə edib (əməllərini) islah etsə, (Allah onu bağışlayar). Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir".[1]

## b) İlahi hidayətə yetişmək

وَإِنِّي لَغَفَّارٌ لِمَنْ تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا ثُمَّ اهْتَدَىٰ

Mən, həqiqətən də, tövbə edib, iman gətirib yaxşı işlər görən, sonra da doğru yolu tutanları bağışlayıram.[2]

## c) Günahların savaba çevrilməsi

إِلَّا مَنْ تَابَ وَآمَنَ وَعَمِلَ عَمَلًا صَالِحًا فَأُولَٰئِكَ يُبَدِّلُ اللَّهُ سَيِّئَاتِهِمْ حَسَنَاتٍ ۗ وَكَانَ اللَّهُ غَفُورًا رَحِيمًا

Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir![3]

## d) Xoşbəxtliyə nail olmaq

فَأَمَّا مَنْ تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا فَعَسَىٰ أَنْ يَكُونَ مِنَ الْمُفْلِحِينَ

---

[1] (Ənam, 54).
[2] (Taha, 82).
[3] (Furqan, 70).

Tövbə edib iman gətirən və yaxşı işlər görən kimsəyə gəlincə, ola bilsin ki, o, nicat tapanlardan olsun.[1]

**e) Paklaşıb, Allahın sevimlisi olmaq**

إِنَّ اللَّهَ يُحِبُّ التَّوَّابِينَ وَيُحِبُّ الْمُتَطَهِّرِينَ

Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da.[2]

**f) Cənnəti qazanmaq**

إِلَّا مَنْ تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا فَأُولَٰئِكَ يَدْخُلُونَ الْجَنَّةَ وَلَا يُظْلَمُونَ شَيْئًا

Ancaq (Allaha) tövbə edib iman gətirənlər və xeyirxahlıq edənlərdən başqa! Onlar Cənnətə daxil olacaq və heç bir haqsızlığa məruz qalmayacaqlar.[3]

## Rəvayətlərdə tövbə

**Tövbənin əhəmiyyəti**

İmam Muhəmməd Baqir (ə) buyurur: Gecə vaxtı minik və qidasını itirib, bir müddətdən sonra onları tapan şəxsin sevinci ilə müqayisədə, Allah-taala tövbə edənlərin tövbəsinə daha çox sevinir.[4]

**Tövbə, günahdan təmizlənmək üçün bir vasitədir**

İmam Əli (ə) buyurur: Tövbə, qəlblərin təmizlənməsi və eləcə də günahlardan təmizlənmək üçün bir vasitədir.

Yenə o həzrət (ə) buyurur: Düzgün tövbə etmək, günahları aradan aparar.[5]

---

[1] (Qəsəs, 67).
[2] (Bəqərə, 222).
[3] (Məryəm, 60).
[4] (Usuli-Kafi, Cild.2. Səh, 415).
[5] (Təsnif Ğurərul-Hikəm).

### Tövbə etmək, İlahi rəhmətin nazil olmasına səbəb olar

İmam Əli (ə) buyurur: Tövbə, İlahi rəhmətin nazil olmasına səbəb olar.

### Tövbə etməkdən, günah etməmək rahatdır

İmam Əli (ə) buyurur: Günah etməmək tövbədən asandır.[1]

### Tövbəni gecikdirmək olmaz

Peyğəmbər (s) buyurur: Ey Məsudun oğlu! Günahı qabağa salma və tövbəni gecikdirmə. Çalış günahı təxirə, tövbəni isə qabağa sal.[2]

### Tövbə əhlinin əlamətləri

Peyğəmbər (s) səhabələrinə üz tutub onlardan soruşdu: Bilirsinizmi tövbə edən kimə deyilir? Səhabələr dedilər: Yox, bilmirik. Həzrət (s) buyurdu: Hər kim tövbə edib, pislik etdikləri adamları razı salmasa, öz geyimini dəyişdirməsə, dostlarını dəyişdirməsə, qəlbini açmasa, əliaçıq olmasa, arzusunu qısaltmasa, dilini qorumasa, davranış və niyyətini dəyişməsə və yeməyini azaltmasa, tövbə edən hesab olmaz. Əgər hər kəsdə bu xüsusiyyətlər olsa, həqiqi tövbə edən hesab olar.[3]

---

[1] (Biharul-Ənvar,cild.73,səh.364).
[2] (Biharul-Ənvar,cild. 77. Səh,104).
[3] (Biharul-Ənvar,cild. 6. Səh,35).

# TƏVAZÖKARLIQ

## Quran baxımından təvazökarlıq

### Allah-taala qarşısında boyun əyib, təvazökarlıq göstərənlər cənnət əhlidir

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَأَخْبَتُوا إِلَىٰ رَبِّهِمْ أُولَٰئِكَ أَصْحَابُ الْجَنَّةِ هُمْ فِيهَا خَالِدُونَ

Sözsüz ki, iman gətirib saleh əməllər edənlər və Rəbbinə boyun əyənlər Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar.[1]

### Həqiqi Allah qullarının xüsusiyyətlərindən biri, təvazökarlıqdır

وَعِبَادُ الرَّحْمَٰنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا

Ər-Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara (xoşagəlməz) bir söz dedikdə: “Salam!”- deyərlər.[2]

## Təvazönün müxtəlif növləri

### 1- Allah-taala qarşısında təvazökar olmaq

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَأَخْبَتُوا إِلَىٰ رَبِّهِمْ أُولَٰئِكَ أَصْحَابُ الْجَنَّةِ هُمْ فِيهَا خَالِدُونَ

Sözsüz ki, iman gətirib saleh əməllər edənlər və Rəbbinə boyun əyənlər Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar.[3]

---

[1] (Hud, 23).
[2] (Furqan, 63).
[3] (Hud, 23).

## 2- Möminlər qarşısında təvazökar olmaq

لَا تَمُدَّنَّ عَيْنَيْكَ إِلَىٰ مَا مَتَّعْنَا بِهِ أَزْوَاجًا مِنْهُمْ وَلَا تَحْزَنْ عَلَيْهِمْ وَاخْفِضْ جَنَاحَكَ لِلْمُؤْمِنِينَ

Onların bəzi təbəqələrinə verdiyimiz (fani) dünya malına gözünü dikmə, onlara görə kədərlənmə, möminlərlə yumşaq davran.[1]

## 3- Yoxsullara qarşı təvazökar olmaq

وَلَا تَطْرُدِ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدَاةِ وَالْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ ۖ مَا عَلَيْكَ مِنْ حِسَابِهِمْ مِنْ شَيْءٍ وَمَا مِنْ حِسَابِكَ عَلَيْهِمْ مِنْ شَيْءٍ فَتَطْرُدَهُمْ فَتَكُونَ مِنَ الظَّالِمِينَ

Rəbbinin Üzünü diləyərək səhər və axşam çağı Ona dua edənləri (yanından) qovma. Nə sən onların verəcəkləri hesabata azca da olsa cavabdehsən, nə də onlar sənin (verəcəyin) hesabatında azca da olsa cavabdehdirlər. Onları qovsan zalımlardan olarsan.[2]

## 4- Valideynlər qarşısında təvazökar olmaq

وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ وَقُلْ رَبِّ ارْحَمْهُمَا كَمَا رَبَّيَانِي صَغِيرًا

Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: “Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!”– de.[3]

## 5- Müəllimə qarşı təvazökar olmaq

قَالَ لَهُ مُوسَىٰ هَلْ أَتَّبِعُكَ عَلَىٰ أَنْ تُعَلِّمَنِ مِمَّا عُلِّمْتَ رُشْدًا

---

[1] (Hicr, 88).
[2] (Ənam, 52).
[3] (İsra, 24).

Musa ona dedi: “Sənə öyrədilmiş doğru yolu (göstərən elmdən) mənə öyrətmək şərtilə sənin arxanca gələ bilərəmmi?”[1]

### 6- Xalq nümayəndələrinin insanlara qarşı təvazökar olması

فَبِمَا رَحْمَةٍ مِنَ اللَّهِ لِنْتَ لَهُمْ وَلَوْ كُنْتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانْفَضُّوا مِنْ حَوْلِكَ فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِي الْأَمْرِ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللَّهِ إِنَّ اللَّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ

Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, (Allahdan) onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.[2]

### 7- Yol gedərkən təvazökar olmaq

وَلَا تَمْشِ فِي الْأَرْضِ مَرَحًا إِنَّكَ لَنْ تَخْرِقَ الْأَرْضَ وَلَنْ تَبْلُغَ الْجِبَالَ طُولًا

Yer üzündə təkəbbürlə gəzmə. Çünki sən nə yeri yara bilər, nə də yüksələrək dağlara çata bilərsən.[3]

### 8- Danışan zaman təvazökarlı olmaq

فَقُولَا لَهُ قَوْلًا لَيِّنًا لَعَلَّهُ يَتَذَكَّرُ أَوْ يَخْشَىٰ

Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!”[4]

### 9- Həyat tərzində təvazökarlığa diqqət yetirmək

---

[1] (Kəhf, 66).
[2] (Ali-İmran, 159).
[3] (İsra, 37).
[4] (Taha, 44).

وَعِبَادُ الرَّحْمَٰنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا

Ər-Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara (xoşagəlməz) bir söz dedikdə: “Salam!”- deyərlər.[1]

## Nə üçün insan təvazökar olmalıdır?

Cavab:

**1-** Çünki bütün insanların cəddi sayılan Adəm (ə) torpaqdan yaradılıb

وَاللَّهُ خَلَقَكُمْ مِنْ تُرَابٍ ثُمَّ مِنْ نُطْفَةٍ ثُمَّ جَعَلَكُمْ أَزْوَاجًا وَمَا تَحْمِلُ مِنْ أُنْثَىٰ وَلَا تَضَعُ إِلَّا بِعِلْمِهِ وَمَا يُعَمَّرُ مِنْ مُعَمَّرٍ وَلَا يُنْقَصُ مِنْ عُمُرِهِ إِلَّا فِي كِتَابٍ إِنَّ ذَٰلِكَ عَلَى اللَّهِ يَسِيرٌ

Allah sizi torpaqdan, sonra nütfədən yaratmış, sonra da sizi cütləşdirmişdir. Onun xəbəri olmadan heç bir dişi nə hamilə olar, nə də daşıdığını yerə qoya bilər. Uzunömürlünün uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq Yazıda (Lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır.[2]

### 2- İnsanın yaradılışı murdar su ilə başlayır

ثُمَّ جَعَلَ نَسْلَهُ مِنْ سُلَالَةٍ مِنْ مَاءٍ مَهِينٍ

Sonra onun nəslini bir damla dəyərsiz sudan əmələ gətirmiş.[3]

### 3- İnsan zəif məxluqdur

يُرِيدُ اللَّهُ أَنْ يُخَفِّفَ عَنْكُمْ وَخُلِقَ الْإِنْسَانُ ضَعِيفًا

Allah sizin üçün (şəriət hökmlərini) yüngülləşdirmək istəyir, çünki insan zəif yaradılmışdır.[4]

---

[1] (Furqan, 63).
[2] (Fatir, 11).
[3] (Səcdə, 8).
[4] (Nisa, 28).

**4- İnsan daim ehtiyac içindədir**

يَا أَيُّهَا النَّاسُ أَنْتُمُ الْفُقَرَاءُ إِلَى اللَّهِ ۖ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir.[1]

**5- İnsanın elmi məhduddur**

وَيَسْأَلُونَكَ عَنِ الرُّوحِ ۖ قُلِ الرُّوحُ مِنْ أَمْرِ رَبِّي وَمَا أُوتِيتُمْ مِنَ الْعِلْمِ إِلَّا قَلِيلًا

Səndən ruh haqqında soruşurlar. De: "Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir".[2]

**6- İnsanın qüdrəti əbədi deyil**

هَلَكَ عَنِّي سُلْطَانِيَهْ

Hökmranlığım da məhv olub getdi".[3]

**7- İnsanın əlində olan maddi imkan, onu hər zaman xilas edə bilməz**

مَا أَغْنَىٰ عَنْهُ مَالُهُ وَمَا كَسَبَ

Nə var-dövləti, nə də qazandıqları onu qurtara bilməyəcək.[4]

**8- İnsanın bacarıqları məhduddur**

قُلْ لَا أَمْلِكُ لِنَفْسِي نَفْعًا وَلَا ضَرًّا إِلَّا مَا شَاءَ اللَّهُ ۚ وَلَوْ كُنْتُ أَعْلَمُ الْغَيْبَ لَاسْتَكْثَرْتُ مِنَ الْخَيْرِ وَمَا مَسَّنِيَ السُّوءُ ۚ إِنْ أَنَا إِلَّا نَذِيرٌ وَبَشِيرٌ لِقَوْمٍ يُؤْمِنُونَ

De: "Mən, Allahın istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm. Əgər qeybi bilsəydim, əlbəttə, (özüm üçün) xeyir artırardım və mənə pislik toxunmazdı. Mən sadəcə, iman gətirən bir camaat üçün qorxudan və müjdələyənəm".[5]

**9- İnsan cavanlığını qorumaq qüdrətinə malik deyil**

وَمَنْ نُعَمِّرْهُ نُنَكِّسْهُ فِي الْخَلْقِ ۖ أَفَلَا يَعْقِلُونَ

---

[1] (Fatir, 15).
[2] (İsra, 85).
[3] (Haqqə, 29).
[4] (Məsəd, 2).
[5] (Əraf, 188).

Kimə uzun ömür veririksə, onu xilqətcə tərsinə çeviririk. Məgər başa düşmürlər?[1]

### 10- İnsan heç vaxt ölümdən qaça bilməz

قُلْ إِنَّ الْمَوْتَ الَّذِي تَفِرُّونَ مِنْهُ فَإِنَّهُ مُلَاقِيكُمْ ثُمَّ تُرَدُّونَ إِلَىٰ عَالِمِ الْغَيْبِ وَالشَّهَادَةِ فَيُنَبِّئُكُمْ بِمَا كُنْتُمْ تَعْمَلُونَ

De: “Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir”.[2]

### 11- Bütün problemlərin həlli insanın əlində deyil

وَإِنْ يَمْسَسْكَ اللَّهُ بِضُرٍّ فَلَا كَاشِفَ لَهُ إِلَّا هُوَ وَإِنْ يَمْسَسْكَ بِخَيْرٍ فَهُوَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

Əgər Allah sənə bir zərər vurmaq istəsə, bunun qarşısını Ondan başqa heç kəs ala bilməz. Əgər sənə bir xeyir toxundursa, (heç kəs Ona mane ola bilməz). O, hər şeyə qadirdir.[3]

### 12- İnsan dünyada baş verən xoşagəlməz hadisələrin qarşısını almaqdan acizdir

أَأَمِنْتُمْ مَنْ فِي السَّمَاءِ أَنْ يَخْسِفَ بِكُمُ الْأَرْضَ فَإِذَا هِيَ تَمُورُ

Göydə olanın sizi yerə batırmayacağına əminsinizmi? O zaman yer hərəkətə gəlib titrəyəcəkdir.[4]

### 13- İnsan, səmadan gələn xoşagəlməz hadisələrin qarşısını almaq qüdrətində deyil

أَمْ أَمِنْتُمْ مَنْ فِي السَّمَاءِ أَنْ يُرْسِلَ عَلَيْكُمْ حَاصِبًا فَسَتَعْلَمُونَ كَيْفَ نَذِيرِ

Ya da ki, göydə Olanın üstünüzə daşlar yağdırmayacağına əminsinizmi? Siz, Mənim xəbərdarlığımın necə nəticələr verdiyini biləcəksiniz.[5]

---

[1] (Yasin, 68).
[2] (Cümə, 8).
[3] (Ənam, 17).
[4] (Mülk, 16).
[5] (Mülk, 17).

# Rəvayətlərdə təvazökarlıq

## Təvazökarlığın əhəmiyyəti

İslam Peyğəmbəri həzrət Muhəmməd (s) buyurur: Qiyamət günü mənə ən yaxın olan şəxs, əxlaqı daha gözəl olan şəxs olacaq. Təbii ki, qiyamətdə mənə ən uzaq olan şəxs də, təkəbbürlü şəxslər olacaq.[1]

## Mütəvaze insanın əlamətləri

**a)** Yığıncaqlarda özlərinə xüsusi yer axtarmazlar

**b)** İnsanların vəzifə və maddi durumlarını nəzərə almadan, hər kəsə salam verərlər

**c)** Faydasız mübahisədən uzaq olarlar

**d)** Tərif edilmələrini istəməzlər

İmam Sadiq (ə) buyurur: Təvazökar insanın xüsusiyyətləri bundan ibarətdir ki, hər hansı bir toplantıda iştirak edəndə, oturduğu yerlə kifayətlənər və başqa yer axtarmaz, qarşısındakı hər bir kəsə salam verər, haqlı olsa belə, mübahisədən uzaq olar və heç vaxt istəməz ki, onu tərifləsinlər.[2]

## Təvazökarlı olmaq ən böyük ibadətdir

İmam Əli (ə) buyurur: Çalış təvazökarlı ol ki, təvazökarlıq ən böyük ibadətdir.[3]

## Ən yaxşı əməl, təvazökar olmaqdır

Peyğəmbər (s) buyurur: Ən üstün əməl aşağıdakı üç əməldən ibarətdir. Bacarıqlı olan vaxt, təvazökarlıq etmək, qüdrətli olduğumuz zaman, əfv etməyi bacarmaq və minnətsiz yaxşılıq etmək.[4]

---

[1] (Səfinətul-Bihar, cild, 2.səh,668).
[2] (Biharul-Ənvar,cild. 75. Səh,118).
[3] (Usuli-Kafi, cild.2.səh,123).
[4] (Nəhcül-Fəsahə,Hədis.2484).

## Təvazö elə bir nemətdir ki, o xasiyyətə yiyələnən şəxsə heç vaxt paxıllıq etməzlər

İmam Həsən Əsgəri (ə) buyurur: Təvazökarlıq elə bir nemətdir ki, başqaları bu nemətə görə insana paxıllıq etmir.[1]

## Təvazökarlı olmaq ən üstün ibadətdir

İmam Sadiq (ə) buyurur: Ən üstün ibadət, Allahı tanımaq və onun qarşısında təvazökar olmaqdır.[2]

## Təqva əhlinin xüsusiyyətlərindən biri də, təvazökar olmaqdır

İmam Əli (ə) buyurur: Təqva əhli təvazökar olurlar.[3]

## Nəcib insan təvazökar olar

İmam Əli (ə) buyurur: Təvazökarlıq, insanın nəciblik əlamətidir.[4]

## Müəllim və şagirdin bir-birinə qarşı təvazökarlığı

Peyğəmbər (s) buyurur: Elm öyrəndiyiniz, habelə elm öyrətdiyiniz şəxslərə qarşı təvazökar olun. Zalım alimlərdən olmayın ki, haqqınız batil vasitəsi ilə məhv olar.[5]

## İbadətin şirinliyi, təvazökarlı olmaqla hasil olar

---

[1] (Biharul-Ənvar,cild. 70. Səh,288).
[2] (Tuhfəl-Uqul, səh.364).
[3] (Nəhcül-Bəlağə, Həmmam xütbəsi).
[4] (Ğurərul-Hikəm, cild.2.səh,415).
[5] (Usuli- Kafi,cild.1. səh,44).

Peyğəmbər (s) səhabələrə üz tutub buyurdu: Nə üçün sizin ibadətinizin şirinliyini hiss etmirəm?! Səhabələr: İbadətin şirinliyi nədir ya Rəsuləllah? Həzrət (s) cavab verdi: Təvazökarlıq.[1]

### Varlı insanların kasıb insanlar qarşısında təvazökarlı olması

İmam Əli (ə) buyurur: Varlıların kasıblar qarşısında təvazökarlığı nə gözəl əməldir. . .[2]

## Üç dəstə insan qarşısında təvazökar olmamalıyıq

### a) Günahkarlar qarşısında

İmam Əli (ə) buyurur: Peyğəmbər (s) bizə əmr edib ki, günah əhlinə xoş üz göstərməyək.[3]

### b) Varlılar qarşısında

İmam Əli (ə) buyurur: Hər kim varlı insanın sərvətinə görə, onun qarşısında təvazökarlıq etsə, dininin üçdə ikisini əldən vermiş olar.[4]

### c) Təkəbbürlü insanlar qarşısında

Peyğəmbər (s) buyurur: Ümmətimdən təvazökar insanları görsəniz, onlara qarşı təvazökar olun, təkəbbürlü şəxslərlə qarşılaşanda isə, onlara qarşı təkəbbürlü olun. Çünki təkəbbür əhli qarşısında təkəbbürlü olmaq, onların zəlil olmasına səbəb olar.[5]

---

[1] (Tənbihul-Xəvatir,səh.166).
[2] (Biharul-Ənvar,cild. 78. Səh,13).
[3] (Nəhcül-Fəsahə,səh.16).
[4] (Nəhcül-Bəlağə, hikmətli sözlər,187).
[5] (Camius-Səadat,cild. 1.səh, 363).

## Təvazökarlığın insana təsirləri

**a) İnsanın baş ucalığına səbəb olar**

Peyğəmbər (s) buyurur: Təvazökarlıq edən hər kəsi Allah ucaldar.[1]

**b) İnsanın işləri nəzm-intizama düşər**

İmam Əli (ə) buyurur: Təvazökarlıq vasitəsi ilə insanın işləri nəzmə düşər.[2]

**c) İnsanın inkişafına səbəb olar**

İmam Əli (ə) buyurur: Təvazökarıq şərəfliyin əlamətidir. [3]

**d) Nemətin kifayət qədər artmasına səbəb olar**

İmam Əli (ə) buyurur: Təvazökarlıq vasitəsi ilə nemət kamil olar.[4]

**e) Allah qarşısında ibadət etməkdən yorulmarıq**

İmam Əli (ə) buyurur: Hər kim Allaha görə qəlbini təvazökarlığa adət etdirsə, onun cismi Allaha ibadət etməkdən yorulmaz.[5]

**f) Mehribançılığın yaranmasına səbəb olar**

İmam Əli (ə) buyurur: Təvazökarlıq insanın qəlbində sevgi və məhəbbət yaradır. [6]

---

[1] (Biharul-Ənvar,cild. 75. Səh,120).
[2] (Ğurərul-Hikəm, hədis. 4302).
[3] (Ğurərul-Hikəm, hədis.1051).
[4] (Nəhcül-Bəlağə, hikmətli sözlər. 224).
[5] (Biharul-Ənvar,cild. 78. Səh,9).
[6] (Ğurərul-hikəm).

# TƏKƏBBÜR

## Quran ayələrində təkəbbür

### Təkəbbür, Allahın ayələri barəsində mübahisə edənlərin xüsusiyyətlərindən biridir

إِنَّ الَّذِينَ يُجَادِلُونَ فِي آيَاتِ اللَّهِ بِغَيْرِ سُلْطَانٍ أَتَاهُمْ ۙ إِنْ فِي صُدُورِهِمْ إِلَّا كِبْرٌ مَا هُمْ بِبَالِغِيهِ ۚ فَاسْتَعِذْ بِاللَّهِ ۖ إِنَّهُ هُوَ السَّمِيعُ الْبَصِيرُ

Həqiqətən, özlərinə bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlərin ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur. Onlar heç vaxt buna çatmayacaqlar. Sən Allaha sığın! Həqiqətən, O, Eşidəndir, Görəndir.[1]

### Böyük peyğəmbərlərdən biri olar həzrət Musa (ə), heç bir inanca sahib olmayan təkəbbür əhlindən Allaha sığınır

وَقَالَ مُوسَىٰ إِنِّي عُذْتُ بِرَبِّي وَرَبِّكُمْ مِنْ كُلِّ مُتَكَبِّرٍ لَا يُؤْمِنُ بِيَوْمِ الْحِسَابِ

Musa dedi: “Mən haqq-hesab gününə inanmayan hər bir təkəbbür sahibindən həm mənim Rəbbim, həm də sizin Rəbbiniz olan Allaha pənah aparıram!”[2]

### Allah-taala təkəbbür əhlinin qəlbini möhürləyir

الَّذِينَ يُجَادِلُونَ فِي آيَاتِ اللَّهِ بِغَيْرِ سُلْطَانٍ أَتَاهُمْ ۖ كَبُرَ مَقْتًا عِنْدَ اللَّهِ وَعِنْدَ الَّذِينَ آمَنُوا ۚ كَذَٰلِكَ يَطْبَعُ اللَّهُ عَلَىٰ كُلِّ قَلْبِ مُتَكَبِّرٍ جَبَّارٍ

O kəslər ki, (Rəbbindən) özlərinə heç bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edərlər. Bu həm Allah, həm də iman gətirənlər yanında

[1] (Ğafir, 56).
[2] (Ğafir, 27).

(onlara qarşı) nifrət artırar. Allah hər təkəbbür sahibinin, zalımın ürəyini (təkəbbür, zülm sahibi olan hər bir qəlbi) belə möhürləyər![1]

### Cəhənnəm, təkəbbür əhlinin qalacağı yer olacaq

فَادْخُلُوا أَبْوَابَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا فَلَبِئْسَ مَثْوَى الْمُتَكَبِّرِينَ

Haydı, girin əbədi qalacağınız Cəhənnəmin qapılarına (təbəqələrinə). Təkəbbürlülərin (Allaha iman gətirməyi özlərinə ar bilənlərin) məskəni necə də pisdir!"[2]

### Təkəbbür əhli, doğru yolu seçməkdən acizdir

سَأَصْرِفُ عَنْ آيَاتِيَ الَّذِينَ يَتَكَبَّرُونَ فِي الْأَرْضِ بِغَيْرِ الْحَقِّ وَإِنْ يَرَوْا كُلَّ آيَةٍ لَا يُؤْمِنُوا بِهَا وَإِنْ يَرَوْا سَبِيلَ الرُّشْدِ لَا يَتَّخِذُوهُ سَبِيلًا وَإِنْ يَرَوْا سَبِيلَ الْغَيِّ يَتَّخِذُوهُ سَبِيلًا ذَٰلِكَ بِأَنَّهُمْ كَذَّبُوا بِآيَاتِنَا وَكَانُوا عَنْهَا غَافِلِينَ

Yer üzündə haqsız yerə (layiq olmadıqları halda) təkəbbürlük edənləri ayələrimi anlamaqdan yayındıracağam (mane olacağam). Onlar nə möcüzə görsələr, ona inanmazlar. Onlar haqq yolu görsələr, onu qəbul etməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bunun səbəbi isə onların ayələrimizi yalan hesab etmələri və ondan qafil olmalarıdır.[3]

### Peyğəmbərlərlə (ə) müxalifətçilik edənlər, özündənrazı və təkəbbür əhli olublar

يَا حَسْرَةً عَلَى الْعِبَادِ مَا يَأْتِيهِمْ مِنْ رَسُولٍ إِلَّا كَانُوا بِهِ يَسْتَهْزِئُونَ

Vay bu bəndələrin halına! Onlara elə bir peyğəmbər gəlməz ki, ona istehza etməsinlər! (Buna görə də əzaba düçar olarlar).[4]

---

[1] (Ğafir, 35).
[2] (Nəhl, 29).
[3] (Əraf, 146).
[4] (Yasin, 30).

## İlahi Peyğəmbərlərlə (ə) müxalifətçilik edənlərin bəziləri aşağıdakılardan ibarətdir

1) Şeytan

قَالَ مَا مَنَعَكَ أَلَّا تَسْجُدَ إِذْ أَمَرْتُكَ قَالَ أَنَا خَيْرٌ مِنْهُ خَلَقْتَنِي مِنْ نَارٍ وَخَلَقْتَهُ مِنْ طِينٍ

(Allah iblisə): "Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?" – deyə buyurdu. (İblis:) "Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!" – dedi.[1]

2) Nuh (ə) peyğəmbərin tayfasından bəziləri

وَيَصْنَعُ الْفُلْكَ وَكُلَّمَا مَرَّ عَلَيْهِ مَلَأٌ مِنْ قَوْمِهِ سَخِرُوا مِنْهُ قَالَ إِنْ تَسْخَرُوا مِنَّا فَإِنَّا نَسْخَرُ مِنْكُمْ كَمَا تَسْخَرُونَ

(Nuh) gəmini düzəldir, ümmətinin əyan-əşrafı isə yanından ötüb-keçdikcə onu məsxərəyə qoyurdular. (Nuh) onlara deyirdi: "Əgər (indi) siz bizi məsxərəyə qoyursunuzsa, biz də (Allahın əzabı gəldikdə) sizi siz bizi məsxərəyə qoyduğunuz kimi məsxərəyə qoyacağıq.[2]

3) Qarun

قَالَ إِنَّمَا أُوتِيتُهُ عَلَىٰ عِلْمٍ عِنْدِي أَوَلَمْ يَعْلَمْ أَنَّ اللَّهَ قَدْ أَهْلَكَ مِنْ قَبْلِهِ مِنَ الْقُرُونِ مَنْ هُوَ أَشَدُّ مِنْهُ قُوَّةً وَأَكْثَرُ جَمْعًا وَلَا يُسْأَلُ عَنْ ذُنُوبِهِمُ الْمُجْرِمُونَ

**(Qarun) dedi: "Bu (var-dövlət) mənə yalnız məndə olan elm (Tövratı gözəl bilmək, yaxud əlkimyaya yaxşı bələd olmaq, ticarətdən baş çıxartmaq) sayəsində verilmişdir. Məgər o (Qarun) Allahın ondan əvvəl özündən daha qüvvətli və daha varlı olan neçə-neçə kəsləri məhv etdiyini bilmirdimi? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmazlar. (Onların günahkar olduqları**

[1] (Əraf, 12).
[2] (Hud, 38).

üzlərindən bilinər və buna görə də heç bir sorğu-sual edilmədən cəhənnəm oduna atılarlar).[1]

4) Şüeyb (ə) peyğəmbərin qövmü

قَالُوا يَا شُعَيْبُ مَا نَفْقَهُ كَثِيرًا مِمَّا تَقُولُ وَإِنَّا لَنَرَاكَ فِينَا ضَعِيفًا ۖ وَلَوْلَا رَهْطُكَ لَرَجَمْنَاكَ ۖ وَمَا أَنْتَ عَلَيْنَا بِعَزِيزٍ

Onlar dedilər: “Ey Şüeyb! Dediklərinin çoxunu başa düşmür və səni aramızda zəif (gücsüz) görürük. Əgər əşirətin (dinimizə tapınan qəbilən) olmasaydı, səni daşqalaq edərdik. Yoxsa sən bizim üçün əziz (hörmətli) bir adam deyilsən!”[2]

5) Hud (ə) peyğəmbərin qövmü

قَالُوا يَا هُودُ مَا جِئْتَنَا بِبَيِّنَةٍ وَمَا نَحْنُ بِتَارِكِي آلِهَتِنَا عَنْ قَوْلِكَ وَمَا نَحْنُ لَكَ بِمُؤْمِنِينَ

Onlar da dedilər: “Ey Hud! Sən bizə açıq-aşkar bir möcüzə gətirmədin. Sənin sözünlə tanrılarımızı tərk edən deyilik. Biz sənə inanmırıq![3]

6) Talutun qövmü

وَقَالَ لَهُمْ نَبِيُّهُمْ إِنَّ اللَّهَ قَدْ بَعَثَ لَكُمْ طَالُوتَ مَلِكًا ۚ قَالُوا أَنَّىٰ يَكُونُ لَهُ الْمُلْكُ عَلَيْنَا وَنَحْنُ أَحَقُّ بِالْمُلْكِ مِنْهُ وَلَمْ يُؤْتَ سَعَةً مِنَ الْمَالِ ۚ قَالَ إِنَّ اللَّهَ اصْطَفَاهُ عَلَيْكُمْ وَزَادَهُ بَسْطَةً فِي الْعِلْمِ وَالْجِسْمِ ۖ وَاللَّهُ يُؤْتِي مُلْكَهُ مَنْ يَشَاءُ ۚ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ

(İsrail övladının) peyğəmbəri onlara dedi: “Allah Talutu sizə padşah göndərdi”. Onlar isə: “Biz hökmdarlığa daha layiq ikən və ona var-dövlət verilmədiyi halda, o, necə bizə padşah ola bilər?” – deyə cavab verdilər. (Peyğəmbər onlara) dedi: “Allah sizdən ötrü onu (bəyənib) seçmiş, elm və bədəncə (qüvvəcə) ona üstünlük vermişdir. Allah Öz mülkünü (səltənətini) istədiyinə verər. Allah (Öz lütfü və kərəmi ilə) genişdir, (Allah hər şeyi) biləndir!”[4]

---

[1] (Qəsəs, 78).
[2] (Hud, 91).
[3] (Hud, 53).
[4] (Bəqərə, 247).

## Qurani-kərim ayələrinə əsasən peyğəmbərlərin (ə) xüsusiyyətləri

Allah-taala Quranda peyğəmbərlər (ə) barədə söz açan zaman, ilk olaraq onların əhəmiyyətli xüsusiy-yətlərindən olan təvazökarlığa işarə edir. Quran ayələrinə diqqət yetirsək, görərik ki, peyğəmbərlər (ə) Allah qarşısında öz acizliyini etiraf edir və bütün maddi və mənəvi nemətlərə görə Allaha şükür etdiklərini bildirirlər. Aşağıda nümunə üçün bəzi peyğəmbərlərin (ə) Allah qarşısında necə təvazökarlıq etdikləri və ona qul olduqlarını gətiririk.

### Adəm peyğəmbər (ə)

قَالَا رَبَّنَا ظَلَمْنَا أَنْفُسَنَا وَإِنْ لَمْ تَغْفِرْ لَنَا وَتَرْحَمْنَا لَنَكُونَنَّ مِنَ الْخَاسِرِينَ

(Adəm və Həvva) “Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!” – dedilər.[1]

### Nuh peyğəmbər (ə)

رَبِّ اغْفِرْ لِي وَلِوَالِدَيَّ وَلِمَنْ دَخَلَ بَيْتِيَ مُؤْمِنًا وَلِلْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ وَلَا تَزِدِ الظَّالِمِينَ إِلَّا تَبَارًا

Ey Rəbbim! Məni, ata-anamı, mənim evimə (yaxud məscidimə) mömin kimi daxil olan kimsəni və (qiyamət gününə qədər olacaq) bütün mömin kişiləri və qadınları bağışla. Zalımların isə ancaq və ancaq həlakını (ölümünü) artır!”[2]

### İbrahim peyğəmbər (ə)

الْحَمْدُ لِلَّهِ الَّذِي وَهَبَ لِي عَلَى الْكِبَرِ إِسْمَاعِيلَ وَإِسْحَاقَ إِنَّ رَبِّي لَسَمِيعُ الدُّعَاءِ

İxtiyar çağımda mənə İsmail və İshaqı bəxş etmiş Allaha həmd olsun! Həqiqətən, Rəbbim duaları eşidəndir![3]

رَبَّنَا اغْفِرْ لِي وَلِوَالِدَيَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ الْحِسَابُ

---

[1] (Əraf, 23).
[2] (Nuh, 28).
[3] (İbrahim, 39).

Ey Rəbbim! Haqq-hesab çəkilən gün (qiyamət günü) məni, ata-anamı və mömintləri bağışla!”[1]

### Musa peyğəmbər (ə)

فَسَقَىٰ لَهُمَا ثُمَّ تَوَلَّىٰ إِلَى الظِّلِّ فَقَالَ رَبِّ إِنِّي لِمَا أَنْزَلْتَ إِلَيَّ مِنْ خَيْرٍ فَقِيرٌ

(Musa) onlar üçün (yaxınlıqdakı başqa bir quyudan su çəkib qoyunlarını) suladı, sonra da kölgəyə çəkilib dedi: “Ey Rəbbim! Mən Sənin mənə nazil edəcəyin xeyirə möhtacam!” (Musa yeddi gün idi ki, çöldəki otlardan başqa yeməyə bir şey tapmırdı. Buna görə də Allahdan yemək üçün bir ruzi dilədi).[2]

### Şüeyb peyğəmbər (ə)

قَالَ يَا قَوْمِ أَرَأَيْتُمْ إِنْ كُنْتُ عَلَىٰ بَيِّنَةٍ مِنْ رَبِّي وَرَزَقَنِي مِنْهُ رِزْقًا حَسَنًا ۚ وَمَا أُرِيدُ أَنْ أُخَالِفَكُمْ إِلَىٰ مَا أَنْهَاكُمْ عَنْهُ ۚ إِنْ أُرِيدُ إِلَّا الْإِصْلَاحَ مَا اسْتَطَعْتُ ۚ وَمَا تَوْفِيقِي إِلَّا بِاللَّهِ ۚ عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ

(Şüeyb onlara) belə cavab verdi: “Ey qövmüm! Bir deyin görək! Əgər mən Rəbbimdən aşkar bir möcüzə ilə gəlsəm və Rəbbim mənə Öz dərgahından gözəl (halal) bir ruzi versə (mən ona haram qatarammı)? (Və ya mən öz Rəbbimə asi ola bilərəmmi?) Mən sizə yasaq buyurduğum şeyin əksinə gedib onu özüm etmək istəmirəm. Mən yalnız bacardığım qədər sizi islah etmək istəyirəm. Mənim (bu işdə) müvəffəqiyyətim yalnız Allahın köməyilədir. Mən yalnız Ona təvəkkül etdim və məhz Onun hüzuruna dönəcəyəm![3]

### Hud peyğəmbər (ə)

يَا قَوْمِ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا ۖ إِنْ أَجْرِيَ إِلَّا عَلَى الَّذِي فَطَرَنِي ۚ أَفَلَا تَعْقِلُونَ

Ey camaatım! Mən buna (peyğəmbərliyi təbliğ etməyə) görə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım yalnız məni yaradana aiddir. Məgər dərk etmirsiniz?[4]

---

[1] (İbrahim, 41).
[2] (Qəsəs, 24).
[3] (Hud, 88).
[4] (Hud, 51).

**Yusif peyğəmbər (ə)**

وَرَفَعَ أَبَوَيْهِ عَلَى الْعَرْشِ وَخَرُّوا لَهُ سُجَّدًا وَقَالَ يَا أَبَتِ هَٰذَا تَأْوِيلُ رُؤْيَايَ مِنْ قَبْلُ قَدْ جَعَلَهَا رَبِّي حَقًّا وَقَدْ أَحْسَنَ بِي إِذْ أَخْرَجَنِي مِنَ السِّجْنِ وَجَاءَ بِكُمْ مِنَ الْبَدْوِ مِنْ بَعْدِ أَنْ نَزَغَ الشَّيْطَانُ بَيْنِي وَبَيْنَ إِخْوَتِي إِنَّ رَبِّي لَطِيفٌ لِمَا يَشَاءُ إِنَّهُ هُوَ الْعَلِيمُ الْحَكِيمُ

(Yusif) ata-anasını taxt (öz taxtının) üstünə qaldırdı. Onlar (ata-ana və on bir qardaş) hamısı (hörmət əlaməti olaraq) onun qarşısında səcdəyə qapandılar. (Allah onları bir-birinə qovuşdurduğu üçün şükür səcdəsi etdilər). (Yusif) dedi: "Atacan! Bu əvvəl gördüyüm yuxunun yozumudur. Rəbbim onu (yuxunu) həqiqətə çevirdi. O mənə yaxşılıq etdi, çünki məni zindandan qurtardı, Şeytan mənimlə qardaşlarımın arasını vurduqdan sonra sizi çöldən (yanıma) gətirdi (bizi bir-birimizə qovuşdurdu). Həqiqətən, Rəbbim istədiyinə qarşı lütfkardır (istədiyi şəxs və ya iş barəsində incə tədbir sahibidir). O, doğrudan da, (hər şeyi) biləndir, hikmət sahibidir!"[1]

**Süleyman peyğəmbər (ə)**

قَالَ الَّذِي عِنْدَهُ عِلْمٌ مِنَ الْكِتَابِ أَنَا آتِيكَ بِهِ قَبْلَ أَنْ يَرْتَدَّ إِلَيْكَ طَرْفُكَ فَلَمَّا رَآهُ مُسْتَقِرًّا عِنْدَهُ قَالَ هَٰذَا مِنْ فَضْلِ رَبِّي لِيَبْلُوَنِي أَأَشْكُرُ أَمْ أَكْفُرُ وَمَنْ شَكَرَ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ وَمَنْ كَفَرَ فَإِنَّ رَبِّي غَنِيٌّ كَرِيمٌ

(Süleyman taxtın daha tez gətirilməsini istədi). Kitabdan (Allahın kitabından, yaxud lövhi-məhfuzdan) bir qədər xəbəri olan birisi (Cəbrail, yaxud Xızır və ya Süleymanın çox ağıllı və tədbirli vəziri Asəf ibn Bərxiya) dedi: "Mən onu sənə bir göz qırpımında (gözünü yumub açınca) gətirərəm!" (Süleyman) onu (taxtı) yanında hazır durmuş görüncə dedi: "Bu, Rəbbimin lütfündəndir (mərhəmə-tindəndir). Məni imtahana çəkməyi üçündür ki, görək (Onun nemətinə) şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim (Rəbbimin nemətinə) şükür etsə, yalnız özü üçün (öz xeyrinə) şükür edər; kim nankor olsa, (bilsin ki) həqiqətən, Rəbbim (onun şükürünə) möhtac deyildir, kərəm sahibidir!" (Allah dünyada qədirbilənə

[1] (Yusif, 100).

də, nankora da, möminə də, kafirə də lazımınca ruzi və gün-güzəran verər, çünki O, tükənməz mərhəmət sahibidir!)[1]

### Həzrət Muhəmməd (s)

قُلْ إِنَّ رَبِّي يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاءُ وَيَقْدِرُ وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

(Ya Peyğəmbər!) De: "Rəbbim istədiyinin ruzisini artırar və (istədiyininkini də) azaldar. Lakin insanların əksəriyyəti (bunu) bilməz!"[2]

## Rəvayətlərdə təkəbbür

### Təkəbbür tənqid olunan bir xüsusiyyətdir

Peyğəmbər (s) buyurur: Qiyamət günü məndən ən uzaq olan, təkəbbürlü şəxs olacaq.[3]

### Təkəbbürün həqiqəti

Həzrət Əli (ə) buyurmuşdur: Təkəbbürdən qəti surətdə çəkin. Həqiqətən təkəbbür günahların ən böyüyü, eyiblərin ən pisi və İblis xislətidir.[4]

### Təkəbbürün səbəbi

İmam Sadiq (ə) buyurur: Qəlbində zillət hissi olmayan şəxs, heç vaxt təkəbbürlü olmaz.[5]

### Təkəbbür xüsusiyyəti insanda necə yaranır?

### a) İnsanın, etdiyi ibadətə görə özündən razı qalması

Nəql olunur ki, bir gün məscidə iki nəfər daxil olur. Onlardan biri abid, digəri isə günahkar idi. Məsciddən çıxanda abid günahkar, günahkar insan isə həqiqi möminə çevrilmişdi. Bunun səbəbi isə bu idi ki, abid etdiyi ibadətinə görə iftixar

[1] (Nəml, 40).
[2] (Səba, 36).
[3] (Biharul-Ənvar,cild. 73. səh,232).
[4] (Biharul-Ənvar,cild. 73. səh,36).
[5] (Biharul-Ənvar,cild. 73. səh,225).

etmiş, günahkar isə günahlarından peşman olub, Allahdan bağışlanmaq diləyirdi.[1]

**b) Nəsil, soy və əcdad silsiləsinə görə iftixar etmək**

İmam Əli (ə) qəflətdə qərq olan bəzi insanlar barədə buyurur: Onlar ata-babalarının qəbir daşlarının sayına iftixar edir, yoxsa çox sayda ölümün tələsinə düşənlərin sayına?[2]

**c) Sərvət, mal və mülk insanın təkəbbürlü olmasına səbəb olan digər bir amildir**

Bir gün kasıb bir insan zəngin bir şəxsin kənarında oturur. Buna narahat olan zəngin paltarını toplamağa başladı. Bu səhnəni müşahidə edən Peyğəmbər (s) çox narahat olur və zəngin insana üz tutub buyurur: Qorxdun ki, sərvətindən azalar və ona çatar?[3]

## Təkəbbürün insana olan təsirləri

**1- Nəfsani pisliklərin yaranması**

İmam Əli (ə) buyurur: Təkəbbür, nəfsani pisliklərin aşkar olunmasına səbəb olar.[4]

**2- Əqlin məhv olmasına səbəb olar**

İmam Baqir (ə) buyurur: Əqlə ən çox zərbə vuran şey, təkəbbürdür.[5]

**3- Dost tapmaqda maneçilik törədər**

İmam Əli (ə) buyurur: Təkəbbürlü şəxsin dostu olmaz.[6]

**4- Təkəbbür, insanın məhv olmasına səbəb olar**

İmam Əli (ə) buyurur: Təkəbbür, insanın məhv olmasının bünövrəsidir. [7]

**5- Təkəbbür, insanın zəlil olmasına səbəb olar**

---

[1] (Usuli-Kafi, cild.2. səh,236).
[2] (Nəhcül-Bəlağə, Xütbə.221).
[3] (Muhəccətul-Bəyza, cild.6.səh,287).
[4] (Ğurərul-Hikəm,cild.1.səh,141).
[5] (Mustədrəkul-Vəsail, cild.4.səh, 329).
[6] (Ğurərul-Hikəm, cild.5.səh,75).
[7] (Ğurərul-Hikəm,cild.1.səh,263).

İmam Əli (ə) buyurur: Təkəbbür insanı alçaldar.[1]

### 6- Təkəbbür, insanın şərəfini aradan aparar

İmam Əli (ə) buyurur: Hər kim təkəbbürlü olsa və israfkarlıq etsə, ləyaqətini əldən verər.[2]

## Təkəbbür xüsusiyyətinin müalicə etmək yolları

### a) Namaz

İmam Əli (ə) buyurur: Allah-taala imanı şirkdən paklaşmaq, namazı isə təkəbbürdən uzaqlaşmaq üçün qərar verib.[3]

### b) Çətinliklər qarşısında səbirli olmaq

İmam Əli (ə) buyurur: Allah-taala bəndələri müxtəlif çətinliklərlə sınayır, bir çox çətinliklər qarşısında onlara ibadət etməyi buyurur və onları müxtəlif bəlalarla sınağa çəkir ki, təkəbbürdən uzaq olsunlar.[4]

### c) Sadə həyat tərzi seçib, şəxsi işlərlə məşğul olmaq

İmam Sadiq (ə) buyurur: Hər kim öz ayaqqabı və paltarına yamaq vursa və evinə ruzi aparsa, təkəbbürdən nicat tapmış olar.[5]

### d) İlk yaradılışı yada salmaq

İmam Baqir (ə) buyurur: Təəccüb edirəm özündən razı və təkəbbürlü insana. (O necə təkəbbürlənir) Bir halda ki, bir damcı nütfədən yaranıb, bir müddət keçdikdən sonra isə murdar olacaq və onunla necə davranılacağından xəbəri belə olmayacaqdır.[6]

---

[1] (Ğurərul-Hikəm, cild.1.səh,82).
[2] (Ğurərul-Hikəm,cild.2.səh,293).
[3] (Nəhcül-Bəlağə,Hikmətli sözlər, 252).
[4] (Nəhcül-Bəlağə, xütbə 192).
[5] (Vəsailuş-Şiə, cild,3.səh, 346).
[6] (Biharul-Ənvar,cild. 73. Səh,229).

# DANIŞIQ QAYDALARI

## Quran baxımından danışıq qaydaları

### Agah şəkildə söz danışaq

وَلَا تَقْفُ مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ ۚ إِنَّ السَّمْعَ وَالْبَصَرَ وَالْفُؤَادَ كُلُّ أُولَٰئِكَ كَانَ عَنْهُ مَسْئُولًا

(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə (bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə). Çünki qulaq, göz və ürək bunların hamısı (sahibinin etdiyi əməl, dediyi söz barəsində) sorğu-sual olunacaqdır.[1]

### Mülayim şəkildə danışaq

فَقُولَا لَهُ قَوْلًا لَيِّنًا لَعَلَّهُ يَتَذَكَّرُ أَوْ يَخْشَىٰ

Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud (Rəbbindən) qorxsun!”[2]

### Əməlimiz danışığımızla uyğun olsun

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لِمَ تَقُولُونَ مَا لَا تَفْعَلُونَ

Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? (Bəzi müsəlmanlar: “Hansı əməllərin Allaha daha xoş getdiyini bilsəydik, onları edər, malımızı və canımızı onların yolunda qoyardıq!” – deyirdilər. Lakin cihad əmri nazil olduqda bu, bir çox möminlərin xoşuna gəlmədi).[3]

### İnsafla söz danışaq

وَلَا تَقْرَبُوا مَالَ الْيَتِيمِ إِلَّا بِالَّتِي هِيَ أَحْسَنُ حَتَّىٰ يَبْلُغَ أَشُدَّهُ ۖ وَأَوْفُوا الْكَيْلَ وَالْمِيزَانَ بِالْقِسْطِ ۖ لَا نُكَلِّفُ نَفْسًا إِلَّا وُسْعَهَا ۖ وَإِذَا قُلْتُمْ فَاعْدِلُوا وَلَوْ كَانَ ذَا قُرْبَىٰ ۖ وَبِعَهْدِ اللَّهِ أَوْفُوا ۚ ذَٰلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَذَكَّرُونَ

---

[1] (İsra, 36).
[2] (Taha, 44).
[3] (Səff, 2).

Yetimin malına, xeyirxah məqsəd (onu qoruyub saxlamaq, çoxaltmaq) istisna olmaqla, həddi-buluğa çatana qədər yaxın düşməyin. Ölçüdə və çəkidə düz olun. Biz hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyirik. Söz söylədiyiniz zaman (lehinə və ya əleyhinə danışdığınız adam) qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdi (dini vəzifələrinizi, andlarınızı) yerinə yetirin. (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb öyüd-nəsihət qəbul edəsiniz![1]

### Danışanda haqdan uzaq düşməyək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلًا سَدِيدًا

Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin![2]

### Yumşaq danışaq

وَإِمَّا تُعْرِضَنَّ عَنْهُمُ ابْتِغَاءَ رَحْمَةٍ مِنْ رَبِّكَ تَرْجُوهَا فَقُلْ لَهُمْ قَوْلًا مَيْسُورًا

Əgər Rəbbindən dilədiyin bir mərhəməti (ruzini) gözləmək məqsədilə onlardan (kömək göstərilməsi lazım olan şəxslərdən) üz çevirməli olsan (onlara bir şeylə kömək etmək istəsən, lakin imkanın olmadığı üçün bacarmasan və buna görə də məcburiyyət qarşısında qalıb gözlərinə görünmək istəməsən), heç olmasa, onlara ("Darıxmayın, Allah mənə ruzi bəxş edər, mən də sizə verərəm!" kimi) xoş bir söz de![3]

### Açıq və şəffaf danışaq

أُولَٰئِكَ الَّذِينَ يَعْلَمُ اللَّهُ مَا فِي قُلُوبِهِمْ فَأَعْرِضْ عَنْهُمْ وَعِظْهُمْ وَقُلْ لَهُمْ فِي أَنْفُسِهِمْ قَوْلًا بَلِيغًا

Onlar elə şəxslərdir ki, Allah onların ürəklərindəkini (yaxşı) bilir. (Ya Rəsulum!) Sən onlardan üz çevir, onlara öyüd ver və onlara özləri haqqında təsirli söz de![4]

---

[1] (Ənam, 152).
[2] (Əhzab, 70).
[3] (İsra, 28).
[4] (Nisa, 63).

وَأَخِي هَارُونُ هُوَ أَفْصَحُ مِنِّي لِسَانًا فَأَرْسِلْهُ مَعِيَ رِدْءًا يُصَدِّقُنِي إِنِّي أَخَافُ أَنْ يُكَذِّبُونِ

Qardaşım Harunun dili mənimkindən daha bəlağətlidir. Onu da mənimlə dediklərimi (Firon əhlinə izah edib) təsdiqləyəcək bir köməkçi göndər. Onların məni yalançı hesab edəcəklərindən qorxuram!” [1]

## Yaxşı sözlər danışaq

وَإِذْ أَخَذْنَا مِيثَاقَ بَنِي إِسْرَائِيلَ لَا تَعْبُدُونَ إِلَّا اللَّهَ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَذِي الْقُرْبَىٰ وَالْيَتَامَىٰ وَالْمَسَاكِينِ وَقُولُوا لِلنَّاسِ حُسْنًا وَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ ثُمَّ تَوَلَّيْتُمْ إِلَّا قَلِيلًا مِنْكُمْ وَأَنْتُمْ مُعْرِضُونَ

Yadınıza gətirin ki, Biz bir zaman İsrail oğullarından: “Allahdan qeyrisinə ibadət etməyin, valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara ehsan (yaxşılıq, kömək) edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!” – deyə əhd-peyman aldıq. Sonra, az bir qisminiz müstəsna olmaqla, əhdinizdən döndünüz, çünki siz (İsrail övladı haqdan) üz döndərənsiniz.[2]

## Layiqli sözlər danışaq

وَإِذَا حَضَرَ الْقِسْمَةَ أُولُو الْقُرْبَىٰ وَالْيَتَامَىٰ وَالْمَسَاكِينُ فَارْزُقُوهُمْ مِنْهُ وَقُولُوا لَهُمْ قَوْلًا مَعْرُوفًا

Malın (vərəsələr arasında) bölünməsi zamanı varis olmayan qohumlar, yetimlər və yoxsullar da orada iştirak edərlərsə, onlara da o maldan bir şey verin və gözəl sözlərlə könüllərini alın![3]

## Xoş sözlərlə ünsiyyət quraq

[1] (Qəsəs, 34).
[2] (Bəqərə, 83).
[3] (Nisa, 8).

وَقَضَىٰ رَبُّكَ أَلَّا تَعْبُدُوا إِلَّا إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا ۚ إِمَّا يَبْلُغَنَّ عِنْدَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلَاهُمَا فَلَا تَقُلْ لَهُمَا أُفٍّ وَلَا تَنْهَرْهُمَا وَقُلْ لَهُمَا قَوْلًا كَرِيمًا

Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə![1]

### Pak sözlərlə ünsiyyət quraq

وَهُدُوا إِلَى الطَّيِّبِ مِنَ الْقَوْلِ وَهُدُوا إِلَىٰ صِرَاطِ الْحَمِيدِ

Onlar (dünyada) təmiz (pak) sözə (la ilahə illallaha, yaxud Qurana) müvəffəq olmuş, həm də Allahın bəyəndiyi yola (İslama) yönəldilmişlər.[2]

### Danışığımızda insanları Allaha tərəf dəvət edək

وَمَنْ أَحْسَنُ قَوْلًا مِمَّنْ دَعَا إِلَى اللَّهِ وَعَمِلَ صَالِحًا وَقَالَ إِنَّنِي مِنَ الْمُسْلِمِينَ

(Xalqı) Allaha tərəf çağıran, yaxşı iş görən və: “Mən müsəlmanlardanam!” – deyən kəsdən daha gözəl danışan kim ola bilər?![3]

## Rəvayətlərə görə danışıq qaydaları

### Az danışmağın insana təsiri

İmam Əli (ə) buyurur: Əgər istəyirsən ki, canın sağlam və eyblərin gizli qalsın, az danış və çox düşün. Əgər bunu etsən düşüncən artar və qəlbin nurlu olar.[4]

[1] (İsra, 23).
[2] (Həcc, 24).
[3] (Fussilət, 33).
[4] (Ğurərul-Hikəm, hədis.3725).

### Çox danışmağın insana təsiri

İmam Əli (ə) buyurur: Çox danışanın günahı da çox olar, günahı çox olan şəxsin isə həyası azalar və nəticədə onun təqvası azalar, təqvanın azalması nəticəsində isə insanın qəlbi ölər, qəlbi ölən şəxs isə cəhənnəmə daxil olar.[1]

### Ən yaxşı söz

a) Düz söz

İmam Əli (ə) buyurur: Ən yaxşı söz, düz sözdür.[2]

b) Əməl ilə birgə olan söz

İmam Əli (ə) buyurur: Ən yaxşı söz o sözdür ki, əməl ilə birgə olsun.[3]

c) Yorucu olmayan söz

İmam Əli (ə) buyurur: Ən yaxşı söz o sözdür ki, az və yorucu olmasın.[4]

d) Hamının başa düşdüyü söz

İmam Əli (ə) buyurur: Ən yaxşı söz o sözdür ki, nəzmli və hamının başa düşdüyü tərzdə olsun.[5]

e) Dəqiq və möhkəm olan söz

İmam Əli (ə) buyurur: Sözlərin ən yaxşısı, onların ən dəqiq və möhkəm olanıdır.[6]

## Söz danışmağın qaydaları

1) Danışdığımız sözlər pak sözlər olmalıdır

Peyğəmbər (s) buyurur: Üç əməl var ki, yaxşı əməllər cərgəsindəndir:

a) Səxavətli olmaq.

---

[1] (Biharul-Ənvar,cild. 71. Səh,286).
[2] (Ğurərul-Hikəm, hədis.499).
[3] (Səfinətul-Bihar, cild.7.səh,383).
[4] (Ğurərul-hikəm, hədis.4969).
[5] (Ğurərul-Hikəm, hədis.3304).
[6] (Ğurərul-Hikəm, hədis.2865).

**b)** Yaxşı sözlər danışmaq.

**c)** Əziyyətlər qarşısında səbirli olmaq.[1]

**2)** Bəyənilən sözlərdən istifadə etməliyik

İmam Əli (ə) buyurur: Yaxşı söz danışın ki, yaxşı söz eşidəsiniz.[2]

**3)** Danışdığımız sözləri dinləyənlər olmalıdır

İmam Əli (ə) buyurur: Danışıq üçün münasib yer olmasa, heç vaxt danışma.[3]

**4)** Mülayim və yumşaq sözlərdən istifadə etməliyik

İmam Əli (ə) buyurur: Dilini mülayim danışmağa və salam verməyə adət ver ki, dostların çoxalar, düşmənlərin isə azalar.[4]

**5)** Dəqiq məlumatımız olan sözləri danışmalıyıq

İmam Əli (ə) buyurur: Bilmədiyin şeyi danışma. . .[5]

**6)** Faydasız sözləri danışmaqdan uzaqlaşmalıyıq

Peyğəmbər (s) buyurur: İslamın dəyər verdiyi və gözəl əməllərindən biri də budur ki, faydasız söz danışmayaq.[6]

**7)** Ədəbsiz sözlərdən istifadə etməməliyik

İmam Əli (ə) buyurur: Pis sözlər danışmaqdan çəkinin ki, pis söz danışmaq, qəlblərdən kin-küdurətin yaranmasına səbəb olar.[7]

**8)** Cavabı insanı narahat edən söz danışmamalıyıq

İmam Əli (ə) buyurur: Elə söz danışma ki, onun cavabı səni narahat edəcək.[8]

## Yersiz söz danışmağın insana təsiri

---

[1] (Məhasin, cild.1.səh, 66).
[2] (Ğurərul-Hikəm, hədis. 2568).
[3] (Ğurərul-Hikəm, hədis.10274).
[4] (Ğurərul-Hikəm, hədis.6231).
[5] (Ğurərul-Hikəm, hədis.10426).
[6] (Biharul-Ənvar,cild. 28. Səh,136).
[7] (Ğurərul-Hikəm, hədis.2675).
[8] (Ğurərul-Hikəm,hədis.10155).

**a)** Nemətin aradan getməsinə səbəb olar

İmam Əli (ə) buyurur: Nə çox sözlər var ki, nemətin aradan getməsinə səbəb olur.[1]

**b)** Düşmənçiliyin yaranmasına səbəb olar

İmam Əli (ə) buyurur: Nə çox müharibələr olub ki, onların yaranma səbəbi tək söz olub. (Həmin mənbə).

**c)** İnsanın həbsə düşməsinə səbəb olar

İmam Əli (ə) buyurur: Həbsə düşmədən qabaq, çalış dilini həbs et.[2]

## Dilin insana vurduğu zərərlər

### Quranda dil və onun bəlaları

Mərhum Feyz Kaşani, 20-yə yaxın günahın adını çəkib ki, insan o günahları dil vasitəsi ilə yerinə yetirir. Aşağıda həmin günahları müşahidə edirsiniz:

### 1- Qeybət

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ وَلَا تَجَسَّسُوا وَلَا يَغْتَبْ بَعْضُكُمْ بَعْضًا أَيُحِبُّ أَحَدُكُمْ أَنْ يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ تَوَّابٌ رَحِيمٌ

Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) günahdır. (Bir-birinizin eybini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir). Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir![3]

### 2- Şahidliyi gizlətmək

---

[1] (Ğurərul-Hikəm, hədis.5282).
[2] (Ğurərul-Hikəm, hədis.2437).
[3] (Hucurat, 12).

وَإِنْ كُنْتُمْ عَلَىٰ سَفَرٍ وَلَمْ تَجِدُوا كَاتِبًا فَرِهَانٌ مَقْبُوضَةٌ ۖ فَإِنْ أَمِنَ بَعْضُكُمْ بَعْضًا فَلْيُؤَدِّ الَّذِي اؤْتُمِنَ أَمَانَتَهُ وَلْيَتَّقِ اللَّهَ رَبَّهُ ۗ وَلَا تَكْتُمُوا الشَّهَادَةَ ۚ وَمَنْ يَكْتُمْهَا فَإِنَّهُ آثِمٌ قَلْبُهُ ۗ وَاللَّهُ بِمَا تَعْمَلُونَ عَلِيمٌ

Səfərdə olub katib tapmasanız, girov saxlayın. Əgər bir-birinizə etibar edirsinizsə, etibar olunmuş şəxs əmanəti geri qaytarsın və Rəbbi olan Allahdan qorxsun! Şahidliyi (şahidi olduğunuz şeyi) gizlətməyin! Onu gizlədən şəxsin qəlbi günahkardır. Allah etdiyiniz əməlləri biləndir![1]

**3- Söz gəzdirmək**

وَلَا تُطِعْ كُلَّ حَلَّافٍ مَهِينٍ هَمَّازٍ مَشَّاءٍ بِنَمِيمٍ

(Ya Peyğəmbər!) İtaət etmə (yalan yerə) hər and içənə, alçağa;Qeybət edənə, söz gəzdirənə;[2]

**4- Batilə dalanlarla birlikdə olmaq**

وَكُنَّا نَخُوضُ مَعَ الْخَائِضِينَوَكُنَّا نُكَذِّبُ بِيَوْمِ الدِّينِ

Batilə dalanlarla birlikdə biz də dalardıq, Haqq-hesab gününü yalan sayardıq.[3]

**5-Bidət bəlasına düçar olmaq**

وَلَا تَقُولُوا لِمَا تَصِفُ أَلْسِنَتُكُمُ الْكَذِبَ هَٰذَا حَلَالٌ وَهَٰذَا حَرَامٌ لِتَفْتَرُوا عَلَى اللَّهِ الْكَذِبَ ۚ إِنَّ الَّذِينَ يَفْتَرُونَ عَلَى اللَّهِ الْكَذِبَ لَا يُفْلِحُونَ

Diliniz (bizə belə əmr edildiyi deyə) yalana vərdiş etdiyi üçün (dəlilsiz-sübutsuz): “Bu halaldır, o haramdır!” – deməyin, çünki (bununla) Allaha iftira yaxmış olursunuz. Allaha iftira yaxanlar (axirət əzabından) nicat tapmazlar![4]

**6- Nifaq günahına mübtəla olmaq**

---

[1] (Bəqərə, 283).
[2] (Qələm, 10-11).
[3] (Muddəssir, 45-46).
[4] (Nəhl, 116).

سَيَقُولُ لَكَ الْمُخَلَّفُونَ مِنَ الْأَعْرَابِ شَغَلَتْنَا أَمْوَالُنَا وَأَهْلُونَا فَاسْتَغْفِرْ لَنَا يَقُولُونَ بِأَلْسِنَتِهِمْ مَا لَيْسَ فِي قُلُوبِهِمْ قُلْ فَمَنْ يَمْلِكُ لَكُمْ مِنَ اللَّهِ شَيْئًا إِنْ أَرَادَ بِكُمْ ضَرًّا أَوْ أَرَادَ بِكُمْ نَفْعًا بَلْ كَانَ اللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرًا

(Hüdeybiyyə səfərindən) geri qalan bədəvi ərəblər sənə deyəcəklər: "Mal-dövlətimiz və ailələrimiz başımızı qatdı (səninlə yola çıxa bilmədik). (Allahdan) bizim bağışlanmağımızı dilə!" Onlar ürəklərində olmayanı dilləri ilə deyirlər. (Onlara) de: "Əgər Allah sizə bir zərər, yaxud bir xeyir vermək istəsə, bu işdə Allaha bir şeylə kim mane ola bilər?!" Bəli, Allah sizin nə etdiyinizdən xəbərdardır![1]

### 7- Başqalarını istehza etmək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا يَسْخَرْ قَوْمٌ مِنْ قَوْمٍ عَسَىٰ أَنْ يَكُونُوا خَيْرًا مِنْهُمْ وَلَا نِسَاءٌ مِنْ نِسَاءٍ عَسَىٰ أَنْ يَكُنَّ خَيْرًا مِنْهُنَّ وَلَا تَلْمِزُوا أَنْفُسَكُمْ وَلَا تَنَابَزُوا بِالْأَلْقَابِ بِئْسَ الِاسْمُ الْفُسُوقُ بَعْدَ الْإِيمَانِ وَمَنْ لَمْ يَتُبْ فَأُولَٰئِكَ هُمُ الظَّالِمُونَ

Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar (lağa qoyulanlar) o birilərindən (lağa qoyanlardan Allah yanında) daha yaxşı olsunlar. Qadınlar da bir-birinə (rişxənd eləməsinlər). Bəlkə, onlar (rişxənd olunanlar) o birilərindən (rişxənd edənlərdən) daha yaxşıdırlar. Bir-birinizə tənə etməyin (ayıb tutmayın) və bir-birinizi pis ləqəblərlə (ey kafir, ey fasiq, ey münafiq və i. a.) çağırmayın. İman gətirdikdən sonra fasiq adını qazanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır! (Özlərinə zülm edənlərdir!)[2]

### 8- Yalançılıq

إِنَّمَا يَفْتَرِي الْكَذِبَ الَّذِينَ لَا يُؤْمِنُونَ بِآيَاتِ اللَّهِ وَأُولَٰئِكَ هُمُ الْكَاذِبُونَ

[1] (Fəth, 11).
[2] (Hucurat, 11).

Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Onlar əsl yalançıdırlar![1]

### 9- Başqalarında eyb axtarmaq

وَيْلٌ لِكُلِّ هُمَزَةٍ لُمَزَةٍ

(Dalda) qeybət edib (üzdə) tənə vuran hər kəsin vay halına![2]

**10- Ğina (Haram mahnılar),**

**11- Mübahisə və çəkişmə,**

**12- Söyüş,**

**13- Sirri aşkar etmək**

**14- Yersiz tərifləmək, 15- Yersiz hər hansı birini qınamaq, 16- Şəri qaydalardan kənar zarafat etmək, 17- Yersiz söz danışmaq, 18- Hədsiz söz danışmaq, 19- Düşmənçilik törədən sözlər danışmaq.**

## Rəvayətlərdə dil və onun bəlaları

### Dil, insanın kimliyinin göstəricisidir

İmam Əli (ə) buyurur: Danışın ki, tanınasınız. Çünki insanın şəxsiyyəti onun dili arxasında gizlidir.[3]

### Dil, əqlin dəyərini bildirir

İmam Əli (ə) buyurur: İnsanın dilinə gətirdiyi söz onun əqli ilə ölçülər.[4]

---
[1] (Nəhl, 105).
[2] (Huməzə, 1).
[3] (Nəhcül-Bəlağə, hikmətli sözlər, 392).
[4] (Ğurərul-Hikəm, hədis.10957).

### Əqlin sağlam qalmasına səbəb olan şey, insanın dilidir

Peyğəmbər (s) buyurur: İnsanın qəlbi düzəlmədən onun imanı düzəlməz. Qəlb isə o vaxt düzələr ki, onun dili düzəlsin.[1]

### Əqlin dili

İmam Əli (ə) buyurur: Ağıllı insanın dili onun qəlbi, axmaq insanın qəlbi isə onun dili arxasındadır.[2]

### Dil, pislik və yaxşılıqların açarıdır

İmam Baqir (ə) buyurur: Doğrudan da dil hər yaxşılıq və pisliyin açarıdır. Yaxşı olar ki, mömin, qızıl və gümüşünü qoruduğu kimi, dilini də möhürləyərək qorusun.[3]

## Dili qorumağın insana təsiri

### a) Sağlamlıq

Peyğəmbər (s) buyurur: İnsanın sağlamlığı dilini qorumağa bağlıdır.[4]

### b) Şəxsiyyətin qorunması

İmam Əli (ə) buyurur: Hər kim dilini qorusa özünə hörmət qazanmış olar.[5]

### c) Nicat tapmaq

İmam Sadiq (ə) buyurur: Möminin nicatı, dilini qorumasına bağlıdır.[6]

### d) Eyblərin örtülməsi

---

[1] (Kənzul-Ummal, hədis.24925).
[2] (Nəhcül-bəlağə, Hikmətli sözlər. 40).
[3] (Tuhfəl-Uqul, səh.298).
[4] (Biharul-Ənvar,cild. 68. Səh,286).
[5] (Ğurərul-Hikəm, hədis.8005).
[6] (Səvabul-Əmal, səh.405).

İmam Əli (ə) buyurur: Hər kim dilini qorusa, Allah onun eyblərini gizlədər. (Həmin mənbə).

**e) İnsanlar içərisində izzətli olmaq**

İmam Rza (ə) buyurur: Dilini qoru ki, izzətli olasan.[1]

**f) Şeytana müsəllət olmaq**

Peyğəmbər (s) buyurur: Şeytana müsəllət olmaq üçün danışdığın sözlərdən başqa zaman, dilinə nəzarət et.[2]

## Dilin insana vura biləcək ziyanları

**1-** Dava düşüb, qan axmağa səbəb ola bilər

İmam Əli (ə) buyurur: Nə çox qanlar axıb ki, səbəbi dil olub.[3]

**2-** İnsanın məhv olmasına səbəb ola bilər

İmam Əli (ə) buyurur: Nə çox insanlar olub ki, dil ucbatından məhv olublar.[4]

**3-** İnsanın əzab-əziyyətə düşməsinə səbəb ola bilər

Peyğəmbər (s) buyurur: İnsanın çətinliyə düşməsinin səbəbi onun dilidir.[5]

**4-** İnsanın cəhənnəmə düşməsinə səbəb ola bilər

Peyğəmbər (s) buyurur: Hər kim çox danışsa daha çox süquta uğrayar, süquta çox uğrayan şəxs çox günah edər, günahı çox olan şəxs isə cəhənnəm atəşinə layiq görülər.[6]

---

[1] (Usuli-Kafi,cild.2.səh, 175).
[2] (Muhəccətul-Bəyza, cild.5.səh,195).
[3] (Ğurərul-Hikəm, hədis.6928).
[4] (Ğurərul-Hikəm, hədis.6929).
[5] (Biharul-Ənvar,cild. 68. Səh,286).
[6] (Muhəccətul-Bəyza, cild.5. səh,196).

# QONAQLIQ

## Quran baxımından qonaqlıq

**Dəvət olunmadan heç bir yerə getməyin**

**Vaxtından qabaq getməyin**

**Yeməkdən sonra ev sahibini narahat etməyin**

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَدْخُلُوا بُيُوتَ النَّبِيِّ إِلَّا أَنْ يُؤْذَنَ لَكُمْ إِلَىٰ طَعَامٍ غَيْرَ نَاظِرِينَ إِنَاهُ وَلَٰكِنْ إِذَا دُعِيتُمْ
فَادْخُلُوا فَإِذَا طَعِمْتُمْ فَانْتَشِرُوا وَلَا مُسْتَأْنِسِينَ لِحَدِيثٍ إِنَّ ذَٰلِكُمْ كَانَ يُؤْذِي النَّبِيَّ فَيَسْتَحْيِي مِنْكُمْ وَاللَّهُ لَا
يَسْتَحْيِي مِنَ الْحَقِّ وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَاعًا فَاسْأَلُوهُنَّ مِنْ وَرَاءِ حِجَابٍ ذَٰلِكُمْ أَطْهَرُ لِقُلُوبِكُمْ وَقُلُوبِهِنَّ
وَمَا كَانَ لَكُمْ أَنْ تُؤْذُوا رَسُولَ اللَّهِ وَلَا أَنْ تَنْكِحُوا أَزْوَاجَهُ مِنْ بَعْدِهِ أَبَدًا إِنَّ ذَٰلِكُمْ كَانَ عِنْدَ اللَّهِ عَظِيمًا

Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən (yeməyə dəvət olunmadan) girib onun bişməsini gözləməyin. Lakin dəvət olunduqda gedin və (yeməyinizi) yedikdən sonra (orada bir-birinizlə) söhbətə qapılmayıb dağılın. Bu (sizin çox oturmağınız), Peyğəmbərə əziyyət verir, amma o sizdən (bunu sizə deməkdən) utanırdı. Lakin Allah doğru sözdən çəkinməz. Onlardan (Peyğəmbərin zövcələrindən) bir şey soruşduqda, pərdə arxasından soruşun (evlərinə daxil olmayın). Bu həm sizin, həm də onların ürəklərinə daha çox təmizlik bəxş edər. Sizə Allahın Peyğəmbərini incitmək, özündən sonra onun zövcələri ilə evlənmək əsla yaraşmaz. Həqiqətən, bu, Allah yanında böyük günahdır![1]

**İcazəsiz heç bir yerə daxil olmayın**

**Ev sahibinə salam verin**

[1] (Əhzab, 53).

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَدْخُلُوا بُيُوتًا غَيْرَ بُيُوتِكُمْ حَتَّىٰ تَسْتَأْنِسُوا وَتُسَلِّمُوا عَلَىٰ أَهْلِهَا ۚ ذَٰلِكُمْ خَيْرٌ لَكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ

Ey iman gətirənlər! Başqalarının evlərinə (sizin olmayan evlərə) sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin. Bu, (ədəb-ərkan baxımından) sizin üçün daha yaxşıdır. Bəlkə, (Allahın bu əmrinin hikmətini) düşünüb anlayasınız (və həmişə yadda saxlayıb ona əməl edəsiniz).[1]

### Evdə heç kim olmasa ora daxil olmayın

### Ev sahibi qonaq qəbul etmədiyi üçün üzürlü olsa, onun üzrünü qəbul edin

فَإِنْ لَمْ تَجِدُوا فِيهَا أَحَدًا فَلَا تَدْخُلُوهَا حَتَّىٰ يُؤْذَنَ لَكُمْ ۖ وَإِنْ قِيلَ لَكُمُ ارْجِعُوا فَارْجِعُوا ۖ هُوَ أَزْكَىٰ لَكُمْ ۚ وَاللَّهُ بِمَا تَعْمَلُونَ عَلِيمٌ

Əgər orada heç kəsi tapmasanız, sizə icazə verilməyənədək içəri girməyin. Sizə "Geri dönün!" – deyilsə, geri dönün. Bu, Allahın yanında sizin üçün daha təmiz bir davranışdır. Allah nə etdiklərinizi biləndir![2]

### Yeni gələn qonaqlara yer verin və onlara qarşı hörmətli olun

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا قِيلَ لَكُمْ تَفَسَّحُوا فِي الْمَجَالِسِ فَافْسَحُوا يَفْسَحِ اللَّهُ لَكُمْ ۖ وَإِذَا قِيلَ انْشُزُوا فَانْشُزُوا يَرْفَعِ اللَّهُ الَّذِينَ آمَنُوا مِنْكُمْ وَالَّذِينَ أُوتُوا الْعِلْمَ دَرَجَاتٍ ۚ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ

Ey iman gətirənlər! Sizə: "Məclislərdə (mömin qardaşlarınıza) yer verin!" – deyildiyi zaman (onlara) yer verin ki, Allah da sizə (Cənnətdə) geniş yer versin. Eləcə də sizə: "Qalxın!" deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və (xüsusilə) elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah etdiyiniz əməllərdən xəbərdardır![3]

---

[1] (Nur, 27).
[2] (Nur, 28).
[3] (Mucadilə, 11).

## Yemək yeyəndə orta həddə riayət edin

يَا بَنِي آدَمَ خُذُوا زِينَتَكُمْ عِنْدَ كُلِّ مَسْجِدٍ وَكُلُوا وَاشْرَبُوا وَلَا تُسْرِفُوا إِنَّهُ لَا يُحِبُّ الْمُسْرِفِينَ

Ey Adəm oğulları! Hər bir ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz![1]

## Qonaqlıqda olanda bir-birinizin qulağına pıçıldamayın

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا تَنَاجَيْتُمْ فَلَا تَتَنَاجَوْا بِالْإِثْمِ وَالْعُدْوَانِ وَمَعْصِيَتِ الرَّسُولِ وَتَنَاجَوْا بِالْبِرِّ وَالتَّقْوَىٰ وَاتَّقُوا اللَّهَ الَّذِي إِلَيْهِ تُحْشَرُونَ

Ey iman gətirənlər! Bir-birinizlə xəlvət danışdığınız zaman günah, düşmənçilik və Peyğəmbərin əleyhinə çıxmaq barədə danışmayın; yaxşı işlər, Allahdan qorxmaq barədə danışın və (qiyamət günü) hüzuruna toplanacağınız Allahdan qorxun![2]

## Hansı evlərə icazəsiz girib, orada yemək yeyə bilərik?

## Cavab:

1- Ata evi. 2- Ana evi. 3-Qardaş evi. 4- Bacı evi. 5- Əmi evi. 6- Dayı evi. 7-Xala evi. 8- Bibi evi. 9- Dostların evi. 10- İxtiyarı bizim əlimizdə olan evlər.

لَيْسَ عَلَى الْأَعْمَىٰ حَرَجٌ وَلَا عَلَى الْأَعْرَجِ حَرَجٌ وَلَا عَلَى الْمَرِيضِ حَرَجٌ وَلَا عَلَىٰ أَنْفُسِكُمْ أَنْ تَأْكُلُوا مِنْ بُيُوتِكُمْ أَوْ بُيُوتِ آبَائِكُمْ أَوْ بُيُوتِ أُمَّهَاتِكُمْ أَوْ بُيُوتِ إِخْوَانِكُمْ أَوْ بُيُوتِ أَخَوَاتِكُمْ أَوْ بُيُوتِ أَعْمَامِكُمْ أَوْ بُيُوتِ عَمَّاتِكُمْ أَوْ بُيُوتِ أَخْوَالِكُمْ أَوْ بُيُوتِ خَالَاتِكُمْ أَوْ مَا مَلَكْتُمْ مَفَاتِحَهُ أَوْ صَدِيقِكُمْ لَيْسَ عَلَيْكُمْ جُنَاحٌ

[1] (Əraf, 31).
[2] (Mucadilə, 9).

أَنْ تَأْكُلُوا جَمِيعًا أَوْ أَشْتَاتًا فَإِذَا دَخَلْتُمْ بُيُوتًا فَسَلِّمُوا عَلَىٰ أَنْفُسِكُمْ تَحِيَّةً مِنْ عِنْدِ اللَّهِ مُبَارَكَةً طَيِّبَةً كَذَٰلِكَ يُبَيِّنُ اللَّهُ لَكُمُ الْآيَاتِ لَعَلَّكُمْ تَعْقِلُونَ

Kora, çolağa, xəstəyə (başqaları ilə bir yerdə oturub yemək yeməkdə) günah yoxdur. Sizin özünüzə də öz evlərinizdə, yaxud atalarınızın evlərində, yaxud analarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud bibilərinizin evlərində, yaxud dayılarınızın evlərində, yaxud xalalarınızın evlərində, yaxud açarları əllərinizdə olan (səlahiyyətiniz çatan) evlərdə, yaxud dostlarınızın evlərində yemək yeməkdən heç bir günah gəlməz. Bir yerdə, yaxud ayrı-ayrılıqda yeməyinizdə də heç bir günah yoxdur. Evlərə daxil olduğunuz zaman özünüzü (bir-birinizi, qohum-əqrəbanızı, dostlarınızı və dindaşlarınızı) Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın. Allah ayələri sizə belə izah edir ki, düşünüb daşınasınız![1]

## Rəvayətlərdə qonaqlıq

## Qonağın vəzifələri

### a) Dəvəti qəbul etmək

İmam Sadiq (ə) buyurur: Möminin digər mömin qarşısında vacib borclarından biri də budur ki, mömin qardaşının dəvət etdiyi qonaqlığı qəbul etsin.[2]

### b) Qonaq çağırıldığı yerə, uşaq aparmamaq

Peyğəmbər (s) buyurur: Sizi yemək süfrəsinə dəvət edən zaman, övladınızı özünüzlə aparmayın. Hər kim bu işi yerinə yetirsə, haram işləmiş və özünü günaha daxil etmiş olar.[3]

---

[1] (Nur, 61).
[2] (Məhasin Bərqi, cild.2. səh,179).
[3] (Məhasin Bərqi, cild. 2.səh,181).

**c) Ev sahibi hazırladığı yeməklərə dəyər vermək**

İmam Sadiq (ə) buyurur: Hər kim mömin qardaşının onun üçün hazırladığına (yeməyə) qarşı əhəmiyyətsiz yanaşsa, həlak olar. (Həmin mənbə).

**d) Ev yiyəsi ona məsləhət gördüyü yerdə oturmaq**

İmam Muhəmməd Baqir (ə) buyurur: Din qardaşınız sizi qonaq çağırdığı vaxt, sizə göstərdiyi məkanda əyləşin. Çünki ev sahibi, evini qonaqdan daha yaxşı tanıyır.[1]

## Ev sahibinin vəzifələri

**1- Ev sahibi qonaqlıq üçün özünü əziyyət və çətinliyə salmalı deyil**

Peyğəmbər (s) buyurur: Qonaq üçün imkanınızda olanları hazırlayın və özünüzü əziyyətə salmayın.[2]

**2- Ev sahibi evinə qonaq çağırdığı təqdirdə, qonaqlığın əziyyətinə səbr etməlidir**

İmam Sadiq (ə) buyurur: Mömin qardaşınız sizin evinə gəldiyi vaxt, onun üçün evdə olanlardan hazırla. Amma əgər mömin qardaşınızı evə qonaq çağırsanız, (layiqli süfrə təşkil etməkdə) özünüzü zəhmətə salın.[3]

**3- Qonağa "Yemək yeyirsənmi" sualını verməmək**

İmam Sadiq (ə) buyurur: Din qardaşın evinə gəldiyi vaxt ondan "Yemək yeyirsənmi" sualını soruşma.[4]

**4- Qonağı işlətməməliyik**

İmam Sadiq (ə) buyurur: Peyğəmbər (s) qonağı işlətməkdən çəkindirərdi.[5]

**5- Yaxşı olar ki, ev sahibi qonaqla birgə yemək yesin**

---

[1] (Biharul-Ənvar,cild. 75. Səh,451).
[2] (Kənzul-Ummal, hədis. 25876).
[3] (Məhasin Bərqi,cild.2.səh,179).
[4] (Biharul-Ənvar,cild. 75. Səh,455).
[5] (Biharul-Ənvar,cild. 74. Səh,178).

Peyğəmbər (s) buyurur: Hər kim istəsə Allah və onun peyğəmbəri (s) ondan razı qalsın, qonaqla birgə yemək yeməlidir.[1]

**6- Ev sahibi qonaqdan sonra yeməkdən əl çəkməlidir**

Rəvayətlər və tarixdə nəql olunur ki, Peyğəmbər (s) həmişə qonaqla birgə yemək yeyir və qonaq yeməkdən əl çəkməyənə qədər, yeməkdən əl çəkmirdi.[2]

**7- Qonaq gəldiyi zaman, imkan həddində həyat yoldaşına çox əziyyət verməməliyik**

Nəql olunur ki, bir nəfər İmam Əlini (ə) evinə qonaq çağırır. İmam Əli (ə) ona üz tutub buyurur: Sənin qonaqlığını bu şərtlə qəbul edərəm ki, yalnız evində olanlardan hazırlıq gör, evində olan ərzaqları ehtiyat üçün saxlama və öz həyat yoldaşına əziyyət vermə. [3]

**8- Qonağı çox ehtiramla qarşılamalıyıq**

İmam Əli (ə) buyurur: Evinə təşrif buyurmuş qonaq azyaşlı olsa belə, onu hörmətlə qarşıla. Rəhbər və ya hökmdar olsan belə, məclisdə ustad və atanla qarşılaşanda onun ayağına qalx.[4]

**9- Qonaqlıq sona çatdıqdan sonra, qonağı yola salmalıyıq**

Peyğəmbər (s) buyurur: Qonağın ev sahibi üzərində olan hüquqlarından biri də budur ki, qonaqla birgə evin qapısına qədər addımlayıb, onu yola salasan.[5]

---

[1] (Mədinətul-Bəlağə,cild.2.səh, 552).
[2] (Furui-Kafi, cild.6.səh,285).
[3] (Biharul-Ənvar,cild. 75. səh,4511).
[4] (Ğurərul-hikəm, cild.1.səh, 114).
[5] (Biharul-Ənvar,cild. 75. səh,451).

# ALQI-SATQI

## Quranda alqı-satqı mövzusu

### Alqı-satqının halal olması

الَّذِينَ يَأْكُلُونَ الرِّبَا لَا يَقُومُونَ إِلَّا كَمَا يَقُومُ الَّذِي يَتَخَبَّطُهُ الشَّيْطَانُ مِنَ الْمَسِّ ۚ ذَٰلِكَ بِأَنَّهُمْ قَالُوا إِنَّمَا الْبَيْعُ
مِثْلُ الرِّبَا ۗ وَأَحَلَّ اللَّهُ الْبَيْعَ وَحَرَّمَ الرِّبَا ۚ فَمَنْ جَاءَهُ مَوْعِظَةٌ مِنْ رَبِّهِ فَانْتَهَىٰ فَلَهُ مَا سَلَفَ وَأَمْرُهُ إِلَى اللَّهِ ۖ وَمَنْ
عَادَ فَأُولَٰئِكَ أَصْحَابُ النَّارِ ۖ هُمْ فِيهَا خَالِدُونَ

Sələm (müamilə, faiz) yeyənlər (qiyamət günü) qəbirlərindən ancaq Şeytan toxunmuş (cin vurmuş dəli) kimi qalxarlar. Bunların belə olmaları: “Alış-veriş də sələm kimi bir şeydir!” – dedikləri üzündəndir. Halbuki, Allah alış-verişi halal, sələm (faiz) almağı isə haram (qadağan) etmişdir. İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı (sələmlər) onundur (ona bağışlanar). Onun işi Allaha aiddir. Amma (yenidən sələmçiliyə) qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar![1]

### Ticarətdə satıcı və alıcının ikitərəfli razılığı

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَأْكُلُوا أَمْوَالَكُمْ بَيْنَكُمْ بِالْبَاطِلِ إِلَّا أَنْ تَكُونَ تِجَارَةً عَنْ تَرَاضٍ مِنْكُمْ ۚ وَلَا تَقْتُلُوا
أَنْفُسَكُمْ ۚ إِنَّ اللَّهَ كَانَ بِكُمْ رَحِيمًا

Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə (haqsız yerə) yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir![2]

[1] (Bəqərə, 275).
[2] (Nisa, 29).

### Cümə namazı vaxtı alqı-satqı ilə məşğul olmamaq lazımdır

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا نُودِيَ لِلصَّلَاةِ مِنْ يَوْمِ الْجُمُعَةِ فَاسْعَوْا إِلَىٰ ذِكْرِ اللَّهِ وَذَرُوا الْبَيْعَ ذَٰلِكُمْ خَيْرٌ لَكُمْ إِنْ كُنْتُمْ تَعْلَمُونَ

Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir![1]

### Cümə namazından sonra alverlə məşğul olmaq

فَإِذَا قُضِيَتِ الصَّلَاةُ فَانْتَشِرُوا فِي الْأَرْضِ وَابْتَغُوا مِنْ فَضْلِ اللَّهِ وَاذْكُرُوا اللَّهَ كَثِيرًا لَعَلَّكُمْ تُفْلِحُونَ

Namaz qılınıb qurtardıqdan sonra yer üzünə dağılın və Allahın lütfündən ruzi diləyib axtarın! (Yenə öz işinizə qayıdın!) Və Allahı çox zikr edin ki, nicat tapıb səadətə qovuşasınız! (Hər iki dünyada muradınıza yetişəsiniz!)[2]

### Allah yanında ən layiqli şəxslər

رِجَالٌ لَا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَنْ ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاءِ الزَّكَاةِ ۙ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ

O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi (dəhşətdən ürəklərin duymaqdan, gözlərin görməkdən qalacağı) bir gündən (qiyamət günündən) qorxarlar.[3]

---

[1] (Cümə, 9).
[2] (Cümə, 10).
[3] (Nur, 37).

### Alveri cümə namazından üstün tutanların qınanması

وَإِذَا رَأَوْا تِجَارَةً أَوْ لَهْوًا انْفَضُّوا إِلَيْهَا وَتَرَكُوكَ قَائِمًا قُلْ مَا عِنْدَ اللَّهِ خَيْرٌ مِنَ اللَّهْوِ وَمِنَ التِّجَارَةِ وَاللَّهُ خَيْرُ الرَّازِقِينَ

Onlar (möminlər) bir alış-veriş, yaxud bir əyləncə gördükləri zaman səni ayaq üstə (minbərdə xütbə oxuduğun halda) qoyub ona tərəf cumdular. (Ya Peyğəmbər!) De: "Allah dərgahında olan savab əyləncədən də, ticarətdən də xeyirlidir. Allah ruzi verənlərin ən yaxşısıdır!"[1]

## Rəvayətlərdə alqı-satqı mövzusu və onun qaydaları

### Ticarətə aid olan şəri məsələləri öyrənmək

İmam Əli (ə) buyurur: Ey tacirlər! İlk olaraq şəriəti öyrənin, sonra ticarətlə məşğul olun.[2]

### Düzgünlüyə riayət etmək

Peyğəmbər (s) buyurur: Düz danışan tacir, qiyamət günü peyğəmbər, siddiq və şəhidlərlə məşhur olacaq.[3]

### Ticarəti ləğv etmək

İmam Sadiq (ə) buyurur: Alver edib, onu ləğv edən hər bir müsəlman şəxs, Allahın sınağına çəkiləcək.[4]

---

[1] (Cümə, 11).
[2] (Usuli-Kafi, cild, 5. Səh,150).
[3] (Əddürrül-Mənsur, cild. 2.səh,495).
[4] (Vəsailuş-Şiə, cild.12. səh,287).

## Ticarət zamanı qarşıtərəfi çətinliyə salmamaq

Peyğəmbər (s) buyurur: Allahın rəhməti o şəxslərin üzərinə olsun ki, alver işində çətinlik yaratmayırlar.[1]

## Sələmdən uzaqlaşmaq

Peyğəmbər (s) buyurur: Alver edən şəxs gərək beş şeydən uzaq olsun və əgər bu beş işdən uzaq olmasa, alverdən uzaqlaşmalıdır. (Beş əməl bunlardır): Sələm, and içmək, satdığı malın eyblərini gizlətmək, satdığı malı tərifləmək və aldığı malı pisləmək. (Həmin mənbə).

## Daim halal yol axtarmaq

Peyğəmbər (s) buyurur: İbadət 70 hissədən ibarətdir və onun ən yaxşısı halal qazanc arxasınca olmaqdır.[2]

## Ticarət vaxtı Allahı yada salmaq

Peyğəmbər (s) buyurur: Bazar qəflət və səhv evidir. Hər kim bazarda Allahı zikr etsə, Allah ona min savab yazar.[3]

## Alver zamanı tez-tez and içməmək

İmam Əli (ə) buyurur: And içməkdən çəkinin. Çünki and içmək nemət və bərəkəti aradan aparır.[4]

---

[1] (Biharul-Ənvar,cild. 103. Səh,95).
[2] (Səfinətul-Bihar. Cild,1. Səh,298).
[3] (Kənzul-Ummal, hədis. 9330).
[4] (Muhəccətul-Bəyza, cild.3. səh,173).

# DOSTLUQ

## Quranda dostluq

### Allahla dostluq

قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَاللَّهُ غَفُورٌ رَحِيمٌ

De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir".[1]

### Allah dostları ilə dost olmaq

ذَٰلِكَ الَّذِي يُبَشِّرُ اللَّهُ عِبَادَهُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ ۗ قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ ۗ وَمَنْ يَقْتَرِفْ حَسَنَةً نَزِدْ لَهُ فِيهَا حُسْنًا ۚ إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ

İman gətirib yaxşı işlər görən qullarına Allahın müjdə verdiyi (nemət) budur. De: "Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm". Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah Bağışlayandır, şükrün əvəzini verəndir.[2]

### İbrahim Peyğəmbər (ə) Allah dostlarından biri olub

وَمَنْ أَحْسَنُ دِينًا مِمَّنْ أَسْلَمَ وَجْهَهُ لِلَّهِ وَهُوَ مُحْسِنٌ وَاتَّبَعَ مِلَّةَ إِبْرَاهِيمَ حَنِيفًا ۗ وَاتَّخَذَ اللَّهُ إِبْرَاهِيمَ خَلِيلًا

Yaxşı işlər görərək Allaha təslim olan və hənif olaraq İbrahim dininin ardınca gedən şəxsdən din baxımından daha gözəl kim ola bilər? Allah İbrahimi sevimli dost tutmuşdur.[3]

### Möminlərlə dost olmaq

---

[1] (Ali-İmran, 31).

[2] (Şura, 23).

[3] (Nisa, 125).

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ تُرْحَمُونَ

Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, (əvvəlki günahlarınız bağışlanıb) rəhm olunasınız![1]

## Qadağan olan dostluqlar

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَتَّخِذُوا آبَاءَكُمْ وَإِخْوَانَكُمْ أَوْلِيَاءَ إِنِ اسْتَحَبُّوا الْكُفْرَ عَلَى الْإِيمَانِ وَمَنْ يَتَوَلَّهُمْ مِنْكُمْ فَأُولَٰئِكَ هُمُ الظَّالِمُونَ

Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün tuturlarsa, onları özünüzə dost bilməyin. Sizdən onları dost tutanlar özlərinə zülm etmiş olarlar.[2]

## İnsanı düz yoldan azdıran şəxslə dostluq işlətmək, qiyamət günü peşimançılığa səbəb olar

وَيَوْمَ يَعَضُّ الظَّالِمُ عَلَىٰ يَدَيْهِ يَقُولُ يَا لَيْتَنِي اتَّخَذْتُ مَعَ الرَّسُولِ سَبِيلًا يَا وَيْلَتَىٰ لَيْتَنِي لَمْ أَتَّخِذْ فُلَانًا خَلِيلًا لَقَدْ أَضَلَّنِي عَنِ الذِّكْرِ بَعْدَ إِذْ جَاءَنِي وَكَانَ الشَّيْطَانُ لِلْإِنْسَانِ خَذُولًا

O gün zalım (küfrə düşməklə özünə zülm edən peşmançılıqdan) əllərini çeynəyib deyəcəkdir: “Kaş ki, mən Peyğəmbər vasitəsilə (özümə) doğru bir yol tutardım; Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim; And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan (Qurana iman gətirməkdən) o sapdırdı. Şeytan insanı (yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra) yalqız buraxar (zəlil, rüsvay edər).[3]

[1] (Hucurat, 10).
[2] (Tövbə, 23).
[3] (Furqan, 27-29).

## Dostluq təqva əsasında olmalıdır

الْأَخِلَّاءُ يَوْمَئِذٍ بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ إِلَّا الْمُتَّقِينَ

Müttəqilər müstəsna olmaqla, o gün dostlar bir-birinə düşmən kəsiləcəklər![1]

# Rəvayətlərdə dostluq

## Təqva əsasında dost olmağın meyarı

İmam Əli (ə) buyurur: Din qardaşlarını onların təqvasına əsasən dost seç.[2]

## Dostluq əlaqəsi yaratmaq istədiyimiz şəxsə bunu bildirməliyik

Peyğəmbər (s) buyurur: Biri ilə dost olmaq istəsən, bunu həmin şəxsə bildir.[3]

## Dostla mübahisə və hədsiz zarafat etməməliyik

İmam Sadiq (ə) buyurur: Dostunla dostluq əlaqəsinin həmişəlik olmağını istəyirsənsə, onunla mübahisə və şit zarafat etməkdən çəkin.[4]

## Köhnə dosta daha çox dəyər verməliyik

İmam Əli (ə) buyurur: Hər bir şeyin təzəsini, dostun isə köhnəsini seç.[5]

## Həqiqi dost kimdir?

İmam Əli (ə) buyurur: Sənin həqiqi dostun o şəxsdir ki, sənin səhvlərinə göz yuma, səninlə dostluğu möhkəm ola, üzrünü qəbul edə, eyblərini örtə, qorxunu aradan apara və səni arzularına çatdıra.[6]

---

[1] (Zuxruf, 67).
[2] (Biharul-Ənvar,cild.78. Səh,33).
[3] (Biharul-Ənvar,cild. 74. Səh,181).
[4] (Biharul-Ənvar,cild. 78. səh,291).
[5] (Ğurərul-hikəm, hədis. 2461).
[6] (Ğurərul-Hikəm, hədis.3645).

## Maddiyyat əldə etmək üçün dost olanlardan uzaq olmalıyıq

İmam Sadiq (ə) buyurur: Yemək, içmək, qorxu və digər maddi səbəblərə görə səninlə dost olmaq istəyən şəxsdən uzaq ol. Ömrünü təqvalı dost axtarışında xərcləmiş olsan belə, çalış təqvalı insan tapıb, onunla dost ol.[1]

## Dosta hörmət bəsləmək

İmam Sadiq (ə) buyurur: Hər kim evə gəlmiş mömin qardaşını ehtiramla qarşılasa, sanki Allaha hörmət etmişdir.[2]

## Hər hansı bir vəzifəyə yiyələnsək, yenə də dostluq münasibətlərini qorumalıyıq

İmam Sadiq (ə) buyurur: Əgər dostun hər hansı bir vəzifəyə təyin olunsa və səninlə olan dostluğunun onda birini qorumuş olsa, həmin şəxs insana pis dost olmaz.[3]

# Ən yaxşı dost kimdir?

Peyğəmbər (s) buyurur: Sizin ən yaxşı dostunuz o kəsdir ki, eyblərinizi sizə hədiyyə verir. (Yəni insanın eyb və çatışmazlıqlarını xatırladır).[4]

İmam Əli (ə) buyurur: Sizin ən yaxşı dostunuz o kəsdir ki, sizi düz yola hidayət edə, təqvaya riayət etməyə kömək edə və həvayi-nəfsə tabe olmaqdan çəkindirə.[5]

İmam Əli (ə) buyurur: Ən yaxşı dost o kəsdir ki, onun dostluğu dünyaya xatir olmasın.[6]

## Dostu necə seçməliyik

[1] (Biharul-Ənvar,cild. 74. səh,272).
[2] (Biharul-Ənvar,cild. 74. səh,298).
[3] (Biharul-Ənvar,cild. 75. səh,341).
[4] (Tənbihul-Xəvatir, cild. 2. səh,123).
[5] (Ğurərul-Hikəm, hədis. 5029).
[6] (Ğurərul-Hikəm, hədis. 5016).

İmam Sadiq (ə) buyurur: Qardaşlarından hər hansı biri sənə üç dəfə qəzəblənib, amma sənin barəndə nalayiq söz danışmasa, onu özünə dost seç.[1]

## Həmfikir olmayanlarla dostluq etməkdən uzaqlaşmalıyıq

İmam Cavad (ə) buyurur: Pis insanlarla dost olmaqdan çəkin. Çünki bu xüsusiyyətdə olan insanlar iti qılınca bənzəyirlər ki, zahiri gözəl, insana (toxunan zaman) olan təsiri isə çox pisdir.[2]

### Dostu tanımağın meyarı

Loğman (ə) buyurur: Dostuna ehtiyacın olan vaxt onu tanıya bilərsən.[3]

### Dostluğun nişanəsi

İmam Sadiq (ə) buyurur: İnsanın dostuna qarşı olan dostluğu, yemək yediyi zaman məlum olur.[4]

### Ən pis dost

İmam Əli (ə) buyurur: Sənin ən pis dostun o şəxsdir ki, daim özünü ona xatir zəhmətə salırsan.[5]

### Eyb axtaran insanla dostluq əlaqəsi yaratmamalıyıq

İmam Əli (ə) buyurur: Sənin yaxşı işlərini gizlədib, eyblərini yayan şəxslə dostluq etməkdən çəkin.[6]

---

[1] (Əmali Səduq, səh. 532).
[2] (Biharul-Ənvar,cild. 74. Səh,198).
[3] (Biharul-Ənvar,cild. 74. Səh,178).
[4] (Səfinətul-Bihar, cild.1. səh,101).
[5] (Ğurərul-Hikəm, hədis.5706).
[6] (Ğurərul-Hikəm, hədis.10420).

# Mündəricat


ALLAHI TANIMAĞIN YOLLARI ... 3
TÖVHİDİN QİSMLƏRİ ... 8
ALLAHIN ƏDALƏTİ ... 11
PEYĞƏMBƏRLƏRİ (ə) TANIMAQ ... 15
PEYĞƏMBƏRLƏRİN (ə) HƏDƏFİ ... 19
PEYĞƏMBƏRLƏR (ə) İNSANLAR ÜÇÜN ƏN YAXŞI NÜMUNƏDİR ... 21
ALLAH ÖVLİYALARINA NİSBƏT VERİLƏN İFTİRALAR ... 27
DİN ... 30
HİDAYƏT ... 33
ALLAH NURU ... 38
QURAN MÖCÜZƏLƏRİ ... 41
İMAMƏT ... 46
ƏHLİ-BEYT ... 51
ALLAH VƏ DİN RƏHBƏRLƏRİNƏ İTAƏT ... 58
ÖVLİYALAR VƏ QEYB ELMİ ... 61
YAŞADIĞIMIZ DÜNYA VƏ ÖLÜMDƏN SONRAKI ƏBƏDİ HƏYAT ... 65
BƏRZƏX ALƏMİ ... 69
DÜNYA HƏYATININ AXİRƏT İLƏ FƏRQİ ... 72
MƏAD (ÖLƏNDƏN SONRA DİRİLMƏK) VƏ ONUN VARLIĞININ İSBATI ... 76
QİYAMƏT GÜNÜNDƏ İNSANLARA VERİLƏCƏK SUALLAR ... 83
QİYAMƏT GÜNÜNDƏ HESAB-KİTAB ... 85
QİYAMƏTDƏ ŞƏFAƏT ... 88
İNSANIN YAXŞI ƏMƏLLƏRİ NECƏ MƏHV OLUR ... 93
GÜNAHLARIN BAĞIŞLANMASI ÜÇÜN GÖRÜLƏSİ İŞLƏR ... 97
CƏNNƏT NEMƏTLƏRİ ... 101
CƏHƏNNƏM ƏZABI ... 107
İBADƏT VƏ BƏNDƏÇİLIK ... 112
MƏSCİD ... 119
NAMAZ ... 124
GECƏ NAMAZI ... 129
ORUC ... 133

XUMS ........ 137
ZƏKAT ........ 139
XEYRİYYƏÇİLİK ........ 142
HƏCC ........ 147
CİHAD ........ 153
ƏL-ƏMRU BİL-MƏRUF VƏN-NƏHYU ƏNİL-MUNKƏR (YAXŞILIĞA DƏVƏT VƏ PİS İŞLƏRDƏN ÇƏKİNDİRMƏK) ........ 159
TƏVƏLLA VƏ TƏBƏRRA ........ 166
İSLAM ƏXLAQI ........ 174
İSLAMA UYĞUN OLMAYAN DAVRANIŞ ........ 180
HARAM YEMƏYİN TƏSİRİ ........ 194
ALLAH ÖVLİYALARI ........ 195
SALEH İNSANLAR ........ 198
DAVRANIŞ QAYDALARI ........ 205
MOİZƏ ........ 212
TƏQVA ........ 223
HELM ........ 237
MƏNƏVİ PAKLIQ ........ 240
MƏNƏVİ NEMƏTLƏR ........ 244
ALLAHA QARŞI OLAN SEVGİ ........ 249
İXLAS ........ 255
YƏQİN ........ 261
TƏVƏKKÜL ........ 264
TƏSLİM ........ 270
QORXU VƏ ÜMİD ........ 275
SƏBR ........ 280
ALLAHI YAD ETMƏK ........ 290
DUA ........ 298
İSTİĞFAR ........ 304
ZAHİDLİK ........ 308
İLAHİ MƏRHƏMƏT ........ 312
TÖVBƏ ........ 318
TƏVAZÖKARLIQ ........ 323

TƏKƏBBÜR ........................................................................................ 333
DANIŞIQ QAYDALARI ........................................................................ 343
QONAQLIQ ........................................................................................ 355
ALQI-SATQI ...................................................................................... 361
DOSTLUQ.......................................................................................... 365